NƏSİMAN YAQUBLU

ƏBDÜRRƏHMAN FƏTƏLİBƏYLİ-DÜDƏNGİNSKİ

(Azərbaycan legionunun komandiri, "Azadlıq" radiosu "Azərbaycan" redaksiyasının Baş redaktoru)

Ə.F.Düdəngінskinin anadan olmasının 100 illiyi münasibəti ilə

Bakı 2009

Az
Y 15

Elmi məsləhətçilər: **Maarif Teymur**
Ramiz Abutalıbov

Məhəmməd Kəngərli

Elmi redaktor: **Sabir Məmmədli**
Tarix elmləri namizədi

Y 15 Nəsiman Yaqublu. **Əbdürrəhman Fətəlibəyli-Düdənginski**
Bakı, «Abşeron Nəşr» 2009, 262 (64 şəkil) səh. **Təkrar nəşr**

Azərbaycan legionunun başçısı və "Azadlıq" radiosu "Azərbaycan" redaksiyasının baş redaktoru olmuş, tanınmış siyasi xadim Əbdürrəhman Fətəlibəyli-Düdənginski haqqında olan bu kitab maraqlı tarixi sənədlər əsasında yazılmışdır. Kitabda Ə.Fətəlibəylinin fəaliyyətinin müxtəlif mərhələləri öz əksini tapmışdır. Onun tərcümeyi-halı, hərbi məktəbdə təhsili, Sovet ordusunda xidməti, müharibə illərində Azərbaycan legionunun təşkilindəki rolu, minlərlə insanı xilas etməsi, sonradan Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda apardığı mücadilə, Qərb dövlətləri ilə (xüsusən ABŞ-la) ciddi siyasi çalışmaları sənədlərlə əsaslandırılmışdır.

Bundan əlavə, kitabda Ə.Fətəlibəylinin İkinci Dünya müharibəsindən sonrakı fəaliyyəti, K.Etliyə məşhur məktubu, tanınmış mühacir C.Hacıbəyli ilə yazışmaları, Almaniyada "Azərbaycan" jurnalını Azərbaycan və rus dillərində nəşr etməsi də araşdırılmışdır.

Bu kitab dərs və əlavə oxu vəsaiti kimi yalnız müəllim, aspirant və tələbələr üçün deyil, həmçinin geniş oxucu kütləsi üçün və beynəlxalq əlaqələr sistemimizin, mühacirət jurnalistikası tariximizin, eləcə də diaspora təşkilatlarımızın inkişafı üçün əhəmiyyətli olacaqdır.

İSBN: 978-9952-8020-8-5

© Nəsiman Yaqublu, 2007
© Nəsiman Yaqublu, 2009

MÜNDƏRİCAT

Unudulmaz və sevilən insan (*müəllifdən*) *4*

I FƏSİL. HƏYAT VƏ FƏALİYYƏTİ 10

II FƏSİL. AZƏRBAYCAN LEGİONUNUN TƏŞKİLİNDƏKİ FƏALİYYƏTİ 45

III FƏSİL. 1943-CÜ İLİN NOYABRINDA BERLİNDƏ MİLLİ AZƏRBAYCAN QURULTAYININ KEÇİRİLMƏSİNDƏ TƏŞKİLATÇILIĞI VƏ ÇIXIŞI 69

IV FƏSİL. İNGİLTƏRƏNİN BAŞ NAZİRİ KLEMENT ETLİYƏ YAZDIĞI MƏKTUB. 23 MART 1946-cı il, İTALİYA 81

V FƏSİL. AZƏRBAYCAN XALQINA ONUN OĞULLARININ İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ VƏTƏNİN MÜSTƏQİLLİYİ UĞRUNDA MÜBARİZƏSİ HAQQINDA HESABAT 94

VI FƏSİL. CEYHUN HACIBƏYLİYƏ YAZDIĞI MƏKTUBLAR 126

VII FƏSİL. "AZADLIQ" RADİOSUNDA ÇIXIŞLARI 147

VIII FƏSİL. «AZƏRBAYCAN» JURNALINDA ÇAP EDİLMİŞ MƏQALƏLƏRİ 156

IX FƏSİL. RUS DİLİNDƏ NƏŞR EDİLMİŞ MƏQALƏLƏRİ 205

X FƏSİL. DOSTLARI ONUN HAQQINDA 227

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT 250

ƏLAVƏLƏR: FOTOLAR, SƏNƏDLƏR 261

UNUDULMAZ VƏ SEVİLƏN İNSAN
(*MÜƏLLİFDƏN)*

Uzun illər boyu onun haqqında çoxları ehtiyatla, bəziləri də qorxaraq danışıblar. Düşünüblər ki, birdən "yuxarılar" eşidər və istintaqa çəkərlər.

Onu həyat verdiyi, qoruyub müdafiə etdiyi minlərlə insan sevib, dəyərləndirib. Böyük əziyyətlərdən, təqiblərdən sonra Vətəninə qayıdan döyüşçülər imkan düşəndə, böyük qorxu və ehtiyat içində onun adını çəkiblər, onu rəhmətlə anıblar.

O, bütün çətinliklərin sıxıntısına baxmayaraq doğma Azərbaycanının adını həmişə uca tutub, üçrəngli bayrağımızı isə uzaq Avropa ölkələrində göylərə dalğalandırıb.

O, yalnız bir məramla, bir istəklə yaşayıb: doğma vətəni Azərbaycan azad və müstəqil olsun! Insanlar bu ölkədə əsarətdən uzaq yaşasın! Vətəni hər cürə basqılardan, rejimlərdən qurtulsun! İstər bir hərbçi kimi döyüş meydanlarında, istərsə də bir siyasətçi və jurnalist kimi mətbuatda, radioda onun sərt, kəskin yazılarını, çıxışlarını minlərlə insan oxuyub və eşidib. Və hər dəfə də bir həqiqəti etiraf ediblər: "Mayor elə həmin mayordur, qorxmaz, qətiyyətli və məğrur!"

Dostları ona həmişə belə müraciət ediblər: "Əbo bəy", "Mayor". Bu adı ona insanlar sevgidən, bağlılıqdan, dərin hörmətdən bildirib, deyiblər. Əsl adı "Əbdürrəhman" olsa da, hamı onu xilaskar, cəsur mənasında "Əbo bəy", "Mayor" deyib sevirdilər. Özü isə çox zaman rəsmi sənəddə olmasa da, bəzən yazılarını Düdənginski imzası ilə təqdim edirdi. Bu onun doğma kəndi Düdəngəyə olan sevgisindən, bağlılığından irəli gəlirdi.

Stalin ona ölüm hökmü kəsmişdi.Lakin onu heç bir ölüm hökmü tutduğu müqəddəs yoldan uzaqlaşdıra bilmədi.

O, bolşevizmə və kommunist rejiminə nifrət edirdi. Bütün varlığı ilə stalinizmi lənətləyirdi və bu yolda canını qurban verməkdən də çəkinmədi.

Sovet dövlətinin ən yüksək ali hərbi məktəbində oxusa da, qabiliyyət və bacarığına görə ordenlərlə təltif olunsa da, o, milli varlığı inkar edən, insanın azad düşüncəsini yasaqlayan bir quruluşa qəlbən bağlana bilmədi. Onu daha çox düşündürən, sıxıntılar içərisində saxlayan bir müqəddəs amal idi: Vətəni Azərbaycanı müstəqil və azad görmək!. O, bu arzularla yaşayır və həyatını təhlükəyə atıb mücadilə edirdi.

O, Stalinin qurduğu rejimi lənətlədiyi kimi, Hitlerin də ideyalarını qəbul etmədi. Onunla əlaqələr qurmaq məcburiyyətində qalanda da, daha çox Azərbaycanı düşünürdü. Fikirləşirdi ki, bəlkə bu yolla Vətənini bolşevizmdən xilas edəcək, azad bir məmləkət halına gətirəcək.

Elə bu istəklə də o, həyatı daim ölüm pəncəsində olan həmyerlilərini başına topladı. Onların fəallığı ilə milli taburlar yaratdı. Və taburlara da xalqımızın duyğu və hisslərinə uyğun adlar verdi: "İgid", "Qorxmaz", "Aslan", "Dönməz", "Cavad xan". Bu adlarla qəhrəman Azərbaycan oğulları Vətəni xilasa tələsdilər. Mozdok, Dağıstan sərhədlərinə qədər gəlib çatdılar. Amma onun bu arzuları reallaşmadı. Və onlar yenidən Vətən həsrəti ilə alışıb-yandılar. Doğma yurdu xilas edə bilmədilər.

Müharibənin sonunda Əbdürrəhman bəy azərbaycanlıların geriyə - sovet həbsxanalarına qayıtmaması üçün böyük əziyyətlər çəkdi. İtaliyada, Almaniyada yurddaşlarını başına toplayıb, onların Türkiyəyə, Misirə gedə bilmələrinə şərait yaratdı. Sonradan Vatikanda olub Papanı köməyə çağırdı, Misirə gedib həmyerlərinin Fələstin cəbhəsinə göndərilməsinə qarşı çıxdı, Türkiyəyə səfər edib hökumətdən Azəri türklərini Sovet dövlətinə təhvil verməməyi xahiş etdi.

Ötən əsrin 50-ci illərindən isə onun "Azadlıq" radiosunda çıxışları eşidildi. Əbdürrəhman bəy öz alovlu çıxışları ilə həmvətənlərinə müraciət edərək, onları mücadiləyə, qəhrəmanlığa, Sovetlər Birliyinə nifrətə çağırırdı. Özünün güclü təbliğati çıxışları ilə o, komminist rejiminin insanazidd siyasətini kəskin tənqid edirdi.

Bu çıxışlar və belə sərt fəaliyyət Sovet dövlətini narahat etməyə bilməzdi. 1954-cü ilin noyabrında Azərbaycandan göndərilən bir casus vasitəsilə onu Almaniyanın Münhen şəhərində qətlə yetirdilər. Qətlə yetirənin özünü isə izi itirmək üçün sonradan Bakıda aradan götürdülər.

Bu qanlı cinayətin üstünü Almaniya məhkəməsi açdı. Münhendə gedən böyük məhkəmə prosesində Əbdürrəhman bəyi öldürən şəxsin sovet casusu olduğu aydınlaşdı. Bu hadisədən sonra Əbdürrəhman bəyin həyat yoldaşı Leyli xanım və oğlu Əli bəy Amerikaya getdilər, orada yaşadılar.

Ölümündən uzun illər ötsə də, Ə.Fətəlibəyli fenomeni Azərbaycanda həmişə gəzib dolaşırdı. Böyük əziyyətlərdən, sürgünlərdən sonra onun geriyə-Azərbaycana qayıtmış dostları Ə.Fətəlibəylini hər zaman yad edir, xatırlayırdılar.

1994-cü ildə Ə.Fətəlibəylinin yaxın dostu, müharibədə mühafizəçisi olmuş Kərrar Ələsgərli ilə onun doğma kəndi Düdəngəyə getdik. Ə.Fətəlibəylinin yaşadığı evə xatirə lövhəsi vuruldu. K.Ələsgərli yerə əyilib torpağı öpdü və dedi: "And içmişdim ki, sağ-salamat Vətənə qayıtsam, gedib Əbo bəyin evini ziyarət edəcəyəm və onun doğulduğu torpağı öpəcəyəm".

O hadisədən də illər ötdü. Kərrar bəy də dünyasını dəyişdi. Ə.Fətəlibəyliyə olan marağı isə cəmiyyətdə həmişə hiss edirdim. Azərbaycan mətbuatında bu mövzu ilə bağlı yazılarım çap olunanda, televiziyalardakı verilişlərdə çıxışlarım olanda, sonradan çoxları maraqlanır və Ə.Fətəlibəyli haqqında suallarla müraciətlər edirdilər.

Artıq hiss edirdim ki, onun fəaliyyəti haqqında ayrıca bir kitab hazırlanmalıdır. Baxmayaraq ki, 2002-ci ildə "Azərbaycan legionerləri" mövzusunda kitab nəşr etdirmiş və Ə.Fətəlibəylinin fəaliyyəti ilə bağlı geniş məlumatlar vermişdim, lakin ciddi araşdırma işinə ehtiyac vardı.

Qeyd edim ki, 18 ilə yaxın idi ki, onun haqqında araşdırmalar aparır, həyatı, fəaliyyəti ilə bağlı sənədlər toplayırdım. Bu müddətdə Türkiyədə, Polşada, Rusiyada olub, onun haqqında imkanım çatan materialları əldə etmişdim. Bu, əlbəttə, asan deyildi. Azərbaycan tarixində işlənilməmiş bir mövzunu araşdırıb təqdim etmək, sistemləşdirmək çox böyük zəhmət tələb edirdi. Lakin bu çətinliklərin hamısı artıq arxada qaldı. Və indi Ə.Fətəlibəyli-Düdənginski şəxsiyyəti, onun Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə bütün genişliyi ilə xalqımıza ilk dəfə olaraq təqdim edilir. Bu təqdimatı xalqımızın razılıqla qəbul edəcəyinə inanıram. Bu şəxsiyyətlə tanış olacaq xalqımız özünün yetirdiyi daha bir fədakar, görkəmli insanı ilə fəxr edəcək və duyğulanacaq.

Əlavə edim ki, legionerlər mövzusu ilə bağlı araşdırmalarım Azərbaycan cəmiyyətində heç də məmnunluqla qarşılanmayıb. Xatırlayıram ki, hələ 1991-ci ildə M.Ə.Rəsulzadənin və Ə.Fətəlibəylinin Almaniyada legionerlərlə bağlı fəaliyyətini əks etdirən bir məqaləm hətta, Azərbaycan Ali Sovetinin iclasında müzakirə mövzusuna çevrilmiş və ciddi tənqid edilmişdi.

Eyni situasiya "Azərbaycan legionerləri" kitabımın nəşrindən sonra oldu. Müəyyən adamlar həm qısqanclıqdan, həm mövzunu düzgün anlamamaqdan, tarixi hadisələrə yeni yanaşa bilmədiklərindən həmin kitabımla bağlı Prezident Aparatına, Milli Təhlükəsizlik Nazirliyinə, Dövlət Arxiv İdarəsinə, işlədiyim Bakı Dövlət Universitetinə şikayət məktubları yazdılar. Bu mövzunu doktorluq işi olaraq müdafiə etməyimə maneçilik törətdilər.

Lakin bu işlər hamısı ötüb keçdi və belə təzyiqlər, hücumlar məni heç zaman legionerlər və Ə.Fətəlibəyli mövzusundan uzaqlaşdırmadı. İmkanım düşdükcə, daha da yeni faktlar topladım və axtarıb, araşdırdım.

Düşünürəm ki, Ə.Fətəlibəyli haqqında hələ çox araşdırmalar, tədqiqatlar aparmaq lazımdır. Təbii ki, maddi vəziyyət imkan versəydi ABŞ-da, Almaniyada daha geniş araşdırmalarla məşğul olardım. Və inanıram ki, gələcəkdə şərait olduqca bu ölkələrin arxivlərini araşdırıb, daha yeni faktların üzə çıxarılması mümkün olacaq.

Bu kitabı nəşrə hazırlayarkən bir çox insanların səmimiyyətinin, xeyirxahlığının şahidi oldum və indi onlara öz təşəkkürlərimi bildirmək istəyirəm. İlk öncə xeyirxah insan olan, Ə.Fətəlibəylinin fəaliyyəti ilə bağlı mənə çoxlu sənədlər vermiş, məsləhətlər etmiş dəyərli ziyalımız **Ramiz Abutalıbova** təşəkkürümü bildirirəm.

Araşdırdığım bu mövzuya ciddi mənəvi dəstək olmuş, **S.Mümtaz** adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin Direktoru **Maarif Teymurun** adını minnətdarlıqla çəkirəm.

Mövzunu öyrənməyimdə həmişə mənə dəyərli bilgilər vermiş böyük mücahid, keçmiş legioner, ötən il Türkiyədə dünyasını dəyişmiş **Məhəmməd Kəngərlinin** adını hörmətlə anıram.

Sənədlərin, materialların toplanılmasında köməklik göstərmiş insanlardan biri də, indi dünyasını dəyişmiş, Ə.Fətəlibəylinin bacısı oğlu rəhmətlik **Abid Qayıbov** olmuşdur. Məhz Ə.Fətəlibəyliyə görə böyük məhrumiyyətlər yaşamış, uzaq Sibir sürgünündə olmuş, sonradan isə bütün həyatını dayısı haqqında məlumatlar toplamağa həsr etmiş bu insanı heç zaman unutmayacağam.Təəssüf ki, böyük intizarla gözlədiyi bu kitabın nəşrini o, görə bilmədi.

Kitabın nəşrinə dəstək vermiş bir **şərurlu** dostumun adını isə ayrıca qeyd etmək istəyirəm. Televiziyaların birin-

dəki çıxışımdan sonra mənə zəng edən **Məmmədqulu Süleymanov** ürəkdən bu işə qoşulmağa hazır olduğunu bildirdi. Cavan olmasına baxmayaraq, milli tarixə, milli mədəniyyətə, tarixi şəxsiyyətlərimizə çox sayğılı olan bu insan məndə xoş təəssüratlar oyatdı və belə gənclərin Azərbaycan cəmiyyətində olmasına çox sevindim.

Digər bir şərurlu dostumun - **Abasət Əliyevin** adını da minnətdarlıqla çəkmək istəyirəm. O, böyük həvəs və səmimiyyətlə Ə.Fətəbəyli haqqında məlumatların toplanılmasında adamları mənimlə görüşdürür, tanış edirdi.

Naxçıvanın hörmətli ziyalılarından olmuş, **böyük pedaqoq rəhmətlik Əli Əliyevin nəvəsi, tarix elmləri namizədi Nail Əliyevin** bu kitabın nəşrinə verdiyi dəstəyi ayrıca qeyd etmək istəyirəm.

Və təbii olaraq bu işimizə dəstək olmuş **"Zeyvə–Düdəngə" Xeyriyyə Cəmiyyətinə**, bu cəmiyyətin ağsaqqallarından olan **Beydulla** müəllimə, kitabın təkrar nəşrinə kömərk etmiş **Azər** müəllimə təşəkkürümü və dərin hörmətimi bildirirəm.

Qeyd edim ki, Ə.Fətəlibəyli-Düdənginskinin anadan olmasının **100 illiyinə** həsr olunmuş bu kitab təkrar nəşr edilir. İnanıram ki, ona həsr edilmiş bu kitabı oxuyanlar, XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli bir şəxsiyyətlə tanış olacaq, onunla qürur duyacaqlar.

Ruhu şad olsun!

Nəsiman Yaqublu
Tarix elmləri namizədi
e-mail: nasiman_yaqublu@mail.ru
Bakı, 05 sentyabr 2009

www.dudanginski.com
E-mail: Abo@dudanginski.com

I FƏSİL

HƏYAT VƏ FƏALİYYƏTİ

Ümumi məlumat

Əbdürrəhman Əli oğlu Fətəlibəyli (Abo Düdənginski) 1908-ci ilin iyun ayının 12-də Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olub.

Tiflisdəki hərbi-piyada məktəbini bitirib, sonra Azərbaycan diviziyasında xidmət edib.

Moskvada Hərbi Akademiyada təhsil alıb. Minbaşı (mayor) rütbəsində olmuşdur.

Leninqrad hərbi dairəsinin qərargahında xidmət etmiş, 6-cı şöbənin rəisi olmuşdur.

Sovet ordusunda bacarıqlı hərbi xidmətinə görə «Qızıl Ulduz» ordeni ilə təltif edilib.

İkinci Dünya müharibəsində Azərbaycan legionunun başçısı olub.

ABŞ konqresinin maliyyələşdirdiyi «Azadlıq» radiosunun Azərbaycan redaksiyasının, eyni zamanda «Azərbaycan» jurnalının (C.Hacıbəyli ilə birlikdə) baş redaktoru olub.

ABŞ-la, Qərb dövlətləri ilə ciddi əlaqələr qurub, Azərbaycanın müstəqilliyi uğrunda böyük mübarizə aparıb.

1954-cü ildə SSRİ DTK-sının (KQB) hərbi kəşfiyyatı tərəfindən qətlə yetirilib.

Məzarı Almaniyanın Münhen şəhəri yaxınlığındakı Nyu-Ulm qəbirstanlığındadır.

HƏRBÇİ, SİYASƏTÇİ, JURNALİST

Əbdürrəhman Fətəlibəyli-Düdənginski əslən Naxçıvanın Şərur rayonundandır. O, 1908-ci il iyunun 12-də Şərurun Düdəngə kəndində anadan olmuşdur. Atababaları məşhur Səfəvi nəslinə mənsubdur. Naxçıvanın tanınmış ziyalısı **Əli Əliyev** özünün **«Əlincə yaddaşı, Naxçıvan, 1914-1992»** kitabında bu haqda maraqlı məlumatlar vermişdir: «Arpaçayın sol sahilində məskunlaşan səfəvilərə (Səfiyevlərə) gəldikdə, bu tayfanın nümayəndələri də dövlət aparatalarında mövqe sahibləri olmuşlar. Qəza rəislərinin əksəriyyəti səfəvilərdən ibarət idi. Səfəvilər nəslində **Nəso xanın** atası tanınmış İsmayıl xan bir qayda olaraq qəzanın mirabı seçilərdi. 1914-1915-ci illərdə onu bir neçə dəfə şəxsən görmüşdüm, boy-buxunlu, saqqallı kişiydi. Səfəvilər 1920-ci ildən etibarən xeyli zəifləmiş, mülkləri dağılmış, özləri də pərən-pərən düşmüşlər. Səfəvilərin nümayəndəsi Teymur bəy ömrünün sonunadək Şərur Qəza İcraiyyə Komitəsinin katibi vəzifəsində işləmişdir. Tağı bəy Baş Noraşen natamam orta məktəbində rus dilini tədris etmişdir. Allah rəhmət eləsin, mən də ondan dərs almışam. **Səfievlərdən Əbdürrəhman (Abo) Fətəlibəyov İsmayıl xanın (Nəso xanın) nəvəsi idi.** Qərəz, İsmayılın övladları-Bəhlul xanı, Beytulla xanı, Rəşid xanı sovet hökuməti zülmə düçar etdi, axırına çıxdı. Beytulla xandan başqa, hamısı məhv oldu. Səfəvilərin həm də Dərələyəzdə yaşayan Vəkilovlarla qohumluğu vardır. Səfiyevlər sülaləsində qalan nəslin az bir qismi hazırda Baş Noraşendə-Cəlilkənddə məskundur. Bu sülalənin görkəmli şəxsiyyətlərindən biri də uzun illər ictimaiyyətimizə Vətən xaini kimi təqdim olunan Əbdürrəhman (Abo) Düdənginskidir Mən Abonu üç dəfə görmüşəm. **Kəlbalı xan ona oxşayırdı**. Olduqca cəsur, mərd adam idi. Hakimiyyətə gəlmiş yeni təhsil görməyən, amma vəzifədə

olan adamları incidərdilər. 1929-cu ildə Abonu (Əbdürrəhmanı) komsomol sıralarından xaric edəndə, gənc Əbdürrəhman ona amansız mövqe tutanlar qarşısında əsəblərini cilovlaya bilməyib ağlayır və deyir ki, məni atama görə cəzalandırırsınız, axı, mən onu görməmişəm, Allahın himayəsində böyümüşəm. Tənələrə, təhqirlərə dözməyən yeniyetmə kəndi gizlincə tərk edib Tiflisə gəlir. Tiflisdə hərbi məktəbdə oxuyan Əbdürrəhmanla tez-tez görüşərdik. Zaqafqaziya Kommunist Universitetində oxuyan naxçıvanlı tələbələrin yanına vaxtaşırı gələrdi, tələbə dostum Hüseyn Mahmudovla dostluq edərdi. Gözündə daim kədər var idi, doğma kəndində verilən mənəvi əzablar ona rahatlıq verməzdi. Zavallı bilmirdi ki, qohumlarının qarşılaşacağı müsibətlər hələ irəlidə idi. Açıq danışmağı sevirdi, düz sözün aşiqi idi. Qətiyyətlə deyirəm: **o heç zaman el-obasına, doğma xalqına dönük çıxa bilməzdi**. Hər zaman bu fikirdə olmuşam» (19, s.121-122).

Ə.Fətəlibəylinin **atası Əli bəy Fətəlibəyli Naxçıvanın Şərur rayonunun Düdəngə, Zeyvə kəndlərinin bəyi olaraq hörmətli, tanınmış şəxsiyyətlərdən biri olmuşdur**. Əli bəy çar Rusiyasının vaxtında Türküstan, sonralar İrəvan quberniyasının sərhədi boyu zabit kimi xidmət etmişdir. İrəvan quberniyasında olan vaxt zabitlər yığıncağında bir rus zabiti müsəlman dininə istehza etdikdə, Əli bəy qılıncı ilə rus zabitini vurmaq istəmişdir. Oradakı zabitlər Əli bəyi sakitləşdirmişlər. Bir ay sonra Əli bəyi zəhərləyib öldürdülər. Böyük oğlu Qulam (Əbdürrəhman Fətəlibəylinin qardaşı) xatırlayırdı: «Biz gələn günün sabahı zabitlər yığıncağında axşam yeməyindən sonra ağam özünü pis hiss elədi, gecə yarısında keçindi. Bu xəbər çatan kimi qaynı Nəsrulla xan bir neçə nəfərlə hərbi hissəyə gedərək Əli bəyin cəsədini gətirib Düdəngədə dəfn elədi. **Bu yolla Əli bəyi 1910-cu ildə zəhərləyib öldürdülər»** (45).

Atası belə faciəli surətdə öldürüləndə Əbdürrəhman bəyin iki yaşı vardı. O, gənc yaşlarında əsgər getmiş, hərbi piyada məktəbini bitirmiş (35), Azərbaycan diviziyasında zabit olmuşdur. **1935-1936-cı illərdə Moskva Hərbi Akademiyasına** oxumağa göndərilmişdir. 1937-ci ildə Bakıda məzuniyyətdə olarkən əmisi Əhməd bəyin məsləhəti ilə **Leyli xanım Qazıyeva ilə** evlənmişdir. Məzuniyyəti qurtardıqdan sonra həyat yoldaşını, qayınanasını özü ilə Leninqrada (indiki Sankt-Peterburq) aparmış və 1940-cı ilə qədər burada yaşamışlar. 1938-ci ildə Leninqradda ilk övladı Əli anadan olub.

Ə.Fətəlibəyli Leninqradda hərbi xidmətdə olarkən **bacısı Səkinəyə** bu məzmunda məktub göndərmişdi: "Salam mənim əzizim, böyük bacım Səkinə! İlk borcumuz olaraq sənə və bizim əziz uşaqlarımıza salam göndəririk. Biz çox rahat Leninqrada gəldik və vaxtımızı çox şən və xoşbəxt keçiririk. Leyli özünü tam sahibə kimi hiss edir. Burada xoşbəxtlikdən hava istidir və biz Leyli ilə tez-tez gəzintiyə çıxırıq. Biz indi bütün gücümüzlə ailə qayğıları ilə məşğuluq. Çox tezliklə özümüzə rahatlıq yaradırıq. Çox təəsüflənirik ki, sən bizi ötürmədin. Xüsusən Leyli çox heyifslənir. Bizim "komediyaçı-artistimiz"–mamamız necə yaşayır? Biz ondan ötrü çox darıxmışıq.

Səkinə! Biz səndən çox xahiş edirik ki, bizə tez-tez məktub yazasan. Öpürük, sizi... Abdulla bəyə salamlar. Sizin Abo və Leyli. Leninqrad" (23).

Ə.Fətəlibəylinin **qardaşı Seyfullanın** 1942-ci ildə bacısına yazdığı məktubda isə bir məqam xüsusi olaraq vurğulanır: "**Abo hardadır**? Niyə ondan xəbər yoxdur? Niyə evə məktub yazmır?" Seyfullanın yazdığı məktub: "Əziz bacım, nuri-çeşmim Səkinə! Sizə səmimi qəlbdən salamım var. Məktubunu və teleqramınızı aldım. Bilsəniz nə qədər şad oldum! Səkinəcan, mən üç aydır ki, Çerepovets şəhərində hərbi məktəbdə oxuyuram. Bir azdan sonra qurtarıb ola-

cağam bizim qızıl ordunun leytenantı. Səkinəcan, mənim məktubumu alan kimi yaz görüm Abodan məktub alırsanmı? Abo hardadır? Nə üçün mənə məktub yazmır? Abonun ailəsi hardadır? Səkinəcan, siz Abonun ünvanına qərargaha yazıb soruşun Abonun hal-hazırda harda olmağını? Mən də yazıb soruşacağam. Səkinəcan, əmimgil necədirlər? Nə üçün mənim məktubuma cavab yazmırlar? Əziz bacım! Abodan bir xəbər bilən kimi mənə yaz! Mən də bilən kimi Sizə yazacam. Səkinəcan, mənim həyat yoldaşım Eladan çox salamlar sizə. Şəklini sizə göndərəcəm. Mənim əzizlərim–balaların–Rəfiqə qızım, abid oğlum, Dadaşım necədirlər? Mənim əvəzimdən onları bağrına bas, bərk-bərk öp. Mümkün edən kimi gələcəm sizin görüşünüzə. Məndən çox-çox salam Abdullaya. Mənə məktub tez-tez yaz. Mənə məktubu «dovostrebovaniya» yazın. Q.Çerepovets «dovostrebovaniya». **Öpürəm sizi. Bağrıma basıram bərk-bərk Sizin Seyfi**. 25/I.42" (23).

Qeyd edək ki, Seyfulla qardaşı Əbdürrəhman Fətəlibəylidən sonralar xəbər tutdu və İtaliyadan Almaniyaya – onun yanına gəldi. Seyfullanın alman vətəndaşlığı ilə bağlı ciddi problemləri olsa da, qardaşı Əbdürrəhman ona kömək etdi. Onun Nyu-Ulmda yaşamasına şərait yaratdı. Və özü də tez-tez Münhendən gəlib ona baş çəkirdi. Seyfullanın ölümü ilə də bağlı müəmmalı fikirlər söylənilirdi. Belə məlum olur ki, o velosipedlə gedərkən maşın vurub öldürmüşdü. Onun ölümünün təsadüf olmasına ciddi şübhələr olsa da, geniş təhqiqat aparılmadı. **Seyfullanı isə 1951-ci ildə Hyu-Ulm şəhərinin qəbirstanlığında dəfn etdilə**r. Qardaşının faciəli ölümü Ə. Fətəlibəylini bərk sarsıtmışdı.

Qeyd edək ki, Ə.Fətəlibəyli olduqca bacarıqlı zabit idi. O, 1939-cu ildə Finlandiya müharibəsində iştirak etmiş, «Qırmızı Ulduz» ordeni ilə təltif olunmuşdu. O, bir müddət Leninqrad dairəsi qərargahında 6-cı şöbənin rəisi işləmişdir. 1940-cı ildə Sovet ordu hissələri Pribaltika respublikalarını

işğal etdikdən sonra, Ə.Fətəlibəyli Riqada yerləşən hərbi qərargaha göndərilmiş, orada almanlara əsir düşmüşdü.

Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu **M. Ə. Rəsulzadə də Ə. Fətəlibəylini yüksək qiymətləndirir və onunla ilk görüşünü belə xatırlayırdı**: «Hərarətli və anlayışlı bir əsgərlə qarşılaşmışdım. Milli davanın əsaslarını və mücadilə kadrosunun proqramını məndən duymuş, məmnun olmuşdu. Milli Azərbaycan Komitəsi, nasist alman məqamlarına məram anlada bilmədi. Hitler «heç bir komitə istəmirəm» demiş, təşkil olunan milli legionlarla ordu qərargahı arasında rabitə vəzifəsini aparan məhdud və müəyyən işlərlə bağlı olan «Rabitə Heyətləri» (Əlaqələr heyəti) qurulmasını əmr etmişdi. Azərbaycan «Rabitə Heyəti"nin başına da mərhum Fətəlibəyli gətirilmişdir

İş bu şəkil alınca, mayor Fətəlibəyliyə müvəffəqiyyətlər təmənna edərək, fəaliyyət sahəsindən çəkilmiş və milli əsaslarımıza sadiq qaldığı müddətcə, onu mənən dəstəkləyəcəyimizi vəd etmişdik» (31, s.11-14).

Mühacirət illərində sovet rejiminə qarşı ideoloji mübarizə aparmış, «Hakimiyyətin texnologiyası», «Partokratiya», Stalin və Beriya haqqında kitablar müəllifi kimi tanınmış, **əslən çeçen millətindən olan Əbdürrəhman Avtorxanov Ə.Fətəlibəylini belə dəyərləndirirdi:** «943-cü ilin ortalarında Berlində Vermaxtın Ali Baş Komandanlığının qəbulunda mən qafqazlı görünüşündə olan, sovet hərbi əsiri forması geymiş və bütün xarici görünüşündən düşərgədən yenicə azad edilmiş insan təsiri bağışlayan bir zabitlə qarşılaşdım. Bu adam çox qaradinməz görünür və öz daxili qayğıları, fikirləri ilə məşğul idi ki, görəsən onu tale indi nə ilə üzləşdirəcək. Qəbulda adamlar çox idi və uzun tərəddüddən sonra ona yaxınlaşıb soruşdum: - sən qafqazlı deyilsən? Gözlənilməyən sualdan həmin adam çaşdı və cavab əvəzinə mənə sual verdi: Bəs siz qafqazlısınızmı? Mən özümü

təqdim etdim. O da özünü təqdim etdi: azərbaycanlı Abo Düdənginski, sovet ordusunun keçmiş mayoru. O vaxtdan bizim dostluğumuz başladı. İnanıram ki, ömründə bir dəfə Abo ilə qarşılaşan şəxs, bu qeyri-adi insanı heç zaman unuda bilməz. Onun müsbət şəxsi keyfiyyətləri, şahzadəliyi çətinliyə düşənə köməyə hazır olması hamını heyran edirdi. Bax onun bu keyfiyyətlərindən qatil Mikayıl İsmayılovu onu öldürməyə göndərmiş "NKVD" istifadə etdi.

Abo Düdənginski (mən heç vaxt ondan əsl familiyasını soruşmurdum-Düdənginskidir, yaxud Fətəlibəylidir) hərbi əsirlər düşərgəsindən azad edildikdən sonra OKV (Ali Baş Komandanlıq) ona Azərbaycan legionuna komandirlik etməyi təklif etdi (Almanlar şərq xalqlarından belə legionlar yaradırdılar: Türküstan, Azərbaycan, erməni, gürcü, şimali qafqazlı və s.)... Abo doğma Azərbaycanını ürəkdən sevirdi, lakin şovinist deyildi. **O, alovlu və inamlı Qafqaz patriotu idi.** Qafqaz bu gün çox ağır və kədərli günlərini yaşayır. İnanıram ki, bizim ümumi Qafqaz evimiz qardaşlıq dünyasına qayıdacaq və bu, **Fətəlibəyliyə qoyulan ən yaxşı abidə olacaq»** (58; 59, s.59-60).

Ə.Fətəlibəylinin Azərbaycan İrtibat Qərargahına gətirilməsini və bu işə rəhbərliyini keçmiş legioner **Məhəmməd Kəngərli belə xatırlayırdı:** «O, Azərbaycan legionunun layiqli mövqeyini nümayiş etdirmək üçün legionun cəbhəyə göndərilməsini alman məqamlarına tövsiyə etmiş və sonradan cəbhələrdə qızıllara qarşı mücadilədə göstərmiş olduqları üstün bacarıq və qəhrəmanlıqlardan dolayı alman məqamları tərəfindən «Aslan» adı verilən 804-cü tabur ilk dəfə olaraq 1942-ci ildə Qafqasya cəbhəsinə sövq edilmişdi. Gecəni gündüzə qataraq çalışmanın nəticəsində qısa bir zamandan sonra bütün hazırlıqları tamamlanan beş azəri taburu da 17-ci alman ordusuna bağlanaraq cənub cəbhəsindəki savaşlarda, xüsusən Krım cəbhəsində böyük bacarıq-

lar göstərmişdilər» (44).

Keçmiş legionerlərdən **Əflan Muğan** da Ə.Fətəlibəylinin alman hərbi dairələrində böyük nüfuza malik olması ilə bağlı maraqlı məlumatlar çap etdirmişdi. O, yazırdı ki, komandiri olduğum birinci taburu əslən ruslardan ibarət olan Don kazaklarının təşkil etdiyi birliklərə birləşdirmək istəyirdilər. Lakin Berlinə gedib Ə. Fətəlibəyliyə problemi çatdırdıqdan sonra o, qısa bir zamanda hər şeyi bizim xeyrimizə həll etdi (22, s. 13-14).

Bu onun alman hərbi komandanlığında yüksək əlaqələrinin olduğunu göstərirdi.

Ə.Fətəlibəylinin döyüşlərdəki cəsurluğu, qəhrəmanlığı haqqında legioner **Şamil Atabəy yazırdı:** «1942-ci ilin ortalarından başlayaraq Fətəlibəyli legionerlərlə birlikdə cəbhədə idi. Qısa bir vaxtda **Fətəlibəylinin başçılığı altında olan legionerlərin qəhrəmanlığı almanları heyrətə gətirirdi»** (60, s. 61-62).

Mayor Ə.Fətəlibəylinin Almaniyadakı fəaliyyətinin ən–mühümü onun Milli Azərbaycan Qurultayını təşkil edib keçirməsi oldu. M.Ə.Rəsulzadə yazırdı: «Mərhum, üzərinə aldığı vəzifəyə başlarkən «Rabitə Heyəti"nin yanında bir təbliğat təşkilatı da vücuda gətirmiş, bu məqsədlə, 6 qasım (noyabr) 1943-də Berlində bir Qurultay çağırmışdı. Qurultayın Fətəlibəylinin raporu üzərinə qəbul etdiyi qərar surəti milli ana prinsiplərə uyğun bir şəkildə qələmə alınmışdır» (31, s.12).

Qeyd edək ki, **1943-cü ilin noyabrın 6-11-də Berlində Azərbaycan «Milli Birlik» Məclisinin təşəbbüsü ilə çağırılan Azərbaycan Qurultayının** böyük əhəmiyyəti oldu. Belə ki, digər xalqların mühacir və legionerləri arasında ilkin olaraq azərbaycanlılar öz qurultaylarını keçirdilər. Bu Qurultayın keçirilməsində Ə.Fətəlibəylinin böyük rolu olmuşdur.

Müharibənin sonlarına yaxın isə Şərq cəbhəsində vu-

ruşan Azərbaycan legionerlərinin sovet ordu hissələrinin əlinə keçməməsi üçün Ə.Fətəlibəylinin təşəbbüsü ilə birliklərin əvvəlcə cənub və qərb cəbhələrinə, bir müddətdən sonra isə o dövrdə daha sakit bölgə olan İtaliyaya köçürülməsinə başlanıldı. Qeyd edək ki, bu çox çətin və ağır prosesin həyata keçirilməsində mayor Ə.Fətəlibəylinin böyük xidmətləri olmuşdu (140).

1945-ci ilin mayın 9-da **Almaniyanın təslim olmasına baxmayaraq, legionerlərin taleyi şübhə altında idi.** Onlar müttəfiqlərin tərəfində qalmağa çalışır, sovet ordu hissələrinə tabe olmaq istəmirdilər.

Sovet təbliğatçıları müxtəlif vasitələrlə legionlardakı zabit və əsgərlər arasında münaqişələr də yaratmağa cəhd göstərirdilər. Onlar legionerləri inandırmağa çalışırdılar ki, sovet hökuməti törətdikləri nöqsanlara baxmayaraq, bütün sadə əsgərləri bağışlayacaq.

Lakin, legionerlər bu təbliğata elə ciddi əhəmiyyət vermir, inanmırdılar. Sovet komandirlərinin Amerikanın 12-ci korpusunun komandiri general-mayor Le Ray İrvinlə legionerlərin silahsızlaşdırılması ilə bağlı danışıqları da nəticə vermirdi. Lakin Sovet ordu hissələrinin legionların mövqelərinə getdikcə yaxınlaşması vəziyyətin gərginləşdiyini göstərirdi.

Sovet təbliğatına inanıb könüllü təslim olanların taleyi haqqında artıq qorxulu xəbərlər eşidilirdi. 1945-ci ilin mayın 12-də Vlasov ordusunda xidmət edib dəstəsi ilə Qırmızı Orduya keçmiş bir zabiti öz əsgərləri qarşısında güllələdilər. Qorxub qaçmaq istəyənləri isə pulemyot atəşi ilə məhv etdilər. Şlyusselburq yaxınlığındakı düşərgədə onlarla zabiti də tabeçiliyində olan legionerlərin sırası qarşısında güllələdilər. Qalanlarını isə naməlum istiqamətə apardılar.

Mayın 12-də general Vlasov amerikalı zabitlərlə danışıqlardan qayıdarkən sovet zabitləri tərəfindən həbs edilib 25-ci tank korpusunun qərargahına gətirildi. Sonradan marşal

Konevin əmri ilə Drezdenə, oradan təyyarə ilə Moskvaya göndərildi (126, s.226-227).

Eyni zamanda müharibə sona yaxınlaşdıqca imkan tapan əsirlərdən düşərgələrdən qaçanlar da az olmurdu. Almaniyanın silah naziri Şpeyerin məlumatına görə, yalnız 1944-cü ildə qaçanların sayı 500 minə yaxın idi. Bir milyondan çox əsir isə Qızıl Ordu əraziləri azad etdikdən sonra, ordu hissələrinə qoşulub onun sıralarında vuruşurdular.

Lakin bu adamların hamısını qarşıda eyni tale gözləyirdi. **Stalinin verdiyi əmrdən** isə çoxlarının məlumatı yox idi. Müharibə hələ bitməmiş Stalinin əmrində göstərilmişdi: «1-ci, 2-ci Belorusiya və 1, 2, 3 və 4-cü Ukrayna cəbhəsinin komandirlərinə-yoldaş Beriyaya, yoldaş Merkulova, yoldaş Abakumova, yoldaş Qolikova, yoldaş Xrulevə, yoldaş Qolubevə. Cəbhə Hərbi Şuraları arxa rayonlarda keçmiş hərbi əsirlər və köçürülmüş sovet vətəndaşlarının yerləşdirilməsi və saxlanması üçün hər birində 10000 nəfərlik düşərgələr yaradılsın. Yoxlamaq tapşırılsın: keçmiş Qızıl Ordunun hərbi xidmətçilərinə - «SMERŞ» əkskəşfiyyat orqanlarına; mülki şəxslərə-XDİK, XDTK, «SMERŞ»-in komissiyalarına. İ. Stalin» (109).

SSRİ Xalq Daxili İşlər Komissarlığında isə keçmiş hərbi əsirlərlə iş aparan ayrıca idarə fəaliyyət göstərirdi. Bu idarənin məşğul olduğu şəxslərin əksəriyyəti vətənə xəyanətdə-58-ci maddə ilə ittiham olunurdular. Məhz bu idarənin əməkdaşları 1945-ci ilin oktyabrın 1-dən 5200 sovet vətəndaşını «təmizlədilər». Müttəfiqlər tərəfindən isə buraya 2.034 nəfər təhvil verilmişdi. **58-ci maddə ilə** ittiham olunanların saxlanması üçün Stalinin əmrinə müvafiq olaraq 100-dən çox düşərgə yaradılmışdı.

Lakin bu düşərgələr və oradakı adamların çoxunun taleyi hələ müəmmalı olaraq qalmaqdadır. Mənbələrdə isə daha çox İrkutsk vilayətinin Çunsk rayonundakı düşərgələrin adına rast gəlmək mümkündür.

Müharibənin sona çatması Azərbaycan legionerlərinin də taleyini şübhə altına almışdı. Başda mayor Ə.Fətəlibəyli olmaqla azərbaycanlı legionerlərin bir hissəsi İtaliyanın şimalında ingilislərin nəzarəti altında qalırdılar və hər zaman sovet qoşunlarına təslim edilə bilərdilər.

Azərbaycan legionerlərinin xilası və ayrı-ayrı ölkələrdə məskunlaşması üçün **əsas fəaliyyəti M.Ə.Rəsulzadə və Ə. Fətəlibəyli aparırdı.** Belə ki, M.Ə.Rəsulzadə Almaniyanın Münhen şəhərində, Ə.Fətəlibəyli isə İtaliyanın Roma şəhərində bu işi davam etdirirdilər.

Qeyd etdiyimiz kimi, Ə.Fətəlibəylinin başçılığı altında olan legionerlərin böyük bir hissəsi İtaliyada ingilislərin nəzarəti altında saxlanılırdı. **Ə.Fətəlibəylinin 1947-ci ilin dekabrın 5-də C.Hacıbəyliyə göndərdiyi məktubda** bu haqda maraqlı məlumatlar vardır. O, məktubda yazırdı: «***Mənim əzizim Ceyhun bəy! Fuad mənə məlumat verdi ki, tez-tez xəstələnirsiniz. Özünüzü qoruyun. Olsun ki, tezliklə, böyük Allahın köməyi ilə biz yenidən mücahidəmizi başlayaq. Beynəlxalq vəziyyət getdikcə bizim xeyrimizə dəyişir. Mən daha çox 1948-ci ilə ümidlə baxıram. Avropa düşərgələrindəki həmvətənlərimizin vəziyyəti dözülməzdir. Üçüncü ildir ki, burada çırpınırıq, lakin qardaşlarımız hamımıza biganədir. Olsun ki, Misirin köməyi ilə adamlarımızı İtaliyadan göndərə bildik. Artıq ikinci aydır ki, Zahid xan Qahirədədir və qaçqınların problemləri ilə məşğuldur. O, bütün müsəlman ölkələri hökumətləri ilə əlaqə saxlayır. Hələlik, İordaniya və İraq ölkələri 2-3 min qəbul götürməyə razılıq veriblər. Pakistanın da qərarını gözləyirik. İtaliyadakı bütün müsəlmanları göndərdikdən sonra özüm Misirə gedib, orada Almaniyadan, Avstraliyadan, İsveçrədən gələnləri qəbul edəcəyəm. Görəcəyimiz başqa işlərlə bağlı isə Fuad sizə geniş məlumat verəcək. Mənim ailəm isə hələ də düşərgədə əziyyət çəkir. Onları görə də bilmirəm. İnşallah! Onlar da birinci nəqliyyatla gedəcəklər. Ələsgərov artıq Türkiyədədir və Ziyad bəy onu işə düzəlt-***

***mişdir. Lakin onun ailəsi isə hələ də buradadır. Mən çalışacağam ki, onları Misirə göndərim, oradan isə Türkiyəyə getsinlər. Zöhrə xanımın əllərini öpürəm. Sizi və Timurçini qucaqlayıram. Sizin Abo»* (114).**

Mayor Ə.Fətəlibəylinin və digər legionerlərin müharibədən sonrakı həyatı ağır keçdi. Ə.Fətəlibəyli ailəsi ilə birlikdə böyük çətinlikdən sonra ingilislərin əsarətindən qurtula bildi. Bir il **İtaliyada**, iki ilə qədər **Misirdə** qaldıqdan sonra **Qərbi Almaniyaya** getmiş, bir ara **Türkiyəyə** gəlib bir neçə ay qaldıqdan sonra təkrar Münhenə qayıtmış və orada yaşamışdır.

Qeyd edək ki, İtaliyada ingilislərin nəzarətində olarkən mayor **Fətəlibəyli İngiltərənin baş naziri Klement Etliyə məktub yazdı.** Həmin məktubda o, böyük uzaqgörənliklə Sovet dövləti ilə Qərbin münasibətinin getdikcə pisləşəcəyini göstərmişdi. Əslində onun bu məktubu «Soyuq müharibə»nin başlanmasına bir işarə idi. (Qeyd edək ki, onun bu məktubundan cəmi 18 gün əvvəl Çörçil Fultonda çıxış edib SSRİ-yə qarşı soyuq müharibənin başlandığını bildirmişdi).

Lakin mayor Ə.Fətəlibəylinin ciddi problemlər qaldırdığı bu məktub sonradan cavabsız qaldı.

Azərbaycan legionerlərindən imkan tapıb Cənubi Amerikaya, Amerikaya, Argentinaya, Fransaya, İsveçrəyə, Çinə də gedənlər oldu. Keçmiş legioner, sovet ordusunda leytenant, Almaniya ordusunda qauptman olmuş K. Ələsgərli xatirələrində yazırdı ki, o, vətənə qayıdıb həyatını məhv etməkdənsə, Uyğur türkü Günbatay Çingiz adı altında Çinə getmiş, ölkənin vətəndaşlığını qəbul etmiş və səkkiz ilə qədər orada yaşamışdı (75). K.Ələsgərli yalnız 1955-ci ildə Xruşşovun verdiyi bəraətdən sonra Azərbaycana qayıtmışdır.

Qeyd etdiyimiz kimi, SSRİ-yə qayıdan əsirləri və legionerləri ağır cəzalar gözləyirdi. **Stalinin 1941-ci ilin 16 avqustunda verdiyi 270 saylı əmrə əsasən** əsir düşmüş bütün sovet

əsgərləri qiyabi olaraq güllələnməyə məhkum edilmişdilər.

Müttəfiq dövlətlərdən olan İngiltərə 1944-1946-cı illərdə 32.259 hərbi əsiri Sovet hökumətinə təhvil vermişdi. Hərbi əsirlərin təhvil verilmə əməliyyatına İngilis feldmarşalı Aleksandr başçılıq edirdi. 1919-1920-ci illərdə bolşeviklərə qarşı vuruşmuş feldmarşal Aleksandr əvvəlcə əsirləri verməkdə tərəddüd göstərsə də, sonradan şəxsən Çörçildən ciddi xəbərdarlıq almış, əmrə tabe olmuşdu.

Təəssüflər ki, müttəfiq dövlətlər, o cümlədən, İngiltərə - Yalta müqaviləsində nəzərdə tutulmadığına baxmayaraq, keçmiş mühacirləri də sovetlərə təhvil verirdi. 1430 nəfər keçmiş mühacir yanlış olaraq sovet dövlətinə göndərilmişdi. Xalq Komissarlar Sovetinin təhvil verilmə işləri üzrə səlahiyyətli nümayəndəsi general-polkovnik F.İ.Qolikovun 1945-ci il 7 sentyabr tarixli mə'lumatına əsasən həmin vaxta kimi sovet hökumətinə 2.229.552 nəfər təhvil verilmişdi. Buraya hərbi əsirlərlə yanaşı, zorla Almaniyaya köçürülənlər də daxil idi (126, s. 240).

İlk təhvil verilənlərin çoxunu güllələyir, qalanlarına 25 il iş kəsir, Sibirə, Vorkutaya, İntaya, Asbestə, Norilskə, Tayşetə, Kemerovo vilayətindəki düşərgələrdə ağır işlərə göndərirdilər.

ABŞ və İngiltərənin nəzarəti altında yaşayan hərbi əsirlər, mühacirlər, müxtəlif səlahiyyətli adamlara da müraciətlər edirdilər. General-mayor Meandrovun **xanım Ruzveltə (Prezident Ruzveltin həyat yoldaşı) məktubunda** yazılmışdı: «***SSRİ-dən başqa dünyanın bütün ölkələri düşmən əlinə düşmüş əsgərlərinə mənəvi və maddi maraq göstərir, Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti vasitəsi ilə onların qohumları ilə əlaqələrini təşkil edir. Yalnız Stalinin əmri ilə ruslar hər köməkdən məhrumdurlar və düşərgələrdə kütləvi ölümə məhkum ediliblər***» **(126, s.247).**

Yüksək səlahiyyət sahiblərinə göndərilən məktublarda adamların özünü öldürməsi hallarına toxunulurdu. 1946-cı

ilin fevralında yazılan bir məktubda bildirilirdi: «*Ulduzlu azadlıq bayrağının daldalandığı yerdə biz öz qadınlarımızı və uşaqlarımızı şüşə qırıntıları ilə öldürməyə, damarlarımızı kəsməyə məcbur idik ki, qırmızı Moskvaya qayıtmayaq*» (126, s.250).

1945-ci ilin avqustunda Kemptendəki qanlı hadisələrdən sonra, **general Eyzenhauerin göstərişi ilə** adamları zorla təhvil vermək müvəqqəti dayandırılsa da, 1945-ci ilin 20 dekabrından, general Maknarniyə əvvəlki qaydanı - gücü yenidən tətbiq etmək haqqında Vaşinqtondan tapşırıq gəldi. Lakin amerikalı zabit və əsgərlər əsirlərin təhvil verilməsinə mənfi münasibətlərini gizlətmirdilər.

Bundan əlavə, 1946-cı ilin fevralında Papa XII Piy də adamların məcburi təhvil verilməsinə mənfi münasibətini bildirdi. Lakin bu etiraza da baxmayaraq, fevralın 24-də Plattlinqdəki 431 saylı hərbi düşərgəyə iki tabur daxil olub, əsirləri yaşadığı yerdə əhatəyə alaraq həyətə qovdu və onların özlərini öldürməyinə imkan yaratmadı. Tezliklə, həmin əsirləri də sovetlərə təhvil verdilər.

Maraqlıdır ki, belə gərgin şəraitdə də almanlar onların tərəfində vuruşanları unutmur, imkanları daxilində yardım edirdilər. Latviyada, Tkexoda (Almaniyada) belə hallar olmuşdu. Avstriyanın Liens şəhərində təhvil verilməyə etiraz olaraq kilsə zəngləri çalınmışdı. Bavariyada Plattlinqdə vağzalda əksəriyyəti qadınlardan ibarət olan sakinlər təhvil verilmə zamanı yaralılara kömək etmişdilər. Alman generalı fon Pannvitsə qaçmaq üçün imkan yaradılsa da, ona inanan, birlikdə döyüşdüyü kazakları qoyub getməmişdi. Alman yarımalbayı Hanzen «bizim üçün qan tökənləri» xilasa çalışaraq onlara vəsiqələr vermişdi.

Qeyd etdiyimiz kimi, təhvil verilən əsirləri, keçmiş sovet zabit və əsgərlərinin əksəriyyətini güllələyirdilər. Keçmiş sovet generalı **Vlasovu 1946-cı ildə güllələdilər.** Sovet ordusunun inanılmış zabitlərindən olan, «Pravda» qəzetin-

də ünvanına təriflər yazılan (93) başçılıq etdiyi 99-cu diviziyası nümunə göstərilən, 1941-ci ilin fevralın 23-də SSRİ Ali Sovetinin qərarı əsasında Lenin ordeni ilə təltif edilən (77) general Vlasov artıq vətən xaini olaraq cəzalandırılırdı. Maraqlıdır ki, general Vlasov öz ifadələrində «vətən xaini» damğasını qəbul etməmiş, Stalinə olan nifrətini isə bir daha açıqlamışdı.

1946-cı ilin 2 avqustunda «Pravda» qəzetində general Vlasovun edamı haqqında məlumat dərc edildi (110)

Tanınmış Azərbaycan zabiti İsrafil bəyin aradan çıxmaq imkanı olsa da, o, öz əsgərlərini başsız qoymamış, onlarla birlikdə sovetlərə təhvil verilmişdi. **İsrafil bəyi də general Vlasov kimi ağır cəzaya- edama məhkum etmişdilər.**

Qeyd edək ki, müxtəlif vasitələrlə Türkiyə ərazisinə keçmiş azərbaycanlı legionerləri sonradan yerli polis həbs etdi. Türkiyə dövləti isə həmin hərbi əsirləri Ərzurum - Qars - Sarıqamış marşrutu ilə Türkiyə-SSRİ sərhəddinə gətirib sovet hökumətinə təhvil vermişdi (15). Təhvil verilən legionerləri ya cəza «dərəcəsinə» uyğun olaraq güllələyir, yaxud da Sibirə sürgünə göndərirdilər. **Tanınmış yazıçı A. Soljenitsının «Arxipelaq Qulaq»** əsərində «Vətən xaini», «Vlasovçular» adı altında sürgünə göndərilənlərlə bağlı geniş məlumatlar vardır (106, s.145; 107, s.32-34).

İkinci Dünya hərbindən sonra mühacir təşkilatların birləşib antisovet mücadilə aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Digər tərəfdən isə müxtəlif ölkələri təmsil edən ayrı-ayrı mühacir təşkilatlarının mövcudluğu və bəzi hallarda bu qrupların daxili çəkişmələrə meyilliyi reallığa çevrilirdi. Bu illərdə bir neçə rus, gürcü, erməni, tatar təşkilatları ilə yanaşı iki azərbaycanlı təşkilatı da mövcud idi. Təşkilatlardan biri 1924-cü ildən fəaliyyət göstərən **Azərbaycan Milli Mərkəzi** idi. İkinci Dünya hərbindən sonra Azərbaycan Milli Mərkəzi Ankarada yerləşirdi və Milli Mərkəzin Başqanı M. Ə. Rəsulzadə idi.

İkinci mühacir azərbaycanlı təşkilatı **«Azərbaycan Milli Birlik Məclisi»** adlanırdı. Təşkilat 1943-cü ildə Berlində yaradılmışdı. **Təşkilatın rəhbəri Ə. Fətəlibəyli idi (sonradan rəhbər C. Hacıbəyli olmuşdu)**. Başqanlıq Heyətinin üzvləri isə Ceyhun Hacıbəyli, Əkbərağa Şeyxülislam idi. Sonralar Həsənbəy Kərbəlayi, S.Təkinər, Ə.Aranlı, İ.Əkbər və S.Məmmədzadə təşkilatın rəhbərliyinə daxil idilər. 1972-ci ildə təşkilat bir qrup azərbaycanlının təşəbbüsü ilə məhv edildi. Hər iki mühacir azərbaycanlı təşkilat arasında çəkişmələr, ziddiyyətlər mövcud idi.

Qeyd edək ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan legionerləri müxtəlif ölkələrdə dağınıq vəziyyətdə yaşasalar da, yalnız əllinci illərdən ciddi fəaliyyət göstərməyə başladılar. Bu da, şübhəsiz ki, Qərblə Sovet dövləti arasında münasibətlərin gərginləşməsi və nəticədə birincinin sovet dövlətindən narazı qalan qüvvələri daha çox dəstəkləməsi idi. Əslində, Qərbin sərt münasibətini İngiltərənin Baş naziri **U. Çörçill 1946-cı ilin martın 5-də, Amerikanın Fulton şəhərindəki məşhur nitqində ifadə etmiş və «soyuq müharibə»nin başlandığını göstərmişdi** (76, s. 352).

İkinci Dünya müharibəsindən sonra Azərbaycan legionerləri Türkiyədə M.Ə.Rəsulzadənin, Almaniyada isə Ə. Fətəlibəylinin rəhbərliyi altında olan müvafiq qurumlarda fəaliyyətə başladılar.

Qeyd edək ki, Türkiyədəki mühacirlərin bu dövlətdəki mövcud əlaqələri müəyyən problemləri həll etməyə imkan yaratsa da, (əlavə edək ki, burada M.Ə.Rəsulzadənin böyük nüfuzu vardı), siyasi fəaliyyət göstərmək olduqca çətin idi. Odur ki, Türkiyədəki mühacir və legionerlər daha çox mədəni-ədəbi fəaliyyət sahəsinə üstünlük verir, Sovet dövləti əleyhinə 20-30-cu illərdəki qədər sərt çıxışlar etmirdilər.

Lakin Qərbi Almaniyada vəziyyət başqa idi. ABŞ dövləti əllinci illərdə Sovet dövləti əleyhinə kəskin mücahidəyə

başlamış və bu işdə oradakı mühacir və legionerlərin gücündən faydalanır, onlara maddi dəstək də verirdi.

Qeyd edək ki, həmin fəaliyyət rəsmiləşənə qədər Azərbaycan legionerləri böyük çətinliklərlə qarşılaşmışdılar. Belə ki, sonradan yaradılan «Amerikan Komitəsi»nin etibarını qazanmaq və müəyyən problemləri həll etmək o qədər də asan deyildi. **Ə.Fətəlibəylinin** bununla əlaqədar Münhendən Parisə-**C.Hacıbəyliyə** ünvanladığı məktublarda maraqlı məlumatlar vardır. O, yazırdı: «**Mənim əzizim Ceyhun bəy!** ***Sücaət xanımla bu gün görüşməyimə çox sevindim. O, Sizin fikirlərinizi mənə çatdırdı və mən tam razıyam. O ki qaldı bizim ümumi işlərimizə, hələ ki, ciddi bir şey yoxdur. 4 ay müddətində danışıqlar apardım, planlar təqdim etdim. Lakin gözləməyi xahiş edirlər. İndi başqa xətlə işləyirəm, əgər bu da alınmasa və onlardan prinsipial razılıq almasam, onlarla əsas məsələlərdə əməkdaşlıq etməyəcəyəm. Burda elə adamlar var ki, kiçik xidmətlərinə görə bir şey ala bilirlər. İlk imkan yaranan kimi Türkiyəyə gedəcəyəm, ailəmdən ötrü, demək olar ki, bərk sarsılmışam»*** **(115).**

Qeyd etdiyimiz kimi, əllinci illərin əvvəli legionerlər üçün olduqca ağır dövr idi. Maddi sıxıntılar, ayrı-ayrı ölkələrdə yaşamaq, təşkilatlanmaq böyük çətinliklər törədirdi. Eyni zamanda, Amerika və Qərb dairələri legionerlərlə ilk işbirliyinə çalışırdılar. **Ə. Fətəlibəylinin** Münhendən **C. Hacıbəyliyə** göndərdiyi **1950-ci il 29 oktyabr tarixli məktubda** maraqlı məlumatlar vardı. O, yazırdı: «***Mən burada Qərbin bəzi nümayəndələri ilə görüşdüm.Onlar bütün planlarımızla tanışlıqdan sonra əməkdaşlığa razıdırlar. Amma uzadırlar. Son zamanlara qədər onlar Kerenskinin güclü təsiri altında idilər. Bizdə güclü canlanma vardır. Buraya Şimali-Qafqaz təxəllüslü məsul bir amerikalı gəlmişdi və Əhməd Nəbi-Maqoma ilə, mənimlə və başqaları ilə uzun söhbətlər etdi. O, məsləhət gördü ki, Türk-Qafqaz İttifaqı yaradaq. Biz razılıqla bu təkli-***

***fi qəbul etdik və Maqoma ilə birgə sxem hazırlayıb ona verdik. Düşüınürəm ki, iki-üç aydan sonra cavab olacaq. Bu ittifaq mənim xoşuma gəlir və onun böyük nüfuzu olacaq. Şübhəsiz ki, əsas işləri Milli Komitələr aparacaq və bu qurumlar həmin ittifaqda arxa planda olmayacaqlar. Milli Komitələrlə yanaşı, Qafqaz Komitəsi də mövcud olacaq və hər komitədən 4 nəfər oraya daxil olacaq. Qafqaz Komitəsinin 4 üzvü və Türküstan Komitəsinin 1 üzvü İttifaqın Rəyasət Heyətini təşkil edəcəklər. Bu Rəyasət Heyətinin Milli Komitə üzvlərindən ibarət olan 4 idarəsi olacaq. Beləliklə, Milli Komitədən kənarda heç bir məsələ həll edilə bilməz. Məlumunuz olduğu kimi, bizim Milli Komitədə Siz, mən, albay Kazım bəy (Cahangir Kazımoğlu - N. Y.) və Atamalıbəyov vardır. Sonuncu Çilidə olduğundan fəal iştirak edə bilməyəcək. Milli Komitənin üzvlərinin sayını 10-a qədər artırmalıyıq. Mən hətta ona yaşlı və cavan xadimlərin də siyahısını vermişəm. Siyahıya Timuçinin adını yazmışam. O, məndən xahiş etdi ki, Nyu-Yorkda «Amerikanın səsi»ndə işləmək üçün 6 nəfərin də siyahısını verim. Mənə isə məsləhət bildi ki, hələlik Türkiyəyə getməyim və cavab gözləyim... Lənətə gəlmiş maddi şəraitə görə, indiyə qədər görüşə bilməmişəm»* **(115).**

Belə bir vaxtda antibolşevik cəbhənin yaradılmasını vacib sayan **Amerikan Komitəsi** fəaliyyətə (Amerikanın kommunizm ilə mücadilə Komitəsi) başladı. Amerikan Komitəsinə əvvəl C.Layons, sonradan isə Amerikanın Moskvadakı keçmiş böyük elçisi **Alan Gerk** başçılıq edirdi. 1952-ci ildən isə Sovet Rusiyasını yaxından tanıyan, **Moskvada Amerika attaşesi olmuş Stevens Komitənin başqanı oldu.** Komitə üzvləri arasında tanınmış siyasətçilər çox idi. Onların arasında aşağıdakı tanınmış adamlar vardı: Çarlz Edison (məşhur Tomas Edisonun oğlu), Vilyam Henri Çemberlin (Amerikada sovet məhkumu millətlərin istiqlal haqlarının müdafiəsi ilə məşhur idi), general-mayor Con-Dean (Moskvada olmuş, «Streync Əlleyinc» kitabı ilə böyük rəğbət qazanmışdı), Ni-

kolas Ruzvelt (yazıçı və diplomat, Amerikanın Macarıstan elçisi olmuşdu) və başqaları (3, s. 46).

Amerikan Komitəsi bildirirdi ki, millətlər, xalqlar Sovet hökumətinin diktatorluğu altında qaldıqca, insanların azad və hürriyyət içində yaşaması mümkün olmayacaq. Amerikan Komitəsi proqramına müvafiq surətdə fəaliyyətə başladı.

Qeyd edək ki, əllinci illərdən başlayaraq «Amerikan Komitəsi» ayrı-ayrı mühacir və legionerlərin yaratdığı təşkilatları, xüsusilə mətbu orqanları maliyyələşdirirdi. **1951-ci ildə Münhendə «Azərbaycan» jurnalının ilk sayının nəşri** mühacirləri və legionerləri çox sevindirmişdi. Bu münasibətlə legionerlərin redaksiyaya göndərdiyi təbrik məktubları çox maraqlı idi. Legionerlər yazırdılar: ***«Çox hörmətli redaksiya! Vətənimizin adını daşıyan jurnalın ilk sayını aldıq. Oxuyub çox məmnun qaldıq... Azad və müstəqil Azərbaycana eşq olsun! Hörmət və şərəflə: Atabəy Şamil, Tahir Heydərzadə, Səfər Ağaoğlu, İsmayıloğlu, Həsən Əziz. Münhen. 30.03.1952»*** **(65, s.1-2)**

Eyni zamanda, **Ə.Fətəlibəyli Ceyhun bəyə göndərdiyi məktublarda** «Azərbaycan» jurnalının nəşri ilə bağlı çətinliklərin olduğunu qeyd edirdi. Göstərirdi ki, maddi imkanlara görə jurnalın 2-ci sayını nəşr etmək çətinləşib. Amerikan Komitəsi isə maddi yardımı reallaşdırmamışdır. Hətta buradan Nyu-Ulm şəhərinə getməyə də pul yoxdur. Lakin mövcud imkansızlığımıza baxmayaraq, jurnalın növbəti sayını nəşr etdirəcəyik (120).

Lakin, Azərbaycan təşkilatları arasında fikir ayrılığının və müxtəlif yanaşmaların olması bu yardımların alınmasında çətinlik yaradırdı. **Ə.Fətəlibəylinin 1952-ci ilin martın 27-də C.Hacıbəyliyə** göndərdiyi məktubda bu problemlərin geniş şərhi verilirdi (119).

«Azərbaycan» jurnalını Amerikan Komitəsi maliyyələşdirsə də, burada ciddi problemlər yaranırdı. Mühacir və le-

gionerlər arasında ziddiyyət və anlaşılmazlıqların olması bəzi hallarda onlara ayrılan maliyyə fondlarının azalmasına gətirib çıxarırdı. **Ə.Fətəlibəyli C.Hacıbəyliyə göndərdiyi məktubda** bununla bağlı yazırdı: **«*Sizin təqdim etdiyiniz və mənim müdafiə etdiyim layihə D.L. tərəfindən dağıdıldı. Onun mənimlə olan oyunu haqqında ötən məktubumda yazmışdım. Onun fikri sadədir: ermənilər 3000 (üç min) marka alır və bu pulla həftəlik məcmuə buraxır, altı nəfər də dolanır. Kanatbay dörd min marka alır və iki dildə jurnal buraxır, bütün komitə dolanır. Avtorxan beş min marka alır və hamısı dolanırlar. Bizim işimizi jurnalla bağlı pozan Əkbər-Ağa oldu. D.L.--nın (D.Levin) sözlərinə görə, məhz Əkbər-Ağa aylıq yox, yalnız dövrü (yəni iki-üç aydan bir) jurnal buraxmağa onların gücü çatar.*

Buna görə də D.L. dedi ki, «aylıq orqan» sözünü yazmayaq və nəşrin ayını da göstərməyək. Mən də elə etdim» **(121).**

Ə.Fətəlibəylinin C.Hacıbəyli ilə yazışmalarında **«Azərbaycan» jurnalının fransız dilində nəşrinə** də çalışmaları qeyd olunurdu. Təəssüflər ki, Amerikan Komitəsinin nümayəndəsi jurnalın fransızca nəşrinə maraq göstərməyib bildirmişdi**: «*Əgər Hacıbəyli Parisdə yaşamasaydı və fransız dilini bilməsəydi, onda o jurnalın fransızca da nəşrinə ehtiyac qalmazdı»* (122).**

1953-cü ilin martında isə ABŞ dövlətinin maliyyələşdirdiyi «Bolşevizmlə Mücahidə Koordinasiya Mərkəzi» tərəfindən istiqamətləndirilən **«Qurtuluş» radiosu** öz ilk verilişlərinə başladı. Bu münasibətlə yayılan müraciətdə bildirilirdi: **«Qulaq asın, qulaq asın! Bu gün yeni «Qurtuluş» radiostansiyası verilişlərinə başlayır**. Həmvətənlər! Axır ki, bizim öz səsimiz var. Stalinin polis terroru bizi öz evimizdə susmağa məcbur etsə də, xaricdə azad danışa bilirik. Azadlığa olan əbədi cəhdimiz xalqımızın qəlbində sönmədi. Bizim ilk tapşırığımız azadlığa çağırışdır. Kommunist rejiminə müqavimət hissi də xalqımızı tərk etməyib. Biz azərbaycanlılar, elə-

cə də Sovet İttifaqının digər xaqları, kommunizmi məhv edib, qəsb edilmiş azadlığımızı qaytarmağa tam qərarlıyıq. Bizim harda olmağımızdan asılı olmayaraq, istər Sovet İttifaqında, istərsə də azad xarici ölkələrdə olsun, yalnız bir istəyimiz vardır: Kreml hakimiyyətinin yıxılması. Biz, hamımız - gənclərimiz yaşlılarımız, Stalinin dəmir pərdəsi arxasında yaşayıb əzab çəkən sizlərlə bir istək və arzudayıq». (64, s.1-3)

Qeyd edək ki, hələ 1949-cu ilin may ayının sonunda Nyu-York şəhərində ABŞ dövlət rəsmilərinin iştirakı ilə gizli bir müşavirə keçirilmiş və SSRİ-yə, eləcə də digər sosialist ölkələrinə qarşı ideoloji hücumu gücləndirmək məqsədi ilə nəhəng bir orqan yaradılması vacib sayılmışdı. **General Kleyy** tərəfindən müəyyənləşdirilmiş proqramda deyilirdi: **«Kommunist rejimini** devirmək məqsədi ilə psixoloji müharibə aparmaq üçün geniş və həlledici kompaniya təşkil edilsin» (20, s. 71).

ABŞ senatı isə federal büdcənin hesabına iki radiostansiyanın maliyyələşdirilməsi barədə qanun layihəsini bəyənib qəbul etdi.

Həmin müşavirədən sonra **1950-ci ilin iyulun 4-də «Azad Avropa», 1953-cü ilin martın 1-də isə «Azadlıq»** radiostansiyaları Almaniya Federativ Respublikasında fəaliyyətə başladılar. Əvvəlcə stansiyaların illik büdcəsi 34 milyon dollar idi ki, bunun da 13 milyon dolları təkcə «Azadlıq» radiostansiyasının payına düşürdü. Sonradan isə «Azad Avropa» və «Azadlıq» radiostansiyalarına hər il 100 milyon dollardan çox vəsait sərf edilirdi.

Dünyanın yüzdən çox ölkəsində bu stansiyaların 240 məlumat mərkəzi, 80-dən çox ölkədə 200-dən artıq kitabxanası vardı. Həftədə 2 min saatdan çox veriliş təşkil edən stansiyalar Vətənimizə qarşı SSRİ xalqlarının 23 dilində təbliğat aparırdı. Burada çalışan jurnalistlərin də sayı daima artırdı. Belə ki, 1960-cı illərdə hər iki radiostansiyalardakı əməkdaşların sayı 306 nəfər idisə, sonradan bu rəqəm 1300-

ə çatdırıldı. Onların əksəriyyəti isə keçmiş SSRİ vətəndaşları, legionerlər və mühacirlər idi. «Azadlıq» radiosunun 17 stansiyası arasında SSRİ-nin bütün ərazisi bölüşdürülmüşdü.

«Azadlıq» və «Azad Avropa» radiostansiyaları Münhendə (hazırda isə Praqada), İngilis Parkının yaxınlığında Arabellaştrasse küçəsindəki 18 saylı üç bloklu beton binada yerləşirdi. Həmin yer şəhərin şərq hissəsindən təxminən 4-5 km məsafədə idi.

«Azadlıq» radiosunun **«Azərbaycan redaksiyası»na** bir müddət (1953-1954-cü illər) Ə.Fətəlibəyli–Düdənginski, sonradan isə **İsmayıl Əkbər və Əli Aranlı** başçılıq etmişlər. «Azərbaycan» redaksiyasında **Məcid Musazadə (Qarsalanlı), Fərman Məmmədov, Murad Muradlı, Kərim Aslanoğlu** və digər keçmiş legionerlər çalışırdılar.

Qeyd edək ki, **«Azadlıq» radiosunun «Azərbaycan»** redaksiyasının ilk verilişi efirə **1953-cü ilin martın 6-da getmişdi (62).**

«Qurtuluş» (sonradan «Azadlıq» radiosu adlandırıldı) radiosunun yaradılması istiqamətində ilk çalışmalar 1952-ci ilin fevralından başlanıldı. «Amerikan Komitəsi»nin sədri olan **admiral Kerkin** rəhbərliyi ilə tez bir zamanda «Qurtuluş» radiosu Avropada verilişlərinə başladı. Tezliklə Sovet İttifaqına və Sovet İttifaqında qalan Avropa əraziləri üçün də radioverilişlərin ötürülməsi planlaşdırıldı. Radioverilişlərin Sovet İttifaqından gəlmiş mühacirlər tərəfindən hazırlanacağı nəzərdə tutulurdu. Bununla əlaqədar 1952-ci ilin iyunundaŞtarnberqdə (Bavariyada) konfransda hazırlıq işləri görülmüşdü (62, s.5-6).

Qeyd edək ki, «Qurtuluş» radiosunun yaranmasında böyük xidmətləri olan **Alan Q.Kerk** vaxtı ilə ABŞ-ın Moskvada səfiri işləmiş, «Amerikan Komitəsi»nin sədri olmuş, sonradan isə prezident Trumen ona **Psixoloji Strategiyalar Şurasının direktoru** vəzifəsini təklif etmişdir. Bu şura ABŞ-

ın Milli Təhlükəsizlik Şurasının nəzarətində idi və Amerikanın Sovet İttifaqına qarşı olan psixoloji strategiyalar və dünyada kommunist təbliğatı sahəsindəki siyasətini müəyyənləşdirirdi. Əllinci illərdə isə Radionun daha effektli bir təbliğat olduğu aydın görünməkdə idi (68, s. 14).

Beləliklə, 1953-cü ilin martından «Qurtuluş» radiosunun Azərbaycan redaksiyası fəaliyyətə başladı. «Azərbaycan» redaksiyasının ilk Baş redaktoru mayor(minbaşı) Ə.Fətəlibəyli oldu.

«**Azadlıq» radiosu fəaliyyətə başladığı ilk gündən Ə. Fətəlibəyli sovet hökuməti siyasəti əleyhinə olan** verilişlər hazırlayırdı. 1953-cü ilin iyununda efirdə səslənən «Türkiyə haqqında həqiqət» verilişində deyirdi: **«Danışır Azadlıq radiostansiyası. Əziz həmvətənlər!** Siz öz azad həmvətənlərinizin azad dünyadan səsini eşidirsiniz. İndi isə Sovet imperializmi seriyasından «Türkiyə haqqında həqiqət» mövzusunda verilişimizə qulaq asın. İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqının Türkiyəni «sülhlə fəth» etmək cəhdi boşa çıxdı. Türkiyə Kremlin bütün həyasız tələblərini rədd edib SSRİ-nin basqısına qarşı dayana bildi və bununla azadlığın və demokratiyanın qorunması üçün azad dünyaya böyük xidmət göstərdi. Bundan sonra Kreml görünməyən antitürk kampaniyasına başladı. Son zamanlarda SSRİ-də antitürk kampaniyası adi sovet vicdansızlığından da kənara çıxmışdır.» Ə. Fətəlibəyli verilişin sonunu bu sözlərlə bitirirdi: «Lakin, bu hiyləgər yanaşmalar əbəsdir. Demokratiya bir hakim olaraq kommunizm və sovet imperializmini ölümə məhkum etmişdir. Bütün dünyanın azad xalqları sovetlərin əzilən xalqları ilə birgə bu hökmü yerinə yetirəcək və vahid azad dünya yaradılacaqdır» (116).

Ə.Fətəlibəylinin «Azadlıq» radiosunda müəllifliyi və redaktorluğu ilə 1953-cü ilin iyunun 29-da efirə gedən **«Son xəbərlərin»** 109 saylı bülletenində Sovet dövlətinin və Kre-

mlin mövqeyi kəskin olaraq tənqid edilirdi: «Vaşinqtonda Amerika senatının xarici işlər üzrə komissiyasının sədri Aleksandr Uayl Amerika xalqına və bu dövlətin müttəfiqlərinə müraciət etmişdir. O, müraciətində bildirmişdir: Barışdırıcılıq siyasəti dayandırılmalıdır. Berlinin sovet bölməsindəki üsyan, Çexoslovakiyada, Polşada və digər ölkələrdəki hadisələr Kreml hökmdarlarının məşhur olmadığını sübut etdi. Azad Qərb dünyası qəti şəkildə Sovet hökumətindən təcavüzkar siyasətindən əl çəkməyi tələb etməlidir» (117).

Sovetlərin təsirində olan Alman Vahid Sosialist Partiyasının mövqeyinin sarsıldığını Ə.Fətəlibəyli belə təqdim edirdi: «Şərq bölgəsindən alınan xəbərlərə görə zəhmətkeşlər kütləvi şəkildə Vahid Alman Sosialist Partiyasından çıxmaq haqqında ərizələr verirlər. Partiyanın Mərkəzi Komitəsi yerli təşkilatlara həmin ərizələrə baxmamaq tapşırığı vermişdir» (117).

Qeyd edək ki, mühacir və legionerlərin əllinci illərdəki bu fəallığı Sovet dövlətini ciddi narahat etməyə başladı. Belə ki, Sovet dövləti həmin dövrdə kommunist ideologiyasına qarşı mücahidə aparanları sıradan çıxarmağa dəfələrlə cəhdlər göstərdi. Bu əməliyyatların həyata keçirilməsində böyük təcrübəsi olan, geniş şəbəkəli **«KQB» - («DTK»)** əsas rol oynayırdı. Bu qurum 1917-ci ilin dekabrında yaradılmış (79, s.4) və daha çox «daxili düşmən» axtarmağa (80, s.104) meyilli idi.

Məhz həmin təşkilatın fəallığı ilə **1954-cü ilin noyabrın 20-də «Azadlıq» radiosunun «Azərbaycan» redaksiyasının baş redaktoru Ə.Fətəlibəyli-Düdənginski Münhenin «Alpenplate-6» meydanındakı bir mənzildə qətlə yetirildi** (130).

Qeyd edək ki, mayor Ə.Fətəlibəyli Düdənginskinin qətli ilə bağlı Almaniyada nəşr edilən **«Abendzeytunq»** (130). **«Der Ştern»** (134) və **«Kuik»** (139) qəzetlərində geniş məlumatlar verildi. Törədilmiş qətlin səbəbi açıqlandıqda bütün

Almaniya, eləcə də qərb ictimaiyyəti sifarişli bir ölümün baş verdiyini anladılar. Münhendə nəşr edilən **«Abendzeytunq»** qəzeti yazırdı: **«1954-cü il noyabrın 22-də** bazar ertəsi günü Münhenin Alpenplate-6 meydanında Mikayıl İsmayılovun meyiti tapıldı. Meyit basdırıldıqdan sonra məlum oldu ki, əslində öldürülən Azadlıq radiosunun nüfuzlu işçisi **Fətəlibəyli imiş**. Cani isə **Mikayıl İsmayılovdur**. Ancaq hələ noyabrın 26-da dəfn günü Azadlıq radiosuna belə bir xəbər çatdı ki, Fətəlibəyli İsmayılovu özünümüdafiə zamanı öldürübmüş. Bu xəbərin kim tərəfindən verildiyi məlum olmadı. Ancaq şənbə günü noyabrın 28-də, **bir həftədən bəri işə çıxmayan Fətəlibəylinin cani deyil, öldürülən olduğu məlum oldu.** Bu, heç bir axtarışın nəticəsi deyildi. Sadəcə olaraq Azərbaycan redaksiyasının üzvləri bu xəbəri alman polisinə çatdırdılar. Təhqiqat nəticəsində 3 gün əvvəl İsmayılov adı ilə basdırılan **meyitin Fətəlibəyli** olduğu müəyyənləşdirildi. İsmayılovun - qatilin şəkli bir həftədən sonra dekabrın 2-də qəzetlərin çərşənbə axşamı sayında dərc edildi. **Fətəlibəylinin şəkli isə hələ də qəzetlərdə çap edilmirdi. Nə üçün?** (130).

Nüfuzlu **«DerŞtern»** qəzeti isə dərc etdiyi «Divanın altındakı kişi» məqaləsində hadisəni oxucularına belə çatdırırdı: «Noyabrın 20-dən 21-nə keçən gecə Münhenin Alpenplate küçəsində Şərqdən olan əcnəbi qətlə yetirildi. Meyit üç gün polisdə qaldıqdan sonra dəfn edildi. Lakin sonradan məlum oldu ki, qətlə yetirilmiş şəxs kimi qələmə verilən əslində qatilin özü imiş. Bu, tamamilə siyasi motivli bir qətl idi» (134).

Bəs mayor Ə.Fətəlibəyli-Düdənginskini kim qətlə yetirmişdi? Bu qətlin arxasında hansı səbəblər dayanırdı? Almaniya mətbuatı **Amerikanın Məxfi Xidmət İdarəsinə** əsaslanıb dərc etdiyi materiallarda göstərirdi ki, **Ə. Fətəlibəylini** qətlə yetirən şəxs məhz **«Valka»** düşərgəsindən keçib gəlmişdir. «Valka» düşərgəsi uzun illər Şərqin casus məktəbi

olmuşdur. ABŞ dövləti isə bu düşərgədəki müəyyən münasib qüvvələrdən Şərqə qarşı xəfiyyə xidməti üçün istifadədə etirafını bildirirdi. Ruslar, Sovet hökumətinin müxtəlif millətlərdən olan vətəndaşları, Polşa mühacirləri, çexlər və əvvəl Balkandan qaçan və ya alman Vermaxtının işğalına məruz qalmayan digər əcnəbi qruplar üçün bura görüş nöqtəsi idi. Belçikalı artist **Simon de Ridderin** qətli kimi saysız-hesabsız cinayətlərin planı məhz burada hazırlanırdı. Nə vaxtsa bu düşərgədən çıxanlar sonradan izsiz, nişanəsiz məhv edilirdi.

Burada **Georq Müller** adlı birisi ABŞ məlumat xidmətindən məharətlə faydalanırdı. Amerikalıların etibarını qazanan G.Müller Nyurenberqdəki Qərb Məxfi Xidmət İdarəsi üçün əsasən ukraynalı casusların radiotexniki hazırlığına nəzarət edir, öz tabeliyində olanlara məlumat xidmətinin tapşırıqlarını çatdırırdı. Sonradan məlum olur ki, gecə ikən sərhədi keçib Sovet İttifaqının içərilərində gizlənən bu casuslardan heç biri sağ qalmırdı. Onlar Sovet İttifaqında bu dövlət əleyhinə işləmək üçün hara getsələr, dərhal həbsə alınıb öldürülürdülər. Onları sovet cəlladlarına təslim edən G. Müller idi. Çoxlarına sonradan məlum oldu ki, G.Müller əslində Qızıl Ordunun qərargah rəisi və SSRİ gizli xidmət idarəsinin xəfiyyə kəşfiyyatı zabiti **Georgi Vladimiroviç** idi. «Valka» düşərgəsinə isə o, zabiti olduğu idarədən göndərilmişdi. Həmin şəxs təkmilləşdirdiyi casusların bir hissəsini sovetə işləmək üçün «dəyişdirirdi».

Münhendə qətlə yetirilən Ə.Fətəlibəylinin də ölümü məhz G.Müllerin, yəni G.Vladimiroviçin adı ilə bağlanmaqdadır. **ABŞ Məxfi Xidmət İdarəsi** tərəfindən sonradan həbs edilib **Frankfurtda saxlanılan G.Vladimiroviçin ifadələrində bu qətllə də bağlı ciddi məqamlar açıqlanırdı.**

Almaniya mətbuatı yazırdı ki, 1954-cü il noyabrın 22-də səhər səksən yaşlı **Frau Böhm** mətbəxi yığışdırarkən küncdə-

ki divanın altında meyit olduğunu görür və dərhal birinci mərtəbədəki qonşusuna xəbər verir. Polis işə qoşulduqdan sonra F.Böhm meyitin Mikayıl olduğunu bildirir. Alman qadını bunu evin açarının yalnız onda olması ilə əsaslandırır. Ölünün başı pencəyinə büküldüyündən sifətini görmək mümkün olmur. Meyit məhkəmə tibb ekspertizasına verilir. Lakin ekspertiza səthi aparılır. Bundan bir həftə sonra aparılan patoloji araşdırmada isə məlum oldu ki, onu həm də boğmuşdular. **Qatilin çəkiclə başına vurulan zərbələri** öldürücü olmadığından, o, cinayətdən bir neçə saat sonra ölmüşdü. Bu fakt həm də mərhumun - **Ə.Fətəlibəylinin əl-qolunun bağlanmasını da aydınlaşdırırdı.**

Bəs Ə.Fətəlibəyli-Düdənginskini qətlə yetirən **Mikayıl kimdir? Mikayıl İsmayılov 1920-ci il avqustun 20-də** azərbaycanlı ailəsində doğulmuş, 1941-ci ildə isə müharibədə almanlara əsir düşmüşdür. Az sonra o, legioner həyatı yaşamış, 162-ci piyada qoşunun tərkibində sovetlərə qarşı vuruşmuşdur. Əslində mayor Ə.Fətəlibəyli ilə də o, burada tanış olmuşdur. Sonradan o, Almaniyanın məğlub olacağını anlayıb İtaliya partizanlarına qoşulur: **1947-ci ildə İtaliyada** bir italyan qadınla evlənir və iki övladı dünyaya gəlir. 1951-ci ildə isə SSRİ-yə Azərbaycana qaytarılmaq barədə Neapoldakı səfirliyə müraciət edir. SSRİ-yə qayıtdıqda **Sovet Məxfi Xidmət İdarəsi (KQB) onu ələ keçirir** və o, qərbə qayıdıb əvvəlki legioner yoldaşları arasında casusluq etmək tapşırığını alır. 1953-cü ildə o, Drezdenə - ailəsinin yanına gəlir və buradan AFR-ə göndərilir. Əvvəlcə o, buradakı **«Valka» düşərgəsinə** salınır. Bir neçə həftədən sonra isə Münhenə gəlir. 1953-cü ildə M.İsmayılov Sovet Məxfi İdarəsinə verdiyi vəddən imtina etməyə çalışsa da, baş tutmur. Onun arxasınca göndərilən bir qadın M.İsmayılova tapşırığı yerinə yetirməyin vacibliyini xatırladır.

1954-cü il noyabrın 20-də günorta vaxtı Mikayıl Al-

penplate-6-dakı evin mətbəxinə gəlir və tanışı Frau Böhmlə nahar edir. Mikayıl tək qalmaqdan özü də qorxduğundan daima kiminləsə olmağa çalışırdı. **Artıq Mikayılı güdür və onu tapşırığı yerinə yetirməyə təhrik edirdilər**. Həmin günün axşamı saat 20-də Mikayıl yanına gələn mayor Ə.Düdənginskini Frau Böhmlə də tanış edir. Mikayıl mayorla birlikdə şam etdikdən sonra gəzməyə çıxırlar. Onlar əvvəlcə Leopold küçəsindəki kafedə, sonra Bayer küçəsindəki pivəxanada oturur, sonra Rozenhaymer küçəsindəki rəqs zalına gedirlər. **Burdan sonra mayorun izi itir.**

Sabahı gün, noyabrın 21-də saat 1-də Mikayıl Frau Böhmün qapısını döyür. Qadın onun titrədiyini görüb, nə baş verdiyini soruşur. O isə cavab verməyib, gedəcəyini bildirir. Hələlik isə mətbəxdə yatmaq üçün icazə istəyir.

Noyabrın 22-də səhər Frau Böhm mətbəxə keçir. Bundan sonra hadisədən - törədilən qətldən xəbər tutulur.

Məlum olur ki, noyabrın 20-də Mikayıl son dəfə Ə. F. Düdənginski ilə Rozenhaymer küçəsində görüşənə qədər onların münasibətində qeyri-adi ziddiyyət nəzərə çarpırdı. Lakin həmin gün onların söhbəti çox gərgin olmuşdu. Stol arxasında oturduqları vaxt **mayor Fətəlibəyli artıq 6-cı şərab dolu qədəhini içirdi**. Mikayıl isə yalnız ikinci qədəhini yarısına qədər içmişdi. Arada Mikayıl iki dəfə pulu ödəmək bəhanəsi ilə çölə çıxmış və yaxınlıqda yaşayan usta Faustledən çəkic götürmüş, Fətəlibəylini də əvvəlcə məhz həmin alətlə vurub ölümcül hala salmış, sonra boğub öldürmüşdü (134).

Qeyd edək ki, M.İsmayılov Azərbaycana qayıtdıqdan sonra izi itirmək üçün onu öz evində öldürmüşdülər. Bəzi mənbələrdə isə qayıtdıqdan sonra evində asıldığı deyilir.

Ə.Fətəlibəyli Münhen yaxınlığında Nyu-Ulm şəhərindəki qəbirstanlıqda qardaşı Seyfullanın məzarı yanında dəfn edildi. Ə.F.Düdənginskinin qardaşı Seyfulla 1951-ci ilin aprelində 41 yaşında Münhendə avtomobil qəzasında həlak olmuşdu.

Ə.Fətəlibəylinin qətlə yetirilməsi onun dostlarını və həmvətənlərini bərk sarsıtmışdı.

"**Azadlıq" radiosunun** ilkin olaraq yayınladığı xəbər belə idi: "Azadlıq" radiosunun Azərbaycan şöbəsi, idarəmizin unudulmaz müdiri və "Azadlıq" radiosunun görkəmli başçılarından Əbdürrəhman Fətəlibəylinin 20.11.54 tarixdə vəhşicəsinə öldürüldüyünü və 5.12.54 tarixdə Nyu-Ulm məzarlığında yatan mərhum qardaşı Seyfulla Fətəlibəyli ilə birlikdə dəfn edildiyini mərhumun əqrəba, dost və tanışlarına dərin təəssüflərlə bildirir. "Azadlıq" radiosunun Azərbaycan şöbəsi" (33).

İSTANBULDA YAD ETMƏ MƏRASİMİ

Faciədən xəbər tutan İstanbuldakı azərbaycanlı mühacirlərin "Azəri Qardaşlar Yardımlaşma Dərnəyi"nin (sonradan "Azərbaycan Yardımlaşma Dərnəyi") binasında toplantı keçirildi. **Sonradan isə Nuru Osmaniyə məscidində Ə.Fətəlibəylinin ruhuna** bütün azərbaycanlı və türkiyəli dostlarının iştirakı ilə dua oxudulmuşdur. Bu münasibətlə **Dərnək Başqanı Məhəmməd Sadıq Aran** məsciddə həyəcanlı bir müraciət edərək şəhid Fətəlibəyli və Azərbaycanın azadlıq mücadiləsi haqqında iştirakçılara izahat vermişdir.

Sonradan isə Azərbaycan Yardımlaşma Dərnəyinin qərarı ilə Ə.Fətəlibəylinin Ankaraya gəlmiş həyat yoldaşı Leyla xanıma başsağlığı teleqramı göndərilmişdir.

Ə.Fətəlibəylinin qətli ilə bağlı 1954-cü ilin 9 dekabrında Azərbaycan Kültürünü Tanıtma Dərnəyinin Sultanəhməd meydanındakı binasında anma mərasimi keçirildi.

Axşam saat 20^{00}-a yaxın yüzdən çox azərbaycanlıdan başqa qardaş millətlərin təmsilçiləri–Şimali Qafqazlılar, Türküstanlılar, İdil-Urallılar, Krımlılar, yerli qəzet müx-

birləri mərasim salonuna toplaşdılar. Salona toplaşanlar dərin kədər içərisində idi.

Saat 20^{30}-da Dərnək Başqanı professor dr. **Əhməd Cəfəroğlu** mərasimi açdı və mərasimə qatılanları əziz şəhid Fətəlibəylinin ruhunu anmaq üçün üç dəqiqəlik sayğı duruşuna dəvət etdi.

Bundan sonra professor Ə.Cəfəroğlu hadisə ilə bağlı qısa bir çıxış etdi. Bu çıxışında o, müstəqil Azərbaycanın süqutundan sonra azad dünya ölkələrinə sığınmış olan istiqlalçı vətənpərvərlərin işğalçılara qarşı açdıqları mücadilə hərəkatının ümumi xülasəsini vermiş və məmləkətlərinin qurtuluşu üçün savaşanlara terrorun ilk dəfə tətbiq olunmadığını qeyd etdi. Sonra o, İranda və başqa ölkələrdə baş verən siyasi cinayətlər haqqında da məlumatlar verdi.

Professor Ə.Cəfəroğlu bu və buna bənzər cinayətlərin vətənpərvərlik hissləri ilə yaşayan istiqlalçı Azərilərin mücadilə əzmini daha da artıracağını bildirdikdən sonra, şəhid Ə.Fətəlibəylinin tərcümeyi-halını, mücadilə hərəkatını anlatmaq üçün sözü mərhumla on ilə yaxın dostluq etmiş, Dərnək ikinci rəisi Süleyman Təkinərə verdi.

S.Təkinərin çıxışından sonra **Şimali Qafqaz Türk Kültür Dərnəyinin təmsilçisi Əhməd Avar** söz alaraq, həmyerliləri adından Azəri Türklərinə başsağlığı vermişdir.

Sonra mərhumun yaxın dostlarından olan Bəzir Gəncəçay həyəcanlı bir çıxış etmiş və əziz şəhidə ithaf etdiyi bir şerini oxumuşdu.

Daha sonra isə **M.Ə.Rəsulzadənin** təəssüf məktubu oxunmuş və baş vermiş cinayətin təfsilatını açıqlayan bir məktub da dərin hüznlə dinlənilmişdir.

Bununla da yadetmə mərasimi başa çatmışdır.

ANKARADA XATIRLAMA MƏRASİMİ

1954-cü ilin dekabrın 19-da bazar günü Azərbaycan Kültür Dərnəyi binasında mərhum Əbdürrəhman Fətəlibəylinin xatirəsini anma üzrə mərasim keçirildi.

Mərasimi Dərnək İkinci Başqanı Həmid Ataman qısa bir nitqlə açmış və mərhum Fətəlibəylinin faciəli ölümündən hamının kədərləndiyini bildirdikdən sonra iştirakçıları üç dəqiqəlik sayğı duruşuna dəvət etmişdir.

Sonra çıxışına davam edən Həmid Ataman bolşeviklərin öz müxaliflərinə qarşı törətdikləri cinayətlərin yeni bir hadisə olmadığını qeyd etmiş və sübut olaraq İkinci Dünya savaşında işğal altındakı İrandan sovet agentləri tərəfindən qaçırılan və vəhşi bir tərzdə şəhid edilən Kərbəlayı Vəli Mikayılzadə, Kamal Yılmaz, İsgəndər Şeyxzamanlı, Möhsün Səlimoğlu və təyyarəçi Cəlal Bəylərin adlarını çəkmişdir.

Doktor Həmid Atamandan sonra söz alan dr.**Məhəmməd Kəngərli**, mərhum Fətəlibəylinin İkinci Cahan Hərbi illərindəki çalışmalarının və xüsusən bu çalışmaların əsgəri səhifələrini nümayiş etdirmişdir. Sonra isə tanınmış mücahid **M.Ə.Rəsulzadə** geniş çıxış etmişdi (121).

Mərasim salona toplaşanların ümumi düşmənə qarşı nifrəti və mərhumun əziz xatirəsinə olan sayğılar içində başa çatmışdı.

ALMANİYADA DƏFN MƏRASİMİ

Fətəlibəylinin Almaniyada keçirilən dəfn mərasimində azərbaycanlılar adından **Ceyhun Hacıbəyli**, Amerika Komitəsinin Avropa nümayəndəsi **cənab Kelli**, Qurtuluş Radiosu şöbələri adından **Arsenidze**, Alman dostları adından professor **Von Mende** mərhumun məziyyətlərindən və müştərək düşmənə qarşı edilməsi mümkün mücadilənin əhəmiyyətindən bəhs edən nitqlər söyləmişlər.

Ə.Fətəlibəylinin ölümü münasibəti ilə **yaxın dostu Əziz Alpaut yazırdı: «Daha gün kimi sevgi ilə dolu gözləri, gülər üzü gözümün önündə. Münhen təyyarə meydanında qarşılayırdı məni... Əbdürrəhmanın başlıca qayəsi, bütün düşüncəsi canından çox sevdiyi yurdu Azərbaycanın qurtuluşu idi» (10, s. 6).**

Ə.Fətəlibəylinin ölümündən sonra onun **ailəsinin** də maddi vəziyyəti çox ağırlaşdı. Bununla əlaqədar «Azadlıq» radiosu Azərbaycan redaksiyasının baş redaktoru **İsmayıl Əkbərin** (Ə.Fətəlibəylinin ölümündən sonra onun yerinə İ. Əkbər gətirilmişdi) Avropadakı Amerikan Komitəsinin vitse-prezidenti **Robert Kellə** məktubunda yazılmışdı: ***«Çox hörmətli cənab Kell! İcazə verin, aşağıdakıları diqqətinizə çatdırım: «Azadlıq» radiostansiyası Azərbaycan redaksiyasının mərhum baş redaktoru Əbo Fətəlibəyli, məlum olduğu kimi, ailəli idi və onun həyat yoldaşı oğlu ilə birgə Ankarada yaşayırdı. Hazırda da orada yaşamaqdadır. Ə.Fətəlibəylinin ölümündən sonra, Sizə məlum olduğu kimi, biz Amerikan Komitəsindən xahiş etdik ki, mərhumun ailəsinə maddi kömək etsin. Və biz ümid edirdik ki, komitə bu işdə yardımçı olacaqdır. Lakin, komitə ilə uzunmüddətli yazışmalardan sonra Nyu-Yorkdan belə xəbər gəldi ki, guya Fətəlibəylinin həyat yoldaşı ailə həyatı qurmuş və öz oğlu ilə heç nəyə ehtiyacı olmadan rahat və təminatlı yaşayır. Biz, əlbəttə ki, Amerikan Komitəsinin bu məlumatına inanıb sakitləşdik. Lakin alınan məlumat həqiqətə uyğun gəlmir. Belə ki, mən Türkiyədə ezamiyyətdə olarkən Fətəlibəylinin ailəsinə baş çəkdim və onların yoxsulluq içində, yarızirzəmi şəraitində yaşadığını gördüm. Fətəlibəylinin həyat yoldaşı işləyir və ayda iki yüz türk lirəsi alır ki, bu ailənin dolanışığına kifayət etmir. Mərhumun 17 yaşlı oğlu Əli bəy ötən il gimnaziyanı bitirib və maddi imkan olmadığından təhsilini davam etdirə bilməyib. Belə vəziyyət, əlbəttə ki, bizim hamımızı çox narahat edir və həyəcanlandırır. Odur ki, mərhum Fətəli-***

bəylinin ailəsinin acınacaqlı vəziyyətini diqqətinizə çatdırıb xahiş edirəm ki, cənab Kell, Komitə heç olmasa, mərhum Fətəlibəylinin oğlunun təhsili üçün onun ailəsinə müəyyən maddi kömək ayırsın. Xahiş edirəm ki, mənim Sizə dərin hörmətimin olduğunu qəbul edəsiniz. Əvvəlcədən təşəkkürümü bildirirəm. İsmayıl Əkbər» (Türkiyədən alınmış bir arayış da məktuba əlavə edilir. Arayışda göstərilir ki, Ə.Fətəlibəylinin ölümü günündən onun həyat yoldaşı dul qadın kimi qeydiyyata alınıb.) **(21).**

Ə.Fətəlibəylini qətlə yetirənin şəxsiyyəti ilə bağlı uzun müddət «DTK» sistemində çalışmış beynalxalq jurnalist, şərqşünas Əsildar Hüseynbəylinin «Mühacirlər» kitabında da maraqlı məlumatlar vardır. O, yazırdı: «… Yetmişinci illərin ikinci yarısında mən artıq uzun müddətli xarici ezamiyyətdən qayıdıb **Azərbaycan «DTK»-sında «Türkiyə və mühacirət» şöbəsinə başçılıq edirdim.** Necə oldusa, İtaliyada daimi yaşamağa gedən bir gənc azərbaycanlı qadının gedişi sənədləri ilə rastlaşdım. Qəribə bir fakt diqqətimi çəkdi: Onun atası azərbaycanlı, anası isə italiyalı idi. Lakin gediş sənədində göstərilirdi ki, anası atası ilə Azərbaycana müharibədən sonrakı ilk illərdə köçüb gəlmişlər.

Onun atası ilə aydınlaşma aparılması üçün xüsusi arxivə müraciət göndərdim. Bir neçə gündən sonra müdirim məni çağırıb, bu adamla maraqlanmağımın səbəbini soruşdu. Mən cavab verdim. Onda o, mənə bildirdi ki, bu işin çox da dərinliyinə baş vurmayım, sadəcə gənc qadının İtaliyaya getməsinə kömək edin. Mən tabe olub razılaşdım. Sonradan müdirim dedi ki, bu gənc qadın sovet hərbi kəşfiyyat agentinin qızıdır. Onun atası öz mərkəzinin məxfi tapşırığı əsasında Azərbaycan legionunun keçmiş başçısı Ə.Fətəlibəylinin fiziki cəhətdən məhv edib. Əvvəl onun yaxın etibarını qazanaraq mühafizəçisi olub, sonra öldürüb üzünü tanınmaz hala salıb, öz paltarını isə ona geyindirib, aradan çıxıb. Polis Ə.Fətəlibəylini axtarana qədər

agent İtaliyaya getməyə imkan tapıb və oradakı həyat yoldaşını götürüb sovet kəşfiyyatının köməyi ilə Sovet İttifaqına qaçıb. Burada onun qızı dünyaya gəlib. Bakıda o və xanımı işə düzəlib evlə təmin edilib, onlara az da maddi yardım göstərilib. **Lakin bir dəfə bu agent Abşerondakı bağında asılmış vəziyyətdə tapılıb.** Bu müəmmalı ölümün versiyalarından biri də ölənin qohumlarının qisas almasıdır» (70).

Ə.Fətəlibəylinin qətlə yetirilməsindən sonra Türkiyədə yaşayan həyat yoldaşı Leyli xanım isə Əli bəylə birgə Amerikaya getdi. Yaxın qohumları onları axtarsalar da, bu günə qədər harada yaşadıqlarını öyrənə bilməmişlər.

AİLƏSİ SÜRGÜN EDİLDİ

Qeyd edək ki, Ə.Fətəlibəyli «vətən xaini» elan edildikdən sonra ailəsi və yaxın qohumları həbs edilib Azərbaycandan sürgün edildi (23).

1949-cu ilin oktyabr ayının 8-də xüsusi qərar əsasında Ə.Fətəlibəylinin aşağıdakı ailə üzvləri millətçi ailəsi adı ilə (başda bacısı Səkinə olmaqla) SSRİ Daxili İşlər Nazirliyinin nəzarətində olan Tomsk vilayətinin xüsusi düşərgəsinə göndərildilər. Sürgün edilənlər: **1) Qayıbova Səkinə əli qızı–ailənin başçısı, 1900-cu il təvəllüdlü; 2) Oğlu–Qayıbov Abid Abdulla oğlu–1928-ci il təvəllüdlü; 3) Oğlu–Qayıbov Tofiq Abdulla oğlu–1930-cu il təvəllüdlü; 4) Qızı–Qayıbova Rəfiqə Abdulla qızı–1936-ci il təvəllüdlü.**

Ə.Fətəlibəylinin ailəsi ağır və işgəncəli sürgün həyatını yaşadıqdan 7 il sonra bəraət ala bildilər. 1956-cı ildə N.S. Xruşovun XX qurultaydakı məşhur çıxışından sonra onların da ailəsinə bəraət verildi. Verilən bəraət sənədində yazılmışdı: "Azərbaycan Ali Məhkəməsi Hakimlər Kollegiyası 17 fevral 1956-cı il tarixindən (№ 7-0(144.56) SSRİ Təhlükəsizlik Nazirliyinin Qayıbova Səkinə Əli qızına, Qayı-

bov Tofiq Abdulla oğluna, Qayıbov Abid Abdulla oğluna və Qayıbova Rəfiqə Abdulla qızına aid edilən qərarı ləğv edir və hamısı sürgündən azad olunur" (23).

Ailələri sürgündən qayıtdıqdan və bəraət kağızı alınandan çox sonra, **Ə.Fətəlibəylinin bacısı oğlu Abid Qayıbov böyük cəsarətlə dayısı haqqında məlumatlar toplamağa başladı**. Abid bəy, demək olar ki, 1956-cı ilin bəraətindən sonrakı bütün həyatını bu işə sərf etdi. Azərbaycan Respublikası Prokurorluğuna göndərdiyi məktuba isə 1993-cü ilin dekabrın 9-da belə cavab gəlmişdi: "Sizin Azərbaycan Respublikası baş prokurorluğuna yazmış olduğunuz şikayət ərizənizə cavab olaraq məlum edirəm ki, dayınız Fətəlibəyli-Düdənginski Əbdürrəhman Əli oğlu barədə Daxili İşlər Nazirliyinin, eləcə də Ali Məhkəməsinin arxivlərində onun sürgün edilməsi və ya cinayət məsuliyyətinə cəlb edilib məhkəməyə verilməsi barədə məlumatlar yoxdur. Bundan əlavə, Düdənginski haqqında Moskva şəhəri hərbi arxivə sorğu edilmişdir. Lakin həmin arxivdə də onun haqqında heç bir məlumat olmadığı haqqında cavab alınmısdır.

Ümumiyyətlə, axtarışlar heç bir müsbət nəticə verməmişdir. Şöbə prokuroru, baş ədliyyə müşaviri–T.B.Qənbərov" (23).

Azərbaycan Respublikası **Milli Təhlükəsizlik Nazirliyinin** 11/13 saylı 12.VII.1993-cü il tarixli məktubunda isə yazılmışdı: **"Hörmətli Abid Abdulla oğlu!** Ərizənizin cavabında bildiririk ki, Azərbaycan Respublikası Daxili işlər və Milli Təhlükəsizliyi Nazirliklərində dayınız Düdənginski (Fətəlibəyli) Əbdürrəhman (Abo) haqqında heç bir arxiv sənədi yoxdur. Şöbə rəisi–E.F.Nəsirov" (23).

Ə.Fətəlibəylinin bacısı oğlu A.Qayıbov sonralar çox çalışsa da, dayısının həyat yoldaşı və oğlu Əli haqqında heç bir məlumat öyrənə bilmədi.

II FƏSİL

AZƏRBAYCAN LEGİONUNUN TƏŞKİLİNDƏKİ FƏALİYYƏTİ

«Aslan» sözünün azərbaycanca mənası şir deməkdir. 1943-ci ilin yazında, bu söz bütün Kubanda şərəf və qəhrəmanlıq rəmzinə çevrildi. Cəbhənin bu bölgəsindəki döyüşlərdə fərqlənən mayor Fətəlibəylinin başçılıq etdiyi Azərbaycan taburu döyüşçülərini «Aslan» adlandırırdılar. Mayor isə indinin özündə belə həyəcanını gizlətmədən bu qəhrəman günləri xatırlayır. Yüksək şərəf rəmzi hücum nişanıdır. Yalnız əlbəyaxa döyüşdə müstəsna bacarıq və kişilik göstərənləri həmin nişanla təltif edirlər. Kuban çöllərində azərbaycanlı döyüşçülər şərqli könüllülərdən birinci olaraq ilk belə hücum nişanlarına layiq görüldülər. Belə nişanlardan biri mayorun da döşündən asılıb».

LEGİONLARIN TƏŞKİLİ

Alman-sovet müharibəsinin ilk illərindən hərbi əsirlər və mülki əhali də daxil olmaqla könüllü dəstələr yaradılmağa başladı. Müharibənin ilk aylarında həmin könüllülərdən, əsasən, arxa cəbhədə sürücü, atsaxlayan, mətbəx işçisi və müxtəlif sahələrdə istifadə edirdilər. Döyüş bölgələrində isə onlar patronlar daşıyır, rabitə və minatəmizləmə işlərində çalışırdılar. İlk dövrdə alman hərbi hissələrindəki belə **könüllüləri «xivi» (Almancanın qısaldılmış forması «Nilvswillıge» - könüllü köməkçilər, daha dəqiqi - «köməyə hazır olanlar»)** adlandırırdılar və müharibənin sonunadək onları belə də çağırdılar (73, s-5). 1942-ci ilin sonlarına qədər belə «xivi»lər Şərq cəbhəsindəki alman hissələrində əhəmiyyətli dərəcədə hiss olunurdular. Sonradan «Xivi»lərin hüququ artdıqca onlar legionerlər - könüllülər, könüllü vuruşanlar olaraq qəbul edilməyə başladı (103, s. 703).

Qeyd edək ki, könüllülərə münasibət Almaniya hökumətində heç də birmənalı deyildi. Üçüncü reyxin liderləri bolşevik rejimində böyümüş insanlara tam etibar etmirdilər. Məsələn, Göbbels özünün 29 səhifəlik məruzəsində təklif edirdi ki, bütün şərq xalqlarını bolşevizmdən azad olmaq və onları azad, işıqlı gələcək uğrunda mübarizədə əməkdaşlığa çağırmaq lazımdır (73, s. 311).

Alfred Rozenberq isə belə bir ideya ilə çıxış edirdi ki, Ukrayna və Pribaltika xalqlarını xüsusi olaraq ayırmaq, onlara mədəniyyət mərkəzləri və universitetlər açmaq, torpağa sahiblik hüququ vermək, kommunistlərə qarşı könüllü hərbi birliklərini formalaşdırmaq üçün imkan yaratmaq lazımdır (73, s. 331).

Rozenberq sonradan daha bir təkliflə də çıxış etdi. Belə ki, o, 1942-ci ilin fevralın 15-də şərq xalqlarının din sita-

yişini təmin edən qərar layihəsini hazırladı. O, təsdiqləyirdi ki, belə bir addım böyük təlimati effekt verəcək. Lakin sənədlə tanış olan Borman başqa bir ideya irəli sürdü: bəlkə yeganə bir Şərq kilsəsi qurub yalnız ümumi bir din yaradaq? Yaradacağımız belə ümumi din müqavimət hərəkatı üçün güclü mərkəzə çevrilməyəcəkmi?! Ən yaxşısı budur ki, hər xalq öz Allahına ibadət etsin. Beləliklə, Hitler Rozenberqin yox, Bormanın təklifini qəbul etmişdi.

Bundan başqa, Hitler din xadimlərini (rahibləri) ümumiyyətlə sevmirdi. Hərbçilərin çoxu isə yerli əhaliyə silah verməyin əleyhinə çıxış edirdilər. İşğal edilmiş bölgələrdəki əhaliyə və əsir düşmüş insanlara münasibətdə A.Rozenberq daha obyektiv mövqe tuta bilirdi. Bəs adı tez-tez hallanan A.Rozenberq kim idi?

A.Rozenberq Pribaltika almanı idi və fanatikcəsinə antikommunist, antisemit mövqedə dayanır və Nasist Partiyasının ideoloqu sayılırdı (69, s.31). A.Rozenberq məşhur «XX yüzilliyin mifi» əsərini yazmış və xristian dininə mənfi münasibət bəsləyirdi. Digər nasional-sosialistlər kimi Rozenberq də protestant kilsəsinə üstünlük verir və onu öz ideyalarının ifadəçisi sayırdı (69, s.302). A. Rozenberq bütün ölkələri və xalqları bolşeviklərə qarşı səlib yürüşünə çağırmaq niyyətində idi (127, s.422). Lakin Alfred Rozenberqin təşkilatçılıq bacarığı o qədər də yüksək deyildi (78, s.48). Alman-sovet müharibəsindən üç həftə sonra Hitler Bormanın təklifi ilə Rozenberqi işğal edilmiş Şərq (sovet) torpaqlarının reyxsnaziri təyin etdi. Bu təyinatın iki səbəbi vardı: birincisi, Rozenberq əslən pribaltikalı idi; ikincisi, bu vəzifə Rozenberqə vəd olunub verilməyən Xarici İşlər naziri kürsüsünü əvəz etməli idi.

İşğal edilmiş bölgələrə münasibətdə Rozenberqin fikirlərini Göbbels də bu və ya digər formada dəstəkləyirdi. Məsələn, Göbbels (baxmayaraq ki, onlar köhnə rəqib idi-

lər) uzun müddət Ukraynaya muxtariyyət verilməsi ideyasını dəstəkləyirdi. Bununla əlaqədar o, Şərq bölgələrindəki yerli əhalinin ümumi rəğbətini qazanmaq üçün xüsusi planını təklif edirdi. Lakin bu plan da qəbul edilmədi, çünki Hitler məğlublarla barışığa getmək istəmirdi. Onun fikrincə, onları yalnız zorla köçürmək, qovmaq, paylamaq, məhv etmək lazımdır. Sonradan işğal bölgələrindəki köklü xalqların bəzilərinə alman vətəndaşlığı verilməsi təklifi də səsləndi. Dansiq qaulyayteri Albert Forsterin məlumatına görə, irq nəzəriyyəsində nüfuzu olan professor Qyunter Şərqi Prussiyaya səkkizgünlük səfəri zamanı belə qənaətə gəlib ki, polyaklar alman vətəndaşlığını almağa layiqdirlər. İrqi yüksəltmək üçün isə əvvəlcədən müəyyən rayonlarda SS-in xüsusi bölmələrini yerləşdirmək lazımdır. Lakin həm Hitler, həm də Borman belə «qan qarışığına» qarşı çıxırdılar. Avropada «250 milyonluq Alman» dövləti yaratmaq istəyən Hitler işğal etdiyi bölgələrdə xalqları hər şeydən məhrum etmək istəyirdi: həm torpaqdan, həm də azadlıqdan.

Belə olduqda, Rozenberq Pribaltikaya müəyyən məhdudiyyətlərlə muxtariyyət verilməsi layihəsini təqdim etdi. Borman Rozenberqin layihəsinə kəskin etirazını bildirdi və göstərdi ki, o heç zaman «Pribaltika Birləşmiş Ştatları»nın yaradılmasına imkan verməyəcək. Bundan əlavə, bütün bu torpaqlar üçüncü reyxin ayrılmaz tərkib hissələridir.

Bormanın bu mövqeyinə baxmayaraq Himmler gizlicə eston və latışları SS hissələrinə cəlb etdi. Himmler bu fikirdə idi: əgər vuruşmaq və həlak olmaq lazımdırsa, onda bunun irqi ayrı-seçkiliyə aidiyyatı yoxdur. Eyni zamanda Himmler tərkibində əlli minə qədər ukraynalı, qazax, tatar və başqa millətlərin nümayəndələri olan bir neçə tabur yaratdı. SS reyxsfüreri göstərirdi ki, partizanlara qarşı mübarizə aparmaq üçün onun hissələri kifayət sayda deyildir. Artıq bu zaman Vermaxtda könüllü dəstələrin - «xi-

vi»lərin yaradılması razılığına gəlmişdi.

1942-ci ilin sonlarında Şərq cəbhəsində olan hər bir alman diviziyasının tərkibində bir, yaxud iki şərq bölüyü, taburu vardı (73, s.7). Bundan əlavə, arxa rayonlardakı ordu hissələrinin sərəncamında bir neçə şərq taburları, mühafizə diviziyalarının tərkibində isə şərq süvari diviziyaları və eskadronları vardı (73, s. 7).

Şərq taburlarının çoxu standart nömrələr daşıyırdı: 601-621; 626-630; 632-650; 653, 564, 656, 661-669; 674, 675 və 681. Digər batalyonlar isə ordu nömrələri (510, 516, 517, 561, 581, 582), korpuslarda (308, 406, 412, 427, 432, 439, 441, 446-448, 456) və diviziyalarda (207, 229, 263, 268, 281, 285); 1943-cü ilin iyun ayında alman komandanlığının məlumatına görə 78 şərq taburu, 1 alay və 122 ayrıca bölük (mühafizə, qırıcı, təsərrüfat və s.) yaradılmışdı ki, buradakı adamların sayı 80 min idi (73, s.7).

Könüllülərdən təşkil olunan hərbi hissələrin sayının bəzi mənbələrdə 180 olduğu göstərilirdi (109). Bu hissələrdən 75-i rus, 216-sı kuban, don və terek kazakları, Türküstan və Tatarıstan (Tatarıstan və Krım tatarları) - 42, gürcülərdən -11, Şimali Qafqaz xalqlarından-12, azərbaycanlılardan - 13, ermənilərdən - 8 hissə yaradılmışdı. 1945-ci ilin 24 yanvarına olan məlumata görə taburlardakı könüllülər milli mənsubiyyətlərinə görə belə bölünmüşdülər: latışlar - 104 min, litvalılar - 36.800, azərbaycanlılar - 36500, gürcülər - 19000, Şimali Qafqaz xalqları-15 000, tatar (Tatarıstan)-12500, Krım tatarları - 10 000, estonlar -10 000, ermənilər - 7000, kalmıklar - 5000. Rusların sayı haqqında məlumatı admiral Denikin «hökuməti» belə açıqlayırdı: 1945-ci ilin mina 20-nə olan məlumata görə 599-cu rus briqadasında - 13 000, 600-cüdə 12 000, 650-cidə 18 000 vardı (109). Qeyd edək ki, bu rəqəmlər yalnız döyüşdə iştirak edənlərin göstəricisidir. Almanların tərəfində isə əsirlikdə olanların sayı 4-5 milyona qədər idi.

1942-ci ilin yanvarında isə 1-ci (450-ci) «Türküstan legionu» taburu formalaşmağa başladı ki, burada da müəyyən sayda azərbaycanlılar vardı. Taburun yaradıcısı və birinci komandiri mayor A. Mayer-Mader idi. Mayor A. Mayer-Mader Birinci Dünya müharibəsində kəşfiyyatçı olmuş, uzun illər Şərq ölkələrində işləmiş və xüsusən Çində general Çan Kay Şinin hərbi məsləhətçisi olmuşdu. Türk xalqlarının psixologiyasına və adət-ənələrinə yaxından bələd olan Mayor-Mader müəyyən səbəblərə görə 1942-ci ilin avqustunda vəzifəsindən uzaqlaşdırıldı. O, 1943-cü ilin sonlarında SS rəhbərliyinə öz xidmətini təklif etdi və ona SS hissələri tərkibində Türküstan alayı yaratmaq tapşırıldı. Yaradılan alayın bazası üzərində «Yeni Türküstan» diviziyası formalaşdırmaq da nəzərdə tutulurdu ki, buraya Türküstan və Volqa tatarları taburları ilə yanaşı 818-ci Azərbaycan taburu da daxil idi (74, s. 14).

Türk və Qafqaz xalqlarına məxsus hərbi əsirlərin sayı getdikcə artdığından daha bir Şərq legionlarını formalaşdırma mərkəzini yaratmaq qərara alındı. 1942-ci ilin mayında cəbhədə daha çox itkiyə məruz qalmış 162-ci piyada diviziyasının bazasında belə bir mərkəz yaradıldı. Bundan əlavə, Poltava vilayəti ərazisində yeni tədris düşərgəli mərkəzlər də yaradılmağa başlanıldı: Romnada Türküstan legionu, Prilukda Azərbaycan, Qadyaqda gürcü, Loxviçdə və Mirqorodda erməni. Yaradılan Mərkəzdə qərargah rəisi vəzifəsinə albay (1942-ci ilin sentyabrın 6-dan isə general-mayor). O. fon Nidermayer təyin edildi. General mayor O. fon Nidermayer Almaniyada Rusiya və Müsəlman Şərqi üzrə ən yaxşı mütəxəssislərdən sayılırdı. 1943-cü ilin mayında qədər isə Ukraynada Şərq legionlarının əlavə 25 taburunu formalaşdırmaq mümkün oldu ki, onlardan 6-sı azərbaycanlılardan təşkil edilmişdi (Bir tabur 4-cü diviziyada, iki tabur 73-cüdə, bir tabur 97-ci də, bir tabur 101-cidə,

bir tabur 111-cidə). 1943-cü ilin mayında Ukraynadakı şərq legionlarının formalaşması mərkəzi general-mayor fon Nidermayerin komandanlığı altındakı 162-ci türk piyada diviziyasının təcrübə bazasına çevrildi. Diviziya ikialaylı təşkilata malik idi (303-cü Türküstan və 314-cü Azərbaycan alayı, artilleriya alayı, arxa hissələr və bölmələr) və şəxsi heyətin 50 faizini almanlar təşkil edirdi.

Legionlar təşkil olunarkən onlara verilən rütbələr və fərqləndirici əlamətlər də xüsusi əhəmiyyət kəsb edirdi. Belə ki, Şərq legionlarında hərbi rütbələr və işarələr haqqında olan 2380 saylı əmr 1942-ci ilin iyunun 2-də verildi. Həmin əmrin əsasında daşıdığı vəzifəyə müvafiq olaraq 8 rütbə müəyyənləşdirildi: legioner, manqa komandirinin müavini, manqa komandiri, taqım komandirinin müavini, taqım komandiri, bölük komandirinin müavini, bölük komandiri, tabur komandiri.

Zabit vəzifəsini göstərən rütbələr paqonda nazik gümüşü xətlə verilirdi. Yaxalığın rəngləri də legionları fərqləndirirdi: açıq-göy türküstanlılara, yaşıl qafqazlılara, moruğu gürcülərə, boz rəng isə ermənilərə aid idi.

Şərq legionlarının digər fərqli işarələri qola bağlanan sarğılar idi. Bu haqda olan müvafiq əmr 1944-cü ilin iyulun 1-də verilmişdi.

1943-cü ilin mayında 29-da Baş Qərargahın təşkilat şöbəsinin 14124 saylı əmri ilə rəngli nişanlar boz, lakin rəngli xətlərlə əvəz olundu. Belə ki, türküstanlılar üçün açıq-göy, azərbaycanlılar üçün yaşıl, gürcülər üçün moruğu, ermənilər üçün sarı, şimali qafqazlılar üçün qəhvəyi rəng müəyyənləşdirildi (74, s. 18).

Beləliklə, müharibənin ilk aylarında almanlara əsir düşən və könüllü olaraq keçən sovet vətəndaşları ayrı-ayrı döyüş hissələrində sovet dövlətinə, mövcud bolşevik rejiminə qarşı mücahidəyə başladılar.

AZƏRBAYCANLI "XİVİLƏR"-LEGİONERLƏR

Qeyd edək ki, müxtəlif dövrlərdə almanların, müsəlmanlara münasibətində fərqli mövqelər olmuşdur. Slavyanlara (ruslara) qarşı uzun illər mücahidə aparmaq məcburiyyətində qalmış Almaniya özünü Rusiya təhlükəsindən daima qorumağa çalışan Türkiyə ilə yaxşı münasibətlər qurmağa cəhd etmişdir. Ortaq düşmənin mövcudluğu hər iki dövləti bir-birinə yaxınlaşdıran başlıca səbəbə çevrilmişdir (133, s. 92).

Vaxtilə, Almaniya kayzeri Vilhelm Səlahəddin Eyyubinin türbəsinə gedib «Dünyanın bütün əzilən müsəlman xalqları, Almaniyanı ən yaxın dostunuz sayın» deyə sözlər söyləmişdi (133, s.92).

Otuzuncu illərdə hakimiyyətə gələn Hitler «Müsəlmanlardan istifadə»yə yenidən üstünlük vermiş və başçılıq etdiyi nasist partiyasının bu sahədəki fəaliyyətini canlandırmışdı. Nasist partiyası üzvləri bununla bağlı «Hitlerin sünnətli bir müsəlman olması» fikrini Türkiyədə yaymış, onlarda Hitlerə rəğbət yaratmağa çalışmışlar. Belə təbliğat da aparılırdı ki, Türkiyə rus təsirində yaşayan müsəlman türklərini din və soy birliyi çərçivəsində öz rəhbərliyi altında Almanların verəcəyi top, tüfəng, uçaq və tanklarla Rusiyanın cənubundan oraya hücum edəcək, Hitler isə Rusiyanın işini bitirəcək və Urallardan Atlantikə qədər geniş torpaqlar azad olunacaqdı. Hitler bu fikri gerçəkləşdirmək məqsədi ilə hələ 1934-cü ilin martında Münhendə bir anti-sionistlər və anti-kommunistlər toplantısı keçirmiş, bu gizli toplantıya Türkiyədən Cavad Rifah Atilxan da çağırılmışdı.

Bundan əlavə, Hitler Qüds müftisi Hacı Emin Əl-Hüseynlə də yaxşı əlaqələr qurmuş və müfti bu təbliğatı apar-

mışdı: «Hitlerin doğum günü ilə Həzrəti Məhəmmədin doğum günləri eyni aya təsadüf etməkdədir. Hitler sünnətlidir, müsəlmandır» (133, s.95). Lakin sonradan Almaniya özünün təsirində olan Türkiyə başçılığında bir dünya «İslam-Türk Birliyi» yaradıb Sovetlərə qarşı mücahidəyə çalışsa da, bu istək gerçəkləşmədi.

Lakin nasistlərin irqçi baxışlarına gəldikdə isə Qafqazlılar və Türk-tatarlar «düşük dəyərli asiyalılığı» təmsil edirdilər və slavyanlardan da aşağıda dayanırdılar. «Tatar», «Qırğız» və «Moğol» kimi anlamlar isə «Untermanş» («Aşağı insan») qavramına bərabər tutulurdu (137, s. 40). Hitlerin Rusiyada yaşayan ruslara münasibəti belə idi: «Bolşevik rejimi şeytani bir üsulla bu rusları yox etmiş və ya Sibiryaya sürmüş və Rus xalqını irqən yox edib asiyalaşdırmaq üçün planlı olaraq moğolları Avropa Rusiyasına yerləşdirmişdir» (137, s. 40). Bundan əvvəl isə, 1930-cu ildə Hitler Sovetlər Birliyinin «Slav-Tatar gövdəli və yəhudi başlı» bir məxluq olduğunu söyləmişdi.

Lakin almanların belə irqi baxışlarına və münasibətlərinə baxmayaraq müharibənin ilk aylarında həm könüllü, həm də əsir olaraq onların tərəfinə çoxlu sayda sabiq Qızıl Ordu əsgər və zabitləri keçmişdi. 1941-ci ilin noyabrın 1-dək alman düşərgələrində olanların sayı iki milyondan çox idi. Rozenberq isə bu rəqəmin 3,6 milyon olduğunu söyləyirdi.

Bəs türk-tatar əsirlərindən milli legionlar yaratmaq fikrini ilk dəfə kim irəli sürmüşdü? Alman tədqiqatçısı Mühlen yazırdı ki, bu fikrin təşviq ediciliyində iki türk generalının xüsusi rolu olmuşdu və 1941-ci ilin oktyabrında bu planın müsbət həyata keçirilməsində cəhdlər göstərmişdilər. Həmin generallardan biri tanınmış hərbçi Nuru Paşa (37), digəri isə general Ərkilət idi. Qeyd edək ki, hələ 1941-ci ilin sentyabrında Berlinə gələn Nuru Paşa Almaniya Xarici İşlər Nazirliyi ilə əlaqələr qurub Veyçzeker və Bermanla gö-

rüşlər keçirdi. Öz fikir və ideyalarını, Almaniyada fəaliyyət proqramını açıqlayan Nuru Paşa həmin fikirlərin (yəni, Türk birliyinin). Türkiyədə çoxları tərəfindən dəstəkləndiyini bildirirdi. Nuru Paşa alman nümayəndələrinə izah edirdi ki, o, Türkiyə hökumətindən xəbərsiz olaraq buraya gəlməmişdir. Berlinə yola düşməzdən qabaq o, bu səfəri haqqında ancaq Baş Nazirə məlumat vermişdi.

Almanlar hərbi əsirlərlə iş aparmaq məqsədi ilə ayrı-ayrı xalqların mühacirətdəki liderləri ilə də əlaqələr qururdular. Bundan ötrü Şərq Nazirliyi tərkibində müvafiq komissiyalar yaradılırdı. Komissiyaların məqsədi əsirlərin siyahılarını tutmaq, onları gələcək günlər üçün işlərə hazırlamaq idi. Bununla əlaqədar, almanlar hələ ötən illərdən Almaniyada fəaliyyət göstərmiş mühacir liderlərə xüsusi önəm verirdilər.

1941-ci ilin avqustundan fəaliyyətə keçən komissiya düşərgələrdəki əsirlərlə görüşməyə başladı. İdil-Ural komisiyasına (buraya tatarlar, başqırdlar, çuvaşlar və fin xalqlarının nümayəndələri daxil idi). Əhməd Teymur, Türküstan komissiyasına özbək Vəli Qəyyum xan, Şimali Qafqaz komissiyasına Əli xan Qantəmir, Azərbaycan komissiyasına isə Məhəmməd Əmin Rəsulzadə daxil idi. Bundan əlavə, Gürcüstan və Ermənistan üçün də müvafiq komissiyalar vardı. Ümumi komisyon Başqanı isə NSDAP-ın (Milli Sosialist Almaniya Fəhlə Partiyası) SA batalyonundan şturmbanfürer Geybel adlı bir alman idi.

Sovet savaş əsirləri ilə ilk münasibətlər quran bu komissiyalar onların arasından uyğun olanlarının seçilib legionlar yaradılmasına şərait açdı. Məhz bu komissiyaların fəaliyyətindən sonra ilkin olaraq «Tatar legionu» kimi əsgəri birliklər qurulmağa başladı.

İlk azərbaycanlı əsirlər digər xalqlardan olanlarla birgə alman ober-leytenant Baron fon Qoubenin başçılığı altında

Zaporojye yaxınlığındakı 444 saylı təhlükəsizlik diviziyasında birləşdirildi. Sonra onlardan alman zabitlərinin rəhbərliyi altında Türküstan taburu yaradıldı və bu sonradan 444 saylı türk taburu adını aldı (136, s. 26).

1941-ci ilin sonlarına yaxın alman zabit Mayer Mader Özbəkistanın mühacirətdə olan siyasətçisi Vəli Qəyyumxanı da cəlb edərək qırmızı ordunun əsir düşmüş əsgərlərindən türk mənşəli mücahidə dəstəsi yaratdı və onlar təxribat işlərinə cəlb edildilər. Az sonra Azərbaycandan və digər bölgələrdən olan türk mənşəliləri də bu işə yaxınlaşdırıb yeni dəstələr yaratdılar.

Qeyd edək ki, 1942-ci ilin fevralın 18-dən rəhbəredici orqan Şərq legionlarının komandir və ya qərargahı adlandırıldı. Şərq legionlarının komandirləri xidməti baxımından rütbə sırası ilə düzülürdülər və onların başlıca vəzifəsi müxtəlif millətlərdən olan hərbi əsirlərdən gücləndirilmiş hərbi taburlar yaratmaq idi. Türküstan, Qafqaz, sonradan formalaşan Azərbaycan legionları məhz Mayer-Maderin yaratdığı hissələrin davamı kimi qurulmaqda idi və 1942-ci ilin fevralın 19-dan bunların hamısı birləşdirildi.

1942-ci ilin payızından Polşa və Ukraynada formalaşmış legionerlərin döyüş taburlarından da Qafqaz və Stalinqrad ətrafındakı döyüşlərdə istifadə etdilər. Azərbaycanlılardan ibarət olan 804-cü tabur almanların 49-cu dağ korpusunun 4-cü dağ atıcı diviziyasına göndərildi. Həmin diviziya Qafqazda Suxumi istiqamətindəki yüksək dağ rayonlarında hərəkət edirdi.

Nalçik və Mozdok istiqamətlərində olan döyüşlərdə əsasən 111-ci Azərbaycan taburu vuruşurdu. General-leytenant Qrayfenberqin məlumatında digər taburlarla yanaşı azərbaycanlılardan təşkil edilmiş 804-cü və 805-ci taburların da meşəlik rayonlarda ayrı-ayrı dəstələrə qarşı uğurlu döyüşləri qeyd olunurdu. Məhz belə uğurlu döyüşlərdən

sonra ayrı-ayrı taburlara «alman forması daşımaq şərəfi» nail olurdu.

Azərbaycan legionunun yaradılması ilə bağlı ABŞ-da nəşr edilən «Üçüncü Reyxin xidmətində olan xarici imkanlar» kitabında da maraqlı məlumatlar vardır. Müəllif yazır: «Türk legionlarının yaradılması ideyası Türkiyə ordusu Baş Qərargahının generalı Ərkilətə məxsusdur. Belə ki, 1941-ci ilin payızında Hitlerlə onun Şərqi Prussiya iqamətgahında görüşən generalın təklifi Hitleri maraqlandırmışdı. Türkiyəni öz tərəfinə çəkməyə çalışan Hitler 1941-ci ilin noyabrında Türküstan legionunun yaradılmasına razılıq verdi. Alman ordusunun tamamilə məxfi olan 1941-ci il, 3 dekabr tarixli əmri ilə daha çox - müsəlman-Qafqaz, gürcü və erməni legionları formalaşdırılmağa başladı. Sonradan müsəlman-Qafqaz legionu şimali-qafqazlı və azərbaycanlı olmaq üzrə iki yerə ayrıldı. 1942-ci ilin ortalarında onlara daha ikisi əlavə edildi: Krım tatarları və Povoljye tatarları (82, s.250).

Lakin mühacirlərin Almaniya hökuməti təmsilçiləri ilə danışıqları heç də uğurlu getmirdi. Xüsusən, şimali qafqasiyalı, gürcüstanlı və azərbaycanlılar öz ölkələrinin müstəqilliyini irəli sürdüyündən almanlar tərəfindən qəbul edilmirdi. Belə olduqda, Azərbaycan təmsilçisi Məhəmməd Əmin Rəsulzadə və şimali qafqazlı Səid Şamil Almaniyadan çıxıb getmək məcburiyyətində qalmışdılar. Lakin fon Mende çətinliklə də olsa, M. Ə. Rəsulzadəni müvəqqəti olaraq saxlaya bilmişdi.

Qeyd edək ki, həmin dövrdə Almaniyada M. Ə. Rəsulzadənin başçılığı ilə Milli Azərbaycan Komitəsi də yaradılmışdı.

M. Ə. Rəsulzadə bu münasibətlə yazırdı: «1943-cü ildir. İkinci Cahan hərbi əsnasında Alman Xariciyyə Nazirliyindən fon Şulenburqin (sonradan Hitlerə yapılan sui-qəsd

işi ilə ilgili olaraq edam edilən) dəvəti üzərinə Berlində idim. Milli Azərbaycan Komitəsi təşəkkül etmişdi; bu komitə Milli Azərbaycan davasının əsaslarını alman məqamlarına qəbul etdirmək üzrə fəaliyyətə keçmişdi» (1, s.11).

M. Ə. Rəsulzadənin başçılıq etdiyi Milli Azərbaycan Komitəsi bu proqramla mübarizə aparırdı: **«Azərbaycanın milli haqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mücahidə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıxı surətdə işbirliyi təmin etmək» (42, s.26).**

«Milli Azərbaycan Komitəsi»nin yaradılması azərbaycanlıları çox sevindirmişdi. Azərbaycan legionerlərinə başçılıq edənlərdən mayor Ə. Fətəlibəyli M. Ə. Rəsulzadəyə aşağıdakı məzmunda bir məktub göndərmişdi: ***«Mərhəba, çox möhtərəm Məhəmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi olan Sizi cəbhədəki bütün əsgərlərimiz adından slamlayıram. Qəzetimizdə «Milli Azərbaycan Komitəsi»nin təşkil olunduğunu oxudum, bu məni çox sevindirir. Biz, cəbhədəki əsgərlər şübhə etmirik ki, Milli Komitəmizin üzvləri arasında hamımızca sevilən, legionumuzun qurucusu Babayev Beydullah da olacaqdır. Biz irəlidə də millətimizin hürriyyət və böyük Almaniya uğrunda fədakaranə bir tərzdə döyüşəcəyiz. Cəbhədəki bütün əsgərlərdən Sizə salam. Sizə xoş səhhətlər dilərəm. Sizin Ə. Düdənginski Fətəlibəyli» (1, s.12).***

Milli təmsilçiliklərin mətbu fəaliyyətinə də geniş yer verilirdi. Legionlar üçün həftəlik dərgilər və düşərgə qəzetləri də yayımlanırdı. Mətbu orqanlar milli dillərdə və bəzən də iki dildə, yaxud almanca paralel nüsxələr şəklində çap edilirdi. Bəzi milli təmsilçiliklər hətta ədəbiyyat sahəsində də fəaliyyət göstərirdilər. Azərbaycanlılar, türküstanlılar Volqa tatarları öz aralarında ədəbi dərgilər və şer kitabları nəşr edirdilər.

Şərq Nazirliyinə bağlı olan bütün milli təmsilçiliklərin öz büdcələri də vardı. Qafqaz irtibat heyətlərinin büdcəsi - 300 000 markaya, hərbin sonlarında isə 600 000 markaya çatırdı. Ümumi işlərin görülməsində ayrıca fondlardan da faydalanırdı. Burada çalışanlara ayda 350-400 marka həcmində maaş verilirdi.

Qeyd etdiyimiz kimi, almanlar hər vasitə ilə M. Ə. Rəsulzadədən faydalanmağa çalışırdılar. 1942-ci ilin oktyabrın 7-də M. Ə. Rəsulzadə ilə aparılan danışıqlar fayda vermədiyindən (çünki o, Azərbaycanın müstəqilliyi fikrini önə çəkirdi) o, Rumıniyaya-Buxarestə getmişdi. Almanlar onun getməsinə təəssüflənmiş, qalması üçün Drezden məktəblərinin birində müəllimlik təklif etmişdilər, lakin o, bununla da razılaşmamışdı. SS Mərkəzi dairəsi onu sonradan yenə aramış və işbirliyinə çalışmışdılar.

Beləliklə, M. Ə. Rəsulzadə ilə danışıqların alınmadığını və Milli Azərbaycan Komitəsində yalnız Hilal Münşinin təmsilçi olaraq Berlində qaldığını gördükdə almanlar X. Xasməmmədov qrupu ilə dialoqa başlamışdılar. Bu dialoqda azərbaycanlı «Qafqaz» qrupuna mənsub Fuad Əmircan, Abbas bəy Atamalıbəyov və Əbdürrəhman bəy Fətəlibəyli olmuşdu.

Qeyd etdiyimiz kimi, Hitleri heç bir milli komitə maraqlandırmırdı. 1942-ci ilin avqustunda hərb əsirlərinə uyğulanacaq və onlarla ilgilənmə əsasında ortaya çıxacaq məsələlərin həll edilməsi üçün «Şərq Millətləri Mərkəzi» qurulsa da, (137, s.75). Hitler «İrtibat (rabitə) heyətləri»nə üstünlük verirdi. Çünki, Mərkəz texniki yardıma nəzarət edirdi, «irtibat dairələri» isə təbliğat, dərgilər, öyrədici kurslarla məşğul olurdu. M. Ə. Rəsulzadə bununla əlaqədar yazırdı ki, Hitler təşkil olunan milli legionlarla ordu qərargahı arasında rabitə vəzifəsini görən məhdud və müəyyən işlərlə bağlı «Rabitə (irtibat) heyətləri» (Əlaqə qərargahları - al-

manca: «Ferbindunqştablar) (51, s.12) qurulmasını əmr etmişdi. Azərbaycan «Rabitə Heyəti" nin başına da Əbdürrəhman bəy Fətəlibəyli - Düdənginski gətirilmişdi. Qeyd edək ki, Azərbaycan legionerlərinə əvvəlcə qrup halında başçılıq edirdilər: Abbas bəy Atamalıbəyov, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski və Fuad Əmircan.

«İrtibat Heyəti»nin - Ferbindunqştabın hərbi, mülki və diplomatik şöbələri fəaliyyət göstərirdi. Hərbi şöbəyə Ə. Düdənginski, mülki işə F. Əmircan, diplomatik sahəyə isə A. Atamalıbəyov rəhbərlik edirdi. Birinci iki şöbənin müxtəlif bölmələri vardı. Hərbi şöbədə hərbi əsirlərlə bağlı məsələlərə Rəhim Babayev, legion məsələlərinə polkovnik (albay) İsrafilbəy İsrafilov, xüsusi hissələrə («SS-in milli birləşmələri») İslam Əliyev baxırdı. Mülki şöbədə azərbaycanlı fəhlələr məsələsi bölməsinə Səbzəli Məmmədov, azərbaycanlı mütəxəssislər bölməsinə Cümşüd Məmmədov, radioveriliş bölməsinə Ənvər Qazıyev rəhbərlik edirdi. Diplomatik şöbə isə Xarici İşlər Nazirliyi ilə müxtəlif tədbirlərin keçirilməsi və azərbaycanlıların işlədiyi müxtəlif alman müəssisələrindəki problemləri həll etmək istiqamətində fəaliyyət göstərirdi (17).

Lakin Ə. Fətəlibəylinin fəallığı ilə «Azərbaycan Milli Birlik Məclisi» də formalaşırdı. Azərbaycan Milli Birlik Məclisinin tərkibinə aşağıdakılar daxil idi: Ə. Fətəlibəyli, Abbasqulu Abbasov, Vəli Ələkbərov, İslam Əliyev, Abbas bəy Atamalıbəyov, Rəhim Babayev, Ceyhun Hacıbəyli, Balakişiyev, Hacı Hacınski, Cahangirbəy Balakişiyev, Hacı Hacınski, Cahangirbəy Kazımbəyov, Cəlil İsgəndərli, İsrafilbəy İsrafilov, Ənvər Qazıyev, Məcid Qarsalanlı, Nuşibəy Zülqədərov, Cabbar Məmmədov, Cümşüd Məmmədov, Murbaxan Məmmədov, Səbzəli Məmmədov, Fərman Məmmədov, Orucov, Süleymanov, Zahid Xoyski, Fuadbəy Əmircan və s (17).

Qeyd etdiyimiz kimi, Azərbaycan legionunun əsas ba-

zaları Polşa və Almaniya ərazilərində yerləşirdi. Sonralar isə legionu Polşanın Rodom məntəqəsindən Fransanın cənubunda yerləşən Rodes şəhərinə köçürdülər. 1944-cü ildə Azərbaycan legionerlərindən Ə.Fətəlibəylinin, İ.İsrafilovun, R.Babayevin, T.Məmməd və Ə.Qazıyevin fəallığı ilə «İrtibat Qərargahı»nın (Ferbindunqştabın) Paris filialı yaradıldı. Paris filialına Nuşibəy Zülqədərov, Rza Tağıyev və Əlibəy Hacınski daxil oldular. 1944-cü ildə Parisin almanlardan azad edilməsindən sonra Paris filialı da buraxıldı. Azərbaycan legionunun bir hissəsi məhv edildi, bir hissəsi isə ingilis-amerikan qoşunlarına təslim oldu (15).

Beləliklə, ayrı-ayrı xalqların nümayəndələrindən və hərbi əsirlərdən yararlanmağa o qədər də meylli olmayan Hitler getdikcə hərbi legionların yaranması zərurətini qəbul edirdi. Digər tərəfdən, hərbi əsirlərin çoxluğu və müharibənin davamlı xarakter alması da Hitleri belə addım atmağa məcbur edirdi.

AZƏRBAYCAN LEGİONERLƏRİNİN UĞURLU DÖYÜŞLƏRİ

Azərbaycan legionerlərinin başlıca qərargahı Polşa ərazisində yerləşirdi. Legionerlərin ümumi sayının 36 mindən 65-70 minədək olduğu göstərilməkdədir (12).

Bütün legionerlər könüllü təklif edilmiş nişan şəklində qollarında öz vətənlərinin fərqləndirici atributunu gəzdirirdilər (136, s. 36). Lakin, onlar alman forması geyməyə məcbur idilər. Legionerlərin sol qollarında üç rəngli bayrağımız və ay-ulduz həkk olunmuş fərqlənmə nişanı vardı. Bəzi hissələrdə isə papaqlarına əyri xəncər vururdular (75). Bundan əlavə, almanlar ayrıca qafqazlılar üçün igidliyə görə I, II, III dərəcəli gümüş ulduzlar təsis etmişdilər. Eyni zamanda, aldığı yaranın dərəcəsinə görə də onlara gümüş və bü-

rünc medallar verilirdi. Bundan əlavə, Ə. Fətəlibəylinin başçılıq etdiyi Azərbaycan Milli Birlik Məclisi tərəfindən 1944-cü ildə iki orden də təsis olunmuşdu: «Azərbaycan İstiqlaliyyəti» və «Boz Qurd». Hərbi döyüşlərdə xüsusi fərqlənənlər bu ordenlərlə mükafatlandırılırdı. Qeyd edək ki, bəzi alman zabitləri də bu ordenlərlə təltif edilmişdi (13).

Azərbaycanlı legionerlər alman dilini bilmədiyindən ayrıca tərcüməçilər qrupu da fəaliyyət göstərirdi. Qeyd edək ki, hələ 1942-ci ilin sentyabrın 7-də hərəsi 10 nəfərdən ibarət olan azərbaycanlı, gürcü, türküstan dilli tərcüməçilər qrupu yaradılmışdı və onlara əlavə alman dili dərsləri keçirilirdi (136, s. 69).

Azərbaycanlı legionerlərin geyimi, qidalanması da Sovet ordusundakından olduqca yüksək idi. Aşağıdakı cədvəldə legionerlərə ayrılan ərzaq və qida məhsullarının miqdarı verilmişdir:

Alman silahlı qüvvələrində legionerlər	Legionerlər		Drezden hər.kom. 15.05.45	Berlin hər. kom.lar 21.10.1941
	20.12.41	20.05.45		
Çörək	214	321	250	300
Ət	-	29	20	20
Yağ	10	19	7	7
Pendir	9	9	-	-
Qənd	21	32	15	15
Marmelad	21	25	-	-
Nehrmittel	14	21	15	30
Şəkər tozu	4 -	-	-	
Kartof	714	1214	500	400
Tərəvəz	161	161	-	-
Duzlu kələm	20	39	-	-
İçkilər	4	4	3	5
Duz	15	25	13	13

(136, s. 178)

Qeyd edək ki, hər bir taburun ayrıca adı, yaxud nöm-

rəsi vardı: «Aslan», «İgid», «Dönməz», «Berqman», «Cavad xan», 817, 818, 819 və s.

Bəzi taburlar Polşadakı Yedlino ərazisində formalaşırdı. Taburların şəxsi heyəti isə Malkino və Deblin düşərgələrində təlim keçmiş hərbi əsirlərdən ibarət idi. Sonradan legionun qərargahı Fransanın cənubuna, Rodes şəhərinə köçürüldü.

Qeyd edək ki, Aslan (804-cü) taburu 1942-ci ilin mayından formalaşdırılmağa başlamışdı. Taburun komandiri alman Qloger, müavini Ə. Fətəlbəyli idi. Bu tabur Krasnodar ərazisindəki döyüşlərdə fəallıq göstərmişdi. Sonradan Fransa ərazisinə, oradan isə Şimali İtaliyaya köçürülmüşdü. 1945-ci ilin aprelində ABŞ hərbi hissələri taburun bir hissəsini əsir götürür (16).

«İgid» taburu Sevastopol şəhəri istiqamətində döyüşmüş, sonra Rumıniya və Fransaya aparılmış, 1945-ci ildə ingilis-amerikan qoşunlarına əsir düşmüşdü.

«Dönməz» taburu 1942-ci ildə Ukraynanın Priluki şəhərində yaradılmış və Qafqaz cəbhəsində vuruşmuşdur. Tamanda, Xarkovda, Kirovoqradda və Odessada «Dönməz» sovet ordusuna qarşı döyüşlərdə fəallıq göstərib. Varşava üsyanının yatırılmasına da həmin tabur cəlb edilmişdi (16).

818-ci tabur da 1942-ci ildə yaradılmış və Qərbi Ukraynada, sonradan Polşa ərazilərində sovet ordusu hərbi hissələrinə qarşı vuruşmuşdur. Sonradan tabur Fransaya gətirilmiş, müharibənin sonlarında onların bir qrupu müttəfiq qoşunları tərəfindən tərk-silah edilib sovet qoşunları komandanlığına təhvil verilmişdi (16).

819-cu tabur isə əsasən Polşa ərazisində döyüşlər aparırdı. Bəzi hallarda keşikçi funksiyasını yerinə yetirən tabur 1945-ci ildə sovet ordusu hissələri tərəfindən dağıldı (16).

Azərbaycanlı legionerlər döyüşlərdə əsl qəhrəmanlıq göstərirdilər. Azərbaycanlı könüllülərin ilk uğurlu döyüşlə-

rindən biri Qafqaz bölgəsində Qaraçay türklərinin yaşadığı ərazilərdə olmuşdu. Ruslara qarşı vuruşan azərbaycanlı əsgərlər ilk azad etdikləri kəndin adını «Zəfər kəndi» qoymuşdular. Bu döyüşdən sonra azərbaycanlı əsgərlər yüksək rütbəli alman zabitinin təşəkkürünü qazanmışdılar. Döyüşlərdə xüsusilə fərqlənən Fətəlibəyli Düdənginski böyük şücaət göstərən azərbaycanlı və Qafqasiyalı türk dəstələrinə belə müraciət etmişdi: «Qardaşlarım, bu qarlı dağların ardında bizi səbrisizliklə gözləyən milyonlarca gözləri yaşlı əsir türk qardaşlarımız vardır. Onları qurtarmaq bizim namus borcumuzdur, irəli...» (138, s. 2).

Dəstəyə başçılıq edən alman zabiti Şarnberq bu qəhrəmanlıqdan vəcdə gələrək «bravo-əhsən, aslanlar» söyləmiş və məhz həmin döyüşçülərin çoxunun toplandığı taburu «Aslan» adlandırmış, Fətəlibəyli isə tabur komandiri olmuşdu. Qafqaz cəbhəsindən Krıma çəkilərkən yetmiş azərbaycanlı mücahidlə birgə alman albayı Şarnberq də şəhid olmuşdu.

Azərbaycanlı legionerlərdən biri Qafqaz uğrunda - Vətənlərini bolşevizmdən və rus əsarətindən xilas etmək üçün apardıqları döyüşü, onların yerli əhali tərəfindən necə qarşılanmasını belə xatırlayırdı: «Almanlar dağlıların daxili işlərinə qətiyyən müdaxilə etmədilər. Dağlılar da özlərinin ənənəvi qonaqpərvərlik nəzakəti ilə almanları əzizləyir, hətta onları milli və dini bayramlarına dəvət edirdilər» (48, s. 64).

Azərbaycanlı legionerlərin uğurlu döyüş əməliyyatları tez-tez olurdu. Bu uğurlar azərbaycanlılarla almanların münasibətlərini daha da yaxınlaşdırırdı. Azərbaycanlı legionerlər xatırlayırdı: «Böyük bir qəsəbədə dayandıq. Təsadüfən «Aslan» taburu komandanı, həmçinin, çadırını eyni məntəqədə qurmuşdu. Minbaşı Elxan bəyin ziyarətinə getdim. Dostum mənim üçün bir səhra ziyafəti təşkil etdi. Fə-

qət bu halda taburun radioçuları sol cinahda bütöv bir alman diviziyasının dəmir məftillərə alındığını bizə xəbər verdilər. Ruslar ani bir basqın etmişdilər. O saat Elxanla baş--başa verərək, vəziyyəti müzakirə etdik və silahdaşlarımızı xilas edəyim, - deyə qəti bir qərara gəldik. Mən təcili geri döndüm. Bir neçə saat sonra hər iki taburumuz hücuma keçdi. Hazırladığımız plana görə, düşmən dəmir məftilləri iki tərəfdən qıracaq və rusların özləri dəmir məftillərə alınacaqdılar. «Timur» və «Aslan» taburlarımız ildırım sürətilə irəlilədilər.«Allah, Allah» sədası rus torpağını bir daha titrətdi. Bütün bir ehtiyat ordu basqın edirdi sanki. Təbii, almanlar da bir qəhrəman kimi vuruşurdu. Ruslar iki atəş arasında qalaraq, xeyli itki verdilər. Sağ qalanlar isə fərarilik etmək istəyirdilər. Fəqət onların da sinələrinə türk süngüləri saplandı. Qəhrəmanlarımız həm süngü işlədir, həm də hayqırırdılar: - Türküstan naminə, Qafqaz naminə, Krım naminə, İdil-Ural naminə, Türklər naminə, İnsanlıq naminə... Bəli, bütün bu döyüşlər türklük və insanlıq naminə edildi. Ruslarla bərabər döyüşmək istəməyən və «yoldaş» deyə həqarətə uğrayan soydaşlarımız, ruslara qarşı döyüşlərdə bir aslan kimi kükrədilər. İşin sirri harda idi? Bəlli deyildir. Milli idealları uğrunda döyüşə girən bütün övladlarının ümumi və tarixi bir adları vardır: «Aslan» (4, s.95-96).

Azərbaycan legionerlərinin cəsarətli və qorxmaz olduğunu, döyüşlərdəki şücaətini sübut edən bir başqa xatırlamada isə göstərilirdi: «Taburumuz yenicə təşkil edilmişdi. Nizami soydaşlarımız ruslarla bir an əvvəl qarşı-qarşıya gəlmək istəyirdilər. Fəqət bağlı olduğumuz alman diviziyasının komandanı bizim cəbhə arxasında gözləməmizi əmr etdi. Yəqin ki, bizə etimad etməyirdi. Nə edə bilərdik. Almanların «Bəfexi, ist bəfexi» (əmr-əmrdir) sözlərini xatırladıq və gözlədik. İki gün sonra ruslar cəbhə arxasındakı bir təpə ətrafında paraşütçülər endirdilər. Bundan daha yaxşı bir fürsət

ola bilməzdi? Heç bir əmr-filan gözləmədən hərəkətə keçdik. Mən rusları tələyə salmaq üçün plan hazırladım və onu sübut etdirməyə başladım. Rus dilində yaxşı bilən bir soydaşımız rus komandirinin əleyhinə bu sözlərlə xitab etdi: - Bizim də hissəmiz almanların işğal etdikləri məntəqələrdə fəaliyyət göstərmək üçün göndərilmişdir. İki gün öncə bütöv bir alman birliyini məhv etdik və alman əsgərlərinin hərbi paltarlarını geydik. Bu hərbi paltar hiyləsi ilə daha böyük alman birliklərini tələyə salacağıq. Haydı, bizim qərargahımıza doğru gedəyin. Edəcəyimiz bir çox işlər var.

Paraşütçü birliyinin komandanı öz əsgərlərini başsız buraxaraq bir neçə nəfər zabit ilə bərabər bizim qərargahımıza qədər gəldi. Budur, mən də onun belə bir ağılsızlıq etməsini istəyirdim. Tez özünü və zabitlərini yaxaladım. Başsız qalmış əsgərlərini isə bir güllə belə atmadan əsir aldıq» (48, s.98-99).

«Onlar türklərdir» xatirə kitabında azərbaycanlı legionerlərin döyüşdəki qəhrəmanlığı belə təsvir olunurdu: «Artıq alman komandanlığının etimadını qazanmışdıq. Bizi cəbhəyə göndərdilər. Mənəviyyatımız bir daha möhkəmlənmiş oldu. Diviziya komandanlığı qəsəbəyə doğru gələn hər iki yolu müəyyənləşdirdi və yeni bir hücum planı hazırlamağa başladı. Diviziya komandiri əmr verdi, hazırlıq işlərimizi bir gündə qurtardıq və ertəsi gün hələ tamamilə təmizlənməmiş olan minalı yollar arasından hücuma başladıq. Ruslar çaşmışdılar. Buna baxmayaraq, üstünlük bunların tərəfində olduğuna görə yerlərini tərk etmək istəmirdilər. Dəhşətli bir döyüşdən sonra əsgərlərimiz irəlilədilər və düşmənlə üzbəüz vuruşmağa başladılar. Döyüş şiddətləndikcə, Stalin strategiyasının yeni bir formasının şahidi olduq. Rus topçuları bütün döyüş sahəsini topa tutdular və artıq biri digərinin sahəsinə daxil olmuş hər iki tərəfin qüvvələrini məhv etmək istədilər. Bu halda üçlü təyyarə eskad-

rası yardımımıza gəldi. «Messer»lər düşmən batareyasını bir neçə dəqiqədə susduraraq, rəsmi keçid etmiş kimi döyüş sahəsi üzərindən uçub keçdilər. O dəqiqə maşınların səs və gurultuları da düşməni vahiməyə saldı. Ruslar artıq məğlub olmuşdular. Biz düşmənlərdən bir qismini məhv edərək bir xeyli irəliləmiş və döyüş həyəcanı içində iki düşmən qüvvəsinin arasına soxulmuşduq. Qırmızı həriflər fürsət tapıb hər iki tərəfdən üzərimizə hücum etdilər. Dərhal süngülərimizi taxdıq və rusların «ura» bağırtılarına qarşı «Allah» - deyə hayqırdıq. Türkün «Allah, Allah» sədası qarşısında rusun «ura» bağırtıları elə sönük və zəif idi ki... Bu qanlı döyüşdə ruslar məğlub oldular, bir çox rus zabiti və əsgərlərini əsir aldıq. Diviziya komandanı bütün yüksək hərbi rütbəlilərlə bərabər bizi təbrik etməyə gəldi. Soydaş aslanlarımı alman dostlarımıza təqdim etdim və yeni hərbi formaları ilə əski çar ordularını andıran rus əsgərlərini də onlara göstərdim. Dostlarımız və düşmənlərimiz dərin bir heyrət içində idilər. Çünki, rusları məğlub etmiş olan aslanlar, dünən «yoldaş» deyə həqarət etdikləri türk uşaqları idi. Almanlar heyrət edirdilər. Çünki, hünər göstərən həmin əsgərlər dünənə qədər «Untermanş» («ən aşağı adam») - deyə onların istehza etdikləri əsirlərdi» (48, s. 99-102).

Azərbaycan legionerlərinin döyüşlərdəki fədakarlığı alman hərbi komandanlığı tərəfindən lazımınca qiymətləndirilirdi. Keçmiş legionerlərdən biri ilk keçirdikləri uğurlu döyüşü belə xatırlayırdı: 1942-ci ilin yanvar ayında Polşanın Yedlino şəhərində toplanmış 7000 qafqaziyalılardan mürəkkəb əsgəri birlik - 804 saylı tabur (bu tabur sonradan əsasən azərbaycanlıların adı ilə bağlandı) alman minbaşısı Qlogerin rəhbərliyində Qafqasyaya göndərildi. Taburumuz «Mostovoy» bölgəsinin «Çubinski» kəndinə daxil oldu. Burada 4-cü alman dağ alayı ilə birləşərək hərəkət əmrini aldı. Avqustun 26-da səhər saat 4-də minbaşı Qlogerin əmri ilə taburumu-

zun 2 və 4-cü bölükləri ilə bir alman dağ alayının köməyi ilə hücuma keçdik. Kəndlərə iki yüz metr qalmış komandir Xasay taqım komandirlərinə son əmrlərini bildirdi. Buna uyğun hücuma keçdik... Bizim vuruşmamıza şahid olan alman dağ bölüyünün komandiri Moritz bunları söylədi: «Məni 4-8 cü dağ alay komandiri general N. Braun sizin hamınızdan raport yazmaq üçün bura göndərdi. Vuruşmağınızı gördüm, heyran qaldım. Əsgəri məktəbdə ikən türklərin hərb meydanında şücaətlə vuruşduqlarını oxumuşdum. Bu gün sizi gördükdən sonra buna şahid oldum. Məruzən sizi mədh edən sətirlərlə dolacaqdır» (40, s. 25-26).

Belə uğurlu döyüşlərdən sonra alman yüksək komandanlığının xüsusi təbriki də oxunurdu. Təsadüfi deyildi ki, 1942-ci ilin oktyabrında Şərq könüllü birliklərinin komandanı general Köstrinq «Bahovisko» bölgəsində 804-cü taburun bütün döyüşçülərini toplayıb demişdi: «Sizin yeni bir qəhrəmanlığınızı daha duydum, çox sevindim və sizi xüsusi olaraq təbrik etmək üçün buraya qədər gəldim. 804 saylı taburun buraya göndərilməsinin səbəbi, sizə olan etimadımızı bir daha gücləndirmək üçündür. İndi biz qafqaziyalıların ruslara qarşı almanlardan daha yaxşı çarpışmaq qüdrətində olduğunu anladıq. Yaşasın vətən uğrunda çarpışan qafqasya qəhrəmanları!» (140, s.25-26).

General Köstrinq axşam ziyafətində isə tərifli sözlərini belə yekunlaşdırmışdı: «Mən uzun illər Moskvada hərbi attaşe olaraq çalışdım. Bu etibarla sizləri yaxşı anladım. Baş komandanlığa da, qafqaziyalıların yalnız indi deyil, 100 ildən bəri vətənləri üçün vuruşduqlarını söylədim və bu ölkə övladlarının şücaətini tərif etdim» (140, s. 25-26).

Azərbaycan legionerlərinin yüksək döyüş bacarığı və qorxmazlığı haqqında Berlində çap edilən «Siqnal» qəzetində də çoxlu məlumatlar dərc olunurdu: «Aslan sözünün azərbaycanca mənası «şir» deməkdir. 1943-ci ilin yazında,

bu söz bütün Kubanda şərəf və qəhrəmanlıq rəmzinə çevrildi. Cəbhənin bu bölgəsindəki döyüşlərdə fərqlənən mayor Fətəlibəylinin başçılıq etdiyi Azərbaycan taburu döyüşçülərini «Aslan» adlandırırdılar. Mayor isə indinin özündə belə həyəcanını gizlətmədən bu qəhrəman günləri xatırlayır. Yüksək şərəf rəmzi hücum nişanıdır. Yalnız əlbəyaxa döyüşdə müstəsna bacarıq və kişilik göstərənləri həmin nişanla təltif edirlər. Kuban çöllərində azərbaycanlı döyüşçüləri şərqli könüllülərdən birinci olaraq ilk belə hücum nişanlarına layiq görüldülər. Belə nişanlardan biri mayorun da döşündən asılıb» (108, s.4).

III FƏSİL

1943-CÜ İLİN NOYABRINDA BERLİNDƏ MİLLİ AZƏRBAYCAN QURULTAYININ KEÇİRİLMƏSİNDƏ TƏŞKİLATÇILIĞI VƏ ÇIXIŞI

«Yeni Azərbaycanda daxili münaqişələrə, sinfi müharibələrə yer ola bilməz. Biz yol verə bilmərik ki, Yeni Azərbaycanda köhnə hadisələrin hesabı aparılsın. Hər bir inciklik unudulmalıdır. Biz xalqımızın gücünü bu cür dağıdıcı işə sərf edə bilmərik. Xalqın bütün enerjisi yaradıcı, mədəni işə istiqamətləndiriləcək. Tam sərbəstlik yaratmaq və işləmək imkanı bolşeviklərin dövründə kim olmasına baxmayaraq hər bir azərbaycanlıya veriləcək. Yeni Azərbaycanda bir–biri ilə mübarizə aparan siniflər ola bilməz. Vahid zəhmətkeş Azərbaycan xalqı olacaq. Biz Azərbaycanda yaşayan digər millətlərin zəhmətkeşlərinə qonaqpərvər münasibət bəsləyəcəyik,təki onlarda bizimlə çalışmaq həvəsi olsun».

BERLİNDƏ MİLLİ AZƏRBAYCAN QURULTAYININ KEÇİRİLMƏSİ. QURULTAYIN QƏBUL ETDİYİ QƏRARLAR

1943-cü ilin noyabrın 6-da Almaniyanın Berlin şəhərindəki «Kayserof» mehmanxanasında Milli Azərbaycan Qurultayı keçirildi (5) Azərbaycan Milli Qurultayının keçirilməsində əsas təşəbbüskar Ə. Fətəlibəyli idi. Belə ki, o, Almaniyadakı müxtəlif azərbaycanlı qurumların nümayəndələrilə danışıqlardan sonra, həmin qrupların birləşdirilib vahid orqan yaradılması ideyasını Vermaxt qərargahında irəli sürür və bu fikir qəbul edilir (Qeyd edək ki, həmin vaxt Almaniyada Milli Azərbaycan Komitəsi, Gənc Azərbaycanın Millətçilər Qrupu və digər qruplar vardı). SSRİ-yə və bolşevizmə qarşı yönələcək bu birləşmədən Almaniya dövləti də öz maraqlarına uyğun faydalanmaq istəyirdi. Bu məqsədlə də Almaniya hökuməti Azərbaycan Milli Qurultayının keçirilməsinə şərait yaratdı. Avropanın müxtəlif ölkələrindən dəvət olunmuş azərbaycanlılar, cəbhələrdən, döyüş bölgələrindən gələn əsgər və zabitlər, qonaqlar Milli Azərbaycan Qurultayının keçirildiyi ilk günü salona toplaşmışdılar. Mehmanxana salonu çoxlu sayda adamlarla dolmuşdu. Salon üçrəngli milli Azərbaycan və Almaniya bayraqları ilə bəzədilmişdi. Qurultaya Berlindən gəlmiş nümayəndə Tuqay bəy ayağa qalxaraq ağsaqqallardan birinin tədbiri açmasını xahiş etdi.

Sürəkli alqışlar altında tanınmış Azərbaycan hərbçisi, bir zamanlar Gəncə üsyanına başçılıq etmiş Cahangir bəy Kazımoğlu kürsüyə qalxıb Milli Azərbaycan Qurultayını açıq elan etdi. Cahangir bəy öz çıxışında qurultayın milli istiqlal tarixində oynadığı mühüm rol və əhəmiyyətini qeyd

etdikdən sonra, tədbirin çağırışına təşəbbüs edən vətəndaşlarımıza və milli məsələlərimizin həllinə imkan yaradan dost almanlara toplantıdakılar adından təşəkkürünü bildirərək dedi: **«Yurddaşlarım! Azərbaycanın azadlığı və istiqlalı uğrunda bundan 23 il əvvəl bolşevik istilaçılarına qarşı mücahidəyə girən və mübarək vətənin hər qarış torpağını qanı ilə boyayan Milli Azərbaycan Ordusunun köhnə bir zabiti olaraq mən, o ordunun davamçıları olan qəhrəman legionerlərimizin nümayəndələrini salamlamaqdan böyük bir zövq duyuram**. Azərbaycan xalqı bir çox dəfələr öz milli hüququnu silah ilə müdafiə etmək məcburiyyətində qalmışdır. Cavad xanın milli istiqlal uğrundakı qəhrəman mücahidəsi, bolşevizmə qarşı edilən Gəncə, Şəki, Zaqatala, Qarabağ üsyanları və digər bir çox silahlı çıxışlar azadlıq yolunda aparılan bu mücahidələrin parlaq nümunələridir. Bu gün də bizim qəhrəman legionerlərimiz, Böyük Almaniyanın müzəffər ordusu ilə çiyin-çiyinə, yalnız öz istiqlaliyyəti üçün deyil, eyni zamanda bəşər mədəniyyətinin mühafizəsi üçün mücahidə edirlər. Bolşevizmə qarşı mücahidə hər millətin müqəddəs borcudur və biz azərbaycanlılar bu borcumuzu yerinə yetirməkdən böyük bir xoşbəxtlik hiss edirik.

Vətəndaşlar! Hərb qəti bir mərhələyə girir və biz, millətlərin taleyini həll edəcək olan hadisələrə hazır olmalıyıq. Aramızda milli birlik və intizam yaratmaq bizim üçün ən lazımlı bir vəzifədir. Bu məsələdə qurultayımız öz sözünü söyləməlidir. Biz daima öz milli hüququmuz uğrunda mücahidə etdik və edəcəyik. Bu mücahidə üçün biz, bütün xalqın etimadını qazanan avtoritetli və qüvvətli bir təşkilata malik olmalıyıq. Bugünkü toplantımızın əsaslı məsələlərindən biri bu milli təşkilatı qurmaq olacaqdır. Ona görə qurultayımızı idarə etmək üçün vətəndaşların bir Rəyasət Heyəti seçmələrini rica edirəm» (5).

Qurultayda Cahangir bəyin giriş sözündən sonra döyüş

meydanından yenicə gəlmiş zabit Süleymanov söz alaraq, Rəyasət Heyətinin seçilməsini təklif etdi. Abbas bəy Atamalıbəyova tapşırıldı və o, kürsüyə qalxıb Qurultaya sədrlik etdi və qısa, lakin dərin mənalı nitq söylədi. Rəyasət Heyətinin sədri Abbas bəy Atamalıbəyov çıxışında dedi: «Əziz vətəndaşlarım! Bu gün Azərbaycan milli hərəkatı tarixində ən görkəmli günlərdən biridir. Uzun bir fasilədən sonra azəri türkləri yenidən səslərini ucaltmaq və xalqımızın nəsillərinin uğrunda vuruşduqları milli idealları gur səslə söyləmək imkanına malik olmuşlardır. Bu imkanı biz, bu gün böyük Almaniyanın paytaxtı Berlində əldə etdiyimizdən,bu iş üçün böyük alman xalqına, onun rəhbərinə və şanlı legionerlərimizin çiyin-çiyinə vuruşduqları qəhrəman əsgərlərinə öz dərin təşəkkürümüzü izhar edir və salamlarımızı yetiririz.

Vətənimizin azadlığı və istiqlalı uğrunda mücahidədə xalqımız bir çox qəhrəmanlıqlar göstərmişdir. Ən yüksək ideallarımız uğrunda şəhid olanları xatırlamalıyıq və mən onların əziz xatirələrini yada salmaq üçün hamınızın ayağa qalxmanızı təklif edirəm (Qurultay nümayəndələri ayağa qalxarkən salonda tam bir səssizlik və hörmət vardı). İkinci növbədə isə, düşüncələrimiz orada, doğma vətənimizə, ana-bacılarımızın, ata və qardaşlarımızın qaldığı yerə çevrilməlidir. Onlara səmimi salamlarımızı yetirməklə, ümid verməliyik ki, tezliklə biz, azad edilmiş xoşbəxt vətənimizdə öz əziz qohumlarımız və yaxın dostlarımızla görüşəcəyiz. Daha sonra düşdüyümüz vəziyyət və şəraitdən asılı olaraq, burada - bizim aramızda bulunmayan və öz təbriklərini belə göndərə bilməyən vətəndaşlarımız olmalıdır. Bunlar - Türkiyədə, İranda və həmçinin başqa ölkələrdə olan çoxsaylı mühaciratımızdır. Lakin əgər onlar cismən burada deyildilərsə də, ruhən və fikrən bizimlə birdirlər və bizim burada söylədiyimiz fikir və ideallarda bütünlüklə və tam

qəlblə şərikdirlər. Onların arasında illər boyu bu idealların təntənəsi uğrunda çalışan şəxslər vardır. Mən bunlardan 1. Məhəmməd Əmin Rəsulzadə; 2.Xəlil bəy Xasməmmədli; 3. Mustafa bəy Vəkilli; 4. Mir Yaqub bəy Mehti; 5. Şəfi bəy Rüstəmbəyli; 6. Adil xan Ziyad xan və Abduləli bəy Əmircanın qurultayımızın fəxri üzvləri hesab edilməsini təklif edirəm (Hər tərəfdən alqış dalğaları yüksəldi. Təklif bir səslə qəbul edildi). Mən istiqlal uğrundakı milli mücahidəmizin tarixi üzərində dayanmayacağam. Bu haqda indicə şücaətli mayorumuz Fətəlibəyli sizə öz siyasi məruzəsini söyləyəcəkdir. Mən yalnız qeyd etmək istərdim ki, son 23 il tariximizin ən qara dövrü olmuş, xalqımız yadelli bolşevik hakimlərinin əsarəti altına düşmüşdür. İştə buna görə, minlərlə vətəndaşlarımız könüllü olaraq Qızıl Ordu sıralarından qaçır və bu gün milli legion sıralarında alman əsgərləri ilə yan-yana qəhrəmancasına vuruşurlar. Azərbaycan xalqının öz ənənəvi idealları uğrunda mücahidəsi mütəşəkkil olmalıdır. Yalnız, bütün qüvvətlərmizin milli birlik ideyası ətrafında sıx sıralarla və intizamla toplanması bizi milli ideallarımızın təntənəsinə və vətənimizin gələcək xoşbəxt həyatına apara bilər. Bu gün toplanmış olan qurultayın məqsədi bu milli birliyi yaratmaq və onu həyata keçirməkdən ibarətdir. Sıx toplanmış və öz ideya cəbhəsində möhkəm duran millət hər zaman dostların ruh yüksəkliyinə, hörmətinə səbəb olur və düşmənləri onunla hesablaşmağa məcbur edir. Azərbaycanlıların müstəqil həyat sürmək və öz doğma torpaqlarının azad sahibləri olmaq tələbi - müqəddəs və parçalanmaz bir haqdır. Bir çox yüzillik ənənələr bizi, Şimali Qafqaz, Gürcüstan və Ermənistan xalqları ilə bağlamışdır. Gələcək, bu xalqlar ailəsini vahid dostluqda daha sıx bağlamalı və bağlayacaqdır. Bu, yalnız tam bərabərlik və qarşılıqlı hörmət əsasında ola bilər. Azərbaycanlılar heç bir zaman unutmamış və unutmazlar

ki, onlar türk irqinə və türk qanına mənsub xalqdır. Bunun üçün də qohumluq və hüsn-rəğbət hissi onları digər türk xalqları ilə də bağlayır. Bu xalqlar içərisində Türküstan, İdil-Ural və Krım xalqları da bizim kimi eyni şərait daxilində bolşevik zülmündən azad olmaq istəyi ilə öz istiqlaliyyəti uğrunda mücahidə edirlər. Biz, bu mücahidədə onlara ürəkdən müvəffəqiyyətlər diləyirik. Bu gün qurultayımızın açılışı münasibətilə, öz sevincini izhar etmək və sizi səmimi qəlblə salamlamaqla, xalqımızın və əziz vətənimizin səadəti üçün qurultay işlərinin uğurlu olacağına inanıram. Yaşasın Müstəqil Azərbaycan!

Yaşasın Böyük Almaniyanın qalibiyyəti və bu qalibiyyətə bağlanan ümidlər» (5).

Abbas bəy çıxışından sonra sözü Mayor Ə.Fətəlibəyliyə verdi. O, dedi: «Biz çar valilərinə, bolşevik əsirlərinə dözmədiyimiz kimi, hər hansı bir millətin hakimiyyətinə də dözməyəcəyik. Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə onlar idarə edəcəkdir» (5).

Mayor Ə.Fətəlibəyli siyasi məzmunda maraqlı və əhatəli çıxış etdi. Mayor Ə.Fətəlibəylinin çıxışı bir saat on dəqiqə çəkdi. Onun çıxışı tez-tez səmimi alqışlarla kəsilirdi. O, «Azərbaycan müstəqil olmalıdır» sözləri ilə nitqini qurtararkən hər tərəfdən alqışlar və «Yaşasın Azad Vətən!» sözləri yüksəldi.

Ə.Fətəlibəylinin 1943-cü ilin noyabrın 6-da keçirilən Milli Azərbaycan Qurultayındakı məruzəsindən:

«Azərbaycanın Milli azadlıq hərəkatının rəhbəri kimi Mili Birliyin Azərbaycan Məclisi öz qarşısına aşağıdakı vəzifələr qoyur:

1)Bolşevizmin məhv edilməsi və Qafqaz Birliyinə daxil olan müstəqil Azərbaycan dövlətinin yaradılması

2)Bolşeviklərsiz və istismarçılarsız Qafqazın bütün xalqları ilə əməkdaşlıqda yeni Azərbaycanın yaradılması.Yeni Azərbaycan aşağıdakı prinsiplər üzərində qurulacaq

a)Bütün zəhmətkeşləri sərbəst işləmə imkanı ilə təmin etmək və namuslu əməyi əsasında zənginləşdirmək

b)Kolxozların ləğv edilməsi və torpaqların kəndlilərə paylanması

3)Elmin inkişafı və insanların sərbəst yaradıcılıqla məşğul olması üçün hər bir şəraitin yaradılması

4)Azərbaycan Elmlər Akademiyasının təsis olunması. Bütün əhaliyə aşağı,orta və ali təhsil ocaqlarında pulsuz təhsil verilməsi.Tələbələrin dövlət təqaüdü ilə təmin olunması

5)Bolşeviklər tərəfindən məhv olunmuş milli mədəniyyətin, milli dilin bərpa edilməsi

8)İstismarçılığın yaranmasını təqib etmək

9)Kənd və şəhərlərin yenidən qurulması, istirahət güşələrinin, yolların, hidroelektrik stansiyaların tikilməsi və xalqın həyat şəraitinin və mədəniyyətinin yüksəlməsinə imkan yaradan və Azərbaycanı qısa müddətdə çiçəklənən, xoşbəxt ölkəyə çevirən bütün tədbirlərin həyata keçirilməsi.

Yeni Azərbaycanda daxili münaqişələrə, sinfi müharibələrə yer ola bilməz. Biz yol verə bilmərik ki, Yeni Azərbaycanda köhnə hadisələrin hesabı aparılsın. Hər bir inciklik unudulmalıdır. Biz xalqımızın gücünü bu cür dağıdıcı işə sərf edə bilmərik. Xalqın bütün enerjisi yaradıcı, mədəni işə istiqamətləndiriləcək. Tam sərbəstlik yaratmaq və işləmək imkanı bolşeviklərin dövründə kim olmasına baxmayaraq hər bir azərbaycanlıya veriləcək. Yeni Azərbaycanda bir-biri ilə mücadilə aparan siniflər ola bilməz. Vahid zəhmətkeş Azərbaycan xalqı olacaq. Biz Azərbaycanda yaşayan digər millətlərin zəhmətkeşlərinə qonaqpərvər münasibət bəsləyəcəyik,təki onlarda bizimlə çalışmaq həvəsi olsun. Digər millətlərin milli namusu və milli

nailliyəti Azərbaycanda sıxışdırılmayacaq. Bütün qafqazlılar Yeni Azərbaycanda özlərini evlərindəki kimi hiss edəcəklər.

Biz azərbaycanlılar yaxşı bilirik ki, bu məsələləri yalnız fədakarlıq və güclü iradə ilə həyata keçirə bilərik .

Biz əminik ki, Qafqazın və Azərbaycanın azad olunması yalnız bütün Qafqaz xalqlarının əlində silah birləşmiş gücü ilə mümkündür.

Biz bizə mənəvi dəstək verən, bütün həyat yolumuzu işıqlandıran azadlıq və doğma Qafqazın nailliyyəti və namusu uğrunda mübarizə yolunu tapdıq.

Biz Klauzerin mövqeyindən yanaşırıq: «Xalq üçün onun namusu və azadlığından uca heç nə yoxdur. O onları son nəfəsinə qədər qorumalıdır, çünki onun milli namusunu və azadlığını qorumasından müqəddəs borcu yoxdur».

Heç bir şübhə yoxdur ki, bütün qafqazlılar öz müqəddəs borcunu yerinə yetirəcək və son nəfəsinə qədər Almaniya ilə birgə bəşəriyyətin düşməni olan bolşevizmlə vuruşacaq və Qafqaz xalqlarını bolşevik uçurumundan azad edəcəklər

Var olsun azad və mustəqil Azərbaycan!

Var olsun vahid,azad və müstəqil Azərbaycan!» (2)

Qurultayın axşam toplantısında çıxışlar davam etdirildi. Berlin nümayəndələrindən Tuqay bəy, Abdulla Babayev, İsrafil bəy, Fuad bəy, Molla Axundov, bölük komandanlarından Orucov, Balakişiyev və SS hissələri adından Bağırov, Əliyev və digərləri çıxış etdilər.

Nitqlərdən sonra Azərbaycan Milli Qurultayı adından alman xalqının fürerinə təbrik teleqramı göndərildi. 10 dəqiqəlik fasilədən sonra ober-leytenan Ridel alman xalqının füreri Adolf Hitler adından general Heyendorfun göndərdiyi təbrik teleqramlarını oxudu. Təbrik teleqramında yazılmışdı: «Möhtərəm mayor bəy! Legionerlər və Azərbaycan

vətənsevərləri adından göndərdiyiniz təbrik teleqramına qarşı təşəkkür izhar etməyi və həmçinin sizi qəlbən təbrik etməyi Fürer mənə tapşırdı. Sizə sadiq mayor bəy Fətəlibəyli Düdənginskiyə. Hörmətlərlə (Fürerin adı ilə). Meissner. Kaiserhof oteli, Berlin W8, Vosstr.1. 7.XI.43» (5).

Mayor Ə.Fətəlibəylinin Hitlerə göndərdiyi teleqram isə aşağıdakı məzmunda idi: «Böyük Almaniya xalqının Fürerinə. Azərbaycanlı legioner və vətənsevərləri Sizə, Böyük Almaniya dövlətinin Fürerinə, bəşəriyyət kulturunun ən qorxunc düşməni olan bolşevizmə qarşı xalqların azadlıq mücahidəsinin başçısına, bu qəti vuruşmaq imkanını yaratdığına görə təşəkkürlərini bildirməyi şərəf sanırlar, öz vətənlərinin və bütün Qafqazın azadlığı və istiqlalı üçün çarpışan azərbaycanlılar alman silahının qələbəsinə və yeni, ədalətli nizamın qurulacağına əmindirlər. Bütün azərilər son nəfərimiz qalıncaya qədər vəzifələrimizi şərəflə yerinə yetirəcəyimizə və sizin yüksək etimadınızı doğruldacağımıza inanmanızı arzu edirlər. Dərin hörmətlərlə, Milli Azərbaycan Qurultayı adından: Mayor Fətəlibəyli» (5).

Sonra Qurultaya dəvət olunmuş mühacirətdə yaşayan qonaqlara söz verildi. Şimali qafqazlılar adından Əhmədnəbi bəy Maqoma, gürcülər adından Qablinai, ermənilər adından Camalyan, Türküstanlılar adından Vəli bəy Qəyyum, İdil-Urallılar adından Şəfi bəy Elmas Milli Azərbaycan Qurultayını hərarətlə təbrik etdilər.

Milli Azərbaycan Qurultayının axşam toplantısı Azərbaycanın milli marşı və alman milli himninin xor oxunması və milli oyunların ifası ilə yekunlaşdı.

Noyabrın 8-də Milli Azərbaycan Qurultayının səhər toplantısında ayrı-ayrı məsələlərlə bağlı da bir çox çıxışlar oldu. Axşam isə qurultay nümayəndələrinə ziyafət verildi və qurultay nümayəndələri bir-birini salamlayaraq ayrıldılar.

Milli Azərbaycan Qurultayı beş maddədən ibarət olan qərar qəbul etdi: 1) 1918-ci il, 28 Mayıs - 1920-ci il 27 aprelə

(nisan) qədər davam etmiş Milli Azərbaycan hökuməti dövrü şanlı tarixmizin ən parlaq səhifəsini təşkil edir; 2) Vətənimiz bolşevik istilasına uğradıqdan sonra keçən bu 23 illik müddət içərisində, millətimizin istər vətən daxilində və istər yad ellərdə apardığı (yürütdüyü) şanlı və qanlı mücahidə yalnız bu istiqlalın bərpası uğrunda olmuşdur; 3) Qurultay, bu ağır şərait daxilində aparılan mücadilədə canlarını vətənin azadlığı uğrunda fəda etmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edir; 4) Dünyanı sarsıdan bu İkinci Cahan müharibəsi nəticəsində milli müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız vardır. Bunun isə ilk şərti əzəli və əbədi düşmənimizin məhvindən ibarətdir. Bunun üçün də milli mənafeyimiz bizi bu gün bolşevizmə qarşı qəti döyüş aparan (yürüdən) və tarix boyu türk xalqlarının dostu olan Almaniyaya bağlamışdır; 5) Qurultay əsrlər boyu olduğu kimi bu gün də Azərbaycan xalqı ilə Qafqaz qonşuları və qardaş Şimali Qafqaz, Türküstan, İdil-Ural və Krım xalqları ilə eyni qayə və ideal birliyi müşahidə edir və onlarla işbirliyini zəruri sayır» (1, s. 13).

Milli Azərbaycan Qurultayı azərbaycanlılarda böyük ruh yüksəkliyi yaratdı. Onların qurultayda keçirdiyi təəssüratlar legionerlərin nəşr etdiyi «Azərbaycan» qəzetində belə təsvir olunurdu: «Böyük, lakin Azərbaycanın ümumi sahəsinə görə əlbəttə çox kiçik olan bir salonda, sanki bütün Azərbaycan seyr edilir. Hələ rəsmiyyətə keçilməmişdir. Yurddaşlar topa-topa ora-burada danışırlar. Danışıq tərzləri haman Azərbaycanın müxtəlif hissələrini adama xatırladır. Budur Nuxalı şivəsi, budur, qarabağlı, gəncəli, qazaxlı, şamaxılı, bakılı, sairə və sairə...Vətənin doğma oğullarına nəzər yetirdikcə, onun canlı mənzərələrini ümumi bir şəkildə seyr etmək olur. Hər topadan ancaq vətən və ana səsləri eşidilməkdədir. Vətən və ana!.. Bunlar necə böyük adlardır. Fəqət, hələlik nə qədər uzaq, uzaqdadırlar. Vətəndən uzaqlaşdıqdan sonra bir-birilərini ölmüş, itmiş

hesab edən bir çox köhnə tanışlar budur, təsadüfən tapışırlar. Hətta bir çox yaxın qohumlar dəxi tapışıb, olmazın hərarətlə görüşürlər. Görüşən, öpüşən, qucaqlaşan dost-qohumlar yenə də ilk söz olaraq vətən, ana deyə xüsusi hallaşmalardan əvvəl, söhbətlərinə ictimai bir məzmun verirlər. Daha sonra azəri türkünə məxsus olan mehriban ifadələr: Nuxa «ay, ağzını yeyim»ləri, Qarabağ «bıy, başına dönüm»ləri ümumi bir gurultuya çevrilərək, bütün salonu guruldadır. Ruh verici bir ahənglə eşidilən musiqi səsləri bu şən gurultuların kəsilməsinə ani bir səbəb olur. Qurultayın xüsusi deyilə biləcək hissəsi hələlik qurtarır. Rəsmi təntənəli hissələrə başlanır. Necə böyük təntənə!

23 il əvvəlki Gəncə qəhrəmanı bu gün Berlindən səslənir. Qurultayı Azərbaycanın sınanmış qocaman əsgərlərindən olan Cahangir bəy açır. Qurultay gündəliyinin ən əsas və canlı məsələsinə başlanır. Qəhrəmanlıqları əsl döyüş meydanlarında sübut edilmiş olan mayor Fətəlibəylinin geniş və olduqca atəşin məruzəsi eşidilir.

Hamı onu diqqətlə dinləməkdədir. Bütün gözlər cəsur mayora doğru çevrilmişdir. Bütün nəzərlərdə isə, haman məruzəni tam həvəslə təqib etmək üzrə, uzun bir tarix canlanmaqdadır. Qədim Azərbaycan...Qəhrəman Babəklər...Ölməz Nizamilər...Şanlı Şirvanşahlar...Unudulmaz Cavad xanlar...Tarixi şəxslər birər-birər xatırlanır. Tarixi hadisələr isə sıra ilə nəzərdən keçirilir... Lakin, məharətli natiq ilə birlikdə bütün dinləyicilər öz fikirlərini iki məsələ ətrafında daha da həyəcan və təsirlə birləşdirirlər: bu günkü Azərbaycan, sabahkı Azərbaycan!

Dinlə, doğma yurd, dinlə! Qorxmaz yurddaşlarımız hələlik buradan səslənirlər. Lakin, tarixin daha böyük xoşbəxt günündə adi bir salonu titrədən qurultay o zaman sənin geniş sahən üzərində öz şanlı iclaslarını açıq elan edəcəkdir. Xalq öz dili ilə danışacaq, Xalq öz əli ilə yazacaq. O, nədən danışacaq?.. O, nədən yazacaqdır?.. Ah, qocaman

Vətən, bizim ağ saçlı qocalarımızdan kiçik balalarımıza qədər bunu hər kəs bilirmi? Təsadüfən bilməyən vardırsa, qoy vətəndən uzaqlardakı bu Milli Azərbaycan Qurultayı salonundan yüksələn səsləri bir daha dinləsinlər. O zaman ən uca səsin «İstiqlal, istiqlal!» olduğu eşidiləcəkdir. Ürəkdaş» (5).

Qeyd edək ki, Berlində Milli Azərbaycan Qurultayının keçirilməsi azərbaycanlıların vahid bir təşkilat ətrafında birləşməsinə ciddi təsir göstərdi.

IV FƏSİL

İNGİLTƏRƏNİN BAŞ NAZİRİ KLEMENT ETLİYƏ YAZDIĞI MƏKTUB 23 MART 1946-CI İL, İTALİYA

«Bu gün İngiltərə və Amerikanın gücü bir də ondadır ki, bütün mütərəqqi və vətənini sevən insanlar onların tərəfindədir. İngiltərə və Amerikanın ittifaqı, daha doğrusu Stalinlə, SSRİ və kommunizmlə bağlanmış qanunsuz müqavilədən imtina etmələri kifayətdir ki, bolşevizm tərəfindən əzilmiş bütün xalqlar öz azadlıqları və müstəqillikləri uğrunda müharibəyə başlasınlar. Biz hamıdan çox maraqlıyıq ki, bu müharibə daha çox siyasi olmalı və bolşevizmin əzdiyi xalqlar tərəfindən aparılmalıdır. Biz rus, ukraynalı, türk-müsəlman, qafqaz, polyak, yuqoslav, bolqar, macar, fin, baltikyanı və başqa xalqlardan ibarət xilaskar ordular təşkil edəcəyik».

BAŞ NAZİRƏ MƏKTUB

I. Cənabınıza məlumdur ki, bolşevizmin tarixi satqınçılıq, müharibə və soyğunçuluq tarixidir. 1917-ci ildə onlar rus xalqının kürəyinə bıçaq sancdılar, onu müharibədən çıxardılar və bu xalqı satdılar. Onlar eyni zamanda Rusiyanın müttəfiqləri olan İngiltərəni, Fransanı, Amerikanı və s. güdaza verdilər. 1939-cu ildə bolşevizm Hitlerlə müqavilə bağlayaraq, Yer kürəsinin 1/6 hissəsinin, İngiltərənin, Fransanın və digər sülhsevər xalqların mənafeyini satdı və müharibənin əsas səbəbkarı oldu. Bolşeviklərin müharibə qabağı planları hər kəsə məlumdur: Almaniya, İngiltərə, Fransa və digər Avropa ölkələrini bir-biri ilə toqquşdurmaq və hər iki tərəfə qan tökməyə imkan verərək, sonra bolşevik çəkmələri ilə onların qanlı bədənlərini tapdalamaq. **Belə asanlıqla Stalin dünya xarabalığı üzərində hökmranlıq etmək istəyirdi. Bolşevizmin bu taktikası Lenin, Stalin tərəfindən yaradılıb və onlar heç vaxt bunu gizlətməyiblər. Təəssüf ki, heç olmasa, bir nəfər demokrat xadim tapılmadı ki, bu barədə bütün dünyanı açıq-aydın xəbərdar etsin. Aydındır ki, 1941-ci ildə Hitler təhlükəsi altında Stalin məcburən İngiltərə və Amerikanın «müttəfiqi» oldu. Hələ cənab Çörçil onu «yoldaş» adlandırır. İstəmədən «yoldaş» deyilsəydi, daha doğru olardı. Yerin 1/6 hissəsində yaşayan xalqlar bolşevik nəzəriyyəçiləri tərəfindən ingilis və amerikalılara nifrət ruhunda tərbiyələndiriliblər. Stalin cənab Çörçilə cavabında bolşevizmin ingilis dünyasına olan nifrət və kinini ümumi şəkildə göstərirdi. Stalin kommunizmin heç vaxt uğur qazanmadığı və qazanmayacağı ingilis dünyasına ona görə nifrət etmirmi? Stalin ingilis zəhmətkeşlərinin onu «ata» adlandırmaq istəmədiklərinə görə qəzəblənmirmi?** Stalin ingilis xalqının seçkilərdə Harri Polpitin zəhmətkeşlərə hər kəsin qabiliyyətinə görə işləyəcəyi və tələbatına

(xüsusən, viski tələbatına) görə alacağı kommunist cəmiyyəti qurmaq vədlərinə baxmayaraq, kommunistlərə səs vermədiklərinə görə hirslənmirmi? Stalin deyir: «Xalqlar ona görə mübarizə aparmayıblar ki, bir kölәlikdən digərinə keçsinlər: qısa olaraq isə Hitler kölәliyindən ingilis-amerikan kölәliyinə». Biz də deyirik ki, xalqlar məhz ona görə mübarizə aparmayıblar ki, Stalin-kommunist kölәliyinə düşsünlər». Stalin Avropanın xilası naminə 7 milyon itki verdiyini söyləyir. Əgər o, Avropanı xilas etmək istəsəydi, bunu İngiltərə və Fransa ilə ittifaqda edərdi, Hitlerlə yox. 7 milyon deməklə Stalin itkilərin sayını kəskin azaldır. Axı bizim xalqların Stalin rejiminə nifrəti o qədər böyükdür ki, onların heç biri Stalin uğrunda vuruşmaq istəmirdi: ilk növbədə isə ruslar, ukraynalılar, türk-müsəlmanlar. Yalnız buna görə Almaniya müharibənin ilk günlərində milyonlarla hərbi əsir tuta bilmişdi. I Dünya müharibəsində müharibəni çar Rusiyası aparanda bir nəfər də olsun rus, ukraynalı, hətta türk-müsəlman da Almaniya tərəfə keçməmişdi. Ancaq bu müharibədə Sizə məlum olduğu kimi, Almaniya tərəfdə öz legionerlərini təşkil edən və bolşevizmə qarşı vuruşan milyonlarla rus, ukraynalı, müsəlman türk və s. vardı. Məgər bütün bunlar Stalin rejiminin vəhşilik və antixalqçılığına, onun bizim xalqların atası deyil, atalığı olmasına dəlalət etmirmi?

Nə üçün bir nəfər də olsun ingilis, ya amerikalı almanlarla birgə vuruşmadı? Çünki, onların ingilis tarixinin inkişafı nəticəsində, dövlətçilik ən'ənələri üzərində öz xalqlarının oğulları tərəfindən idarə olunan vətənləri var. Çünki, İngiltərəni Kral, Ettli, çörçillər, bevinlər, aleksandrlar, krippsilər və başqa xalqın qanından, kökündən olmayanlar, başqa ölkələrdə leyboristlər və ya konservatorlar partiyası yaratmaq istəməyənlər idarə edirlər. Siz dünya leyboristlər inqilabı naminə nə bir pendən, nə də bir nəfər ingilisdən söz yox ki, keç-

məzsiniz. Leyborizm və həmçinin konservatizm təmiz ingilis əsillidir, ingilislər tərəfindən ingilis zəminində yaradılıb və ingilis xalqına xidmət edir.**Bəs kommunizm və dünya proletar inqilabı haqqında nə demək olar? Kommunizm rus, ukrayna və xüsusən türk-müsəlman gerçəkliyinə, tarix və ən'ənələrinə yad və yabançı ideyadır. Ümumiyyətlə isə, kommunizmin heç bir xalqın gerçəkliyi ilə ümumi nöqtəsi mövcud deyil, çünki kommunizmin vətəni yoxdur. Kommunizm öz xalqının, vətəninin mənafeyini satmaq, dünya proletar inqilabı naminə milyonlarla həyatı qurban verməkdir.** Məgər dörd illik vətəndaş müharibəsi bizim xalqların mənafeyinə, sinfi mübarizə alovlarında milyonlarla vicdanlı zəhmətkeşin məhv edilməsinə və yaxud bizim xalqların başqa xalqlardan və dünya bazarından təcridinə, 1939-cu ildə Hitlerlə müqavilə bağlanmasına uyğun idimi? Bu, Yer üzünün 1/6 hissəsində yaşayan xalqların mənafeyinin tarixdə misli görünməmiş satılması deyildimi? 1939-cu ildə bizim xalqların mənafeyi tələb edirdi ki, müharibənin dəf edilməsi üçün Fransa və İngiltərə ilə müqavilə bağlansın. Yaxud müharibə başlanarsa, 1-ci gündən onların tərəfindən iştirak edilsin. Əgər bizdə demokratik hökumət və xalq rəhbərləri olsaydı, onlar elə belə də hərəkət edərdilər. **Bizim ölkələr milli rəhbərlər tərəfindən idarə olunmur. Əvəzində dünya proletar inqilabı maraqlarından çıxış edərək, İngiltərə, Fransa və bütün dünya xalqlarının axıdılmış qanı üzərində kommunist diktaturası qurmaq və yeni qüvvələrlə çıxış etmək fikri ilə dünya yanğını alovlandırmaq üçün Hitlerlə ittifaq bağlayan bir dəstə beynəlmiləl fırıldaqçı hökmranlıq edir. İndi bizim həmvətənlər Polşa, Rumıniya, Macarıstan, Bolqarıstan, Yuqoslaviya, Çexoslovakiya, Finlandiya, Estoniya, Latviya, Litva, Avstriya, Almaniya, həmçinin Çin xalqları üzərində jandarm rolunu oynayır və öz süngüləri ilə bu ölkələrdə kommunizmi yaymaq məcburiyyətindədirlər. Bütün bunlar bizim xalqların, ilk növbədə rus, ukraynalı, türk-müsəlman-**

ların mənafeyinə uyğun deyil. Rus torpaqları və onların var-dövləti 300 milyon rus üçün kifayətdir. Ukrayna torpaqlarını və var-dövlətini sayıb qurtarmaq olmaz. Biz türk-müsəlmanlara və qafqazlılara gəldikdə isə, bizim torpaqların genişliyi və zənginliyi sözə gəlmir. Odur ki, bizim xalqların ac və sıx əhalisi olan Avropanın torpaqlarına ehtiyacı yoxdur. Yuxarıda adları çəkilən Avropa xalqlarının torpaqları və onların zorla bolşevikləşdirilməsi dünya proletar inqilabı maraqlarına uyğun olaraq, beynəlmiləl fırıldaqçılar dəstəsinə ingilis-amerikanlara qarşı yeni müharibəyə hazırlaşmaq üçün lazımdır. Biz türk-müsəlmanları, həmçinin rus və ukraynalıları dünya proletar inqilabı maraqlandırmır. Biz bir qəpik, ya da bizim oğulların bir damcı qanını belə bu iş üçün könüllü surətdə vermədik. Biz heç vaxt bütün dünyadan təcrid olunmaq və on illərlə «kapitalist mühasirəsi»ndə qalmaq istəməmişik. Biz də ingilislər kimi istəyirdik ki, bizim də hökumət və rəhbərlər xalqımızın içindən çıxsın. Biz həm də parlamentimizi sərbəst surətdə özümüz seçmək istəyirik. Biz dünyanın bütün xalqları ilə dostluq və sıx ünsiyyət şəraitində yaşamaq istəyirik. Biz istəmirik ki, bütün dünya kommunistləri bizim ata və oğullarımızın qanı, ana--bacılarımızın, arvad-uşaqlarımızın göz yaşı hesabına yaşasınlar. **Cənab Baş nazir, biz bunun üçün bolşevizmə qarşı vuruşurduq. Vlasov və heç bir rus heç vaxt Rusiyanı, rus xalqını, milli hökuməti, milli rəhbərliyi satmayıb. Ukraynalılar da, xüsusən türk-müsəlmanlar da vətənlərinə münasibətdə elə belə də hərəkət edərdilər. Heç olmasa bir nəfər ingilis Stalini doğma ata, Beriya, Mikoyan, Tevosyan, Bela-Kuna, Kusinena və onlar kimi digər cinayətkarları rəhbər adlandırarmı? Əlbəttə yox. Bəs onda niyə İngiltərə və Amerika bunu bizim xalqlardan tələb edir? Kim, harda, nə vaxt görüb, yaxud eşidib ki, rus, ukraynalı və türk-müsəlmanların ataların ad və soyadları Soso Cuqaşvili (İosif Stalin), Anastas Mikoyan, Mkırtıç Tevosyan, Maliko Qoqlidze, Bela-Kuna və s.**

olsun. Belə quldur dəstəsini və «SSRİ»ni dəyişmirlər, əksinə, onlara nifrət edir və ilk imkan düşən kimi bu beynəlmiləl quldur dəstəsini və onların yaratdıqları SSRİ-ni məhv etmək üçün yaşayırlar. Cənab Çörçilin hesabatından isə məlum olur ki, Siz onlarla 50 illik müqavilə bağlamaq fikrindəsiniz. Düzdür, Siz deyə bilərsiniz ki, onların içində Molotov, Kalinin, Voroşilov kimi ruslar da var. Doğrudur, onlar rusdurlar. Onlar bu quldur dəstəsinin əlində rus xalqına göstərmək üçün örtükdürlər. Yəni SSRİ-ni ruslar da idarə edir. Bolşevik rəhbərləri içində ağıllı ruslar da olub ki, Stalin onları məqsədli şəkildə məhv edib. Məgər o, və onun quldur dəstəsi ağıllı rus, ukraynalıları və türk–müsəlmanları hakimiyyətə yaxın qoyardımı? Molotov, Kalinin və Voroşilovun əqli qabiliyyətlərinin məhdudluğu o qədər üzdə idi ki, hətta nasional-sosialist təbliğatı da onların rus əslli olmasını inkar etməyə cəsarət etmədi. Siz özünüz Molotovu Londonda görmüsünüz. Artıq 2-ci dəfə Stalin onu Kremldən kənara buraxmadı. Əvəzində Vışinski kimi «rus«u, Manulski kimi ukraynalını göndərdi. Rus, ukrayna və türk xalqlarının oğulları bu qəddarın qarşısında əyilməyə və onları ata və rəhbər adlandırmağa layiqdirmi? Biz onların hökmranlığına qarşı vuruşmalı deyilikmi? Siz bolşevizmin düşməni olan bizləri niyə İngiltərə və Amerikanın düşməni hesab edirsiniz? Biz türk-müsəlmanlar 6-10 noyabr 1943-cü il Berlində keçirilən Azərbaycan Konqresində öz demokratik proqramımızı elan etmədikmi? Biz alman dostlarımızın bu proqrama İngiltərə və Amerikanın əleyhinə maddə salmaq təklifini rədd etmədikmi? Bizim legionerlərin Qərb cəbhəsinə göndərilməsinə qarşı etiraz edərək, İngiltərə və Amerikanın bizim xalqların düşməni olmadıqlarını bildirmədikmi? Bütün bunları gestapodan qorxmadan öz müttəfiqimizin üzünə deyirdik. Biz türk-müsəlman kimi həqiqətin əksinə gedə və Almaniyanın xeyrinə olaraq, İngiltərə və Amerikanı bizim xalqların düşməni adlandıra bilməzdik.

Vlasov və ukraynalılar da elə belə hərəkət etdilər. Çünki, biz bolşevik-kommunist deyilik və Almaniyanın yaxud hər hansı ölkənin xeyrinə öz xalqımızın şərəf və mənafeyi ilə alver edə bilməzdik.

Biz SSRİ-nin əvəzinə Rusiya, Ukrayna, Türküstan, Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz yaratmağa can atırıq. Təəssüf ki, Qərb demokratiyası «SSRİ» anlayışı ilə «Rusiya», «Ukrayna», «Türküstan», «Azərbaycan»... anlayışlarını səhv salır. Yaxud «bolşevik» anlayışı «rus», «ukraynalı», «türk» anlayışları ilə qarışıq salınır.

II. İNGİLTƏRƏ, AMERİKA VƏ SSRİ, YAXUD 3-CÜ ARTIQDIR

Stalini qaçılmaz ölümdən ingilis-amerika köməyi qurtardı. Belə bir kömək olmadan nə Stalinqrad, nə də Şərqdə irəliyə doğru hərəkət olacaqdı. **Əksinə, o, 1943-44-cü illərdə tamamilə darmadağın ediləcəkdi**. Həqiqət budur. Ancaq Stalin hesab edir ki, o, təkbaşına Almaniyaya, Yaponiyaya qalib gəlib, İngiltərə və Amerika isə sadəcə iştirakçı və mücadilə yoldaşı olmuşlar. Bunu bütün dünya kommunistləri müxtəlif ladlarda təkrar edir və Stalin Avropanın, Britaniya imperiyasının və Amerikanın xilaskarı kimi təqdim olunur. Hansı ki, Stalinin özü və rejimi öz xilasları üçün İngiltərə və Amerikaya borcludurlar. İndi o, Avropada, Çində, İranda yaşayan xalqları ələ salır. Misir, Hindistan, Suriya və başqa ölkələrin xalqlarını qıcıqlandırır, ingilis dünyasına qarşı bütün xalqların kommunist blokunu yaradır və cənab Çörçilin nitqinə cavabında ingilis dünyasını ələ salmaqdan və təhqir etməkdən çəkinmir. Bütün bunlar Qərb demokratiyasının səhlənkarlığı, zərif xarakterliyi və zərif sentimentallığı üzündən baş verir.

Bunlar ona görə baş verir ki, İngiltərə, xüsusən Amerika SSRİ və «köhnə demokrat» Stalinlə birlikdə demokratik dünya qurmaq istəyir. Belə cəhd dünyanın

bütün xalqlarının, ilk növbədə isə ingilis, amerikalı, rus, ukraynalı və türk-müsəlman xalqlarının maraqlarının əksinədir. **Yoxsa Stalinin DSSRİ, yəni Dünya Sovet Sosialist Respublikaları İttifaqı qurmaq uğrunda hazırladığı III Dünya müharibəsi bütün ağırlığı ilə bu xalqların üzərinə düşəcək. Əgər Sizin Rusiyaya, Ukraynaya, Türküstana, Azərbaycana və eyni zamanda ruslara, ukraynalılara, türk-müsəlmanlara, qafqazlılara və başqalarına rəğbətiniz varsa, onda Siz bu xalqlara SSRİ-dən, «doğma ata» Stalin və onun kommunizmlərilə birlikdə beynəlxalq avantürist dəstəsindən qurtarmaq üçün yardım etməlisiniz. Əgər Siz daimi sülhə nail olmaq istəyirsinizsə, o zaman bunu Rusiya, Ukrayna, Azərbaycan, Türküstanla birlikdə edə bilərsiniz, nəinki SSRİ ilə ruslar, ukraynalılar, türklərlə birlikdə edə bilərsiniz, nəinki bolşevik-kommunist beynəlmiləlçilərlə.**

Hazırda SSRİ Ali Sovetinin sessiyası keçirilir. Orada yenə də gurultulu, sonsuz alqışlar, kapitalist mühasirəsi haqqında həmişəki boş söhbətlər, bütün xalqları səfərbər vəziyyətdə hazır saxlamağın labüdlüyü, Qızıl Ordunu möhkəmləndirmək kimi müzakirələr gedir. Bütün bunlar bizim xalqların marağındadırmı?

Bizim bədbəxt xalqların «DSSRİ» yaratmağa bütün güc və vəsait qoyduqlarını görmək bizi ağrıdır. Nə üçün biz SSRİ-yə, kommunizmə, Stalinə qarşı mübarizə bayrağı qaldırdıq? Çünki, biz daha kommunizm uğrunda vuruşan ata və qardaşlarımızın qanını görə bilmirik, çünki, biz bu xalqların gələcəkdə İngiltərə və Amerikaya qarşı vuruşmalarını istəmirik. Əksinə, biz Sizinlə və bütün dünya xalqları ilə sıx dostlüq şəraitində yaşamaq istəyirik. İngiltərə və Amerikanın Stalinlə müttəfiqlik əlaqələrini davam etdirməyə və bununla da Stalin rejimini möhkəmlətməyə və bizim xalqlarımızı bolşevik boyunduruğuna dözməyə məcbur etməyə heç bir mənəvi haqqı yoxdur.

İngiltərə və Amerika SSRİ-ni demokratik ölkələr sırasında görmək və kommunizmi demokratik hadisə hesab etməklə kommunist hərəkatına tarix boyu görünməmiş vüsət vermiş oldular. Kommunizmin gücü də elə bundadır. Kommunizmin gücü ondadır ki, İngiltərə və Amerika SSRİ-nin tərəfdarıdır. Kommunizmin gücü ondadır ki, İngiltərə və Amerika Stalinlə qanunsuz mövcudluğuna can atırlar. Onlar SSRİ və kommunizmin mövcud olması üçün **«Qərb demokratiyası» və «Şərq demokratiyası»** nəzəriyyələrini yaradırlar. Hansı ki, həqiqətdə belə deyilməlidi: **«Qərb demokratiyası», «Kommunist despotizmi»**. Kommunizmin gücü ondadır ki, onun vətəni yoxdur, o, beynəlmiləldi, ancaq bir mərkəzdən idarə olunur və bir atası var. Alya Kusinen, Dimitrov, Torez, Tolkatti, Bela-Kuna, Qallaxera, Harri Pollitta və başqaları üçün bu mərkəzin və atanın direktivləri hər şeydir, öz vətəninin və öz xalqının maraqları isə heç nə. Məsələn, Triestin Yuqoslaviyaya verilməsi kommunizmin maraqlarına uyğundur və Tolkatti bunun İtaliyaya ağır zərbə olacağını düşünmədən asanlıqla razılaşır.

Kommunizmin gücü onun amansızlığında, həyasızlığında, insanları alçaq hisslərə qaldırmağındadır. Odur ki, kommunizm bütün münasibətlərdə Qərb demokratiyasından güclüdür və bir müddətdən sonra o, qəddarlıqla Qərb demokratiyasını boğacaq. Zaman kommunizmin himayədarıdır. Vaxt onun xeyrinə işləyir, Qərb demokratiyasının yox. Yaxın 5-10 ildə SSRİ-nin qalması şəraitində nələr baş verə bilər? Birinci növbədə Moskvanın nəzarətində olan bütün Avropa ölkələri kommunizmlə panslavizmin uğurlu birləşməsi nəticəsində SSRİ-nin tərkibinə daxil olacaqlar. Bismark ideyalarının kommunizmlə birləşdirilməsinin uğurlu nəticəsi əsasında sonda onu SSRİ tərkibinə qatmaqla Almaniyanın sovetləşdirilməsi həyata keçiriləcək. Bu, Kayzer Almaniyası ilə çar Rusiyasının ittifaqından da güclü olacaq. Sözsüz ki, sovet Almaniyası SSRİ-nin tərkibində özünə layiqli yer tutacaq. Çünki, bu çoxmil-

yonlu, yüksək sivilizasiyalı, əməksevər və yaradıcı xalq SSRİ məkanında öz biliyini geniş tətbiq edə, texnika və sənayedə möcüzələr yarada və digər «qardaş» sovet respublikaları ilə birlikdə külli miqdarda nəinki atom, hətta elektrik bombalar da istehsal edə biləcək. Bunun üçün vəsait tapılar. Bütün bunlar bir şüar altında həyata keçiriləcək: «İngilisdilli köləliyə düşməmək!»

İndi cənab Çörçil Allaha şükür edir ki, gizli atom bombaları İngiltərə-Amerika və Kanadadadır. **Əgər bomba Stalində olsaydı,** o, Sizinlə danışmaq istəməzdi və Sizi bir dəqiqə belə nəfəs almağa qoymazdı. Ancaq hansısa bir ixtira uzun müddət gizli qalıbmı? Əlbəttə, yox. Fərq ondadır ki, bəziləri kəşf edirlər və əgər istifadə etməyə imkan tapmırlarsa, onu başqaları tezliklə mənimsəyirlər. Alman baş və əlləri sovet gücü ilə birləşdikdə öz işini görəcək. Sovetləşmə prosesi Asiyada da həyata keçiriləcək. İranda, Çində, Koreyada o, əlini Yaponiyaya da uzadacaq və o, bütün Asiyada Sizin hər ikinizdən - İngiltərə və Amerikadan güclü olacaq. O, çinliləri Amerika kimi danışıq və təbəssümlə deyil, qılınc və demoqoqluqla kommunizmin qırmızı bayrağı altında birləşdirəcək. Gördüyünüz kimi, səfir general Marşalın təbəssümü də yardım etmədi. Hətta onun Çan Kay Şi və kommunist nümayəndələri arasında oturmağı da köməyinə çatmadı. **1938-ci il sərhədlərindən uzaqlaşan SSRİ mövcud olduqca** nə UNO, nə də cənab Çörçilin beynəlxalq ordusu yardımçı olmayacaq və dünya mütləq III Dünya müharibəsinə doğru gedəcək. Qədim rus məsəli var: «Üçüncü artıqdır» və daimi sülh yaratmaq işində SSRİ 3-cüdür və zərərli artıq olandır. Hələ Amerika Stalinə 6 milyon borc vermək istəyir. Amerikalılar soruşa bilərlər: «SSRİ bu borcunu necə qaytaracaq? Aydındır ki, SSRİ Amerika xalqına borcunu ona arxadan güllə vurmaqla, onların başına atom və nüvə bombaları yağdırmaqla qaytaracaq. Amerika kapitalistləri sevinirlər ki, SSRİ-ni və dağılmış Avropanı tikib qurmaqla

böyük gəlir əldə edəcəklər. Yox, onlar gəlir əldə etməyəcəklər. Onlara yalnız imkan verəcəklər ki, kapitallarını çıxarsınlar və sonra NEP-in məhv edilməsi dövründə (1929-31) olduğu kimi qovacaqlar. Axı, hamı gördü ki, yerin 1/6 hissəsinin dünyadan təcrid olunması üzündən əhali böhran və işsizlik məngənəsində idi. İndi isə daha pis olacaq. Çünki, İngiltərə və Amerika SSRİ-nin sərhədlərini bir az da genişləndiriblər.

Qoy bunu ingilis və amerikan fəhlələri də bilsinlər. Sonra **cənab Çörçil təklif edir ki,** 1946-cı ildə SSRİ ilə bütün bəndlər üzrə danışıqlar aparılsın. 1946-cı ildə SSRİ-nin olduğu bəndləri vurmaq lazımdır. Onu **Yaponiyada, Koreyada, Çində, Bolqarıstanda, Macarıstan, Polşa, Yuqoslaviya, Finlandiya, Estoniya, Latviya, Litvada, Almaniya, Avstriya, Çexoslavakiyada və ən əsası Rusiya, Ukrayna, Türküstan, Qafqaz və İranda** vurmaq lazımdır. 3-cü və zərərli artıq olanı vururlar, onunla danışıqlara getmirlər.

III. SÜLHSEVƏR UNO, YOXSA QANLI SSRİ. İNGİLTƏRƏ VƏ AMERİKA ALLAH VƏ BƏŞƏRİYYƏT QARŞISINDA ÖZ BORCUNU ÖDƏMƏLİ VƏ YER ÜZÜNDƏ DAVAMLI VƏ ƏBƏDİ SÜLHÜ BƏRQƏRAR ETMƏLİDİR

İngiltərə və Amerikanın maddi və mənəvi gücü Sizə daha yaxşı məlumdur. Onlara əlavə olaraq, İngiltərə və Amerikanın gücü bir daha ondadır ki, bu gün də bütün dünya xalqları hələ Sizə inanırlar. Baxmayaraq ki, SSRİ-yə meyllənənlərin vətəni var və onlar hakimiyyətdədirlər (**Tito** və b.). Ancaq İngiltərə və Amerikaya meylli olanlar vətənsiz qalıblar. **Bunlar kral II Pyotr, kral Əhməd Zoqu, generallar Anders, Mixayloviç** və başqalarıdır.

Bu gün İngiltərə və Amerikanın gücü bir də ondadır ki, bütün mütərəqqi və vətənini sevən insanlar onların tərəfin-

dədir. İngiltərə və Amerikanın ittifaqı, daha doğrusu Stalinlə, SSRİ və kommunizmlə bağlanmış qanunsuz müqavilədən imtina etmələri kifayətdir ki, bolşevizm tərəfindən əzilmiş bütün xalqlar öz azadlıqları və müstəqillikləri uğrunda müharibəyə başlasınlar. Biz hamıdan çox maraqlıyıq ki, bu müharibə daha çox siyasi olmalı və bolşevizmin əzdiyi xalqlar tərəfindən aparılmalıdır. Biz rus, ukraynalı, türk-müsəlman, qafqaz, polyak, yuqoslav, bolqar, macar, fin, baltikyanı və başqa xalqlardan ibarət xilaskar ordular təşkil edəcəyik. Ola bilər ki, ilk vaxtlar üçün bu orduların sayı çox az olsun, ancaq onların siyasi əhəmiyyəti böyük olacaq. Bu ordular günbəgün artacaq. Onlar mücadiləni nəinki cəbhədə, əsaslı şəkildə ölkə içində aparacaqlar. Bu ordulara rəhbərlik etmək üçün ümumi antibolşevik qərargah yaradacağıq. Biz bolşevizmin əzdiyi bütün xalqların nümayəndələrindən ibarət konqres çağıracaq və bolşevik-kommunizmi bütün dünya qarşısında ifşa edəcəyik. Biz ayrıca **Ümumslavyan Konqresi** çağırıb orada **Stalin-kommunist panslavizminin** iç üzünü açacağıq. O zaman hər bir slavyana aydın olacaq ki, Yer üzündə Stalindən çox əlləri slavyan qanına batmış ikinci bir adam yoxdur və əgər SSRİ mövcud olacaqsa, milyonlarla slavyanın həyatı dünya inqilabına qurban veriləcək. **Biz hər hansı bir müsəlman ölkəsində** bolşevizmin əzdiyi **40 milyonluq müsəlman** dünyasının nümayəndələrindən ibarət **Konqres çağıracağıq**. Heç bir şübhə yeri yoxdur ki, Almaniyanın, Çinin və başqa ölkələrin bütün demokratik qüvvələri bizimlə olacaq. İnanmaq lazımdır ki, İtaliyanın indiki xristian-demokrat hökuməti lap əvvəldən axıracan öz xalqını İngiltərə və Amerikanın ardınca aparacaq. **İngiltərə və Amerikanın** köməyi ilə **Atlanta Xartiyasının bayrağı** altında biz bolşevizmi və SSRİ-ni məhv edəcək və **Rusiya, Ukrayna, Türküstan, Azərbaycan, Qafqaz** yaradacağıq. Bununla da bütün müharibələrə nöqtə qoyulacaq.

Biz İngiltərəni, Amerikanı və dünyanın digər ölkələrini

qanlı «DSSRİ» tərkibində görmək istəmirik. Biz Rusiyanı, Ukraynanı, Türküstanı, Azərbaycanı və Qafqazı bütün ölkələrlə birlikdə sülhsevər UNO (Birləşmiş Millətlər Cəmiyyəti - N. Y.) cərgəsində görmək arzusundayıq. Tanrı bizə kömək olsun! Mən **İngiltərə kralına**, əlahəzrət kralın hökumətinə, **Sizə** və bütün ingilis xalqına həyatda uğurlar arzulayıram (24;125).

V FƏSİL

AZƏRBAYCAN XALQINA ONUN OĞULLARININ İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ VƏTƏNİN MÜSTƏQİLLİYİ UĞRUNDA MÜBARİZƏSİ HAQQINDA HESABAT

«Nəhayət, SS-in Baş qərargahı bizi şərtsiz tanımaqdan imtina etmədi və 17 mart 1945-ci ildə Reyxkansler Rozenberq Almaniya İmperatorluğu hökuməti adından Azərbaycanın müstəqilliyini tanıdı. Müstəqilliyin tanınması bizim mücahidlərin qanı və ziyalılarımızın çalışqanlığı hesabına əldə olundu və qazanıldı. İsveçrəli alim deyirdi ki, həyatda heç nə həlak olmuş mücahidlərin qanı kimi müqəddəs ola bilməz. Lakin rəhbər olmayanda bu dəyərli qan batır. Qurultaysız və məclissiz müstəqilliyimizin tanınması mümkün olmazdı və onların silahlı mübarizəsi əhəmiyyətsiz olar, qanı yerdə qalardı».

İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN BAŞLANĞICI

Arası kəsilməz üsyanlar və qanlı müharibələrdən sonra xalqlarımız əmin oldu ki, qanlı bolşevizmi yalnız xarici qüvvələrlə ittifaqda məhv etmək olar. Sözsüz ki, onlar SSRİ-yə müharibə elan edən hər bir dövlətə müttəfiq idilər.

Stalin Hitlerin müttəfiqi olduğu, yalnız Polşanı böldükləri, Baltikyani ölkələrin müstəqilliyini məhv etdikləri vaxtda,biz İngiltərəyə, Fransaya, Belçikaya və digər qərb ölkələrinə və bütün bunlara qarşı çıxan ABŞ-a rəğbət bəsləyirdik.

Sovetlər Finlandiyaya hücum edərkən, biz İngiltərə və Fransanın SSRİ-yə müharibə elan etməsini gözləyirdik.

Biz Stalinin müttəfiqi olan Hitlerə qarşı üzbəüz duran ingilis xalqının cəsarətinə heyran idik.

Xalqımızın **Yunanıstanın** uğuruna və **Afrikada Ueyvelin** ilk qələbəsinə necə şad olduğunu xatırlayıram.

Əgər Qərb Sovet-Fin müharibəsi dövründə sovetlərə müharibə elan etsəydi, onda biz ilk gündən həm Stalinə,həm də Hitlerə qarşı onlarla müttəfiq olardıq.

Lakin Almaniya SSRİ-yə hücum etdiyi gündən vəziyyət dəyişdi. **Qərbin Milli maraqları** onları sovetlərin,bizi isə almanların müttəfiqi etdi.Qərbə rəğbət bəsləsək də, ondan ötrü bolşevizim uğrunda mübahrizə apara bilməzdik,necə ki, onlar bizə görə bolşeviklərlə ittifaqdan imtina etmədilər.

Almanların 1941-ci ilin 22 iyundakı zərbəsi **Stalinin «dahi sərkərdə»** gücündə olmadığını və SSRİ-i xalqlarının kommunizim uğrunda tamamilə mübarizə aparmaq istəyindən uzaqda dayandığını göstərdi.

Bu insan kütləsindən istifadə etmək, onları silahlandırmaq və onlara sovetlərlə işi bitirmək imkanı vermək əvəzinə, Hitler onları həbs düşərgələrinə göndərirdi və orada elə şərait yaratmışdı ki,insanlar kütləvi şəkildə qırılırdılar.

Belə ölümə məhkum olmuşlar içərisində türklər və qafqazlılar da var idi və onların çoxu 1941-1942-ci ilin qışında həlak oldular.

Stalin özü rejiminin dağılması üçün ilkin şəraiti yaratdı. **1944-cü ildə** Almaniyanın payına düşən xoşbəxtlik hələ heç bir ölkənin payına düşməmişdi. **Lakin almanların xalqlara tamamilə rəhbərlik etmək bacarığının olmaması və Hitlerin azlıqlar üzərində «Herrifolk» ağalığı etmək cəhdi bolşevikləri uçurumdan xilas etdi** və bolşevizmin əleyhdarı olan SSRİ-ı xalqları onun köməkçisinə çevrildilər.Almaniya heç bir dövlətin müstəqilliyini tanımadı və beləliklə, Hitler başqa xalqların hüquqlarını tanımayan milli-sosializim prinsiplərinə sadiq qaldı. Hitler 1942-ci ildə müharibəni heç kimə borclu olmamaq məqsədilə yalnız almanların əli ilə qışa qədər qurtarmağa ümid edirdi.

Lakin Moskvadakı məğlubiyyətdən və müharibənin ləngiməsindən sonra almanlar qərara aldı ki, 1942-ci ilin mart ayında legionlar yaratsınlar. Bu legionların başlıca məqsədi müharibə vaxtı əsas hədəf, qələbədən sonra isə öz xalqları üzərində müstəmləkə nəzarətçisi olsunlar. Legionların rəhbərləri və bütün tərkibi almanlar idi. Bizi döyürdülər, güllələyirdilər və yenidən hərbi əsir düşərgəsinə göndərirdilər.

Azərbaycanın hərbi hissələrinin vəziyyəti bərbad idi. Bu hissələrin hər birində almanlar diktatorluq edirdi.Digər xalqlar kimi Azəri türkləri də almanlar tərəfindən elə qorxudulmuşdu ki,hətta səslərini çıxara bilmirdilər.

Ümumiyyətlə, bizimlə istədikləri kimi rəftar edirdilər. Bütün bunların nəticəsində yalnız 804 saylı tabur və «Berqmann» taqımı çox gözəl vuruşurdu və beləliklə almanlar tərəfindən tanınırdılar. Digər qoşunları almanlar yenidən formalaşdırırdı. Çoxları yenidən hərbi əsirlər düşərgəsinə göndərilmişdi, bəziləri güllələnmişdi,digərləri isə buna tab gətirməyib qa-

çırdılar. Beləliklə, hər qoşunda 1000 nəfərdən 250-300 nəfər adam qalırdı.

Bu səbəbdən 1943-cü ilin martında general Kestrinqə cəbhədən aşağıdakı yazı göndərilmişdi: «Milli hissələrin alman rəhbərləri qoşunlara rəhbərlik işində öz köməksizliyini göstərdi. Birinci qoşun çox gözəl vuruşub və günbəgün öz hərbi uğurlarını artırdığı halda, həmin Azəri türklərindən ibarət olan çoxsaylı almanların olduğu digər qoşunlar isə (805, 806, 370) təcrübəsiz rəhbərə görə tam yararsız hala salınmışdı. Almanlar öz kobud münasibətləri,təhqirləri ilə bu qoşunları böldülər. Sonralar isə Milli Azərbəycan Birliyinin və Milli Komitənin yaradılmasını və bunlara azərbaycanlıların rəhbərlik etməsini tələb edirdilər.

Berlində vəziyyət ağır idi. **Emin bəy Rəsulzadənin** sədrliyi ilə Milli Azərbaycan Komitəsinin yaradılması rəsmi olarq elan edildi. Bununla yanaşı alman şöbəsində müxtəlif xalqların, həmçinin Azəri türklərinin qrupları var idi,daha dəqiq:ostministirilikdə-«Mittelstelle» qrupu,Təbliğat Nazirliyində Kəsəmənli qrupu, «Veimarxt»da isə «Azərbaycan» qəzetinin redaksiyası idi.

Bütün bu qruplar almanlara tabe idi və onların göstərişi ilə işləyirdilər. Qruplar Komitənin ətrafında birləşməmişdilər və onlara hərbi hissələrdə olmağa icazə verilməmişdi. Sovet fırıldaqçılığının bütün üsulları alman rəhbərlərinə keçirilmişdi.

162-ci diviziya «türk» adlanmağına baxmayaraq bizimkilərə əmr olunmuşdu ki, özlərini «azərbaycanlı» adlandırsınlar. Bu türk divizisiyasının qəzeti rus dilində nəşr olunurdu və «Azadlıq» adlanırdı.

«Ostministirlik»də bəzi «Qafqaz biliciləri» hökmranlıq edirdilər və Azəri türkləri haqqında yazırdılar: Onlar köçəri müsəlmanlardır və onları əslən qafqazlı adlandırmaq olmaz. Onlar monqol irqinin qalıqlarıdılar.Onlar həmişə Türkiyəyə

meyl edirlər və bu da həmişə bədbəxtçiliyə səbəb olub Qafqazın birliyini dağıdır.

Tarixin bəzi saxtakarlarının bu cür «səylərinə» görə Azəri türkləri Qafqazda yad bir xalq kimi hesab olunurdular və buna görə də,bütün xalqlar öz əsl adları ilə tanınanda bizə əmr olundu ki, «azərbaycanlı »adlanaq.

Bütün xalqlar öz rəmzlərindən istifadə edə bildiyi halda, bizə əmr olunmuşdu ki, türk rəmzi olan ulduz və ayparanı ləğv edək. Heç kimin ixtiyarı yox idi ki, «türk»və «müstəqillik»sözündən istifadə etsin.

Sovetlər bizi «yoldaşı» adlandırırdılar və bu da qorxaq döyüş qabiliyyəti olmayan xalq mənasını daşıyırdı. Biz buna cavab verə bilərdik ki, xalqımız özü üçün döyüşə bilməzdi. Lakin öz qarşı almanların tərəfində nədən döyüşmədiklərinə cavab vermək çətin idi. Əgər hər hansı bir xalq almanlardan qaçdığına bəraət qazandıra bilərdisə, türklər bunu bacarmazdılar. Vəziyyətdən çıxış yolu tapmaq lazım idi. Yaranmış vəziyyəti müzakirə etmək üçün Berlində yaşayan bütün Azəri türkləri «Viktoriya» istirahət evinə toplaşdılar.

Xəlil bəyin sədrliyi altında keçirilən bu toplantıda mən yaranmış vəziyyət haqqında məlumat verdim. Fikir mübadiləsi aparıldı. Fuad Əmircan və onun dostları M.Rəsulzadəni və onun dostlarını tənqid edirdilar. **Abbas Ataməlibəyov** özü həmin komitənin üzvü olub və M.Rəsulzadə komitəsinin fəaliyyət göstərməməsindən şikayətlənirdi. Nəhayət, qərara alındı ki, bu müharibədə türklərin və qafqazlıların yeri bolşevizmə qarşı mübarizə aparan Almaniyanın tərəfindədir. Biz almanların verdiyi bu kiçik imkandan istifadə etməliyik ki, həmvətənlərimizin mübarizəsini vətənimizin müstəqilliyi uğrunda mübarizəyə çevirək, onları türk adət–ənənəsi ruhunda tərbiyələndirək, legionerlərimizə tam hüquq qazandıraq, onların maraqlarını, namusunu və ləyaqətini qoruyaq.

İstəsək də, istəməsək də, bizdən asılı olmayaraq, həmvətənlərimizin qanı axırdı. Elə etmək lazım idi ki, onların qanı hədər getməsin. Bu dəyərli qan **Cavad xanın** və gəncəlilərin, **Gəncə üsyanı** qəhrəmanlarının, bolşeviklərin zülm verdiyi mücahidlərin türk qanının axdığı müstəqillik axarı ilə getsin. Bu cür qərara gəldikdən sonra toplantı üzvləri mənə aşağıdakılara nail olmağı tapşırdı:

1) Milli komitənin Almaniya hökumti tərəfindən tanınması;

2) Bütün Azərbaycan hissələrinin vahid hərbi komandanlıqda birləşdirərək öz Milli Komitəsinə tabe olan Qərargah yaradılması;

3) Bütün hərbi əsirlərin azadlığa buraxılması və Milli Komitənin yaradılmasında bütün işlərin azərbaycanlılara həvalə olunması;

Bundan sonra mən, Abbas bəy, Vahid bəy və Münşi «OKV» adına Bəyannaməni hazırlamağa başladıq. Beləliklə biz istəyirdik ki, «Ostministirlikdən» yan keçək və Vermaxt vasitəsi ilə Komitənin tanınmasına nail olaq. Bütün tələbələrimizdən ibarət olan bəyannaməu general Hermixə təqdim etdim, o isə mədəni formada bildirdi ki, komitənin tanınması siyasi məsələ olduğundan bu sualları «Ostministrlikdə» həll edək. Hərbi təşkilatla bağlı məsələyə gəldikdə isə o dedi: «Fikirləşdim və qərara aldım ki, Krımda yerləşən 3 Azərbaycan taburunu (804, 806 ,370) birləşdirim və sizi onun komandanı təyin edim. Baxarıq görək bundan nə çıxır, sonra davam edərik».

Mən bundan imtina etdim və bildirdim ki, bütün Azərbaycan hərbi hissələrinin problemini həll etmir. General Kestrinq də 1.4.45 tarixində yazdığı məktubda bu təcrübənin tərəfdarı olduğunu bildirmişdi. Qafqazlıların belə nəhəng qoşunlarda döyüşüb–döyüşə bilməməsi onların təlimindən və hərbi vəziyyətdə özlərini göstərmələrindən asılıdır. Mən sizinlə razıyamki, nəhəng birliklərə qoşulmaq daha məqsədəuyğundur.

Hər şeyi hərbi uğurlardan asılı vəziyyətə qoyurdular. «Aslan» qoşununun hərbi uğuruna inanaraq general Hermixi Azərbaycan hissələrinin birləşdirilməsinin vacibliyinə inandıra bildim. O mənə təklif etdi ki, Azərbaycan qoşunun təşkili formalarının planını, sxemlərini, hesablarını və taktiki əsaslandırılmasını təqdim edim. Bütün bunlar öz vaxtında hesablanıb təqdim olundu.

Nəticədə, həm Vermaxtın, həm də legionerlərlə bağlı olan digər nazirliklərin qarşısında Azərbaycan legionerlərinin maraqlarını təqdim edən bir hərbi orqan kimi Azərbaycan Qərargahının yaradılması haqqında əmr alındı.

Qərargahın yaradılması irəliyə doğru böyük bir addım və almanların ilk güzəşti idi ki, bundan istifadə edərək irəliyə getmək lazım idi.

Qərargah öz işi ilə yanaşı ilk siyasi tələblərini bildirdi:

1)Azərbaycan rəmzlərinin bərpası (burada Almaniyanın digər dövlətin rəmzini dəyişdirmək hüququ nəzərdə tutulurdu)

2) Milli adın bərpası (nəzərdə tutulurdu ki,«azərbaycanlı milləti» yoxdur «Azəri türkü»var və alman hakimiyyəti bizi «azərbaycanlı» adlandırmağa məcbur etməklə Stalinin siyasətini davam etdirir.

3)Andiçmə mətnində tələb olunurdu əlavə edilsin ki, Alman ordusu Baş komandanının bütün əmrləri vətəninin azadlığı uğrundakı mücadilə ilə bağlı olsun. Legionerlərin vəziyyətinin yaxşılaşması və hərbi islahatların keçirilməsi istiqamətindəki işlər bütün vəziyyəti dəyişmək üçün kifayət qədər olmasa da, irəliyə doğru böyük addım idi. **Azərbaycanlıları** yenidən **türkə** çevirmək lazım idi. Azərbaycanlıların təhqir olunmuş rəmzlərini bərpa edib əsgərlərə vermək lazım idi ki, onlar öz rəmzləri ilə müharibə aparsınlar.

Bizim yolumuzu işıqlandıran və mübarizəmizə təkan verən Milli maraqlarımızı hazırlamaq lazım idi. Azərbaycan xalqının Milli iradəsi nümayiş etdirilməli idi.

Bunun heç olmasa yarısını etmək üçün ilk öncə, necə deyərlər, öz evimizi səliqəyə salmalı, yəni bütün dağılmış qrupları Milli proqram əsasında birləşdirməli idik.

Bütün bunlar Azərbaycanın təşkilat və hissələrinin nümayəndələrinin iştirakı ilə qurultayın çağırılmasına gətirib çıxartdı ki, birləşək və dünyaya eşitdirək ki, biz Azəri türkləri vətənimizin müstəqilliyi uğrunda mübahrizə aparırıq və öz qanımızla bir ağanın digəri ilə əvəz olunmasına imkan vermək fikrində deyilik.

Lakin məsələ bundadır ki, bunu necə edək və buna necə nail olaq? Belə şəraitdə müstəqillik sözünü dilə gətirmək ölümə bərabər idi. Çünki bu Milli sosializmin və irqi nəzəriyyənin milli siyasətinə qarşı çıxırdı. Bu Alfred Rozenberqin rəhbərlik etdiyi Ostministirliyin əhəmiyyətsiz olması demək idi. Bu Qafqaz canişini cənab Şikidansiya zərbə demək idi. Belə ki, yalnız «Ostopl» qərargahından 2 minə yaxın alman faydanlanırdı. Nə zaman ki, Reyxkomissarlar və Qebitkomissarlar-Ukraynanı, Belarusiyanı, Litvanı, Latviyanı, Estoniyanı idarə edirdilər, onda Polşa general-qubernatorluğa, Çexslovakiya isə protektoratlığa çevrilmişdi. Almanlar Rusiya, Ukrayna kimi dövlətləri tanımaq fikrində deyildilər. Bu vəziyyətdə qurultayın çağırılması və «müstəqillik» sözünün dilə gətirilməsi çox təhlükəli idi, ölümə bərabər idi. Belə tələblərdən «gestapo» qoxusu gəlirdi və məhz buna görə ukraynalıları Lvov şəhərinə sürgün etmişdilər.

Bu vəziyyətdə, biz Azəri türkləri birləşmək üçün özümüzdə cəsarət tapıb köhnə hesabları unutduq. Bütün partiya və qrup maraqlarını kənara atdıq, vətənə və öz xalqımızın müstəqilliyinə olan böyük sevgimiz bütün qorxu və tərəddüdlərə üstün gəldi, bir türk kimi Atatürkün sözləri ilə çıxış edərək ehtiyacımız olan lazımi gücü tapdıq.

Qurultay çağırmaq ideyası bütün yaşlı və yeni mühacirlər tərəfindən dəstəklənmişdi və hamı dostçasına qurultayın ha-

zırlığı ilə məşğul idi. Qurultayın çağrılması ilə bağlı əsas işlər Qərargah rəhbəri İsrafil bəy və Məcid Kərsalının başçılığı ilə «Azərbaycan» qəzetinin redaksiyası tərəfindən aparılırdı.

Avqustun ikinci yarısında siyasi proqramın layihəsi başa çatdı. Bu layihə Berlində olan bütün Azəri türkləri tərəfindən geniş müzakirə olundu. Cüzi dəyişikliklərlə layihə qurultayın məruzəsi üçün qəbul edildi. Qurultaya gedən yolda bir sıra maneələr var idi və buna görə də, onun çağırışı 3 dəfə təxirə salınmışdı. Alman şöbəsi bizim razılaşa bilmədiyimiz müxtəlif şərtləri qoyurdular. Onlardan ən əsası proqrama aşağıdakı şərtlərin əlavə edilməsinin tələbi idi: Bizim üçün fərqi yoxdur ki, biz bolşeviklərə qarşı və ya Qərb ittifaqına qarşı cəbhədə vuruşuruq. Onlar da bolşeviklər kimi öz müstəqilliyi uğrunda mübarizə aparan kiçik xalqları vəhşicəsinə istismar etmək məqsədi güdürdülər. Almanların dostu bizim dostumuzdur, Stalinin gələcək müttəfikləri isə həm Almaniyanın düşmənidir, həm də bizim düşmənimizdir:

«İnkişaf etmiş kapitalist dövlətləri özlərinin qəsdən törətdikləri İkinci Dünya müharibəsində onunla eyni məqsəd güdürlər. Qəhrəman xalqlar da onların müstəqilliyini və azadlığını əzdikdən, onları əsarət altına aldıqdan sonra məhv olurlar. Dünyaya nəzər salmaqla bizə özümüzü daha dəqiq öyrədirlər. Bu zaman düşmən Şərqdəki kimi, həm də Cənubda və Qərbdə dayanır. Hansı cəbhədə vuruşmağımızı müəyyən etmək üçün bu daha əlverişlidir: Cənubda və Qərbdə İngiltərə və ABŞ-a və ya Şərqdə bolşevizmə qarşı. Çünki Almaniyanın dostu bizim dostumuzdur, Almaniyanın düşməni isə Stalinin müttəfiqi və beləliklə bizim düşmənimizdir».

Bu tələbi professor F.Mendenin köməyi ilə təxirə sala bildik. Sonra tələb olunurdu ki, bu və ya digər məsələnin müzakirəsində əsgərlər iştirak etməsinlər.

Bəzi komandirlər nümayəndə heyətini göndərməkdən imtina edirdilər. 162-ci diviziyanın komandiri onların hərbi

məsələ ilə məşğul olduğunu bəhanə edib, nümayəndə heyəti göndərmədi. **Aypara və ulduzla həmçinin and içmə mətni ilə bağlı suallar Qurultaya qədər həll olunmamışdı. Aypara və ulduz ilk səhər iclasında ucaldıldı, çünki elan olunmuşdu ki, bu rəmzlərsiz biz Qurultayı açmayacağıq.**

Qurultaya demək olar ki, Azərbaycanın bütün rayonlarını təmsil edən bütün təşkilat və hissələrdən nümayəndə heyəti toplanmışdı. Türkiyədəki Azəri türkləri isə öz neytrallıqlarına görə gələ bilməmişdi.

Qurultayın açılışı Berlində, Kayzerhof mehmanxanasında, 6 noyabr 1943-cü ildə saat 9- da oldu. Abbas bəyin qurultayın açılışındakı çıxışından sonra siyasi proqram tərtib edildi.

Bütün mücahidlərin adından and qəbul olundu. Bu bizim mücahidlərin öz vətənləri üçün qəbul etdiyi ilk and idi.

Beləliklə, Qurultayın ilk günündə Azərbaycanın rəmzini bərpa edərək, əsl adımızla çağrıldıq: Azəri türkü. Biz Hitlerə, Almaniyaya yox, Azərbaycana, onun xalqına, müstəqilliyinə sadiq olacağımıza and içdik və vətənimizin müstəqilliyi uğrunda mübarizə proqramını qəbul etdik.

Noyabrın 7-də Qurultayın təntənəli iclası keçirildi və burada bütün türk və Qafqaz xalqlarının, həmçinin Almaniya hökuməti və ordusunun nümayəndələri, alimlər və mətbuat təmsilçiləri iştirak edirdi.Eyni zamanda, Böyük Mufti və müsəlmanların digər görkəmli nümayəndələri də iştirak edirdi.

Təntənəli iclasda Almaniya imperiyası təmsilçilərinə və onun bütün müttəfiqlərinə, radio vasitəsi ilə isə bütün dünyaya bildirdik ki, biz Azəri türkləri bu müharibədə öz qanımızı Azərbaycanın müstəqilliyi uğrunda tökürük və hər hansısa bir millətin hökmranlığını qəbul etməyəcəyik. Türküstanın, İdil-Uralın və Krımın, həmçinin Qafqazın çıxış edən xadimləri öz səslərini Azərbaycana birləşdirərək həmrəy olduqlarını bildirdilər.

8, 9 və 10 noyabrda keçirilən iclaslar təşkilati məsələlərə həsr olundu, məhz:

1) Milli Birlik Məclisinin milli azadlıq hərəkatının ali orqanı kimi seçilməsi

Qanunverici orqan kimi Məclisin Almaniya tərəfindən qəbul olunmasına ehtiyac yox idi, komitə isə hakimiyyət orqanı kimi Almaniya tərəfindən tanınmalı idi. Buna görə də qərara alındı ki, müstəqillik tanınmayana qədər komitə yaradılmasın. Məclisin icraedici-texniki orqanı isə qərargah hesab olunurdu.

2) Mətbuatla bağlı aşağıdakı məsələlər həll olundu: əsas mətbuat orqanı kimi «Azərbaycan» qəzetini hesab etmək, əlavə olaraq isə «Milli Birlik» jurnalını nəşr etdirmək, imkan daxilində isə başqa qəzet, kitablar çap etdirmək.

3) Hərbi hissələrdən gəlmiş məruzələr dinlənildi. Deputatlar almanların törətdiyi özbaşınalıqdan, Azəri türk əsgər və zabitlərin tam hüquqsuz olmasından, bununla əlaqədar, onların ruhdan düşməsindən və qaçmaqlarından danışdılar. Qurultay əsgərlərimizin qaçışını bizim xalqın namusunu alçaldan, heç nə ilə haqq qazandırılmayan hadisə kimi mühakimə etdi.

Qurultay hər bir nümayəndə heyətinə və Məclisin hər bir üzvünə öhdəlik olaraq kütləyə Qurultayın qərarlarını çatdırmağı, bütün gücü ilə biabırçı qaçışlara son qoymağı vacib saydı. Digər tərəfdən, qərargaha bütün xadimlərlə hərbi hissələrə sistematik olaraq baş çəkilməsi təklif olundu. Əsas diqqət əsirlərə ayrıldı. Qurultaydan sonra Almaniya hökumətinə deputatların tələbləri təqdim olundu:

1) Azərbaycanın müstəqilliyinin tanınması;

2) Bütün azərbaycanlıları vahid milli xilasedici qoşuna birləşdirmək;

3) Xəstə və yaralılar üçün ayrıca xəstəxananın yaradılması;

4) Azəri–türk əsgərləri üçün istirahət yerlərinin açılması;

5) Azərbaycanlı əsgərlərə alman əsgərləri ilə bərabər hüquq verilməsi;

6) Bütün Azəri–türklərini hərbi əsirlər düşərgəsindən azad edilməsi, onlara sərbəst çalışmaq hüququnun verilməsi və ya könüllü olaraq legiona daxil edilmələri;

Qurultay öz işini noyabırn 11-də qurtardı, bir həftədən sonra isə başda sərkərdə İsrafil bəy olmaqla nümayəndə heyəti Şərqə, mən isə Qərbə getdim.

Bundan sonra hərbi hissələrə daima baş çəkilirdi. Əlixan Qantəmir bütün türklərin və qafqazlıların fikirlərini ifadə edərək Qurultay haqqında belə yazırdı: «Noyabrın 6-da Berlində qafqazlıların siyasi və hərbi həyatında mühüm hadisə kimi qəbul olunan Azərbaycan Qurultayı çağrıldı».

Qurultay qədim türk sözü olub, xalq nümayəndələrinin son dərəcə vacib və təhlükəli tarixi hallarında, müharibə və sülh məsələlərini müzakirə etmək üçün toplandıqları konqres və ya yığıncaq mənası daşıyır. Çətin ki, keçmişdə türk xalqlarının Qurultayları qarşısında Azərbaycan Qurultayındakından çətin və məsuliyyətli məsələlər qoyulurdu. Azərbaycan Qurultayı əsasən siyasi və milli nöqteyi nəzərdən maraq kəsb edirdi.

Qurultay qərarları sərbəst və dərin düşünülmüş fikirlərin məhsulu, sərbəst həyat üçün darıxmış, sovet əsarətində boğulan milli və mədəni çiçəklənməni, azadlığı gözləyən xalqın aydın səsi kimi xüsusi dəyərə yiyələnir.

Həqiqətən Qurultay mücahidlərimizin yolunu işıqlandırdı və xalqımızın gücünü birləşdirdi, türk və Qafqaz xalqlarının işgüzar birləşməsinin əsasını qoydu. Qurultay aşağıdakı qərarları qəbul etdi:

«6 noyabr 1943-cü ildə Berlin şəhərində toplanmış Azərbaycan Konqresi mayor Fətəlibəylinin məruzəsini dinlədikdən sonra qeyd etdi ki:

1) Milli Azərbaycan Dövlətinin mövcud olduğu dövr, yəni 28 may 1918-ci ildən 27 aprel 1920-ci il, bizim tariximizin ən parlaq səhifələridir.

2) Vətənimiz bolşeviklər tərəfindən işğal olunandan sonra 23 il müddətində xalqımızın həm ölkənin daxilində həm də xaricdə apardıqları qanlı müharibələrin yalnız bir məqsədi var idi-itirilmiş müstəqilliyin bərpası.

3) Konqres çətin şəraitdə aparılan müharibələrdə öz həyatını vətənə vermiş mücahidlərimizin parlaq abidələri qarşısında baş əyir.

4) Biz inanırıq ki, bütün dünyanı sarsıdan bu müharibənin nəticəsində xalqımız yenidən öz müstəqilliyini əldə edəcək. Bunun üçün ilkin şərt daim düşmən üzərində qələbədir. Ona görə bu gün milli maraqlar bizi bolşevizmə qarşı müharibə aparan Almaniya ilə birləşdirir.

5) Konqres Azərbaycan xalqının Qafqazın qonşu xalqları ilə və qardaş Türkestan, İdel-Ural və Krım xalqları ilə əsrlərlə davam edən ümumi məqsəd və ideyalarını həvəslə qeyd edirdi.

Konqres yuxarıda göstərilmiş məsələləri həll etmək üçün fəaliyyət göstərməli olduğu dözülməz, çətin şəraitə baxmayaraq qərara alır ki:

1) Mayor Fətəlibəylinin məruzəsini təsdiq etsin və siyasi xətt kimi qəbul etsin;

2) Müstəqilliyimizi bərpa etmək məqsədi ilə düşmən üzərində qələbə çalmaq üçün bütün maddi və mənəvi gücü səfərbər etsin;

3) Konqres hesab edir ki, vətənə qayıdana qədər milli azadlıq hərəkatına rəhbərlik etmək üçün Milli Birlik Məclisi təsis etmək lazımdır;

4) Milli Birlik Məclisi ali orqan hesab olunsun və vətənə qayıdarkən öz səlahiyyətini xalq qarşısında bildirsin.

5) Konqres məclisin mərkəzi icraedici orqanının yaradılmasını vacib hesab edir və bu işi Milli Birlik Məclisinin özünə həvalə edir;

6) Konqres icraedici orqanın səlahiyyətlərini mayor Fətəlibəyliyə tapşırır;

Deputatlar bütün döyüşçülərin adından aşağıdakı andı qəbul edirlər:

«Mən söz verirəm və öz namusuma,vicdanıma and içirəm ki, xalq hakimiyyəti prinsipinə qarşı heç bir məqsəd güdməyəcəyəm və müstəqillik prinsipindən heç vaxt əl çəkməyəcəyəm».

HƏRBİ HİSSƏLƏRİN FORMALAŞMASI HAQQINDA

Milli hərbi hissələrin təşkili işində tam özbaşnalıq hökm sürürdü. Hər bir alman hərbi birləşməsi özü üçün əlavə komandalar, taqımlar və qoşunlar yaradırdı. Onların sayı və fəaliyyəti haqqında heç bir hesabat yox idi. Onlar Finlandiyadan tutmuş Ukraynaya qədər Avropanın müxtəlif ölkələrinə səpələnmişdilər.

Biz Şərq qoşunlarının qərargah generalından Azərbaycan hərbi hissələrinin sayı və onların yerləşdiyi yer haqqında soruşduqda bildirdilər ki, 7 Azərbaycan taburu və legion mövcüddur. Məclisin və qərargahın fəaliyyəti nəticəsində isə 60-a yaxın Azərbaycan hərbi hissəsi aşkara çıxarıldı. Bu hissələrin formalaşmasında müəyyən prinsip mövcud deyildi. 162-ci türk diviziyası qarışıq olduğu halda, bu qoşunlar müəyyən sayda almanlar olmaqla, azəri türklərindən ibarət idi. Bu cür mexaniki qarışıqlıqda əsasən türklər əzab çəkirdilər. Bu ideya general mayor Ritter von Nidermeyerə məxsusdur. **O, şərq xalqının bilicisi sayılırdı və bu «ekspert»in fikrincə, şərq xalqı kifayət qədər yedirilsə, geyindirilsə və qorxudulsa, onlar heç bir milli ideya olmadan hər bir xalqa qarşı vuruşacaqlar.**

Ona görə də, general R.V.N. bu diviziyaya milli ideyanın daxil olmasının əleyhinə idi. Lakin Məclis bu divizyaya daxil oldu və bundan sonra azərbaycanlılar türk adlanmağa başladılar. Rus qəzeti «Azadlıq» bağlandı və türk qəzeti ilə əvəz

olundu. Şərq eksperti general R.V.N. isə bütün mənsəb və işdən azad oldu və bizim xalqın dostu general V.Noyqendofla əvəz edildi.

Məclis üzvləri, qərargah işçiləri öz həmvətənlilərinin hüquq, namus və həyatını qoruyaraq daima hərbi hissələrə, legionlara baş çəkirdilər və geniş milli tərbiyəvi işlə məşğul olurdular.

Məclis bununla eyni zamanda daima və sistematik şəkildə vahid hərbi orqanizmdə birləşməsi üçün çalışırdı. Bu, bütün Azərbaycan hərbi hissələrinin cəbhədən və cəbhəyani xətlərdən çıxartmaq və bir və ya bir neçə tədris məntəqələrində birləşdirmək demək idi. Bu müddətdə onlar itki verməyəcəkdilər və təklif olunmuş sxem də həmin məqsədi güdürdü. Bu briqadanı aşağıdakı hallarda istifadə etmək təklif olunmuşdu:

« 1) Müdafiədə düşmənə qarşı zərbə qüvvəsi kimi;

2) Düşmənin geri çəkilmiş hissəsini təqib və məhv etmək üçün. Bu həmçinin bizim müttəfiqimiz olan almanların da maraq dairəsində idi. Çünki Azəri türkləri daha çox fayda verirdilər».

Uzunmüddətli və ağır zəhmətdən sonra əvvəlcədən hazırlanmış hesabatlar və layihələr üzərində türk və Qafqaz diviziyasının formalaşması baş tutdu.

Türk diviziyasının yaranması üçün müsəlman adlanan hərbi hissə mərkəz oldu. Bu hərbi hissə cəbhədən çıxarıldı və türk diviziyasına çevirmək üçün Slovakiyada yerləşdirildi. Diviziya Türküstan, Azərbaycan, Krım və İdil-Ural alaylarından təşkil olundu; Diviziyanın tərkibinə həmçinin Şimali Qafqaz türklərinin daxil edilməsi nəzərdən keçirilmişdi. Hər bir alay öz ölkəsinin nişanına malik idi**. Ümumtürk diviziyasının bayrağı isə mavi rəngdə, aypara və beşgüşəli ulduz şəklində təşkil olunmuşdu və onun saplağı «Bozqurdun» başı ilə qurtarmalıydı. Bu diviziyanın döyüşçüləri öz ölkələrində**

SS əvəzinə «Bozqurdun» başını, əlcəklərində isə öz ölkələrinin bayrağını gəzdirirdilər.

Qafqaz diviziyası isə bunların tərkibində yaranmışdı: Ermənistan, Azərbaycan, Gürcüstan və Şimali Qafqaz alayları. Bu diviziyanın formalaşdığı yer **Şimali İtaliya idi.**

Hər bir alayın öz nişanı var idi və ilgəkdə «SS» əvəzinə Qafqazın rəmzi kimi «Xəncər» gəzdirməli idilər.

Vermaxt (Wehrmacht) xətti ilə isə Danimarkada Qafqaz alayı təşkil olundu.

Bu formalaşmadan istifadə edərək ayrı-ayrı hissələr, komandalar və qruplar, bu birləşmənin tərkibinə daxil olmalı və daha təhlükəsiz məntəqə kimi Şimali İtaliya və Danimarkada toplaşmalıydılar.

Təəssüf ki, müharibənin sonu bu birləşmələri formalaşdıqları dövrdə yaxaladı və biz xoşbəxtlikdən məhrum olduq, çünki bolşeviklərə nəhəng türk və Qafqaz birləşmələrinin tərkibində müqavimət göstərə bilmədik.

AZƏRBAYCAN QOŞUNLARININ HƏRBİ FƏALİYYƏTİ

1942-ci ilin avqustunda ilk dəfə Qafqaz cəbhəsinə 804 saylı birinci Azərbaycan taburu çıxdı. Taqanrokdan Psebayskaya qədər tabur 800 km irəlilədi və partizanlarla kiçik toqquşmalar oldu. Döyüş nəticəsində tabur aşağıdakı stansiyaları zəbt etdi: Beslineyevski, Boqovski, Buqunj, Saxray və s. Sonra tabur uca dağlarda alman əsgərlərinin ayağı dəyməmiş «Şeytanlar Qapısı» rayonunda sistematik şəkildə mübahrizə apardı. Almanların dördüncü dağ diviziyasının döyüşçüləri Azəri türklərini «Patrisanen Jager» adlandırırdılar. Bu tabura geri çəkildiyi dövrdə də inam bəsləyirdilər. Onlar Kubana qədər gəlib çıxdılar və ona Star-Korsunskidə hərbi yer ayrıldı. Burada

tabur qızğın və qanlı döyüşlərdə 40-cı briqadanı, 353-cü diviziyanı və sovetlərin 119-cu briqadasını məhv etdi.

Qoşunun hərbi xidmətləri almanlar tərəfindən çox yüksək qiymətləndirildi. Taqım komandiri general Konrad, diviziya komandiri general-mayor Kress-Von-Kresenşteyn öz əmirlərində dəfələrlə bu taburu alman hərbi hissələri ilə bərabərləşdirirdilər. General Kestrinq isə onu: «Sagen hafter Bte» adlandırırdı. Taburun bir çox döyüşçiləri ordenlərlə, nişanlarla, «Kubanschield»lə təltif olundular və tabur «Aslan» adlandırıldı.

Qafqazdakı döyüşlərdə bizim dostumuz professor Oberlenderin komandirliyi altında 111 saylı taburla və ikinci Berqman taburu yüksək mükafatlara layiq görüldülər. Bütün bu taburlar 805, 806 və 370 saylı taburların mövcud olduğu Krımda yerləşdilər. Bu hissələr Krımda partizanlara qarşı vuruşurdu. İkinci Berqman Perekopdakı döyüşlərə görə seçilirdi.

Sonra isə 807, 817, 818 və 819 saylı taburlar hərbi hərəkətə başladılar.

1944-cü ilin əvvəlində Krımda yerləşən Azərbaycan hərbi hissələri tam məhv olma təhlükəsi altında idi. Bu məsələnin vaxtında Kestrinqin qarşısına qoyulması onları evakuasiya etməyə və Fransaya istirahətə göndərməyə imkan verdi.

162-ci türk diviziyası Tito dəstəsinə qarşı vuruşurdu, sonralar isə onları İtaliyaya göndərdilər.

1943-cü ilin ortalarında Alman komandanlığı qərara aldı ki, bütün legionları Qərbə köçürsün. Etirazlar nəticəsində Azərbaycan qoşunlarının əsas hissəsinin şərq cəbhəsində qalması mümkün oldu. Fransaya yalnız legion və 807-ci tabur köçürülmüşdü. Birinci Rodezdə, ikinci isə St.Raphaeldə yerləşirdi. Sonralar 353-cü Alman diviziyasının tərkibinə Şerburq rayonunda yaşayan 1200-ə yaxın Azəri türkləri daxil edildi.

İngilis-amerikan diviziyası legionu Rodezdə, 807 taburu Raphaeldə və 1200 Azəri türklərinin tərkibinə qatıldığı 353-cü Alman diviziyasını isə Loda yaxaladı. Legionun tərkibindən

Ələskərlinin rəhbərlik etdiyi «Kampf qruppe» ayrılmışdı. Onlar böyük cəsarətlə partizantlara qarşı vuruşurdular və döyüşərək Almaniyaya getdilər, legionun qalan hissəsi isə amerikanlara əsir düşdü.

Fransada istirahət edən 804 saylı «Aslan» və 806 saylı taburlar İtaliyada yerləşdirildi. 162-ci türk diviziyasının 329-cu alayı yaradıldı. Bizim dostumuz general von Heydendorfun rəhbərliyi altında bu diviziya döyüşlərdə fərqlənməyə başladı və Ali komandan tərəfindən qeyd olundu.

Azərbaycan qoşunlarının əsas hissəsi isə Şərq cəbhəsində vuruşurdu. 817, 818 və 819-cu taburlar geniş əraziləri tutmuşdular və partizanlarla, sovet desantları ilə vuruşurdular. Hər bir bölmə bir-birindən çox aralı yerləşirdi və cəsarətlə sərbəst hərəkət edirdilər.

Məsələn, 818-ci taburun ikinci taqımının komandiri leytinant Bağırov 300 nəfərdən ibarət bolşevik desantı tərəfindən mühasirəyə alınarkən 5 gün ərzində qəhrəmancasına müqavimət göstərdi və nəhayət köməyə gəlmiş digər bölmələrin sayəsində xilas olundu. Bu taburların mübarizə həyatı belə nümunələrlə doludur.

Korpus komandiri general von Forster öz əmri ilə ikinci Berqman taburuna heyran olduğunu bildirdi. 19.6.44-cü ildə bizim qərargaha baş çəkmiş mayor Autsch (Heeres qruppe Mite) qeyd etdi ki, ki, döyüş gedən bütün ərazilərdə digər legionerlər arasında da birincilik azərbaycanlılara məxsusdur. Hapts urmfuhrer Herman da öz çıxışında İsmail Əkbərin, Ələskərlinin və Əflan Muğanın komandirliyi altında vuruşan Azəri türklərinin qəhramanlığından mərüzə etdi.

Polşada tərkibində 3000-dən artıq Azəri türkləri olan «Boller» briqadası yerləşirdi.

Alman komandanlığı qarşısında Azərbaycan hərbi hissələrinin tədricən istirahətə çıxarılmaları ilə bağlı məsələ qoyuldu. Bunun nəticəsində, 111 saylı və ikinci Berqman taburları

cəbhədən istirahət üçün Köln rayonuna göndərildi. Avqustun əvvəllərində Alman komandanlığı bu iki tabura əmr verdi ki, Şərqi Prussiyaya girsinlər. Lakin bu taburlar təyin olunmuş yerə çatmamış Varşavaya göndərildilər və burada Varşava üsyanının yatırılmasında iştirak etdilər.

Yalnız 1944-cü ilin 22 avqustunda Məclisə məlum oldu ki, bu taburlar Varşavada döyüşdə iştirak edirlər. Tezliklə bu hissələrin Varşavadan çıxarılması tələbi ilə Alman komandanlığına etiraz bildirildi.

Bu etiraz nəticəsində Alman Komandanlığı Azəri türklərinə aşağıdakı müraciəti göndərdi:

«Polşa dövləti 1917-ci ilin bolşevik inqilabından sonra Azərbaycan mühacirlərini öz himayəsi altına aldı və hər cür vəziyyətdə onun qayğısına qaldı. Varşavadan əvvəl ikinci Berqmanın azərbaycanlı taburunun azəri könüllüləri və üçüncülər heç bir şübhə olmadan başa düşə bilər ki, nəyə görə onlar həmişə yaxşı münasibətdə olduğu Polşaya qarşı müba-rizə aparmalıdırlar.

Könüllülər bir neçə nöqteyi nəzərdən göstərilmişdi: «Varşavada vəziyyət Sovet İttifaqının müstəmləkəsi olan Polşa adlanan asılı kommunist rejiminə uyğunlaşdırılmışdı. Polşa adlandırılmış bu dövlət xalqına qarşı ictimai vəziyyətin gedişatı ilə ağır günah işlətmiş və böyük İngiltərəni yıxmışdı.Alman Vermaxtı təsadüfən bu müharibədə iştirak etməyən əhaliniqocaları, qadınları və uşaqları xilas etmişdi. O, bununla sübüt etmişdi ki, günahsızlara qarşı mübarizə aparmaq istəmir. Varşavada fəaliyyət göstərən azəri könüllüləri Polşaya qarşı yox, Sovet İttifaqının xidmətində duran Polşa kommunistlərinə qarşı mübarizə aparırlar».

Bu etirazın xarakteri və həqiqi vəziyyət haqqında,eləcə də yarı yoldan ora göndərilmiş taburların vuruşması səbəbi haqqında, Azəri türklərinə yönəlmiş bu müraciətə əsaslanıb mühakimə yürütmək olar.

Tezliklə, bizimkiləri cəbhədən çıxarmaq, onlara həqiqi vəziyyəti başa salmaq və Polşa əhalisinə hər cür kömək göstərmək üçün albay İsrafil bəy Varşavaya göndərilmişdi. Polyaklara sərkərdə Kazımbəy də böyük kömək göstərirdi. Onun xahişi ilə polyaklar azərbaycanlı adı ilə azadlığa buraxılırdılar və Polşaya göndərilirdilər.

Ümumiyyətlə, Varşava döyüşündə iştirak edən türklər üsyanın kommunistik xüsusiyyətləri ilə bağlı səhv məlumatlandırılmışdılar.

Türklərin Varşava üsyanının yatırılmasındakı məcburi iştirakı türklərlə polyaklar arasındakı tarixi dostluğa zərər gətirə bilməzdi, necə ki Vyananın və bütün Avropanın taleyini həll etmiş, Yan Sobeskinin əvvəlcədən düşünülmüş zərbələri bu dostluğun yaranmasına və möhkəmlənməsinə təsir göstərə bilmədi.

Bolşeviklərin hücumuna qədər, yəni 1945-ci ilin 12 yanvarına kimi xəstələnmiş və yaralanmış Azəri türklərini Marieibada, Leypsqdə və Almaniyanın digər ərazilərində yerləşdirə bildik. Burada həmçinin legion və bəzi tikinti hissələri yerləşirdi. 817, 818, 819, 111 və ikinci Berqmann taburları hələ də Şərqdə fəaliyyət göstərirdilər və onlar hərbi hissələri ilə əvəz olunmalı idilər. Bütün bu taburlar bolşeviklərin zərbələrinə tab gətirirdilər və cəsarətlə vuruşaraq itkilərə məruz qalaraq almanlarla birgə Almaniyaya daxil oldular. «Boller» briqadası da bura gəldi.

Bu zaman Almaniya Komandanlığından azərbaycanlıları Şərqdən çıxarıb İtaliya və Danimarkaya göndərilməsi qəti şəkildə tələb olundu. Bunun sayəsində Türk Diviziyasını Slovakiyadan Şimali İtaliyanın Berqamo rayonuna, 111 saylı və ikinci Berqman taburlarını isə Danimarkaya göndərmək mümkün oldu.

Şimali İtaliyaya, həmçinin qadınlar, uşaqlar, xəstələr, yaralılar və ostarbayterlər evakuasiya edilmişdilər. Berlinə gəl-

miş əsgərlərin hamısını isə tək-tək və qrup şəklində Şimali İtaliyaya İsrafil bəyin alayına göndərmişdilər.

Hadisələr elə sürətlə inkişaf edirdi ki,hətta şübhə yaranırdı–hamını Şərqdən evakuasiya etmək mümkün olacaqmı? Bu zaman qərara alındı ki, Almaniya hakimiyyətindən Berlinin müdafiə sistemində Azərbaycan üçun ərazi istənilsin və Şərqdə qalan qoşunları buraya köçürsünlər. **Onlar burada bolşevizmə sonuncu müqaviməti göstərməli və əllərində qılınc ölməlidilər ki, bununla bir daha türk inamını təsdiq etsinlər və bütün dünyaya türk və Qafqaz xalqlarının bolşevizmə qarşı nifrətini göstərsinlər.**

Almaniya hakimiyyətinə yönəlmiş müraciətdə deyilirdi: «Mən öz həmvətənlilərimlə birgə Azərbaycanın Müstəqilliyini tanımış Almaniyanın paytaxtının hər qarış torpağını bolşeviklərdən qoruyacam».

Lakin yaranmış vəziyyət mənim şəxsən İtaliya cəbhəsinə getməyimi və yalnız bizimkilərə yox, həmçinin bütün türk və Qafqaz hərbi hissələrinə son göstərişi verməyimi tələb edirdi. Bütün komitələr bunun üçün mənə səlahiyyət verirdilər.1945-ci ilin 26 martında mən yenidən qayıtmaq və «Azərbaycan» ərazisində döyüşlərə rəhbərlik etmək ümüdi ilə Berlini tərk etdim.

Alman komandanlığı öz əmrlərində,alman radiosu və mətbuatı isə sistematik olaraq Azəri türklərinin yüksək döyüş bacarığını qeyd edirdi. Bütün legionerlər arasında Azəri türkləri ilk dəfə ordenlə, dəmir xalçalarla, nişanlarla və «Nahkampfspange» ilə təltif olundular.

Azərbaycan hərbi hissələrinin alman komandirləri özlərinin saysız çıxış və məktublarında Azəri türklərinin qəhrəmanlığına heyran olduqlarını yazırdılar. Bu generallar aşağıdıkılardı: von Förster Konrad, Kress-von Kressenstein, von Heygendorf, Oberst Boller, ob. lt.Riedel, Böhme, mayor Autsch, mayor Heise və s.

Alman mətbuatından bəzi xülasələr: «1943-cü ilin yazında «Aslan» sözü bütün Kuban ərazisinə yayıldı və onun döyüşçüləri üçün cəsarət və şücaət rəmzi oldu. Azərbaycan taburunun döyüşçülərini «Aslan» adlandırırdılar. Kubanda Azərbaycan döyüşçüləri hamıdan əvvəl hücüm nişanına layiq görüldülər... Almaniyanın bütün Avropanın mövcud olması üçün apardığı müharibədə böhran baş verdiyi zaman bəzi müttəfiqlər sadiq çıxmadılar və qoşunlar cəbhədən çıxmalı oldu. Lakin heç bir vaxt bir dəqiqə belə olsun Azərbaycan əsgərləri qərarlarında tərəddüd etmədilər. Azərbaycan dağlarında «sadiq olmaq» sözü müqəddəsdi və buna görə insanlar öz həyatını belə qurban verir. Öz uzaq və sevimli ölkəsində yeni və işıqlı həyat naminə bolşevizmə qarşı vuruşan insanlar bax belədir. («Siqnal» 12-ci nömrə, 1944-cü il). Və ya mayor Heysanın 19.10.44-cü ildəki saxlanılmış məktubundan: «Mənim belə bir adı daşımağa icazəm olduğu üçün fəxr edirəm. Cənab mayor, mənim sizin qarşınızda əsas vəzifəm odur ki, hər eşitdiyimi yadda saxlamalı, hər bir işimin qayğısına qalmalıyam. Mən Btl. ilə razıyam və sizə deyə bilərəm ki, Azərbaycan mücahidlərinə qarşı böyük hörmətim var».

Əgər almanların bütün çıxışlarını, əmrlərini, məqalələrini, radio proqramlarını toplasaq Azərbaycanın qəhrəmanlıq şöhrəti haqqında bir cild yaranar.

AZƏRBAYCAN MİLLİ BİRLİK MƏCLİSİNİN SİYASİ İŞLƏRİ

Döyüşçülərin türk adət-ənənəsi və Azərbaycanın şöhrətli keçmişi ruhunda milli-siyasi tərbiyələndirilməsi əsas siyasi məsələ hesab olunurdu,çünki işğalçılar, əsasən də bolşeviklər çalışırdı ki,bizim nəsil öz keçmişi haqqında heç nə bilməsin. Bu da Qurultay tərəfindən xüsusi olaraq qeyd olunmuşdu. Bizim hərbi hissələrin dağınıq vaxtında və müharibə şəraitində

bu cür çətin və məsuliyyətli işi Azərbaycan Milli Birlik Məclisi ziyalıların, qərargah və mətbuat işçilərinin, Məclis üzvlərinin əsgərlərlə sıx-sıx görüşməsi yolu ilə həyata keçirilirdi. Bu işdə xüsusi yer mətbuata ayrılmışdı.

Əsasən Azəri türklərinin müstəqillik uğrunda mübarizə tarixini, türk tarixi və türklərə xas olan keyfiyyətləri, gəncləri vətənə, öz millətinə sönməz sevgi ruhunda tərbiyələndirmək və lazımi vaxtda azadlıq, müstəqillik uğrunda canını qurban verməsinə hazır olmasını, Türk və Qafqaz xalqlarının dostluğu ideyasını genişləndirmək kimi məsələlər işıqlandırılırdı. Mətbuatın hər səhifəsində hərbi hissələrin həyatı və döyüşləri tez-tez işıqlandırılırdı. Müntəzəm olaraq «Azərbaycan» qəzeti, sonra isə «Azərbaycan Milli Birlik» jurnalı nəşr etdirilirdi. «Hücum» qəzetinin birinci nömrəsi çıxdı. Bir neçə nəşr olunmuş kitabça, çapa verilmiş bəzi kitablar və «Azərbaycanın tarixi oçerkləri» bombalanma zamanı məhv olmuşdu. Xüsusən, «Azərbaycan» qəzetinin məhsuldar işini qeyd etmək lazımdır.

Azərbaycan Milli Birlik Məclisinin bu cür gərgin fəaliyyəti nəticəsində bolşevizmin saxtakarlığı tam ifşa edildi və hamıya məlum oldu ki, biz nə midiyalı, nə də azərbaycanlıyıq,biz yüksək mədəniyyətin yaradıcısı olan türklərin davamçılarıyıq.

Qurultay Qafqaz və türk xalqlarının işgüzar birləşdirilməsinə başladı. Azərbaycan Milli Birlik Məclisi bu məsələlər üzərində böyük səylə çalışırdı. Qurultay Qafqazın müdafiə, siyasi və mədəni uğurları nöqteyi- nəzərindən beynəlxalq strateji əhəmiyyətini qiymətləndirərək qərara gəldi ki, Qafqaz xalqlarının xilas olunmasını yalnız xarici aləmdə yox, ilk növbədə öz doğma torpağımızda, Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistanın dostluğunda, sıx çalışqanlığında və qarşılıqlı hörmətində axtarmaq lazımdır. Qurultay çar hakimiyyətinin təbliğati siyasəti nəticəsində ağır sınaqlara məruz qalmış Azərbaycan-Ermənistan münasibətlərinin yaralı yerinə

də toxundu. Qurultay bildirdi ki, 1918-20-ci illərdə Qafqaz xalqları arasında həmrəylik olmadığı üçün asanlıqla bolşeviklərin qəniməti oldular. Buna görə də Qurultay müxtəlif ölkələrdə qonşularını lənətləyən, Qafqaz haqqında tendensiyalı kitablar yazan ayrı-ayrı qafqazlıları tənqid etdi. Qurultay onlara göstəriş verdi ki, öz xalqının, öz millətinin adını ucaltsın və onun xalq olub–olmamaq məsələsi həll olunan yerdə isə nüfuzunu yalnız yaradıcı əməklə, əlində qılıncla qaldırmaq mümkündür.

Azərbaycan Milli Birlik Məclisi digər Qafqaz xalqlarının milli təşkilatları ilə sıx əməkdaşlıqda Ümumqafqaz məsələlərini həll edirdi. Ümumi toplantıların, məclislərin, yığıncaqların keçirilməsindən sonra iş gəlib Qafqaz nümayəndə heyətinin ümumi Qafqaz maraqlarını təqdim edən Qafqaz komitəsinin yaradılmasına çatdı. Qafqaz qoşununun yaradılmasına başlanıldı və Qafqaz Hərbi Şurası yaradıldı. Azərbaycan Qafqazı türk dünyası ilə birləşdirən körpüdür. Biz Azəri türklərinin digər Qafqaz xalqları ilə ümumi vətənimiz var və biz Qafqazla türk dünyası arasındakı dostluğun möhkəmlənməsində öz rolumuzu oynamalıyıq.

Eyni zamanda Türküstanın,Krımın və İdil-Uralın milli təşkilatları ilə sıx əməkdaşlıq edərək, biz türk birliyinin yaradılması üzərində işləyirdik. Bu işdə ən böyük nailiyyət «Türk Birliyi» adlı türk diviziyasının təşkil olunması idi. Bu diviziyaya tarixdə ilk dəfə olaraq Ümumtürk adı altında aşağıdakılar birləşdi: Azərbaycan, Türküstan, İdil-Ural və Krım türkləri. Bu diviziyanın qəzeti də belə adlanırdı: «Türk Birliyi». Qərara alındı ki, Vahid Türk Ordusu və Ümumtürk komitəsi yaradılsın.Beləliklə, bütün türklərin hərbi rəhbəri vəzifəsi təyin olundu. Bütün siyasi yığıncaqların və hərbi hissələrin qarşılıqlı yoxlanılması təmin edildi.

Hər halda bu müddətdə türk xalqları yaxınlaşdılar və eyni kökdən olduqlarını hiss etdilər.

Əsas siyasi tədbirlərdən biri Parisdə olan legionerlərın mədəni maarifləndirilməsi və Fransa xəstəxanalarında müalicə olunan xəstələrin, yaralıların qayğısına qalmaq məqsədi ilə burada məclisin filialının açılması oldu.

Xəstələrə və yaralılara qayğı göstərmiş Varşava filialı daha uzun müddət fəaliyyət göstərdi.

Hərbiçiləri ruhlandırmaq məqsədi ilə Azərbaycan Milli Azadlıq Hərəkatının ordenləri yaradıldı: «Azərbaycan Müstəqilliyinin Ulduzu» və «Bozqurd».

Vətənimizin müstəqillik rəmzi olan bu ordenlər bütün xalqlara, ilk növbədə isə alman xalqına həmişə müstəqilliyə meyl etdiyimizi xatırlatmalı idi.

1 iyul 1944-cü ildə Azərbaycan Milli Birlik Məclisinin birinci sessiyası öz işinə başladı. Məclis tamamilə məsuliyyətli bir vaxtda, həm Şərqdə, həm də Qərbdə bütün hərbi hissələrimizin bütövlükdə məhv olmaq qorxusunun olduğu, Almaniyanın avropalı müttəfiqlərinin yarı yoldan qayıtmağa tələsdiyi və ona bir-birinin ardınca xəyanət etdiyi anda toplaşdı.

Məclis Azərbaycan qərargahının hesabatını və hərbi nümayəndə heyətinin yerlərdəki vəziyyət haqqında məruzələrini dinlədi.

Məclis qərara aldı ki,Azərbaycan qoşunlarına aşağıdakı əmrləri versin:

1) Axıra qədər müttəfiqlərinizə sadiq olun;

2) Əgər almanlar planlı şəkildə geri dönsələr, siz də onlarla dönun.Əgər almanlar kütləvi olaraq əsir düşürlərsə və o cəbhəni qorumurlarsa, Şərqdə əsir düşməyin, meşə və dağlara gedib qaçaqçılıq müharibəsi aparın,imkan daxilində isə Almaniyaya qayıdın. Qərbdə də dağlara və meşələrə gedib imkan daxilində Almaniyaya gəlin və əgər belə imkan olmasa nümayəndə heyətini ingilis-amerkanların yanına göndərin və sovetlərə verilməmək şərti ilə təslim olun. Məclis qərargaha tapşırdı ki, müharibənin sonunu hiss etdikdə bütün azərbaycanlılar Şimali

İtaliyaya toplaşsın. Eyni zamanda Hərbi hissələr və xəstəxanalar Şərqdən Qərbə köçürülməyə başlanılsın.

Məclis kommunizmə qarşı nəzəri müharibə və türkçülük məsələsinə də az yer ayırmadı.

Azərbaycan Milli Birlik Məclisinin 3 gün davam edən Sessiyası Azərbaycanın Müstəqillik gününün qeyd olunması ilə başa çatdı.

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN TANINMASI UĞRUNDA MÜBARİZƏ

Qurultaydan sonra almanlar Azərbaycan Qərargahını da tanıdılar və Azərbaycanın siyasi nümayəndələrinə bütün nazirlik və idarələrdə Azərbaycanın maraqlarını bildirmək, legionerlərin milli-siyasi ruhda tərbiyələndirilməsiniə rəhbərlik etmək və onlara qəzet, jurnal, kitab çap etdirmək hüququ verildi.

Mən şəxsən Qurultaya seçilərək Almaniya hökuməti tərəfindən: «Bütün azərbaycanlıların sözcüsü və nümayəndəsi» kimi qəbul olundum. Qurultaydan sonra Almaniya hakimiyyətinin qarşısına Azərbaycanın müstəqilliyinin qəbul olunması məsələsi qoyuldu. Hətta belə bir andan istifadə edildi. Belə ki, 1944-cü ilin əvvəllərində SSRİ Ali Sovetinin 10-cu sesiyasının İttifaq Respublikalarında xarici işlər üzrə Xalq Komissarlığının təsisi ilə bağlı qərarı məlum oldu. Cənab Berqerin adına olan Bəyannamə bundan bəhs edirdi: «Qurultaydan sonra bütün əsgərlər və siyasi mücahidlər Azərbaycanın müstəqilliyinin tanınması ilə bağlı müvafiq ərizəni gözləyirdilər...Onlar indiyə qədər heç bir əhəmiyyət daşımayan və heç bir məna verməyən «Freiheit»–«Azadlıq» sözünü deyirdilər.Məgər Stalinin cürbəcür təcrübəvi tədbirlərinə «Freiheit» kimi mücərrəd bir sözü qarşı qoymaq olardımı? Xalqı bu söz altında mübarizəyə çağırmaq olardımı?

Bununla yanaşı, Almaniya hökumətinə Bəyannamənin layihəsi və bu layihə ilə bağlı izahedici qeyd təqdim olunmuşdu.

İzahedici qeyddə deyilirdi: «İndi o an gəlib çatıb ki, əsgərləri ilə çiyin-çiyinə vuruşduğumuz bizə dost olan Almaniya Azərbaycan haqqında öz sözünü desin.

Biz Azəri türklərinə gəldikdə isə Azərbaycanın işıqlı və **azad gələcəyinə inanırıq**. Şəxsən mən öz xalqımı mübarizəyə çağırmazdım, əgər onlar qüdrətli, qəhrəman, vətənpərvər, mərd və heç kimin, heç nəyin qarşısında əyilməyən türk xalqının bir hissəsi olmasaydı. Öz dininə görə bizə yad olan, lakin irqinə görə doğma olan Finlandiya bir daha bütün dünyaya türk qanına minnətdar olduğunu göstərdi.

Əgər bu gün bir çoxları gözəyarı olaraq türk xalqının heç bir güclə inkar edilməyən tərəqqi zirvəsinə doğru qalxmasını görmürsə də, mən adi gözlərimlə bunu görürəm və bütün türklərin parlaq gələcəyinə inanıram. Onlar buna layiqdirlər.

Dost Almaniyanın və digər nəhəng dövlətlərin siyasətinin bizə hansı münasibətdə olmasına baxmyaraq biz oz türk yolumuzla gedəcəyik və bütün varlığımızla, öz mücadiləmizlə, öz qanımızla, öz çalışqanlığımızla mütərəqqi türk mədəniyyətini, türk adətini qoruyacağıq. Biz qılıncımızı qından çıxaracağıq ki,sıxışdırılan türk dünyasını məhv olmaqdan qurtaraq və onu yenidən işıqlı yaradıcı şöhrətə çatdıraq.

Həmçinin almaniyalı hərbi və siyasi xadimlərlə çoxlu görüşlərdə, nümayişlərdə, iclaslarda və mətbuat səhifələrində, məclisimizin üzvləri və bütün mücahidlərimiz Azərbaycanın müstəqilliyinin qəbul olunmasını xatırladır və tələb edirdilər. Əsasən qeyd etmək lazımdır: **1)** 22.03.1944 tarixində Rodezdə keçirilən toplantını. Burada Ceyhun bəy almanlara dedi: «Unutmayın ki, biz türklər Vyananın darvazaları qarşısında durmuşduq». **2)** Qafqaz nümayəndələrinin Parisdə Məclis filialının acılışındakı çıxışları; **3)** Azərbaycanın Müstəqillik Günü bayramındakı çıxışları; **4)** Məclisin Sessiyasındakı

çıxışları; **5)** Qurultayın bir illiyinin qeyd olunmasındakı çıxışları;

1944-cü ilin ilk yarımilində İmperiya Naziri Alfred Rozenberqlə görüşdə uzun danışıqdan sonra ona bildirilmişdi: «Əgər bilsəydik ki, apardığımız mübahrizə nəticəsində Azərbaycanda bolşeviklərin əvəzinə almanlar ağalıq edəcəklər, Sizinlə bir addım belə atmazdıq. Buna nazir nədənsə belə cavab verdi: «Das Reich muss sein Wort erhalten» və əlavə etdi: «Azadlıq istənilmir, qan və zəhmətlə qazanılır».

Bütün bunlardan sonra almanlar bizə təklif etdilər ki, qərargahı Milli komitəyə çevirək. Biz bundan tamamilə imtina etdik və bildirdik ki, «azadlığımızı rəsmən tanımadan Milli komitə yaradan deyilik».

Bu vaxt bizə Rusiya Xalqlarının Qurtuluş Komitəsinə daxil olmaq təklif edildi, lakin biz bu komitəyə daxil olmadıq, ona görə yox ki, Rusiya azadlıq hərəkatının əleyhdarlarıydıq, ona görə ki, biz heç vaxt Rusiya xalqı olmamışıq və olmayacağıq. Digər tərəfdən, Almaniya bizi tam tanımadan heç bir komitəylə danışığa girə bilməzdik.

SS-in baş qərargahı və Xarici işlər nazirliyi bizim RXQK-ya daxil olmağımızı inad edirdi. Onlar bildirirdilər ki, RXQK öz bəyannaməsində xalqların müstəqilliyini qəbul edir və mücadilənin uğurlu keçməsi üçün bütün antibolşevik güclər birləşməlidir. Biz isə inad edirdik ki, müstəqilliyimizi Almaniya tanısın, digər dövlətlərə gəldikdə isə ozümüz də danışa bilərik.

Stalin konstitusiyasına görə Azərbaycan da SSRİ-nin tərkibinə daxil olan müstəqil ölkədir və hər vaxt ittifaqdan çıxmaq hüququ var. Digər tərəfdən rus generalının da Almaniyada SSRİ xalqlarının müstəqilliyini bəyan etmək üçün ozündə güc tapması almanlar üçün daha pis idi.

SS-in Baş qərargahı RXQK-aya nümayəndə göndərmək şərti ilə bizim müstiəqilliyimizi tanıdı. Həmin vaxt SS-nin qrup rəhbəri Vexterə Məclis adından bildirildi: «Əgər bizim

müstəqilliyimiz şərtsiz tanınmazsa, biz bütün həmvətənlilərimizlə həbsxanaya gedəcəyik. Qoy tarix bizi mühakimə etsin. RXQK-ya nümayəndə göndərmək və Vlasovla müqavilə bağlamaq isə bizim daxili işimizdi. **Nəhayət, SS-in Baş qərargahı bizi şərtsiz tanımaqdan imtina etmədi və 17 mart 1945-ci ildə Reyxkansler Rozenberq Almaniya İmperatorluğu hökuməti adından Azərbaycanın müstəqilliyini tanıdı. Müstəqilliyin tanınması bizim mücahidlərin qanı və ziyalılarımızın çalışqanlığı hesabına əldə olundu və qazanıldı. İsveçrəli alim deyirdi ki, həyatda heç nə həlak olmuş mücahidlərin qanı kimi müqəddəs ola bilməz. Lakin rəhbər olmayanda bu dəyərli qan batır. Qurultaysız və məclissiz müstəqilliyimizin tanınması mümkün olmazdı və onların silahlı mübarizəsi əhəmiyyətsiz olar, qanı yerdə qalardı.**

Müstəqilliyimizin qəbul edilməsi bizə ona görə əhəmiyyətlidir ki, çoxlu qan və çalışqanlıq hesabına əldə olunub və qüdrətli Almaniya xalqı adından səsləndirilib.

Biz Azəri türkləri Almaniyanı və alman xalqını tanıyırdıq və tanıyırıq. Bizim üçün onun dövlət idarəçilik formasının heç bir əhəmiyyəti yoxdur, bu alman xalqının daxili məsələsidir. Bu zaman Milli sosialist hakimiyyəti alman xalqını təqdim edirdi və hətta Milli sosialist nəzəriyyənin yaradıcısı filosof Reyxkansler A.Rozenberq bizi qəbul etdi. Müstəqilliyimizin imperiyanın dağılmasından 1-2 ay əvvəl qəbul olunması böyük əhəmiyyət daşımır.Əsas odur ki,bu Azərbaycan xalqının öz oğullarının qanı və fəaliyyəti hesabına əldə etdiyi dəyərli nailiyyətdir.

Əgər Milli sosialist Almaniyası Azərbaycanın müstəqilliyini tanıdısa, heç bir şübhə yoxdur ki, demokratik dövlətlər bəşəriyyətə bolşevizmə qarşı mübarizə ilə xidmət etmiş, Azərbaycanı heç bir tərəddüdsüz qəbul edəcəklər.

YEKUN

Qurultay vaxtı biz şübhə etmirdik ki, almanlar müharibədə uduzub. Bu haqda Məclislərin birində açıq–aşkar deyilmişdi və buna görə Məclisin sədri hörmətli Hacıbəylini uzun müddət Qestapoda sorğu–sual etmişdilər.

Şəxsi maraqlar, şəxsi təhlükəsizlik, şəxsi mənsəb müdaxilə etməməyi, gözləməyi tələb edirdi. Lakin milli namus maraqları müdaxilə etməyi və həmyerlilərini milli rəhbərsiz qoymamağı tələb edirdi.

SSRİ-ilə Qərb arasındakı ittifaqın qiymətləndirilməsi məsələsinə gəldikdə isə, Məclis hesab edirdi ki,bu ittifaqı kommunizmlə demokratiya arasındakı qeyri-qanuni birlik kimi qiymətləndirmək lazımdır.

Bu ittfaq aşağıdakı düstur üzərində yaradılıb: kim kimi aldadır? Stalin artıq çoxdan Çörçilə aldanıb. Desantlar Avropada qələbə çaldığı zaman şuarlar arxa plana keçiriləcək. Qərb Almaniyanı tam ölümə aparmayacaq və SSRİ-ni Kerzon xəttindən qərbə buraxmayacaq.

Beləliklə, biz ümüd edirdik ki, yeni müttəfiqlərimizlə müharibəni davam etdirəcəyik. Və bu dəfə Stalin heç nə ilə qəzanın qarşısını ala bilməyəcək və o üsyan etmiş xalqlarla məhv ediləcək.

Bu düşüncələrdən çıxış edərək Məclis çalışırdı ki, bütün həmvətənlərini Qərbə toplasın ki, onları yenidən bu dəfə qətiyyətli və sonuncu müharibəyə aparsın.

Azərbaycan Milli Birlik Məclisinin iş üçün çox az vaxtı var idi və bombalar altında, müharibənin gedişi ilə əlaqdar olaraq tez-tez dəyişən şəraitdə işləməli olurdu.

Onlarla ölkənin ziddiyətli fikirlərinin dövran etdiyi bir ölkədə öz xalqının maraqlarını müdafiə etmək çətin idi.

Ən çətini o idi ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə başqa bir ölkədə, ayaqlarımız altında doğma torpaq

hiss edilmədən aparılırdı… Əgər alman əsgəri cəbhədə vuruşaraq vətən qayğısı ilə əhatə olunmuşdusa, məktub, bağlama alaraq sevinirdisə, məzuniyyətə çıxaraq ana əzizləməsini hiss edirdisə, yaxınlarını və qohumlarını görmək imkanı var idisə, üzü Vətənə doğru vuruşan və Vətən nəfəsini hiss etmədən onun müstəqilliyi uğrunda həyatını verən Azəri türk əsgərləri isə bütün bunlardan məhrum idilər.

Hazırlanmış kadrların, xüsusilə də zabit kadrlarının olmaması müharibənin gedişinə güclü təsir edirdi.

Əsas nailiyyət odur ki, Məclis Milli Birlik işində çox şey əldə etdi. Onun olmaması ucbatından türk dünyası hökmranlıq vəziyyətini itirdi, sonra isə özü başqasının hökmranlığı altına keçdi, onun olmaması üzündən Azərbaycan müstəqilliyini itirdi və 30 ilə yaxındır ki, bolşeviklərin ayaqları altındadır.

Bizim üçün Milli Birlik hər şeydən üstündür, xüsusillə də: partiya, qrup, sinif, qohum, qəbilə maraqlarından. Çünki Milli Birlik müstəqillikdir.

Bizim heç birimiz ayrı-ayrılıqda və yaxud partiya və qrup şəklində həmin şəraitdə heç nə əldə edə bilməzdik, bütün gücümüzü birləşdirərək Vətənimizin bayrağını yüksəklərə qaldırdıq.

Cavad xanın ölümündən 140 il keçdikdən sonra Azəri türkləri ilk dəfə belə kütləvi sayda və uzun müddət beynəlxalq səhnədə öz zülmkarlarına qarşı silahlı mübarizə aparırdı. Onlar düşmən qanı ilə Qafqazın dağlarını və dərələrini, Kubanı, Perekopu, Ukrayna, Belarusiya və Polşanın ərazilərini yumuşdular. Orada nə olsa da və bizə nəyə başa gəlsə də, biz ataларımızın və qardaşlarımızın qanını, bacılarımızın, analarımızın, qadınlarımızın və uşaqlarımızın göz yaşının intiqamını aldıq.

Azəri türkləri özündə cəsarət tapıb diktator Almaniyası şəraitində bütün xarici təsirlərdən azad olan əsl demokratik milli orqanlarını yaratdı. Azəri türkləri Berlində qəbul edilmiş siyasi **proqramlarında bolşeviklərdən** başqa Almaniyanın

düşməni olan heç bir ölkəni Azərbaycanın düşməni elan etmədi.

Ona görə də Azəri–türkləri hər bir xalqın üzünə açıq və cəsarətlə baxa bilərlər. Biz fəxr edirik ki, bəşəriyyətin fəlakətinə–bolşevizmə qarşı vuruşmuşuq və öz qəhrəmanlığımızla Alman Baş Qərargahı tərəfindən tanınmağa nail olmuşuq.

Biz bolşevizmə qarşı vuruşmağımıza imkan yaradan və Azərbaycanın müstəqilliyini tanıyan alman xalqına minnətdarıq.

İndi isə biz yalnız ona görə yaşıyırıq ki, yenidən silahı əlimizə alaq və bütün xalqımızla birgə bolşevizmə qarşı azadlıq, müstəqillik, demokratiya və bütün Yer kürəsində əbədi sülh uğrunda mübarizə aparaq!

Böyük Tanrım, Böyük Tanrım!
Sən bizim qanımızı yerdə qoyma! (2)

VI FƏSİL

CEYHUN HACIBƏYLİYƏ YAZDIĞI MƏKTUBLAR

«Bildiyiniz kimi müharibə qurtarandan sonra mən bütün ordenlərimi taxıb amerikalıların yanına getdim və bildirdim ki: «Bu milli azadlıq hərəkatına mən rəhbərlik etmişəm və bizim hərəkata iradı olan hər bir xalqın məhkəməsi qarşısında cavab verməyə hazıram». Mən bu gün yazdığım hər bir şeyi hələ o vaxt yazıb və deyirdim. Bəyannamələrin sürətləri durur. Mən heç vaxt gizlənməmişəm, xüsusilə də indi buna ehtiyac yoxdur. Ona görə ki, qərara alıblar redaktor Siz olasınız, odur ki, Sizin soyadınızı qoydular. Əgər mən bilsəydim ki, bu qədər başım ağrıyacaq öz soyadımı qoyardım».

ƏZİZİM CEYHUN BƏY!

«***Münhen 19.4.1952.***

Çoxdandır Sizdən xəbərim yoxdur.Sizin danışıqlarınız nə ilə qurtardı? İsmayıl və Məcidlə daima yazışırıq. Cahangir bəy Zahidi yerinə otuzdurub və onun hərəkəti haqqında yazıb. Türkiyədən çoxlu məktub alıram. «Azərbaycanı» və «qafqazlıları» təbrik edirəm. Artıq «Azərbaycan» üçün məqalələr var. Türkiyədəki vəziyyət haqqında Əflan aşağıdakıları yazır:

«Əziz Alpautdan məktublar alıram. O bir sıra məqalələr göndərdi. O, Visbadeni izah etmək üçün və hücumların qarşısını almaq üçün çox şey etdi. Təəssüflər olsun ki, Siz indiyə qədər ona cavab verməmisiniz. Onun məqalələrini göndərirəm və xahiş edirəm ki, oxuduqdan sonra bütün nüsxələri ilə birgə qaytarasınız. Bizim Paris nümayəndələrimiz də qafqazlılara cavab verməlidir».

Əziz bəy yazır: İndi isə buradakı vəziyyət haqqında. Dostluğu bərpa etmək məqsədi ilə Ankaradan Oroysun yanına getdim. Visbaden xəyanətini dayanmadan təsdiq edirdi. Mənə elə gəldi ki, onu sakitləşdirdim. 7 apreldən 14-nə kimi Noy–Ulmda düşərgədə yaşadı. Yalnız bizimkilərlə yox, həmçinin şimali qafqazlılarla, türküstanlılarla, krımlılarla və İdil–Urallılarla da danışırdı və onları inandırırdı. Aprelin 12-də mənim ardımca Oroys gəldi və ayın 13-də Di-Pi sənədlərini payladıqdan sonra bizimkilərin hamısını topladı. Visbaden hadisəsinə toxundu və Sizi satqın kimi qələmə verdi. Hamı qışqırdı: «Satqınlara ölüm olsun». Sonra mən çıxış etdim və bütün bu şərləri inkar etdim.Bir daha Visbedenin haqlı olduğunu izah etdim və Visbaden bəyannaməsini iki əlimlə imzalamağa hazır olduğumu bildirdim. Yenə də qərara aldılar ki, etiraz yazsınlar və visbadenlilərdən hesab tələb etsinlər. Səhərisi gün axşama qədər hər kəslə ayrı–ayrılıqda görüşdüm. Sırağa gün isə Oroysa

baş çəkdim və onunla uzun söhbət etdim. Nə olursa olsun bizim arxamızda kütlə olmalıdır. Onsuz bizim dövrümüzdə bir addım belə atmaq mümkün deyil. Mən bütün gücümü sərf edəcəm ki, onları sakitləşdirim və Oroysla danışım.

Yenidən Nyu-Ulma getmək lazımdır, amma pul yoxdur. D.L hətta yol xərcini belə vermir. Hər şeyi aylıq 500 markanın hesabına etmək lazım gəlir. Əgər Siz hələ bir D.L və onun fikirləri haqqında deyilənləri bilsəydiniz?!

İsmayıl və başqaları necə də haqlı yazırdılar ki, «Azərbaycan»ın 2-ci nömrəsi tezliklə çıxmalı idi. Onlar bizi dəvət eidilər, öz Visbaden işlərini həll etdilər və köməksiz qoydular bizi. Qafqazlılar bir ay ərzində türk dilində «Qafqaz» jurnalının 6,7 və 8-ci nömrəsini çıxartdıqları halda biz onlara heç nə ilə cavab verə bilmirdik. D.L gələn kimi xahiş edirəm Siz onunla birdəfəlik danışın. Mən hazırlaşırdım ki, onun gedişindən öncə Türkiyəyə gedim,lakin o Kanatbay vasitəsilə məndən xahiş etdi ki, onun qayıdışını gözləyim.

İndi isə Məclis haqqında. Onun statusu ordakı kimi burdakı və Türkiyədəki sizlər tərəfindən imzalanıb. İndi isə onu elan etmək və yeni statusa keçmək lazımdır. Adını dəyişmək çətin iş deyil. Lakin heç bir halda «Merker» və «Komitə» adları lazım deyil. Ukraynalıların öz radası (parlament) və hakimiyyəti var. Kazaklarda VKK (parlament), Atamanidə V.K. hakimiyyəti. Bizdə isə Məclisdi. «Konsey» (Conseil) sözü bütün türklər tərəfindən qəbul olunub. Statusda deyildiyi kimi bu «Konsey»in «Sorumlu sözçülər heyəti» və öz şöbələri olacaq. Mən şəxsən hərbi şöbədə işləyəcəm. Beləliklə, biz həmçinin «prezident», «sədr», «rəhbər» kimi titullardan da canımızı qurtaracağıq. Bütün bu titullar yalnız gülüş yaradır.

Siz mənim məsələmi «E» qərargahı ilə necə həll etdiniz?

Sizi, Timuçini və balaca Hacıbəylini bağrıma basıb öpürəm, Madamın qarşısında baş əyirəm (120).

Sizin Abo»

ƏZİZİM CEHUN BƏY!

«Münhen 17.5.1952.

Sizin məktubu aldım. Sizin yazdığınız hər şeyi yerinə yetirəcəm. «Azərbaycan»ın birinci nömrəsinin rus hissəsinin redaktəsinə öz adımı və məqaləmi daxil edəcəyəm. «Ərizəni» redaksiyanın imzası ilə, yəni mənim B.Karayusuf və Əhməd Xəzər adı altında buraxırıq. İsmayılın imzası da silinməlidir, çünki, o Rəsulzadənin məktubuna cavab verərək yazırdı ki, bəyannamə imzalanmayıb sadəcə qəbul olunub. Tezliklə türk dilində «Türkeli» çıxmalıdır. (Rus dilində artıq çıxıb,həmçinin «Azad Qafqaz» da çıxmışdı). Mən artıq Kanatbayla danışmışdım və o ərizəni həm rus dilində, həm də türk dilində çap etdirdi. Əgər Siz lazım bilsəniz, biz bunların hamısını «Azərbaycan»ın 2-ci nömrəsində də təkrar edə bilərik. Siz burada olanda biz beş dəqiqə ərzində jurnal məsələsini həll etdik və mən bizim qərarımızda qalıram. Sözsüz bizim jurnal türk, fransız və ingilis dillərində çıxmalı idi.Sizin təqdim etdiyiniz və mənim tezliklə təsdiq etdiyim layihə A.L tərəfindən dağıdılmışdı. Onun bütün oyunları haqqında mən Sizə sonrakı məktubumda yazmışam. Onun hesabı sadədi: ermənilər 3000 marka alırlar və bunun hesabına onlar hər həftə xəbərçi çıxardırlar və 6 nəfər yaşayır. Kanatbay-4000 marka; iki dildə jurnal çıxardırlar və bütün komitə bunun hesabına yaşayır; Avtorxan-5000 marka, jurnal və bütün qəbilə bunun hesabına yaşayır.

Jurnal ilə bizim işimizi Əkbərağa korladı, D.L-nin sözlərinə görə o deyib ki, hər ay jurnal çap etdirməyə bizim gücümüz çatmır və ona görə dövrü olaraq çıxardacağıq. Buna əsasən, D.L. təklif etdi ki, onun «aylıq orqan» olduğunu xatırlatmayın və nəşr olunduğu ayı göstərməyin və mən belə də etdim. Sonra o xahiş etdi ki, jurnalın yarısını rus dilində çıxardaq və mütləq «qafqazlılara» cavab verək, çünki onların yazı-

larını hər yerdə oxuyurlar. Biz gərək bəyannaməla D.L.-ya müraciət edək öz dəqiq tələblərimizi və istəklərimizi bildirək və ondan dəqiq cavab alaq. Onun cavabından sonra gələcək fəaliyyətimizi qərara alacağıq. Ona görə artıq dərəcədə Sizdən xahiş edirəm ki, bu bəyannaməni Əkbərağa ilə birgə yazın və mən onu burada imzalayacağam və ona verəcəyəm. İsmayılın imzası olsa, yaxşı olar. Sizin burada və ya orada jurnal çıxartmaqla bağlı bütün təkliflərinizlə tamamilə razıyam. İsmayıl və Məcid gələ bilməyəcəklər. Mən böyük məmuniyyətlə oraya gələrdim. Lakin Am. Komitəsi Münheni bütün mövqelərin mərkəzi hesab edir. Həmçinin radiostansiya tələb edir və buna görə də bütün təşkilatlar burada cəmləşməlidirlər. Gürcülər isə onun üçün imtiyazlıdırlar, o, onlar üçün hər şeyi edib və edəcək.

Əgər o Parisdəki pullarını bütün dillərdə jurnallar yaratmağa köçürtsə, mən çox şad olaram. Hətta mənim Parisə getməyimə ehtiyac yoxdur. Buradan da, Türkiyədən də yazmaq olar.

Bəyannamədə bizim mübarizəmizi aparmaq məsələsində heç bir fikir ayrılığı yoxdur. Bax buna görə bu lazımdır.

Əkbərağa Parisdə D.L-nın yanına getdi və jurnaldan, təşkilatdan narazı olduğunu bildirdi. Söz yox ki, Əkbərağa ona çox şey dedi. Ona elə gəlir ki, D.L. bizə böyük məbləğ verir, biz isə ona göstərmirik.

Bununla yanaşı, D.L.-nın gəlişindən sonra cənab Aleksandr mənə dedi ki, Parisdə jurnaldan və işlərin gedişatından narazıdırlar. Mən əlbəttə, həmin dəqiqə bizim daxili işlərimizə müdaxilə etmələrinə qarşı çıxdım. O, həmin vaxt mənə cavab verdi: «Əgər sizin həmvətənləriniz bizi Sizin daxili işlərinizə qarışdırmasaydılar, biz çox şad olardıq». Ertəsi gün– şənbə günü 15.3.–də mən D.L. ilə göröşdüm. O, söhbətə onunla başladı ki, bizim daxili işlərimizə müdaxilə etmək niyyəti yoxdur və bütün bunlar onu bezdirib. Lakin Əkbərağa Pa-

risdə şifahi, Hacıbəyli isə yazılı şəkildə öz narazılıqlarını bildirdikləri üçün o xahiş etdi ki, bu mübahisələri özümüz həll edək və onu bu işə qatmayaq.

Azərbaycan təşkilatındakı «parçalanma» haqqında çoxlarına şişirdərək danışırdı. Bu cənab Şvedə və bizim digər dostlarımıza böyük təsir etdi.

Mən D.L.-ya dedim ki, bizim aramızda heç bir ayrılıq yoxdur. Heç bir prinsipial xüsusiyyət bizi ayırmır. Hacıbəylinin jurnaldan bəzi narazılıqları mənə onun şəxsi məktublarından məlumdur və mən onun bütün xahişlərini yerinə yetirəcəm. O, yenə də xahiş etdi ki, ona bizim aramızda heç bir fikir ayrılığı olmaması ilə bağlı bəyannamə ilə müraciət edək, çünki o, Sizdən rəsmi məktub alıb və onun məzmununu lazımı yerlərə çatdırmalıdır.

Ona görə Sizdən xahiş edirəm, mümkün qədər tez bir zamanda bizim tələblərimizlə birgə bəyannamə göndərin. Baxaq görək bundan sonra o hansı «ayrılıqdan, dağınıqlıqdan» danışacaq ki, bizim tələblərimizdən imtina etsin və bizi məcbur etsin ki, onun diktatorluğu ilə razılaşaq.

Mən Sizinlə tamamilə razıyam .D.L.-nin bu cür laqeyd münasibəti zamanı bizim Am. Komitəsi ilə əməkdaşlığımız qeyri–mümkün olur. Bu bizim milli və şəxsi dəyərlərimizi sıxışdırırır. Beləliklə, sonuncu bəyannaməmizi göndərəcək və onun cavabına uyğun olaraq hərəkət edəcəyik.

Mənə elə çətin idi ki, çünki o, bura Layonsun banketində tanış olduğum Sinsadzeni dəvət etdi. Sinsadze mənə dedi ki, o, hələ Parisdə D.L və Layonsla görüşürdü. Layons hətta türklərlə danışmağa icazə vermədi. Özü də mən D.L-dən Sizinlə görüşməməsinin səbəbini soruşdum. O, dedi ki, Sizin telefonunuz yoxdu, onun isə vaxtı məhduddur.

Nyu–Ulma getdim, iki gün dalbadal həmvətənlərimizlə danışdım. Dr. Oroys onları bizə qarşı hazırlamışdır. Ümumiyyətlə, danışıqlar səs-küylə keçirdi və onlar həmişə təkrar edir-

dilər ki, «ruslardan alıb ruslara getmisiniz. Doktor bəy pul üçün ruslara baş əyməz». Nə isə. Onların bəzilərini inandıra bildim. Yenidən getmək lazım gələcək ki, həmvətənlərimizi tamamilə inandıraq». «Ukrainskiye vesti» qəzetinin redaksiyasında da oldum. Dr Oroys 17.1.1952-ci il tarixində burada mənə və nümayəndə heyətinə qarşı yönəlmiş geniş məqalə yazmışdı. Bu mövzu ilə bağlı bütün redaksiya işçiləri ilə çox danışdım. Onlar mənimlə razılaşdılar ki, Ukrayna qəzetinin səhifələrində Azərbaycan xadimlərini çirkaba bulaşdırmaq lazım deyil. Onlar mənə dedilər ki, bizim jurnalı aldıqdan sonra Dr.Oroysun haqlı olmadığını anladılar və bir daha bunlar təkrar olunmayacaq. Onlar İsmyılın dünən aldığım rus dilindəki məqaləsini 16.3.1952-ci ildə çıxan nömrəsində çap etdilər və bunu Sizə də göndərirəm.

Jurnaldan sonra başqa qeyri-ruslar da sakitləşdilər. ABN biabırcasına İsmayılı kənarlaşdırdı, indi isə «Azərbaycan»ın ünvanına bülletenlər göndərir. Kazaklar və həmçinin Alşıbəy və digər gürcülər bizim fəaliyyətimizi tam qiymətləndirirlər. Yalnız Qantəmir və «qafqazlılar» susmurlar. Mən burada olmayanda professor Mende gəlib. «Qafqaz» jurnalının redaksiyasındakı söhbət zamanı Qlazkov da olub və professor V.Mende Qantəmirə deyib ki, o, bizim jurnalı alıb, onun məzmunu Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin məzmununa tamamilə uyğundur və Azərbaycan nümayəndə heyətinin fəaliyyəti ilə tanış olub, razı qalıb.

Bütün bunlara baxmayaraq, Qantəmir və «qafqazlılar» həmişə deyirdilər ki, biz «satqınıq» və axıra qədər tarix qarşısında ifşa olunmalıyıq. Kazakların nümayəndəsi Qlazkov onlara bildirdi ki: «Siz Azərbaycan nümayəndə heyətini təqsirləndirərək məqamlara uyğun hərəkət etmədiniz. Onun fəaliyyəti tərifə layiqdir və biz onların mövqelərini möhkəmləndirməli və müdafiə etməliyik, çirkaba atmamalıyıq». Lakin bütün bun-

lara baxmayaraq başda Qantəmir olmaqla «qafqazlılar» həmişə xəyanətkar olduğumuzu təsdiqləyirdilər.

Əgər onlar əl çəkməsələr, xüsusi məktubla legionerlərə müraciət edəcəyəm, axı biz onların bütün istəklərini billə–bilə heç vaxt onlara toxunmamışıq. Onlar Azəri türklər arasında qarışıqlıq yaratdılar. Qoy Qantəmir Osetiyanın işləri ilə məşqul olsun. Sonra mən eşitdim ki, onların əli ağırdı və neçə ki Qafqazın «müstəqilliyi» ilə qidalanırlar, bizim xalqlara azadlıq yoxdur. Legionerlərin təbrikləri gəlməkdə davam edir. Artıq «Hürriyət» qəzetinin 10.3.1952-ci il nömrəsində məqalə çap edildi. Bu məqalədə bizim məqalələrimizdən parçalar və həmçinin Visbaden bəyannaməsi verilir. Bizim nümayəndə heyətimizin prinsipial mövqeyi göstərilir. Ümumiyyətlə, bizim hərəkətlərimizi tərifləyən gözəl məqalədi. Bu şər atanlara böyük zərbədir. Bax Məclis haqqında nə yazırlar!

İndi Əflandan və Ankaradan jurnalın paylanmasının nəticəsi haqqında cavab gözləyirəm. Onlardan xəbər alan kimi sizə məlumat verəcəyəm.

Səbirsizliklə cavab gözləyirəm.

Sizi,Timuçini və balaca Hacıbəylini bağrıma basıb öpürəm , Madamın qarşısında baş əyirəm və əməliyyatın uğurlu keçməsi münasibəti ilə təbrik edirəm (121).

Həmişə Sizin Abo»

ƏZİZİM CEYHUN BƏY!

«11.5.1952.Münhen

Çox təəssüflər olsun ki, mənim dəlillərim Sizi razı salmadı. Mən sizə yazdım ki, bu hesabatın ilk məqaləsi «Azad Qafqaz» jurnalında çıxdı. Avtorxanın məlumatına görə amerikanlar, xüsusilə də D.L onu yüksək qiymətləndirdilər. Əgər onlar bunun hamısının dövrə uyğun olmadığını hesab etsəydi-

lər, onda bu haqqda jurnalın naşiri Avtorxanın özünə deyərdilər, çünki Amerikanın ictimai fikrini onlar bizdən yaxşı bilirlər. Bununla yanaşı, hələ Amerika əsirliyində olduğum vaxtda yazdığım bu hesabat D.L-ya oxumağa verilmişdir və o demişdir ki, bunu çap etdirməyə mane olmayacaq. Artıq bildiyiniz kimi müharibədən sonrakı illərdə legionlar haqqında cildlərlə kitablar yazılıb. Onlar haqqında müsbət rəyi Amerika publisistləri verib. Üç il bundan əvvəl Qəyyum xan Türküstan Qurultayını qeyd etdi və hər il bunu qeyd edir. Edinburqda tribuna qarşısında onlar böyük fərəhlə almanlarla birgə vuruşmuş yüz minlərlə türküstanlıların vuruşduğunu bildirdilər. Mən hələ müharibə vaxtlarındakı öz nişanlarını sinələrində gəzdirənlərdən danışmıram. Qədim sosialist Abramoviç onlarla birləşməyin vacibliyini deyir.

Siz bilirsiniz bizim haqqımızda o şey qalmırdı yazmasınlar, həmçinin onların təhriki ilə 1945/46- cı illərdə Roma mətbuatında çoxlu məqalalər çıxdı. Bu hesabatla həqiqət bərqərar olundu və almanların bu həqiqəti təsdiqləyən məktubu bizim xalqın adı üçün dəyərli hədiyyədir. İndi isə Sizin məktuba keçək. Bu məktub mənə Sizin əvvəlki məktublarınızı anlamaqda kömək etdi. Onların birində Siz yazmışdınız: Sizin D.L ilə danışığınızdan və onun mənə fransız nəşrinə qarşı olduğumu deməsindən. Mən Sizə artıq izah etmişəm ki, bu onun şəxsi fikridir, mən tutduğumuz nöqteyi–nəzəri qoruyuram. D.L eynən belə dedi: «Fransız nəşrinə ehtiyac yoxdur; əgər Hacıbəyli Parisdə yaşamasaydı və fransız dilini bilməsəydi heç kim fransız nəşri haqqında sual qoymazdı». Onun təkidinə görə mən kompromis təklif etdim ki, nəşr üç dildə–rus, ingilis, fransız dillərində bir–birini əvəz etsin. Bununla mən Hacıbəylinin tələblərinin artmamasına nail oldum.

Digər bir tərəfdən əgər o bizə fond ayırsaydı, biz onu özümüz bölüşdürərdik və harda hansı dildə jurnalın çıxması bizim işimiz idi. Təkrar edirəm, əgər fond 5 dəqiqəlik Sizdə

olsaydı bu haqqda danışardıq. Bizə fond ayırma müddətini uzatmaq üçün o bizim aramızdakı mübahisələrdən danışmağa başladı.Mən ona necə cavab verdiyimi Sizə yazmışam. Mən ona həmçinin dedim ki, biz yeni status qəbul etmişik və burada Məclisin sədri yox, məsuliyyətli spikerləri olacaq. Mən Türkiyədən Sizə yazdım ki sədrliyi qəbul edəsiniz. Siz mənə cavab verdiniz ki, gizli yaşamaq istəyirsiniz (məktub durur). Əgər Siz razılaşsaydınız, mən görkəmli legionerləri, bütün üzvləri məlumatlandırardım və onların razılığı ilə öz səlahiyyətimi Sizə verərdim. Bütün bunlardan sonra hansısa «hörmətli istefadan» danışmaq mənə aydın deyil. D.L-nin Parisə gəlməsi haqda Sizə xəbər verməməsi Sizin düşündüyünüzlə yox, tamamilə başqa şeylə izah olunur. «Visbaden»in dövründə və sonralar hələ hər hansısa təşkilatın yaranmasına ümid olan vaxt o, hamı ilə mehriban idi, çünki Sizin hamınıza ehtiyacı var idi, indi isə ehtiyacı yoxdu və o, hamı ilə görüşdən qaçır və burada heç kimlə görüşmür. Bir ay bundan qabaq isə Avtorxan və Kananbayla danışıqları qurtarmamış o qalxdı və dedi: «Mən yorulmuşam». Əvvəllər o, bunu etməzdi, çünki onda onun belə adəti yox idi. Özü də mən cənab Aleksandrla görüşmüşəm (o, yenidən gəldi). O, mənə dedi ki, D.L öz səhhətinə görə Hacıbəyli ilə görüşə bilmədi.

İndi isə Sizin bir məktub haqqında: burada Siz yazırsınız ki, mən o qədər işləmişəm və redaktor kimi özümü göstərməli idim. İndi mən bunu belə başa düşürəm, Sizin fikrinizcə mən sizin arxanızda gizlənməyi qərara almışam.

Bildiyiniz kimi müharibə qurtarandan sonra mən bütün ordenlərimi taxıb amerikalıların yanına getdim və bildirdim ki: «Bu milli azadlıq hərəkatına mən rəhbərlik etmişəm və bizim hərəkata iradı olan hər bir xalqın məhkəməsi qarşısında cavab verməyə hazıram». Mən bu gün yazdığım hər bir şeyi hələ o vaxt yazıb və deyirdim. Bəyannamələrin sürətləri durur. Mən heç vaxt gizlənməmişəm, xü-

susilə də indi buna ehtiyac yoxdur. Ona görə ki, qərara alıblar redaktor Siz olasınız, odur ki, Sizin soyadınızı qoydular. Əgər mən bilsəydim ki, bu qədər başım ağrıyacaq öz soyadımı qoyardım.

İndi isə Visbaden və Visbadendən sonrakı vəziyyət haqqında.

Qantəmirin, Fuadovun təxribatına görə bütün kütlə bizdən üz döndərə bilərdi. İsmayılın məlumatına görə Məcidin də artıq bu yola qurşanmasını demək kifayətdir. Əflan isə mənə yazırdı ki, o nümayəndə heyətini təhqir edən iclasda iştirak edib. O, Sizi və həqiqi vəziyyəti və mənim heç vaxt iclasda iştirak etmədiyimi, iştirak edənlərdən isə heç birinin mənim adımı çəkmədiyini biləndə susmağa qərar verdi. Mən «Noy-Olm» da olanda legionerlərdən aşağıdakını eşitdim: Daha dəqiq desək, dr. Oroys «Ukrayna xəbərləri» qəzetində yazdığı hər şeyi onlardan eşitdim. Bax Visbadendən sonra hansı vəziyyətə düşdük. Axı sizdən-nümayəndə heyətindən heç kim həqiqəti bərpa etmək üçün heç nə etmədi. Kütlənin bütün təzyiqini mən üzərimə götürdüm, bununla mən sadəcə borcumu yerinə yetirdim, qeyri-adi heç nə etmədim. Allaha şükürlər olsunn, həqiqət bərpa olundu və Sizin namusunuz tarix qarşısında qorunub. Mən bunların hamısını Sizə yazmırdım ki, qanınızı qaraltmıyım.

Bax indi Əflan nə yazır: buna qədər isə onlar bizim nümayəndə heyətinin kəskin çıxışını tələb edirdilər. Bizim nümayəndə heyətinin fikrincə isə Abolar, Əflanlar döyməlidirlər, yəni silah daşıyanlar olmalıdılar, nümayəndə heyəti isə bəyannamələri imzalamalıdır, onları çirkaba salan və onların namusunu təhqir edən alçaqlarla yüngülvari mübahisə etməlidilər. Necə yəni?

Bizim nümayəndə heyəti «qafqazlılara» əl uzatmağa hazırlaşır. Amerikadan olan etiraza gəldikdə isə onu alıb lazımı cavab verdim. Burada onlar üçün «qapazaltı» yoxdur, qoy özləri özlərini kütlə qarşısında müdafiə etsinlər. İsmayılın özü

yazırdı, indi isə deyir ki, mənim imzamı götürün ordan, sən demə biz silahdaşıyanlar hücum etməliymişik.

Mən bizim Amerika nümayəndələrimizə məktubla müraciət etdim və mücahid qismində nümayəndə heyətinə dərin inamımı və bəyannaməni iki əlimlə imzaladığımı bildirdim. Orada İsmayıl hücumdan özünü qoruyaraq bildirdi ki: «biz bəyannaməni imzalamadıq, qəbul etdik». Əlbbəttə, səhv etdi. Lakin mən məktubda həmçinin xatırlatdım ki, jurnalda hər yerdə mən rusların qaçışından sonra «qəbul etdik» sözünü «imzaladıq» sözü ilə əvəz etmişəm. Rusların nədən qaçmasından möhkəm yapışmalıyıq. Elə bununla İsmayıl qorunur.

İndi isə mətn haqqında. Birinci hissə qəbul oluna bilər, ikinci hissə isə başlıqla uyğun gəlmir: «Visbaden bəyannaməsini imzalamış Azərbaycan nümayəndə heyətinin ərizəsi». Ona görə o redaksiyalı ola bilməz. Mən aşağıdakı mətni təklif edirəm: «Məqalənin altına baxmadan «Azərbaycan nümayəndə heyətinin ərizəsi...», «Ə.Fətəlibəyli» əvəzinə «C.Hacıbəyli» imzası qoyulub. Türkiyədən gələn kimi Visbaden bəyannaməsinin mətni ilə tanış olduqdan sonra gecikmədən öz imzamı bu sənədə birləşdirdim. Tez bir zamanda mən legionerlərə müraciət edib «Qafqaz» jurnalını nəşr edənləri daha tam şəkildə xarakterizə edəcəm ki, bununla onların Azəri türkləri arasında qalmaqal yaradan təxribatcı fəaliyyətlərinə son qoyulsun. Hörmətli C.Hacıbəylinin «Qafqaz»ın demaqoq çıxışları haqqında yazdığı məqaləsi Azərbaycanın sonrakı nömrəsində çıxacaq. Başqa yolu yoxdur. Məqalənin başlığı imkan vermir, İsmayılın imzası isə qalmalıdır. «...Daha tam xarakterizə edəcəm» deyərək bununla məqalədə verilmiş insanların xasiyyətnaməsini mən özümə götürürəm.

Xahiş edirəm məni başa düşün. Mən böyük məmuniyyətlə öz imzamı qoyardım, əgər başlıq nümayəndə heyəti ilə bağlı olmasaydı.

Xahiş edirəm tezliklə öz fikrinizi bildirəsiniz.

İndi isə təşkilat haqqında. Təşkilat məsələsi həll olunub, yeni status imzalanıb, indi bizim bu statusu jurnalın gələn nömrəsində elan etmək və yeni statusa keçmək, ona ciddi riayət etmək qalıb. Hər hansısa bir yeni təşkilat haqqında danışmağa ehtiyac yoxdur. İndiyə qədər hadisələr imkan verməyib ki, tamamilə yeni, nə «sədlərin», nə «prezidentlərin» olmadığı tam demokratik statusa keçək.

D.L gəldi və Layons həyat yoldaşı ilə buradadı. Onların şərəfinə burada şənbə günü qonaqlıq iəşkil olunub və məni də bura dəvət ediblər. Onlarla görüşən kimi nəticəsini sizə xəbər verəcəm.

Sizi,Timuçini və balaca Hacıbəylini
bağrıma basıb öpürəm ,
Madamın qarşısında baş əyirəm.

Həmişə Sizin Abo» (122)

ƏZİZİM CEYHUN BƏY!

«Münhen 27.3.1952.

Mən də Sizi Novruz bayramı münasibəti ilə təbrik edirəm və həyatda səadət arzulayıram. Elə həmin Sizin təqdim etdiyiniz büdcə onun bizim aramızdakı oyununa səbəb oldu və indiyə qədər bizə büdcə təyin etməyib. O,digər təşkilatlara belə kiçik məbləğlər verərək Sizin büdcə ilə heç vaxt razılaşmayacaq. O, Əkbərağanın ,Sizin məktublarınızdan İsmayılın «Ukrayna xəbərləri»nin səhifələrindəki çıxışlarından məharətlə istifadə edirdi ki,bizim büdcənin təyin etmə müddətini daha da uzatsın.. O,mənə bəyannamə ilə müraciət etdi və burada bizim təşkilatlar arasındakı «dəhşətli ayrılığı» göstərdi və D.L. bizim təşkilatın maliyyələşdirilməsini dayandırmaq məc-

buriyyətindədir. Necə ki biz yenidən birləşməyəcəyik. Bu bəyannaməyə mən belə cavab verdim: Bizim təşkilat (Məclis) heç vaxt olmadığı kimi təkdir. Biz həm «Visbaden»ni öz vaxtında izah etməklə, həm də Amerika komitəsinin köməyi ilə bütün hücumların qarşısını ala bildik (Türkiyənin bütün nöqtələrinə məktub göndərmək yolu ilə).Biz «Qafqaz»ı dəstəkləyən insanların sayını 20-yə endirdik. Biz Visbadendəki iştirakımızla üzərimizə tarix qarşısında böyük məsuliyyət götürdük və eyni zamanda öz demoqoqluğu ilə: «Gəlin ruslara tərəf gedək, Azərbaycanın müstəqilliyini sataq» deyən müxalifətin əlinə asanlıqla bütün mücahidləri öz tərəflərinə çəkmək üçün fürsət verdik. Əgər bu baş tutmadısa, deməli məclis güclüdür. Sonra mən «Azərbaycan»ın çıxması ilə bağlı göndərilmiş məktublardan parçalar gətirdim, Məclisin və onun orqanlarının fəaliyyəti haqqında tamamilə düzgün yazan «Hürriyət» qəzetini göstərdim. Türkiyədə ikinci Dünya Müharibəsi zamanı bizim mübarizəmizi əks etdirən kitab buraxılmışdı, Məclis üzvləri isə «Azərbaycan Milliyyətçilər Dərnəyi» təşkil etdilər. Onun statusu «Zəfər» dövlət qəzetində elan edilmişdi. Bu bizim təşkilatın daha da möhkəmlənməsindən xəbər verir. Həmçinin qeyd etdi ki, Gürcüstanın sosial – demokratik qəzeti, solçular (Sinsadze) «Azərbaycan» haqqında çox yaxşı yazırlar.

Sizə aid olan hissədə Sizin məktubunuzdan bir neçə sitat gətirdim və yazdım: «... gördüyünüz kimi mənimlə Hacıbəyli arasında heç bir fikir ayrılığı yoxdur və olmayacaq. Mən Hacıbəyli ilə tamamilə razıyam..Jurnal rus və fransız dilində Parisdə, türk və ingilis dilində burada çıxmalıdır. Mən sizdən xahiş edirəm. Hacıbəylini dəvət edin ki, biz «Azərbaycan»ın ikinci nömrəsini çıxarda bilək».

Şeyxülislama aid olan hissədə isə mən yazdım ki, o heç vaxt bizim təşkilatın üzvü olmayıb, lakin o, Hacıbəyli və Əkbərlə birgə Visbaden bəyannaməsini imzaladığına görə biz ona

dəstək olmalıyıq və onun redaksiyanın tərkibinə daxil olmasını xahiş etməsinə qarşı çıxmıram..

O, əsasən İsmayılın «Vesti» qəzetindəki çıxışına məyus olub. Bu yaxınlarda həmin qəzet böyük ittihamla D.L.-ya hücum etmişdi.. Sözsüz mən İsmayılı dəstəklədim və bildirdim ki, onun «Vestidə»ki çıxışı heç də Məclisdən kənarlaşması demək deyil və biz Məclisin üzvləri nümayəndə heyətimizin imzası ilə dururuq və Amerika Komitəsini hamımız birgə dəstəkləyirik..

Məncə İsmayıl yazmamalı idi ki, biz imzalamamışıq, sadəcə qəbul etmişik, xüsusi ilə də rusların bu bəyannamədən qaçdıqları bir dövürdə. Lakin əgər artıq bu edilibsə mənim etdiyim kimi İsmayılı dəstəkləmək lazımdır.

Büdcə məsələsi ilə bağlı mən ona yazdım ki, 6 aylıq əməkdaşlığımız müddətində Siz Azərbaycana 5800 marka ayırmısınız və həmin pula ölçüsünə görə «Qafqaz» jurnalını 2 dəfə üstələyən jurnal nəşr olunub, təşkilati xərclər ödənilib və bir neçə həmvətənlələrimizə, o cümlədən Şeyxulislama yardım göstərilib. Ona görə də «birləşənə qədər» bizim təşkilata kömək göstərməmək barəsində heç danışmaq belə lazım deyil. Əgər Siz mənim yaşamaq, poçt-teleqraf xərcləri və həmvətənlilərimin qəbulu üçün aldığım 500 markanı təşkilata kömək hesab edirsizsə, onda xahiş edirəm bu barədə mənə də deyəsiniz, çünki təşkilat üçün aldığım yardım barəsində mən Məclisin bütün üzvlərinə xəbər verməliyəm. (Yeri gəlmişkən o bədbəxt 500 markanı verməyi dayandırıb).

Qoy Amerika Komitəsi özü milli təşkilatların hər birinin fəaliyyətini nəzərə alaraq onlar üçün büdcə təyin etsin. Əgər onlar bizə büdcə təyin etsələr biz bunu bütün Məclis üzvlərinə bildirəcəyik və maddələrə görə onu paylaşdıracağıq: jurnallar, yardım, səfərlər. Fondun hansı hissəsinin Parisdə, Türkiyədə və burada olması bizim daxili işimizdir. Bunula bağlı biz Sizinlə asanlıqla razılaşacağıq.

Bir daha qeyd edirəm ki, mən Fransa nəşrinə qarşı deyiləm, mən şad olardım əgər jurnal 10 dildə bir dəfə çıxsaydı, lakin D.L bunu istəmir və pul vermir. Sonra Siz əməkdaşlıq haqqında yazırsınız, mən Sizsiz axı necə əməkdaşlıq edə bilərəm, əgər getmək lazım olsa, onda hamımız bir yerdə, bütün təşkilatla gedərik..

Bu günlərdə D.L Parisdə olacaq, oradan isə Amerikaya gedəcək, o mütləq Sizinlə görüşəcək, xahiş edirəm bizim məsələmizi bir dəfəlik həll edin. Sözsüz, Sizin hər bir qərarınızı dəstəkliyəcəm. Nəzərə alın ki, Sizin təklif etdiyiniz büdcənin məbləği onun boğazından keçmədi və o, müxtəlif «ixtilaflar», «uçurumlar», «ziddiyətlər» uydurdu ki, biz onun diktəsinə tabe olaq. Avropadakı Məclisin və Parisdə və burada çıxan jurnalların rəhbərliyinə gəldikdə isə, bu işi Siz davam etdirməlisiniz. Ona görə Siz növbə ilə həm burada, həm də Parisdə olmalısınız.

İndi isə təşkilati məsələlər haqqında. Türkiyədən istədikləri kimi, biz jurnalın ikinci sayında hamımızın imzaladığı Məclisin yeni statusu haqqında xəbər verməliyik və ona keçməliyik. Məcid və İsmayıl də bununla razıdırlar. Məclis artıq bütün legionerlər və digər mücahidlər arasında tanınır və biz onu möhkəm saxlamalıyıq, xüsusilə də demaqoqlar bütün aləmə car çəkdilər ki, Siz bəyannaməni «mövcud olmayan» Məclis adından imzaladınız və bunu avantürizm kimi xarakterizə etdilər.

Mən Sizin komitə təşkil etmənizə çox sevindim, əsas da sevindirici odur ki, onun tərkibinə legionerlər də daxil edilib. Lakin bir şeydən qorxuram ki, bizi başa düşməyəcəklər, çünki fikirləşəcəklər ki, bu milli komitə Oroysun yaratdığı, müsavatçıların milli komitəsi kimi Məclisə qarşı çıxır. Və Siz Sorumlu Sözcü qismində Məclisin bütün işlərinə rəhbərlik etməli və bütün filiallarla, ilk növbədə isə 100-dən artıq legionerin və dəs-

təyi olmadan bir addım belə ata bilməyəcəyimiz bütün bizim elitanın yerləşdiyi Türkiyə ilə geniş əlaqə saxlamalı olasınız .

Burada Almaniyada isə 200-yə yaxın legioner var. Əsas hissəsi isə Nyu–Ulmda yaşayır. Bu yeddi il ərzində Dr. Oroys onlar arsında böyük nüfuz qazanıb və hətta özü onların uşaqlarına sünnət etdirib. Dr. Oroys onları tamamilə bizə qarşı yönəldib və onları öz tərəfimizə çəkmədən Avropada bizə sakit iş yoxdur və etirazlara, nümayişlərə son qoyulmayacaq. İki dəfə onlarda olmuşam. Hələ bir həftə də gedib orda yaşamaq lazımdır. Türkiyədən bizim tərəfdaşlarımız xahiş edirlər ki, iş naminə Dr.Oroysla birləşək. Bu haqqda mənə İsmayıl yazmışdır, həmçinin legionerlər xahiş edirdilər. Üç dəfə Dr.Oroysla görüşmüşəm və çalışacağam onu öz tərəfimizə çəkim, xüsusilə də, o, Məclisin yeni statusunu imzaladı. (D.L mənə Oroysun komitəsini xatırlatdı, məncə bu bizim ayrılmamız üçün səbəb deyil). Onun komitəsinə bütün legionerlər daxildir. Fikirləşirəm ki, onu Məclis tərəfə çəkə biləcəm və beləliklə, onun komitəsi ləğv ediləcək. Həmçinin istəyirəm ki, Zahid xana və Babayevə yazım ki, onlar da İsmayılı və Məcidi dəstəkləsinlər. «Visbadenə» qarşı «etirazlar» dalğası hələ də «Qafqaz»ın səhifələrindən silinmir. Həmçinin bizim jurnalın türk dilini tənqid edirlər. Etiraf etmək lazımdır ki, təəssüflər olsun ki, biz türk dilində zəifik. Türk dilindəki bütün məqalələri biz Türkiyəyə göndərə bilərik, orada onu korrektə edib tez göndərə bilərlər. Bizim Mirzə Abay Dağlı adlı böyük korrektorumuz var («Onlar türklərdir»in müəllifi). Mən ona yazdım ki, o, ancaq yazda gələ bilər. O, İsmayılın və Məcidin ən sevimli dostudur.

Mən İsmayıl və Məcidin Kolumbiya Universitetində olmaları ilə fəxr edirəm. Təəssüflər olsun ki, onların işi sona çatır. Onların bura gəlişi yalnız siz birdəfəlik D.L. ilə danışdıqdan və bizim sabaha ümidimiz olduğu andan mümkündür və onların həyatı burada D.L.-nin tərsliyindən asılı olmamalı-

dır. Mənə gəldikdə isə, mən jurnal işi ilə məşğul olmayacağam, çünki bu mənim peşəm deyil. Yazmağa isə kömək edə bilərəm. Mən Sizdən çoxdan xahiş etmişəm ki, Eyzenhauer qərargahı ilə əlaqə saxlayasınız və bununla da mənə hərbi məsələlərlə məşğul olmağa imkan yaradasınız. Axı bu sahədə mən işimizə çox faydalı ola bilərəm.

Əflan və başqaları Türkiyəyə qayıtmağımı istəyirlər, axırıncı Atlantik pakta daxil olmaqla əlaqədar böyük işlər gözlənilir.

Biz mütləq görüşməliyik və birgə Avropadakı işlərimizi möhkəmləndirməliyik. Ondan sonra mən Türkiyəyə gedəcəm, hamı ilə görüşəcəm və bütün gücümüzlə Sizin burada-Avropadakı işinizi dəstəkləyəcəyik.

D.L. ilə görüşən kimi bura gələcəyiniz haqqında inad edin. Mən böyük məmuniyyətlə ora gələrdim, lakin bu çətin olacaq.

Levinlə görüşən kimi gəlin. «Azərbaycan»ın ikinci nömrəsini çıxarmaq mütləq vacibdir.

Mənim hərbi məsələmi unutmayın.

D.L.-nin bəyannaməsini göndərirəm və Siz görəcəksiz ki, İsmayılın çıxışı onu tamamilə əsəbləşdirib, mənim İsmayılın hərəkətinə bəraət qazandırmağım isə səbr kasasını doldurub.

Tezliklə cavab gözləyirəm.

Sizi, Timuçini və balaca Hacıbəylini bağrıma basıb öpürəm, Madamın qarşısında baş əyirəm.

Həmişə Sizin Abo» (119)

ƏZİZİM CEYHUN BƏY!

«Münhen. 29.10.50

"7.8.54 tarixli məktubunuzu aldıq. Məcid sentyabrın birinə qədər məzuniyyətdədir. Ismayıl ilə ikimiz qalmışız. Təəssüf ki, heç birimiz MAKTS-ın konfransına gələ bilməyəcəyik. Üstəlik, mənim şəxsiyyət vəsiqəm də yoxdur. Türkiyədən Əziz Alpaut gələ bilməzmi? Hər halda məqsədlərimiz aydındır. Nə qərar versəniz Sizi dəstəkləyəcəyik. Bakı qurultayına aid məlumat aldıq. İkisi də verildi. Birincisi Türküstan və Tatar redaksiyaları da verdilər. Davamı indiyə qədər gəlib çıxmayıb, dərhal göndər. Ismayılın salamı var. **Səni Timurçini və Ceyhunu bağrıma basıram. Timuçinin xanımına hörmətlərimi bildirirəm. Sənin Abo" (32).**

ƏZİZ CEYHUN BƏY!

«Sizin 20.10.50 tarixli məktubunuzu aldım və çox sevindim. Burada Qərbin bəzi nümayəndələri ilə görüşdüm. Əməkdaşlıq üçün lazım olan bütün planlarımızla razıdırlar. Ancaq uzadırlar. Son zamanlara qədər onlar Kerenskinin güclü təsiri altında idilər. Sizin yazdığınız kimi onların uzunmüddətli "Birlik" siyasəti öz güclü çatlarını verib və biz bunu burada hiss edirik. Son vaxtlar isə onlar vlasovçulara müraciət etmişdilər. Onlara edilən kömək nəticəsində artıq 4-cü aydır ki, konfrans keçirməyə çalışsalar da, lakin başqa çoxsaylı təşkilatlarla razılaşa bilmirlər. Onlar istəyirdilər ki, biz heç olmasa qonaq kimi bu konfransda iştirak edək. Əlbəttə, bu heç zaman baş verməyəcək və əksinə, biz nümayiş təşkil edəcəyik. Görünür, onların bu konfransından heç nə çıxmayacaq.

Bizdə böyük canlılıq vardır: Buraya Şimali-Qafqaz mənşəli bir amerikalı gəlmişdi. Əhməd–Nəbi Maqoma ilə, mənimlə və başqaları ilə uzun söhbətlər etdi. O bizə məsələhət bildi ki, Türk-Qafqaz İttifaqı yaradaq. Biz razılıqla bu təklifi qəbul etdik və bütün planları, sxemləri Maqoma ilə birlikdə hazırlayıb ona verdik. Düşünürəm ki, 2-3 aydan sonra cavab olacaq. Bu ittifaq mənim çox xoşuma gəlir və onun böyük nüfuzu olacaq. Şübhəsiz ki, əsas işi Milli Komitələr aparacaq və biz imkan verməmik ki, onlar bu İttifaqın içində itib-batsınlar. Milli Komitələrlə yanaşı Qafqaz Komitəsi də olacaq ki, buraya hər komitədən 4 nəfər Qafqaz Komitəsinin üzvü və 1 nəfər Türkistandan isə İttifaqın İdarə Heyətini təşkil edəcəklər. Bu İdarə Heyətinin 4 idarəsi olacaq ki, bu da Milli Komitələrin üzvlərindən ibarət olacaq. Beləliklə, Milli Komitələrsiz heç bir məsələ həll edilməyəcək.

Bildiyiniz kimi, bizim Milli Komitədə Siz, mən, albay Kazımbəy və Atamalıbəyov təmsil olunuruq. Sonuncu Çilidə olduğundan fəal iştirak edə bilmir. Milli Komitənin isə sayını 10 nəfərə qədər genişləndirməliyik. Mən bilmək istəyirəm ki, köhnə mühacirlərdən kimi məsləhət bilirsiniz? Mirzə Göygöl dəvət ediləcək. Növbəti məktubunuzda mənə məlumat verməyinizdən məmnun olardım. Hələ ki, iş ciddi xarakter almayana qədər heç kimə məlumat verib dəvət etməyəcəyik. Lakin biz Sizinlə bütün bunları əvvəlcədən müəyyənləşdirməliyik. Mən artıq ona həm yaxşı, həm də gənc adamların siyahısını verdim. Siyahıya Timuçinin də adını əlavə etdim. Bununla yanaşı, O, məndən Nyu-Yorkda "Amerikanın səsi"ndə işləmək üçün 6 adamın adını verməyi xahiş etdi. Onlar Azərbaycan qrupunu təşkil edəcək və bizim verdiyimiz müəyyən proqram əsasında referatlar hazırlayıb radio ilə verəcəklər. Bu altı adamın sırasına mən Timuçini və qardaşımı daxil etdim.

Güman edirəm ki, bu, Timuçin və ümumi işimiz üçün çox faydalı olacaq. O, orada ingilis dilini müəkəmməl öyrənər və həmvətənləri arasında qalıb ana dilində danışar. Sonradan aydın olacaq ki, əgər işimiz genişlənərsə, biz onu başqa bir sahəyə keçirərik. Ancaq "Amerikanın səsi"ndə olan bu iş çox məsuliyyətli və maraqlıdır. Xahiş edirəm, bu haqda və Timuçinlə özünüz haqda olan – təvəllüdü, yaşayış yerini, vətəndaşlığı, təhsili, bildiyi dillərlə bağlı məlumatları mənə çatdırasınız.

Əgər bu iş alınarsa, məni çox sevindirəcək. Bu qrupa həmçinin qəzetimizin redaktoru Məcid Musazadə, İsmayıl Əkbər də daxildir ki, onlarla birgə əməkdaşlıq etmək Timuçində də böyük məmnunluq yaradacaq.

Əgər hər hansı səbəbə görə Timuçin gedə bilməsə, mən sizdən xahiş edəcəyəm ki, Nyu-Yorka gedib orada redaksiyaya başçılıq edəsiniz və işlərimiz qaydaya düşəndən sonra həmişəlik qayıdasınız. O deyirdi ki, "Amerikanın səsi" bunu xahiş edib və düşünür ki, 2-3 ay müddətində, bəlkə də tez bu iş reallaşdı. O, mənə məsləhət bildi ki, hələlik Türkiyəyə getməyim və burada qalıb cavabı gözləyim. Bilmirəm 2-3 ay burada qala biləcəyəmmi? Hər ehtimala qarşı noyabrın sonuna qədər burada olacağam. Bütün yeniliklər və özümün qaldığım yer haqqında Sizə məlumat verəcəyəm.

Lənətlənmiş maddi şərait ucbatından bu vaxta qədər Sizinlə görüşə bilmirik.

Nuşu bəyə, Topçubaşıya və hamıya salam.
Sizi və Timuçini bərk-bərk qucaqlayıram.

Həmişə Sizinlə olan Abo" (124)

VII FƏSİL

"AZADLIQ" RADİOSUNDA ÇIXIŞLARI

«Kommunist hakimiyyətinin ən ağır cinayətlərindən biri kimi biz onun xalqın yaradıcı fəaliyyəti və ölkənin mədəni həyatı üzərindəki zülmünü qeyd edirik. Böyük Azərbaycan ədəbiyyatı, musiqisi, salnaməsi, elmi – xalqın bütün yaradıcılıq qabiliyyətinin formaları Stalin tiranlığı ilə məhv edilmişdir. Bizim mədəni irsimiz və onun Avropa və dünya mədəniyyəti ilə bütün əlaqələri mənasız və amansızcasına məhv edilir. Mədəniyyətin canlı daşıyıcıları isə daha amansızcasına güllələnirlər. Tapdanmış mənəvi dəyərlərin qorunması və xalqımızın varlığının qorunması üçün biz öz səsimizi qaldırırıq».

“AZADLIQ” RADİOSU İLƏ AZƏRBAYCANLILARA İLK MÜRACİƏTİ

Həmvətənlər! Nəhayət, bizim öz xüsusi səsimiz var! Stalin polis terroru bizi öz evimizdə susmağa məcbur etsə də, xaricdə qorxmadan və maneəsiz danışa bilirik. Azadlığa olan daimi inamımız xalqımızın qəlbində sönmədi. Bizim birinci vəzifəmiz – azadlığa olan iradəmizi yaşatmaqdır. Kommunist tiranlığına qarşı olan müqavimət gücü də xalqımızda tükənmədi. Biz azərbaycanlılar, Sovet İttifaqının başqa xalqları kimi, kommunist rejimini məhv edib, alınmış azadlığımızı qaytarmaqda qərarlıyıq. Harda olmağımızdan asılı olmayaraq, istər Sovet İttifaqında, istərsə də xaricdə azad Qərbdə olaq, hamımız ürəkdən bir şeyi istəyirik: Kreml hakimiyyətinin yıxılmasını!

Bir qədər əvvəl Sovet İttifaqını tərk etmiş yüz minlərlə kəndli və fəhlələr həqiqəti qorxmadan demək imkanı əldə etmişlər. Çoxlu keçmiş komsomolçu və kommunistlər, Sovet ordusunun əsgər və zabitləri, Daxili İşlər Nazirliyinin keçmiş işçiləri əvvəllər müdafiə etdikləri hakimiyyətlə mücadilə aparmaq qərarına gəlmişlər.

Burda, xaricdə demək olar ki, Sovet İttifaqının bütün xalqları təmsil edilmişlər.

Biz hamımız, gənclər və yaşlılar olaraq Stalinin dəmir pərdəsində yaşayan və əzab çəkən sizlərlə bir əzmdə və bir ruhdayıq.

Biz hamımız, gənclər və yaşlılar Stalinin dəmir pərdələri arxasında yaşayan və əzab çəkənlər olaraq bir iradə və ruhla sizinləyik. Sizin kədəriniz, sizin fikriniz-bu, bizim kədərimiz, bizim fikrimizdir və bizim səsimiz -sizin səsinizdir.

1952-ci ilin oktyabrın 16-da xaricdəki siyasi qrupların nümayəndələri Vətəni kommunist diktaturasından xilas etmək üçün “Antibolşevik mücadilənin Koordinasiya Mərkəzi”ni yaratdılar. Biz bu diktaturaya qarşı xalq hakimiy-

yəti prinsiplərini qoyuruq. SSRİ ərazisində yaşayan bütün xalqlarla birgə demokratik ifadə göstərmək əsasında öz müqəddəratını azad təyin etmək hüququnu tanıyırıq. Biz bütünlüklə vicdan və dini azadlıqların verilməsi tərəfdarıyıq. Biz yalnız insanın insan tərəfindən istismarının deyil, eyni zamanda insanın partiya və dövlət tərəfindən də istismarının da əleyhinəyik. Biz dövlət siyasətinin insan şəxsiyyətinin azad inkişafı maraqlarına və xalqların maddi və mənəvi həyat tərzinin yüksəldilməsinə tabe edilməsi tərəfdarıyıq. Bizim istismarçıların qışqırıb dedikləri o "xoşbəxt" həyat; yaxud ləyaqətli insan həyatı o zamana qədər mənasız olacaq ki: **1)** terror və işgəncə sisteminə son qoyulsun; **2)** Qul əməyinin bütün formaları məhv edilsin; **3)** Bizim dövr üçün qorxu və biabırçı sayılan cəhənnəm həbs düşərgələri yox edilsin; **4)** Kolxozlar buraxılsın və kəndlilərə torpağa sahibolma və torpaqdan istifadə formasını seçmək hüququ verilsin.

Kommunist hakimiyyətinin ən ağır cinayətlərindən biri kimi biz onun xalqın yaradıcı fəaliyyəti və ölkənin mədəni həyatı üzərindəki zülmünü qeyd edirik. Böyük Azərbaycan ədəbiyyatı, musiqisi, salnaməsi, elmi – xalqın bütün yaradıcılıq qabiliyyətinin formaları Stalin tiranlığı ilə məhv edilmişdir. Bizim mədəni irsimiz və onun Avropa və dünya mədəniyyəti ilə bütün əlaqələri mənasız və amansızcasına məhv edilir. Mədəniyyətin canlı daşıyıcıları isə daha amansızcasına güllələnirlər. Tapdanmış mənəvi dəyərlərin qorunması və xalqımızın varlığının qorunması üçün biz öz səsimizi qaldırırıq.

Biz kommunizmin tamahkar və təcavüskar xarici siyasəti nəticəsində insanlıq üzərinə hərəkət edən qorxulu təhlükəni görürük. Bütün xaricdə yaşayan və Sovet İttifaqını tərk etmiş azərbaycanlılar azad dünyanı inandırırlar ki, kommunizm fəhlə hərəkatının siyasi hərəkatı deyil, yalnız quldarlıq təsərrüfatı sisteminə əsaslanan, hərbi bürokratiya

və polis terroru üzəində yaranmış imperialist dövlətlərin silahıdır. Sovet İttifaqının bütün xalqları kommunizmə gizlində düşməndirlər və öz istismarçılarına nifrət edirlər. Bu cəhdlər isə "bəhrələrini" vermişdir. Milyonlarla insanımızın həbs düşərgələrində əzab çəkməsi faktı sübut edir ki, kommunist təcavüzü xalq işi deyildir, yalnız Kreml cəlladının əlidir. Bizim xalqlar Stalinin cinayətkar siyasətinin yanındakı yaltaqların "dahi" adlandırdıqları daha hansı eksperimentlərin əzablarını çəkməlidilər və nələrə düçar olmalıdılar?

Həmvətənlərimiz!

Əgər siz onların başı üzərindən azad dünya xalqlarına əlinizi uzatmasanız, Sovet diktatorlarının sizin arxanızda və sülh uğrunda hərəkat adı altında hazırladıqları üçüncü dünya müharibəsinin başlanması olsun ki, qaçılmaz olacaq.

Bizim ölkənin xalqları ilə azad xalqların möhkəm birliyi demokratiyanın gücünün və sarsılmazlığının girovu sayıla bilər.

Biz bilirik ki, mücahdilə üçün buradan hazır siyahılar vermək mümkün deyil. Vaxtı çatanda xalq özü necə hərəkət etməyi başa düşəcək. Bizim radiostansiyanın vəzifəsi – Sovet İttifaqında baş verənlər haqqında heç zaman eşitmədiklərinizdən danışmaq, dinləyicilərimizi obyektiv informasiya ilə təchiz etmək və onlara Sovet təbliğatının neçə illərdir yayıb tələqin etdiyi yalanlardan azad olmaqda kömək etməkdir.

Bizim radiostansiyanı dinləyin!

Antibolşevik Mücadilə Koordinasiya Mərkəzinin səsini eşidin!

«Azərbaycan» jurnalı, Münhen,
1953-cü il,mart, № 10

KREMLƏ MÜNASİBƏTDƏ SƏRT SİYASƏT

Bülleten № 109,
29 iyun 1953-cü il

Çörçilin xəstəliyinə görə bir ay təxirə salınmış Bermud konfransının imkanlarını təhlil edən liberal ingilis qəzeti "Mançester Qardian" yazır: "Avropada və Amerikada çoxlu nüfuzlu siyasətçilər Kreml hakimiyyətinin sülh kampaniyasının tələ olduğunu güman edirlər.

Təsadüfi deyil ki, üç tanınmış siyasi xadim bir-birindən asılı olmadan Kremlə münasibətdə sərt münasibət mövqeyindədirlər.

Berlin burqomistri Reyter Bonda keçirilən mətbuat konfransında bildirmişdir: "Qərb dünyası indi güclü psixoloji hücuma keçməlidir. Almaniyanın covet bölgəsində yaşayan əhalinin doxsan faizi Qərbin azad dünyasının mövqeyində dayanırlar".

Makedoniya paytaxtı Skopledə Demokrat partiyasından Amerika prezidenti postuna namizəd Stivenson Balkanlardakı hazırkı vəziyyəti öyrənərək demişdi: "Qərb dünyası Kreml hakimiyyətini öz siyasi kursunu dəyişməyə məcbur edib. Biz kommunistlərin əvvəlki siyasətlərindən əl çəkib, yoxsa taktikanı dəyişmələrini aydınlaşdırmayana qədər öz müdafiəmizi daha da gücləndirməliyik".

Vaşinqtonda Amerika senatının xarici işlər komissiyasının sədri Aleksandr Uayl Amerika xalqına və onun müttəfiqlərinə çağırışla müraciət etdi. "Sakitləşmə siyasəti – Uayl bildirirdi–dayandırılmalıdır. Sovetin Berlin bölməsində baş verən üsyan, Çexoslovakiyada, Polşada və Şərq blokunun digər ölkələrindəki qarışıqlıq Kreml hakimiyyətinin nüfuzlu olmadığını açıq sübut etdi. Qərbin azad dünyası sovet hökumətindən təcavüzkar siyasətindən uzaqlaşmasını qətiyyətlə tələb etməlidir" (116,117).

FƏHLƏLƏRİN ŞƏRQİ ALMANİYA KOMMUNİST PARTİYASINDAN KÜTLƏVİ ÇIXMASI

29 iyun 1953-cü il

Şərq bölgəsindən alınan məlumatlara görə, zəhmətkeşlər hazırda Almaniya Vahid Sosialist Partiyasından kütləvi şəkildə çıxmaq üçün ərizə verirlər. Bu partiyanın Mərkəzi Komitəsi bu ərizələrə baxılmaması üçün yerli təşkilatlara sənəd göndərir. Bunun əvəzinə yerli partiya təşkilatı rəhbərləri ərizə verənləri şəxsi söhbətə çağırmalı və onları qərarlarından döndərməlidir.

Bu fakt çox ciddi diqqət tələb edir. Almaniya Vahid Sosialist Partiyası adlanan bu təşkilat Şərq bölgəsində maskalanmış bir partiyadır. Bu partiya 1946-cı ilin aprelində sosual-demokrat partiyası ilə birləşmədən yaranıb.

İlk vaxtlar bu blok partitet əsaslarla yaradılmışdı: hər iki partiyanın birləşmiş plenumunda sosial-demokratlar nümayəndələrin əlli üç faizini, kommunistlər isə qırx yeddi faizini təşkil edirdilər. Lakin sonralar kommunistlər sosial-demokratları sıxışdırıb bütün əsas mövqeləri ələ keçirdilər. Almaniya Vahid Sosialist Partiyası tanınmış kommunistlərdən olan Pikin və Ulbrixtin – Şərqi Almaniyanın prezidentinin və partiyanın Baş katibinin əlində qaldı.

Kommunistləri belə bir bloku yaratmağa hansı səbəblər məcbur etdi? Kommunistlərin Almaniyada məşhur olmamaları o zaman aydın idi və kommunist liderlər məğlubiyyətdən qaçmaq üçün belə bir gediş etdilər. 1949-cu ilin avqustunda Qərbi Almaniyada keçirilən parlament seçkilərində kommunistlər cəmisi 5,7 faiz səs topladılar. Sovet bölgəsində zəhmətkeşlərin əhvalını təhlil edərək, Bonndakı ümumalman məsələləri üzrə nazirlik belə bir nəticəyə gəldi ki, Şərqi Almaniya Kommunist Partiyası sosial-demokratlarsız seçkilərdə ən çoxu 1,8 faiz səs toplaya bilər. Bu, bir

daha çoxdan məlum olan bir faktı təsdiqləyir: Kommunizm o yerdə azacıq məşhurdur ki, orada güc və zülmkarlıq vardır. Sovet bölgəsindəki fəhlələrin üsyanı sübut edir ki, Almaniya Vahid Sosialist Partiyası, daha doğrusu, Şərqi Almaniyanın Kommunist Partiyası xalq arasında öz nüfuzunu həmişəlik itirmişdir.

Vahid Sosialist Partiyasından kütləvi çıxış buna canlı sübutdur (116,117).

ALİ KOMİSSARLARIN ŞƏBƏKƏ TOPLANTISI

29 iyun 1953-cü il

Berlində şənbə günü Amerikanın, Böyük Britaniyanın və Fransanın ali komissarlarının şəbəkə toplantısı olmuşdur. Toplantıda Şərqi Berlində və Almaniyanın sovet zonasındakı son hadisələr müzakirə edilmişdir. Bu müzakirənin yekunu olaraq Qərb komissarları eyni məzmunlu məktubla sovet ali komissarı Semyonova müraciət etmişlər. Məktubda normal həyat şəraitinin bərpasının vacibliyi və bölmələr arasında azad, maneəsiz məlumata imkan verilməsi göstərilir. Məktubda qeyd edil-mişdir ki, bu məsələ ilə bağlı keçən müraciətlər nəticəsiz qalmışdır.

Ali komissarların müraciətindən sonra bildiriş çap edilmişdir. Sənəddə qeyd edilir ki, Avropanın təhlükəsizliyinin təminatı üçün Almaniyanın birləşdirilməsi və ümumi seçkilər əsasında Ümumalman hökumətinin yaradılması zəruridir. Belə demokratik hökumətin formalaşmasından sonra Almaniya ilə sülh müqaviləsi bağlanmalıdır. Sənəddə Berlinin üç Qərb komendantına xeyirxah davranışlarına görə razılıq bildirilərək qeyd edilir ki, Berlinin əhalisi Şərqi Berlin fəhlələrinin antikommunist çıxışları zamanındakı ağır günlərdə özünü yüksək tərifəlayiq apardı (116,117).

DANIŞIR "AZADLIQ" RADİOSTANSİYASI!

B-2931

Əziz həmvətənlər, Siz öz azad həmvətənlərinizin Azad dünyadan səsini eşidirsiniz. Sovet imperializmi seriyasından "Türkiyə haqqında həqiqətlər" mövzusundakı verilişimizi dinləyin.

İkinci dünya müharibəsindən sonra Sovet İttifaqının Türkiyəni "sakit işğalı" işindəki bütün cəhdləri uğursuzluğa düçar oldu. Türkiyə Kremlin bütün haqsız tələblərini rədd etdi və SSRİ-nin basqısına qarşı tək dayanaraq bununla da, azadlığın və demokratiyanın qorunması işində azad dünyaya böyük xidmət göstərdi. Bundan sonra Kreml davamsız olaraq anti-Türkiyə kampaniyasına başladı. Son vaxtlar SSRİ-dəki anti-Türkiyə kampaniyası adi sovet vicdansızlığından kənara çıxmışdır.

Qəzetlərdə və jurnallarda, romanlarda, uşaq kitablarında, elmi işlərdə Türkiyəyə qarşı hücum vacib sayılır.

İndi bizim tarixçilərə göstəriş verilmişdir ki, Yaxın və Orta Şərq ölkələrinin, xüsusənTürkiyə və İranın tarixinin hazırlanması ilə məşğul olub, Türkiyənin və Şah İranının Azərbaycana və bütün Qafqaza olan işğalçı siyasətini ifşa etsinlər. Hətta, göstəriş verilmişdir ki, Azəbaycan xalqının Türkiyə və İran işğalçılarına qarşı guya olmuş qəhrəmanlıq mücadiləsini də işıqlandırsınlar.

Zəhərləndirilmiş erməni və gürcü dostlarımızla, eləcə də başqaları ilə yanaşı, sovetlər türk xalqlarını da Türkiyəyə qarşı təxribata çəkirlər. Türk xalqlarının müharibəyə psixoloji hazırlanması belə sübutlarla aparılır ki, onlar türk deyillər, onların əsas düşmənləri Türkiyə və İrandır. 1949-cu ildən isə ABŞ bütün Qafqazı, Türküstan, Krım və İdil-Uralı guya öz müstəmləkəsinə çevirmək istəyir.

Hətta, Stalin özünün "Dilşünaslıq kəşfləri"ndə Türkiyəni rahat buraxmadı. Stalin yazır: "Yüz illərlə türk qəsb-

karları Balkan xalqlarının dillərini sıxışdırıb məhv etmək istədilər". Bu, artıq eşidilməmiş yalandır. Tarixi faktlar bizə başqa həqiqətləri sübut edir. Türklər onların imperiyasına daxil olan xalqlardan çoxlu sözlər qəbul ediblər ki, bunun da nəticəsində türklərin az başa düşdüyü osmanlı dili formalaşıb. Artıq otuz ildir ki, Türkiyə Respublikası türk dilinin yaradılması uğrunda vuruşur. Türklər heç zaman başqa dilləri belə sıxışdırmamışdılar, nəinki indi sovetlər türk dilinə qarşı bunu edirlər.

Sovet İttifaqında hakimiyyət daxilindəki xalqlarda Türkiyəyə görünməmiş ölçüdə nifrət yaradıldığı bir zamanda, Türkiyədə əksinə edilir. Bütün türklərə uşaq yaşlarından qonşu və bütün xalqlara hörmət etməyi öyrədirlər. Orada heç bir xalqa, o cümlədən ruslara qarşı heç bir türkdə nifrət yaratmırlar.

Vrangelçilər Türkiyəyə gəlib buradakı həddindən artıq qonaqpərvərliyi görəndə deyirdilər: "Biz ruslar bütün ömrümüz boyu türklərə qarşı vuruşduq, lakin gəlib Türkiyəyə çıxanda, gördük ki, bu, ən yaxşı xalqdır".

Bütün rus demokratları Sovetlərin Türkiyəyə qarşı olan imperialist siyasətini müzakirə edir. Hətta, Lenin Oktyabr günlərində belə bir şüar ortalığa atmışdı: "Biz Dardanel uğrunda rus qanı axıtmayacağıq!". Indiki sovet diktatorları isə öz hakimiyyəti altında olan xalqları psixoloji cəhətdən "Dardanel uğrunda", sovet despotunun bütün dünyadakı ağalığı uğrunda müharibəyə hazırlayır.

Lakin onların bu tamahkar məqsədləri nəticəsiz qalacaq. Demokratiya kommunizmə və Sovet imperializminə ölüm hökmü oxumuşdur.

Azad xalqların və əzilən xalqların barışmaz birgə mücadiləsi bu hökmü yerinə yetirəcək və İnşallah Vahid Azad Dünya yaradılacaq! (116,117)

VIII FƏSİL

«AZƏRBAYCAN» JURNALINDA ÇAP EDİLMİŞ MƏQALƏLƏRİ

«Beləliklə, kommunizmin ilk növbədə çoxsaylı proletariatı olan, yüksək inkişaf etmiş kapitalist sistemli ölkədə qələbə çalması doğru çıxmadı. Aydın oldu ki, kommunizm ölkənin yüksək inkişaf etmiş sənayesi və mədəniyyətinin olmasından və yaxud əksinə, aqrar, köhnə istehsal üsüllu olmasından asılı olmayaraq xalqın milli dəyərlərini itirdiyi bir ölkədə qələbə çala bilər. Kommunizmin məhz Rusiyada qələbə çalması bununla izah olunur. Çünki bolşeviklər rusların milli iftixarlarını zəiflədə və hakimiyyəti ələ ala bildilər. Digər bir tərəfdən isə, kommunizmin digər ölkələrdə məğlub olmasını elə bununla da izah etmək olar, yəni –dünyanın elə bir yeri yoxdur ki, orada xalqın tamamilə öz milli iftixarını itirdiyi ölkəyə rast gələsən. Deməli, «sosializmə» qələbə çalmış ölkələrin güclü silahlı müdaxiləsi olmadan heç bir ölkədə kommunist inqilabı gözləməyə dəyməz».

KREML HÜR DÜNYANIN GÖZÜ ÖNÜNDƏ HÜRRİYYƏT ƏLEYHİNƏ "XALQLAR" KONQRESİ ÇAĞIRDI

Kremlin əmri və hüdudsuz maddi yardımı ilə (Kominternin-Kominformun uşağı) olan Dünya Sülh Şurası adından, 12 dekabr 1952-ci ildə Vyanada "Xalqların Sülhü Müdafiə konfransı" açılmışdır.

"Sülh hərəkatı" vaxtilə Politbüronun (Siyasi Büronun – N.Y.) gizli dərinliklərində başlamış və güclü pul sayəsində sürətlə genişlənmiş, 1949-cu ildə isə "Sülh tərəfdarları dünya konfransı" çağırılmışdır.

Bu konfransdan sonra hür(azad) məmləkətlərdə "sülh tərəfdarları" milli təşkilatları qurulmuş və yuxarıda adı çəkilən mənfur "Dünya Sülh Şurası" meydana gətirilmişdir.

"Dünya Sülh Şurası" Kremlin tükənməz yardımı və rəhbərliyi altında qaynar bir fəaliyyətdə olmuş, "millətlərarası gərginliyi yumşaltmaq" uğrunda çox çalışmışdır. Türlü məmləkətlərdə mitinqlər, toplantılar, görüşmələr tərtib edilmişdir. "Sülhçülər" xalqların ən geniş təbəqələrinə, müxtəlif dini, siyasi və sosial görüşləri olan ən müxtəlif təşkilatlara, hərəkatlara, cərəyanlara soxulmağa müvəffəq olmuşlar.

Tükürpədici yalanlar nəticəsində hür məmləkətlərin bir çox təşkilatlarını da Vyanaya qədər sürükləmişlər.

"Dünyanın ən müxtəlif sosial və ictimai təbəqələrinə soxulub onları sovet imperializminin xidmətinə qoymalı– Kremlin bu əmrini "Dünya Sülh Şurası" qısa zamanda artıqlaması ilə ifa etmişdir.

Konfransa başqanlıq edən Fridrix Jolio-Kuri bu haqda qürurla məlumat vermişdir.

O, kommunistlərə münasib paxıllıqla dünya kültürünün böyük adamlarının müqəddəs xatirələrinin çözülməsindən uzun bəhs etmişdir.

Konfrans Sovetlər İttifaqı Kommunist Partiyasının 19-cu qurultayı qərarları üzrə cərəyan etmişdir: "Dünya sülhü uğrunda", "Koreyada hərbin durdulması uğrunda", "Xalqların hürriyyət və bağımsızlığı sarsılmaz sülhün zəruri şərtidir", "Millətlərin bağımsızlığı və təhlükəsizliyi uğrunda", "İki sistem paralel yaşaya bilər" və s.

Köhnəlmiş və çürümüş "dünya kommunist inqilabı" şüarları ilə deyil, Kreml yuxarıda qeyd edilmiş yeni taktiki şüarları ilə müxtəlif cərəyanları, müxtəlif görüşlü adamları Vyanaya gətirməyə də müvəffəq olmuşdur.

Bu konfransda Qərbin müharibəni önləmək yolunda bütün təşəbbüsləri "təcavüskar" deyə damğalandı və "millətlərüstü təşkilatlar" məfhumu uyduruldu: Atlantik, Paris və Bonn müqavilələrini "millətlərüstü təşkilatlar" kateqoriyasına aid etdilər və millətlərin bağımsızlığına bir təcavüz deyə vəsfləndirdilər.

İlya Erenburq İngiltərənin və Latın Amerikasının bağımsızlığının "yox olmasına" fəna halda "acıyaraq" bunları söylədi: "Keçmişdə insanlara öz dövlətinizin istiqlalını müdafiə etmək üçün həyatınızı fəda etməlisiniz deyirdilər. İndi isə onlara deyirlər: **irəlidə həyatınızı fəda etmək üçün əvvəl öz dövlətinizin istiqlalını qeyb etməlisiniz**".

Bəli, Kreml daima bu tərzdə hərəkət etmiş və etməkdədir: əvvəl dövlətlərin bağımsızlığını çeynəyir, sonra isə onların haqlarını öz ehtiraslarına qurban edir.

Əcəba, Sovet diktatorları hökm etdikləri millətlərin qeydsiz-şərtsiz istiqlallarını tanımağa heç yaxınlaşarmı?

İlya Erenburq konfransda iştirak edənlərə milyonlarla neytralistlərin (tərəfsizlərin) hisslərini istismar etmək üçün göstərişlər vermiş və demişdir: "Neytralizm Qərb xalqları-

nın öz bağımsızlığı uğrunda yürütdükləri savaşın bir simptomudur".

Qərbi Almaniya neytralistlərin hərəkətlərini və fəaliyyətlərini öyrəndikdən sonra bütün neytralistlərə Kremlin bu əmrini açıqladı: "Qərbə qarşı qışqırın – onda "bizimləsiniz", amma Moskvaya söyləyin: "biz sizinləyik". Əslində "neytrallıq" belə olmalıdır.

"**Xalqların Sülhü Müdafiə konfransında" hər şey Kremlin istədiyi kimi olmadı. İtaliyalı Alessandra Piaycionun ifşası bomba kimi partladı. Britaniya nümayəndəsi Harmonun söylədikləri: Sovetlər Hind layihəsini rədd etməklə, hərb əsirlərini Sovetlər İttifaqında saxlamaqla dünyada əndişəli vəziyyət yaratmışlar.**

Vışinskinin Hindistan sülh layihəsi əleyhinə kəskin çıxışı sülhə olan son ümidləri suya batırdı. İsveç yazarı Erik Axel Blomberq sovetlərin kiçik dövlətlərə qarşı təcavüzkar olduğunu söylədi. Fransız papası Rene Ronyon göstərdi ki, sovet siyasətçiləri başqa xalqların psixolojisi ilə heç hesablaşmaq istəmirlər. Hər kəsə məlumdur ki, "xalq demokrasiləri" Sovetlərin zoru ilə yaranmışlar. İsveçrəli Hüqo Kramer öz çıxışında İlya Erenburqa müraciət edərək soruşmuşdu: "Elə düşünmürsünüz ki, Amerika əleyhinə etdiyiniz ittihamlar sırf Sovetlərə qarşı edilməlidir".

Bu şəxsiyyətlərin çıxışları haqda sovet mətbuatı bir kəlmə belə yazmır. Amerika əleyhinə çıxışlar isə təfsilatı ilə bütün sovet mətbuatında nəşr edilmişdir.

12 yanvar 1953-cü il tarixli "Pravda" "Xalqlar konfransının qərarlarını kütlələrə yetirməli" başlıqlı baş məqaləsində yazırdı: "Konfrans yeni hərb təhlükəsinin qarşısını almaq üçün xalqların beynəlxalq hərəkatı tarixində mühüm mərhələ oldu... Konfransın qərarlarını müzakirə etmək üçün indi hər yerdə böyük ruh yüksəkliyi şəraitində kütləvi mitinqlər və iclaslar keçirilir. Milanda, Romada, Turində

və İtaliyanın başqa şəhərlərində bu cür mitinq və toplantılarda minlərcə insan iştirak etmişdir. Çinin şəhərlərində, Varşava və Budapeştdə, Paris və Brüsseldə də zəhmətkeşlərin kütləvi mitinqləri olmuşdur. Mitinq və toplantılarda xalqlar konfransının nümayəndələri çıxış edirlər".

Əslində "Pravda"da Sovetlərin Hür Dünya xalqlarını hürriyyət əleyhinə səfərbər etmələrindən açıqca və həyasızca yazır.

"Xalqlar Konqresi"nin "sülh", "istiqlal", Koreyada hərbin qurtarması" və s. haqda çıxardığı qərarların mahiyyətini Avstriya Daxili İşlər Nazirliyindən öyrənirik: "Xalqların Sülhü Müdafiə Konfransının" gizli komissiyasında bu qərar verilmişdir: bütün dövlətlərdə sülh tərəfdarları təşkilatları nəzdində xüsusi bürolar qurulmalı ki, məmləkətlərin silahlanmaq işlərinə nəzarət etsinlər və hər böyük hərb istehsalatı fabriklərində bu büroların nümayəndələri olmalıdır. Bunlar silahların miqdarı, növü və xüsusiyyəti haqqında məluman toplamalıdır".

Qısası, "sülh", "bağımsızlıq" yolu ilə sovet casusluğu hür məmləkətlərdə qanunlaşdırılmaqdadır.

Əcəba, Komintern Moskvada oturarkən və "dünya kommunist inqilabı" bayrağı altına xalqları çağırarkən bu qədər təşkilatları, cərəyanları, hərəkatları Kremlin xidmətinə çıxa bilərdimi?..

Halbuki, "Dünya Sülh Şurası" Hür Dünyada yerləşərək "sülh", "bağımsızlıq" və s. uğrunda savaşaraq kommunizmlə heç bir əlaqəsi olmayan türlü təşkilatları, cərəyanları və geniş xalq təbəqələrini sovet imperializminin xidmətinə qoymuşdur.

Beləcə, həqiqi hürriyyət savaşçıları olan antikommunist qüvvələrinin laqeydliyindən Kreml hür insanların qüvvəsi ilə hürriyyətə hücum edir. Saysız, hesabsız antiko-

mmunist cəmiyyətləri, təşkilatları satıcılar kimi təkbaşına çalışırlar.

Dağınıq halda olan antikommunist ictimai təşkilatlarının birləşərək tək və hür bir Dünya uğrunda böyük bir hərəkat yaratmalarının zamanı artıq gəlmişdir. Bu hərəkat bütün dünya hürriyyəti uğrunda sovet imperializminə qarşı amansız mücahidəyə keçməlidir.

Daima olduğu kimi, yenə də "Azərbaycan"ın səhifələrindən bütün antikommunist təşkilatlara müraciət edərək tək və hür bir Dünya hərəkatı yaratmalarını rica edirik.

«Azərbaycan» jurnalı, Münhen,
1953-cü il yanvar, № 8

KOMMUNİZM – UTOPİYADIR

PROLETAR DİKTATORLUĞU

Məlumdur ki, bolşeviklər özlərini ortodoks marksist sayırlar. Başqa sözlə, bolşeviklər üçün Marksdan başqa Allah yoxdur, Stalin də onun peyğəmbəridir. Marksizmdə əsas məsələ nədir?

Bolşeviklərin öz etiraflarına görə, Marksizmdə baş və əsas məsələ proletar diktatorluğu məsələsidir. Bütün başqa məsələlər buna tabedir və bundan irəli gəlir. Proletar diktatorluğuna gətirən başlıca yollar sinfi mübarizə və vətəndaş müharibəsidir. Marksın təyin etdiyinə görə, proletar diktatorluğunun başlanğıc dövrü bütün köhnə dövlət mexanizmini, bütün milli ənənələri, adətləri, mənəviyyatı və mədəniyyəti yıxmaq, dağıtmaq, parçalamaq, məhv etməkdən ibarətdir. "İnternasional"ın sözləri ilə ifadə etsək, "Yıxaq bu köhnə cahanı..." Proletar diktatorluğunun ikinci dövrü qurulmuş dövrdür".

"Quraq yeni bir aləm..." Bolşeviklərə görə bu yeni aləm, yenə də çeşidbəçeşid qeyri-proletar elementləri əleyhinə yaşayışın hər sahəsində, köhnə rejim qalıqları əleyhinə amansız sinfi mübarizə nəticəsində qurulmalıdır. Nəticə etibarilə proletar diktatorluğu qurulduqdan sonra belə, sinfi mübarizə nəinki, zəifləyir, əksinə, daha şiddətlənərək "yeni aləm quruluşunun" bütün sahələrini də bürüyür. Beləliklə, biz görürük ki, Stalinə görə sosializm quruluşu ancaq sinfi mübarizə əsasında mümkündür.

Xalqın bütün təbəqələrinin qüvvələrini, qeyri proletar ünsürlər də daxil, sülhən sosializm quruluşuna cəlb etməyə cəhd etmək, proletariata, maksizmə xəyanət olduğundan sosializm quruluşunu fəlakətə sürükləyə bilər. **Buxarin** və onun tərəfdarlarının qeyri–proletar ünsürlərini sülhən sosializm quruluşuna cəlb etmək nəzəriyyəsi və onların bu yolda səmərəsiz addımları və faciəli aqibətləri hər kəsə bəllidir. Milyonlarla insan qeyri–proletar, sinfi düşmən deyə damğalandı və kütləvi halda məhv edildi.

Bu adamlar sırasında yalnız aristokratları deyil, Ordu və Donanma zabitlərini, məmurları, ziyalıları, qolçomaq deyə adlandırılan kəndlilərin ən zəhmətkeş qismini soydular və məhv etdilər. Məhv edilmiş beş milyon qolçomaq ailəsi ilə kifayətlənmədilər. "Stalin sosializminin" daha sağlam quruluşu üçün "qolçomaq quyruğu" damğası altında başqa kəndliləri də məhv etdilər. Sonra isə çeşidbəçeşid bəhanələrlə, partiyada, sənayedə, kənd təsərrüfatında, orduda, donanmada, elmi müəssisələrdə, müxtəlif "ünsürlər" məhv edilirdilər. Həqiqətən, komunizmin həyata tətbiqi dəhşətli oldu.

Bütün insani həyatın əsaslarını sarsıdan kommunizm nəzəriyyəsinin çürüklüyünü və öldürücülüyünü, dünyanın altıda birində yaşayan bədbəxt insanların üzərində aparılan təcrübələrdə gördük. Hər dəfə sovet hökuməti kommu-

nizmdən müvəqqəti çəkilməklə fəlakətdən qurtarmışdı. **Məsələn, hərbi kommunizm dövründə Sovet hökuməti mütləq ölümə doğru gedirdi. Yeni iqtisadi siyasətə - NEP-ə keçməklə Lenin onu bu fəlakətdən qurtardı.** Kommunizmin nəzəriyyəsi ilə azacıq tanış olanlar bilirlər ki, NEP-in kommunizmlə heç bir əlaqəsi yoxdur.

Buna görədir ki, o müsbət nəticələr verdi və beləliklə, Lenin Sovet hökumətini yaşatmağa, bolşevik hökmranlığını davam etdirməyə müvəffəq oldu. Hətta, bolşevik idarəsi altında, kommunizm nəzəriyyəsindən müvəqqəti ayrılmaq iqtisadi həyatın, rifahın yüksəlməsini təmin etdi. Fəlakətdən qurtardıqdan sonra bolşeviklər NEP-ə dözə bilərdilərmi? Əsla, yox!

Əks təqdirdə isə onlar bolşeviklikdən çıxardı. Qısası, yox olub gedərdilər. Maraqlısı budur: çoxları mülahizə edir ki, əgər Lenin həyatda olsaydı, o zaman yaşayış başqa cür olacaqmış.

Çünki Lenin kommunizmin çürüklüyünü başa düşdükdən sonra, ondan yan keçdi və kommunizmlə heç bir əlaqəsi olmayan yeni iqtisadi siyasəti yaratdı. NEP-in məhvi Stalinin günahıdır. Əgər bu mülahizələr doğrudursa, əgər Lenin özü komminizmin həyata tətbiqinə inanmırmışsa, nə deyək bu komminizmə. Budur, "Qanlı toxumu", qanlı meyvəsi olan proletar diktatorluğunun iç üzü. Proletar diktatorluğu da kommunist çərçivəsi içində yaşaya bilmədi. Kronştadt matrosları "kommunistlərsiz demokratiya" şüarı altında üsyan qaldırdılar. Bunun nəticəsində, proletar diktatorluğunu boğub, onu kommunist partiyasının diktatorluğu ilə əvəz etdilər.

Leninin ölümündən sonra partiyada da müxalifət çıxdı, partiyanın da diktatorluğunu onu Mərkəzi Komitənin diktatorluğu ilə əvəz etdilər. Sonra isə hökmranlıq Siyasi Büroya keçdi və nəhayət Stalin təkbaşına hökmran oldu. **Bu**

gün Sovet İttifaqını idarə edən Beriyalar, Malenkovlar, Molotovlar və Bulganinlər Stalinin idarəsini kor-koranə ifa edən kölələrdir.

PROLETARLAŞMA VƏ DÖVLƏT NƏZƏRİYYƏSİ

Bolşeviklərə görə, marksizim kapitalizmin inkişaf qanununu açmış və göstərmiş ki, kapitalizmin inkişafı nəticəsində əhalinin geniş kütlələri proletarlaşır. Orta təbəqə getdikcə proletariat sıralarına keçir və beləliklə, ilk qeyri bərabər, biribirinə zidd qütb yaranır. Bu iki qütb arasında ziddiyyət getdikcə artır və həddindən artıq proletar inqilabı yaradır. Başqa sözlə, Marksa görə, kapitalizm sosializmə hamilədir, proletar inqilabı "qanlı toxumdur", proletar diktatorluğu isə bu qanlı toxumun "qanlı meyvəsidir". Elmidirmi bunlar hamısı?

Marksın bu "elmi qanunlarına" görə, proletar inqilabı ilk öncə ən yüksək səviyyəli kapitalist məmləkətində olmalıydı. Öylə isə o, nə üçün Rusiya kimi aqrar bir məmləkətdə partladı? Orta təbəqələrin proletarlaşması məsələsini ələ alalım. Məlumdur ki, Marks nəzəriyyəsi yüz ildən bəri yaşayır. Bütün məmləkətlərdə əhalinin proletarlaşması və kapitalistlər ilə proletariat arasında ziddiyyətin hədləri aşaraq proletar inqilabına çevrilməsi üçün yüz illik bir dövr kifayət idi. Xüsusən, bunu son illərdə Sovet İttifaqı yaşamaqdadır. Stalinin dediyinə görə, Sovet İttifaqı öz mövcudluğu ilə bütün məmləkətlərin kütlələrini revolyusionlaşdırır (inqilablaşdırır). Dünya proletar inqilabının bu ocağı, sadə mövcudluğu ilə başqa məmləkətlərdə kommunist inqilabını qızışdırmaqla kifayətlənməyib, bu iş üçün milyardlar sərf edirdi.

Buna rəğmən, başqa məmləkətlərdə proletar inqilabı baş vermədi. Orta təbəqələrə gəlincə, onlar bu müddət ərzində artdılar, zənginləşdilər və sağlamlaşdılar. Marks döv-

ründəki proletarlara artıq rastlanmır. Indi proletar yox, getdikcə evlərə və bağçalara sahib olan işçilər var. Beləliklə, bu uzun müddət dövründə proletarlaşma, Sovet İttifaqını çıxmaqla, heç bir məmləkətdə görünməmişdi. Xüsusən, bizim zamanımızda, müəssisələrin aksiyalarına sahib olan, demək ki, gəlirlərdə paydaş olan işçilərin sayı getdikcə artmaqdadır. Görünür ki, kapitalizm sosializmə əsla hamilə deyil və proletar inqilabını, yəni "qanlı toxumu" və xüsusən bu "qanlı toxumun qanlı meyvəsi" olan proletar diktatorluğunu gözləmək faydasızdır. İndi dövlət nəzəriyyəsi məsələsinə keçək. Marks nəzəriyyəsinin suya düşməsi və dəyişdirilməsi bu məsələdə bütün çılpaqlığı ilə meydana çıxır. Kapitalizmdən sosializmə, sonra isə sosializmdən kommunizmə keçid dövründə dövlətin mahiyyəti, onun inkişaf yolları probleminin xüsusi əhəmiyyəti vardı. Bütün başqa məsələlərdən, artıq, həqiqətən bu qətedici məsələdə qarşılıqlı hökm sürürdü. Məlumdur ki, dövlət nəzəriyyəsi məsələsində, bolşeviklər Engelsə istinad edirlər.

Engelsə görə isə: "İtaət altında olması vacib sayılan ictimai siniflər olmadığı zaman, bir sinifin o biri sinif üzərində hökmranlığına ehtiyac qalmadığı kimi, dövləti hökumətə də ehtiyac olmayacaq".

Qısası, Engelsə görə, dövlət bir sinifin əlində o biri sinif üzərində hökmranlıq etmək üçün bir silahdır. Bu fikirdən aydındır ki, proletar diktatorluğu ictimai sinifləri aradan qaldırdıqdan sonra əlac tapmalıdır, sönüb getməlidir, çünki ona ehtiyac qalmır. Siniflər uzlaşdırıla bilməz, sinfi zidiyyət olmadığı təqdirdə, onların meyvəsi olan dövlət də ola bilməz. Məlumdur ki, Sovet İttifaqında guya proletariata antaqonist olan burjua sinfi çoxdan bəri məhv edilmişdir. İntellegentlər, qolçamaqlar, qolçamaq quyruqları, milliyətçilər, "barışçılar", "iki üzlülər", ayrı-ayrı müxaliflər, partiyanın baş xəttindən uzaqlaşanlar hamısı məhv edilmiş-

dir. **Görünür ki, məhv, ləğv, öldürmə məsələləri "Staxanov sürəti" ilə, həm də artıqlaması ilə həll olunmuşdur. Bu haqda, 1936-cı ildə Sovetlərin VIII qurultayında Stalin özü dedi ki:** "Bütün istismarçı siniflər məhv edilmiş, işçi sinifi qalmış, kəndli sinifi qalmış". Beləliklə, Marksın nəzəriyyəsinə görə, Sovetlər İttifaqında dövlətin zaval tapması üçün bütün şərait yaranmış. Zavaltapma məsələsini bir tərəfə qoyaq, Sovet İttifaqında dövlətin cəzalandırıcı funksiyalarında azacıq bir zəifləmə əlaməti görünürmü? Əksinə, Sovet İttifaqında, insaniyyət tarixində görünməyən qəddar və vəhşi, cəzalandırıcı funksiyaları getdikcə artan, bir hökmranlıq mövcuddur. Dünya qarşısında Sovet İttifaqında hökmranlığın yaşamasına və sağlamlaşmasına nəzəri baxımdan haqq qazandırmaq lazım idi. Bu da ki, bu formula ilə ifadə edilirdi: "Dövlətin zaval tapması onun zəifləməsi nəticəsində deyil, onun qüvvətlənməsi və sağlamlaşması nəticəsində olmalıdır". Bu formula haqda Stalin komsomolçu İvanovun məktubuna verdiyi cavabda uzun-uzun danışır.

Bu haqda Stalin 1939-cu ilin mart ayında keçirilən 18-ci partiya qurultayında danışıb. O, ordunun kəşfiyyat orqanlarının, daha da sağlamlaşmasını tələb etdi. Bu qurultayda çıxış edən "Stalin filosofu" Mitin, Stalinin bu sözlərini yaltaqca öyərək, Marksizm xəzinəsinə verilən ən böyük sərvət deyə adlandırdı. Bolşeviklərə Marksizmdən yan keçmək, ömürlərini davam etdirib hökmranlıq sürməyə, yenə də diamat yardım etdi.

"DİAMAT"

Fəlsəfə, daima ruhu zənginləşməyə xidmət edir. Bolşeviklərə görə, fəlsəfə, bütün elmlərin əsası, elmin birinci və son sözü olan dialektik materializmdir. Yalnız, dialektik materializmin metoduna istinad edərək kainatı, bütün hadisələri öyrənmək olar, yalnız onun metodlarının köməyi ilə bütün elmlər inkişaf edir, böyük icadlar edilir. Sovet mək-

təblərində oxuduğumuz zaman hərf-hərf bizə öyrədirdilər ki, bütün böyük ixtiraçılar, böyük icadlarını dialektik materializmin köməyi ilə etmişlər. Demək ki, Arximed, Qalvani, Volta, Devi, Faradey, Amper, Araqqo, Qaliley, Küri, Kopernik, Edison, Uaat Uluq bey, Nizami, Şota Rustaveli və başqaları dialektik materializmdən xəbərləri belə olmadan, heç güman etmədən onun metodları ilə faydalanırmış.

Böyük filosoflara gəlincə, onların fəlsəfələri dialektik materializm əsaslarına uymadığı üçün elmi, sinfi deyil, buna görə də amansızca rədd edilməlidir. Misal üçün, Feyerbaxın materializmindən bəhs etdiyimiz zaman mütləq qeyd etməliyik ki, Feyerbax Hegelin idealizmini tənqid edərkən böyük bir xəta buraxmış: o, tasın içindən kirli, sabunlu su ilə birlikdə uşağı da bayıra atıb. Hegel nəzəriyyəsindəki bu "uşaq" dialektika imiş. Beləliklə, dialektik materializmə görə, dialektikadan başqa, Hegelin bütün nəzəriyyəsi kirli , sabunlu sudur. Hərb nəzəriyyəçisi və filosofu Karl von Klauzeviçi götürək: Bu şəxsin nəzəriyyəsindən Lenin çox faydalanmışdır. Dialektik materializmə görə, onun məşum xətası odur ki, o, öz nəzəriyyəsində sinifləri deyil, xalqı görürdü. Buna görə o elmə sinfi nöqteyi nəzərlə baxmaq səviyyəsinə yüksəlmədi və Hegelin idealizmində boğuldu.

Onun hərb nəzəriyyəsinin yarımçılığı və təzadlığı da bundan irəli gəlir. Xüsusən, Sovet İtifaqında elə bir vəziyyət yaranmışdır ki, alimlər, yazarlar, şairlər, rəssam və bəstəkarlar dialektik materializmsiz bir addım atmırlar. Vəziyyətin vahiməliliyini aydın göstərmək üçün Sovet İttifaqı Elmlər Akademiyası üzvlərinin, 30 dekabr 1930-cu il tarixli "Pravda" qəzetinə verdikləri bəyannaməni xatırlayaq. Akademiklərin bu məcburi bəyannaməsində deyilirdi: "Qarşımızda duran məsələləri" bir metod olan Marks-Engels-Lenin-Stalin metodu ilə həll edəcəyik. Bu o deməkdir ki, Marks-Engels-Lenin-Stalin metodundan istifadə edərək: akademik Orbeli, köpəklər üzərində özünün fiziol-

oji təcrübələrini yürüdəcək, Tşuko, Tşusev, Vesnin, Hüseynov binalar lahiyəsi cızacaq və arxitektor fikrini inkişaf etdirəcəklər. Rəssam, akademik Qrabar rəsmlər çəkəcək, bəstəkar Qara Qarayev və Şestakoviç simfoniyalar yazacaq, akademik-yazıçı Şoloxov romanlar yazacaq, Tupolev təyyarələr inşa edəcək və s.

Bütün bu işlər dialektik materializm metoduna istinad edilərək görüləcəkmiş. İndi baxaq, Marks bu "elmlər elmini necə yaratdı". Leninə görə, Marks dialektikanı Hegeldən, materializmi də Feyerbaxdan aldı və onları birləşdirdi. Həm də sadəcə birləşdirmə ilə kifayətlənmədi, o onları "təsis" edərək birləşdirdi, beləliklə, dialektik materializm meydana çıxdı. Bu elm qısaca "diamat" adı altında məşhurdur: onun metodlarından istifadə edərək, çox fikirləşmədən böyük icadlar etmək mümkündür, bütün filosofların nəzəriyyələrini bir saniyədə kirli sabunlu suya çevirmək zor bir iş deyil, onun yardımı ilə çap edərsə, marksizmdən də qaçılır, sonra təkrar-təkrar geri dönülür. Məsələn, dövrün taktikasına görə, Şeyx Şamili ən böyük demokrat deyə qəbul etmək, sonra isə onu İngiltərə və Türkiyənin agenti və xalq düşməni deyə damğalamaq, filosof Heydər Hüseynova Stalin mükafatı verib sonra geri almaq, özünü də həbsə atmaq, Aleksandr Nevskinin məzarını qazıb cəsədini çıxarmaq, generalsimus Suvarovu qan içici çar yaltağı göstərmək, sonra isə onların adına ordenlər təsis etmək, çar zabitlərinin rütbələrini çiyinlərindən kəsmək, sonra isə çar rütbələrini öz çiyinlərinə taxmaq; və ya kilsə sərvətlərini kimi kilsələri qapadıb bütün din xadimlərini güllələmək, dini xalqın tiryəki deyə adlandırmaq, 25 ildən sonra isə "Allahsızlar cəmiyyətini" dağıdaraq rus ortodoks kilsəsinin birinci sitayişkarı kimi panisiavizm, panislamizm, pangermanizm və s. olmağa diamat icazə verir.

Diamatın necə bir elm olduğu yuxarıda göstərdiklərimizdən bəllidir. Yuxarıda göstərdiyimiz kimi dialektik materializm universaldır, o insan yaşayışının bütün sahələrini əhatə edir, başqa bir ideologiyanın sızması üçün heç bir işıq yeri buraxmır. Dialektik materializmdə əsas məsələ təfəkkürün (fikriyyatın) materiya ilə qarşılıqlı münasibətidir. Diamata görə materiya primat, təfəkkür isə predikatdır... Bunu Lenin "Materializm və empiriokritisizm" əsərində belə izah edir: "Təfəkkür materiyanın bir funksiyasıdır". Həqiqət isə bunun əksini göstərir. İnsan öz düşüncəsinin qüdrəti ilə təbiəti və iqtisadiyyatı dəyişdirir və onlardan istifadə edir. İctimai həyat keçmiş nəsillərin elmi, mənəvi və iqtisadi müvəffəqiyyətlərinin üzərində qurulur.

Yalnız bu müvəffəqiyyətlərə istinadən insaniyyət irəliləyə bilər. Materiyanın, təfəkkür üzərindəki üstünlüyü haradadır? Bu nəzəriyyəyə görə, təməl istehsal qüvvələri və ona uyğun istehsal münasibətlərindən ibarətdir. Bu təməlin çökməsi ilə üstqurum da yəni, təfəkkür də, elm, fəlsəfə, mənəviyyat, ənənə də çökməlidir. Nə zaman tarixdə belə bir hadisə baş vermişdir? Nəhayət, dialektika haqqında bir neçə söz: Məlumdur ki, ilk olaraq hər şey keçir, hər şey dəyişir" fikrini yunan filosofu Heraklit irəli sürmüş, sonralar bu fikri Hegel inkişaf etdirmişdir. Bolşeviklərin inanclarına görə dialektikanın əsas qanunlarından biri: bir formanın başqa formaya keçməsidir. Hərf-hərf belə deyilir: "Bir forma özünə büsbütün zidd olan başqa forma yaradır".

Əgər cəzalandırıcı Sovet xəncəri komminizmin özünə büsbütün zidd olan hansı bir forma yaradardımı, görəsən? Şübhəsiz ki, bu forma bütün insani hürriyyətləri ehtiva edən kommunizmə daban-dabana zidd olan demokratiya olacaqdır.

«Azərbaycan» jurnalı, Münhen,
1953-cü il aprel, № 11

KOREYADA SOVET TƏCAVÜZÜNÜN MƏĞLUB OLMASI

(Koreya hadisələrinin 2 illiyinə)

Sovet imperialistlərinin bəşəriyyətə qarşı törətdikləri sonsuz qanlı cinayətlər içərisində Koreyadakı təcavüzkarlıq ən ağırıdır.

Kreml Koreyada müharibəyə başlayaraq, çalışırdı ki,müharibə alovunu bütün dünyaya yaysın. Siyasi Büro istəyirdi ki, gələcəkdə bütün Asiyaya müharibə yaymaq məqsədilə Yaponiyaya hücum etmək üçün Koreya hadisələrindən istifadə etsin. Eyni zamanda sovetlər öz süni peyklərindən istifadə edərək, Avropada qızğın müharibəyə hazırlıq görürlər, Şərqi Almaniyada yüksək çalışqanlıqla öz silahlı qüvvələrini bərpa edirlər, azad dünyaya hücum etmək üçün bütün kommunist qüvvələri səfərbər edirlər.

Sovet imperialistləri başladıqları dağıdıcı müharibəyə uzun müddət ərzində hazırlaşmışdılar. 1945-ci ildən Siyasi Büro bütün enerjisini Koreyanı işğal etməyə və əhalisini əsas qüvvə qismində, ərazisini isə Uzaq Şərqdə müharibə etmək üçün istifadəyə yönəltmişdir. Bu məqsədlə sovetlər Şimali Koreyada qəddar sovet rejimi təsis etdilər. Şimali Koreya qoşununu silahlandırdılar, təlim verdilər və 1950-ci ilin 25 iyununda Cənubi Koreyaya qarşı müharibəyə başladılar.Sovet təcavüzkarları Cənubi Koreyaya hücuma hazırlaşarkən hesab edirdilər ki,bu hadisələr Şimali koreyalıların əli ilə asanlıqla həyata keçəcək və onlar üçün cəzasız olacaq.

Lakin sovet imperialistləri Koreyada planlarını həyata keçirə bilmədilər.Kreml xalqa qarşı qardaş müharibəsinə başlayaraq, çalışırdı və çalışır ki, maxinasiya vasitəsilə öz imperialist üzünü gizlətsin. O, bildirirdi ki, bu hadisələrdə guya Şimali Koreyaya hücum edən Cənubi Koreya günahkardı. Bu faktların

kobud və həyasızcasına saxtalaşdırılması, dünyəvi ictimai fikri çaşqınlığa salmaq və Koreyadakı müharibəni xəstə başdan sağlam başın üstünə atmaq məqsədi daşıyırdı. BMT-də ABŞ-ın nümayəndəsi Vorren Ostin sovetlərin siyasətini belə xarakterizə edirdi: «Sxem çox sadədir: Hər hansı bir ölkədə kommunist üsyanı təşkil etmək, sonra öz diviziyasını təcavüzkarlara köməyə göndərmək və onları «könüllü» adlandırmaq, sonra isə hücumun qurbanlarına yönəlmiş beynəlxalq köməyə qarşı çıxmaq». Burada Stalinin «Hərbi doktrinası»nın qısa və dəqiq xarakteristikası verilib: Onun mahiyyəti əsas düşmənə qarşı zərbə əvəzinə, əsas zərbəni bir sıra dağınıq, guya bir-biri ilə əlaqəsi olmayan hərəkatlara qarşı zərbələrlə əvəz etdirməkdir: Koreya, Tibet, Hindistan-Çin. Bu zaman bütün bu aksiyalar yerli əllər tərəfindən aparılır, Siyasi büro isə kölgədə qalır və «alçaldırılmışların» və «təhqir olunmuşların»himayədarı rolunda çıxış edir. Qələbə zamanı şan-şöhrət Stalinin idi,məğlub olanda isə eybi yoxdur! Onsuz da sovet qoşunu döyüşmürdü ki, koreyalıların, tibetlilərin və s. qanı tökülürdü, evləri məhv olurdu.

Sovet imperialistləri Koreyadakı bu təcavüzkar müharibəyə uzun müddət və səylə hazırlaşırdılar. Onlara elə gəlirdi ki, hər şey kiçik detallarına qədər nəzərə alınıb, hesablanıb və öz uğurlarına az da olsa şübhə etmirdilər. Lakin Kreml ən əsasını nəzərə almamışdı ki, qanlı düşüncələri onları əvvəlcədən qaçılmaz məğlubiyyətə aparır. O, nəzərə almamışdı ki, yalnız Cənubi Koreyanın qoşunları ilə yox, həmçinin bütün demokratik dünyanın əsgərləri ilə vuruşmalıdır. O,nəzərə almamışdı ki, sovet təcavüzkarlığı bütün xalqların ciddi etirazına gətirib çıxardacaq. Məhz buna görə də, Koreyadakı müharibə ilk günlərindən sovetlərin gözləmədiyi tamamilə başqa bir şəkil aldı. Sovetlərin hesab etdikləri qələbə əvəzinə, bir-birinin ardınca məğlubiyyətə uğradılar. Sovetlərin Koreyadakı macərası azad xalqların qəzəbini son həddə çatdırdı

və sovet imperialis təcavüzkarlarına qarşı nifrət yaratdı. Çünki bütün xalqlar kimi Koreya xalqının da hüququ var ki, öz həyatını sərbəst qursun və sovetlərin müdaxiləsi olmadan azadlığın hər hansı bir xeyirindən istifadə etsin.

Sovetlərin Koreyadakı təcavüzkarlığının ilk günündən etibarən ABŞ-ın və Şimali Atlantikanın müdafiə paktına daxil olan bütün ölkələrin hərbi gücü sürətlə yüksəldi. Sovet imperialistlərinin yeni dünya müharibəsinə açıq-aşkar hazırlığı azad ölkələri daha da bir-birinə bağlayır, yaxınlaşdırır, digər tərəfdən isə bütün əzab-əziyyətlər bizim xalqın üzərinə düşür, onların yoxsulluğunu və əzabını artırır, çünki sovet hərbi istehsalının artması onsuz da sənayenin az sayda olan sahələrinin hesabına baş verir. Siyasi büro Leninin «zəncirdəki əsas nöqtə» nəzəriyyəsindən çıxış edərək əsas hərbi meydan qismində Asiyada Çini, Avropada isə Almaniyanı təyin edir. Bu məqsədlə sovetlər səylə Şərqi Almaniyanın silahlı qüvvələrini bərpa edirlər, Çinin hərbi sənayesini inkişaf etdirirlər ki, 3-cü yeni müharibə azad dünyanı məhv etməli və Siyasi Büronun hökmranlığını təsis etməlidir.

Lakin bu avantürist fikirlər sovetləri uçuruma apardı. Sovet imperializminin rəhbərləri öz düşərgələri ilə demokratik düşərgə arasında real gücün fərqini nəzərə almadan III dünya müharibəsini başlamağı və dünyəvi hökmranlığı əldə etməyi planlaşdırırdılar. Stalinin dünyadakı hökmranlıq planları Hitlerin planlarına nisbətən daha köksüz, zəif idi. Dünya tarixində ilk dəfə olaraq, vahid azad dünya uğrunda hərəkətin tam da olmasa təşkili müasir dövrün ən möhtəşəm hadisələrindən sayılır. Bu ondan xəbər verir ki, azad dünya iki sistemin eyni zamanda olmasına inanmır və Kreml tərəfindən əsarətə alınmış xalqların azad etməsini özünün əsas işi hesab edir. Azad xalqların müasir mücadiləsinin əsas xüsusiyyəti ondan ibarət idi ki, o bütün ölkələrdə yalnız bu ölkələrin daxilində kommunizmə qarşı yox, həmçinin yeni müharibənin

və beynəlxalq Çekistin təşkilatçısı olan dünyanın bütün xalqlarının azadlığına və milli müstəqilliyinə qarşı çıxan Sovet imperializminə qarşı yönəlmişdir.

Vahid azad dünya uğrundakı hərəkatın artması nəinki, Sovet imperialist düşərgəsinin qəzəbinə gətirib çıxarırdı, həmçinin bu onları qorxudurdu.ABŞ-ın rəhbərlik etdiyi vahid azad dünya uğrundakı hərəkat və Alan Kerkin rəhbərlik etdiyi Amerika Komitəsi bu hərəkatın özəyi kimi öz müstəqilliyi və azadlığı uğrunda mübarizə aparan sovetlərin təsiri altında olan xalqların qələbəyə inamını gücləndirirdi.

Demokratik gücün möhkəmliyinin zəmanətçisi azad xalqların Kreml diktatorluğunun tabeliyində olan xalqlarla sıx əlaqədə olması idi. Hər hansısa bir şübhə ola bilərmi ki, əgər sovet imperialistləri III Dünya müharibəsinə başlasalar, onda bu ittifaq axırıncı imperializmə–sovet imperializminə son qoyacaq! Qanlı Sovet imperializmi tarixin dəhşətlərini unudaraq,öz təcavüzkarlıqları və amansızlıqları ilə Hitler imperializmini üstələdilər və Hitler imperializminin getdiyi və sona çatdığı abırsız yol ilə sonluğa doğru addımlayır.

«Azərbaycan» jurnalı, Münhen,
1952-ci il iyul, № 3

KOMMUNİZM XALQLARIN HƏYATINI TƏMİN ETMƏK İQTİDARINDADIRMI?

(Azərbaycan Milli Birlik Məclisinin ilk sessiyasında söylənilmiş nitqlər. Son)

Eyni ilə elə bir vəziyyət yaranmışdır ki, alimlər, rəssamlar, yazıçılar dialektik materializimsiz bir addım belə ata bilmirdilər. Bu vəziyyəti daha aydın SSRİ-nin Milli Akademiyası üzvlərinin «Pravda» qəzetinin 30.12.1936-il tarixli

sayındakı ərizələri xarakterizə edir. Akademiklərin bu məcburi ərizələri bundan bəhs edirdi: «Biz qarşımızda duran məsələni birgə üsulla-Marks-Enqels-Lenin–Stalin üsulu ilə həll edəcəyik». Bu o deməkdir ki, Marks-Enqels-Lenin–Stalin üsulundan istifadə edərək akademiklərdən: Orbeli-itlər üzərində fizioloji təcrübə aparacaq, Şuko, Şusev və Vesnin–binaları lahiyələşdirəcəklər və arxitektura fikirlərini irəli sürəcəklər, akademik-rəssam Qrabar-öz şəkillərini çəkəcək, bəstəkar Şostakoviç–öz simfoniyalarını yazacaq, yazıçı Şoloxov-romanlar yazacaq, Tupolev- təyyarələr düzəldəcək və.s. Və onların hamısı bunları vahid üsulla- dialektik materializm üsulu ilə yaradacaqlar.

Bolşeviklərin SSRİ-nin dahi dostu hesab etdiyi və Moskvada teatral görüş təşkil etdikləri fransız yazıçısı Andre Jid Sovet İttifaqındakı həyatla tanış olduqdan sonra mövcud vəziyyəti belə xarakterizə etdi: «SSRİ-də ən yaxşı əsər əgər ana xəttə uyğun gəlmirsə təqibə məruz qalır... Rəssamdan, yazıçıdan bu xəttə uyğunlaşmaları tələb olunur». «Biz SSRİ-dəki maariflənməyə, mədəniyyətə olan həvəsə heyranıq. Lakin bu gün maariflənmə yalnız əşyaların mövcud qaydası razı salan şeyləri öyrədir... Bu mədəniyyət tamamilə bir tərəfə yönəlib. O yalnız təcrübəvi ruhludur... Orada tənqidi fikirlər yoxdur... Ana xətti tənqid etmirlər... Yalnız bu və ya digər başlanğıcın, bu və ya digər davranışın, bu və ya digər nəzəriyyənin müqəddəs xəttə uyğun olub-olmamasını müzakirə edirlər. Vay o kəsin halına ki, irəli getməyə risk eləsin».

Dahi insanlar-haqqın daşıyıcıları Sovetlərin onları təmtəraqlı qəbul etməsinə baxmayaraq Sovet İttifaqındakı mövcud vəziyyəti başqa cür xarakterizə edə bilməzdi. Təəssüflər olsun ki, bir çox başqa siyasi xadimlər, publisistlər və yazıçılar sovet təriflərinə və təmtəraqlı görüşlərə uyaraq xalqlarımızın əzabları haqqında həqiqəti yazmırdılar.

Dialektik materializm haqqında təsəvvür yaratmaq üçün çox şey deyilib.

Bəs Marks «bütün elmlərin elmi» ni necə yaratdı?

Stalinə görə Marks dialektikanı Hegeldən, materializmi isə Feyerbaxdan götürüb, onları birləşdirdi, sadəcə birləşdirmədi, yenidən tənqidi işlədi və dialektik materializm alındı. Bu «elm» əsasən «diamat» adı ilə məşhurdur. Onun üsullarından istifadə edərək çox fikirləşmədən böyük kəşflər etmək, bütün filosofların mülahizəsini çirkli sabunlu suya çevirmək, lazımı anda marksizmin özündən imtina etmək, sonra yenidən ona qayıtmaq olar və hər dəfə diamat kömək edəcək ki, buna bəraət qazandırasan. Məsələn, lazım gəldikdə Aleksandr Nevskinin qəbri qazılır, onun nəşi məsxərəyə qoyulur, Suvorovun generalsimusu qaniçən çarın yaltaqlığı kimi, Böyük Pyotr isə ticarət kapitalının xidmətçisi kimi təqdim edilir. Sonra isə onların adına ordenlər təsis olunur.

Yaxud, necə olur ki, çar zabitlərinin çılpaq çiyinlərindən rütbəni bıçaqla kəsib atırsan, sonra da özün həmin rütbəni öz çiyininə taxırsan?

Yaxud, kilsə dəyərlərini məsxərəyə qoyursan, kilsəni bağlayırsan, bütün keşişləri güllələyirsən, dinin xalq üçün tiryək olduğunu deyirsən, 25 ildən sonra isə döyüşən Allahsızlar İttifaqını dağıdırsan və rus provaslav dininin ilk sitayiş edəni olursan. Diamat bütün bunlara imkan verir. Onun «elmliliyi» məhz bundadır.

Yuxarıda deyiləndən göründüyü kimi, dialektik materializm universaldır, o insan həyatının bütün sahələrini əhatə edir və başqa ideologiyanın yaranması üçün işıq yolu qoymur. Lakin dialektik materializmdə əsas məsələ ruhun, şüurun və düşüncənin materiya ilə əlaqəsidir. Bu zaman materiya–bazis, ruh, düşüncə isə-üstqurumdur. «Düşüncə təşkil olunmuş materiyanın funksiyasıdır». Məsələn, «varlıq şüuru təyin edir», bazis və üstqurum nəzəriyyəsi kimi digər nəticələr buradan yaranır. Burada bazis iqtisadiyyatdır, qalanları isə düşüncə, siyasət, elm, əxlaq, fəlsəfə üstqurumlardır; bünövrə dağılırsa üstqurum da dağılır.

Dialektik materializm nöqteyi-nəzərindən iqtisadiyyat insan cəmiyyətinin inkişafını hərəkətə gətirir, düşüncə və digər üstqurumlar isə tabeçilik rolu oynayır. Söz yox ki, iqtisadiyyat ictimai inkişafda mühüm rol oynayır, təbiətin gücü kimi onunla hesablaşmamaq olmaz. Lakin insan öz düşüncəsinin, ruhunun gücü ilə məqsədə uyğun olaraq təbiətdən və iqtisadiyyatdan istifadə edir və şəklini dəyişir. İctimai həyat əvvəlki nəsillərin elmi, əxlaqi və iqtisadi nailiyyətləri əsasında təşkil olunur. Yalnız bu nailiyyətlərə əsaslanaraq insan cəmiyyəti inkişaf edə bilər. İqtisadiyyatı və bütün həyatı insan yaradır, qeyd edirəm yaradır, təbiətə, iqtisadiyyata uyğunlaşmırlar. Əks halda insanlar təbiətə uyğunlaşan heyvanlardan az fərqlənərdilər. Materiyanın, iqtisadiyyatın ruh, düşüncə üzərində üstünlüyü nədədir? Bazisi iqtisadiyyat olan və onun dəyişilməsi və ya dağılması ilə üstqurumu dəyişən və ya dağılan bazis və üstqurum nəzəriyyəsinin doğruluğu nədədir? Nə vaxt, harada tarixdə belə hal müşahidə olunub?

İqtisadiyyatın bazis kimi qəbul olunması yalnız dünyəvi proletar inqilabının qanlı sinfi mübarizə məhsulu kimi qaçılmazlığını təsdiq etmək istəyindən irəli gəlir. Bolşeviklər bütün hadisələrə iqtisadiyyat və sinfi mübarizə nöqteyi- nəzərindən baxaraq vahid siyasi və mədəni orqanizm olan, birliklə: adətlər, ənənələr və vətənə ümumi məhəbbətləri ilə möhkəm əlaqədə olan xalqı qəsdən aldadırlar. Dialektik materializm üsulundan istifadə edərək İslamın tarixini necə izah etmək olar? Ola bilərmi ki, İslamın yaranması, onun inkişafı və çiçəklənməsi iqtisadi və ya sinfi amillərdən asılı olsun? Axı Peyğəmbərin bu dahi ideyası bütün tayfa ayrılıqlarına son qoydu, onları birləşdirdi və onu böyük qəhramanlığa sövq etdi. İslam yayılarkən onunla bərabər müsəlmanların siyasi vəziyyəti də dəyişirdi. Belə halda nə bazis ola bilər? İdeya, ruh və ya iqtisadiyyat? İdeya iqtisadiyyatı dəyişdirdi, yoxsa əksinə? Məgər müsəlmanlar müharibə

apararaq yalnız İslamın hər şeyə üstün gələn ideyasını rəhbər tutmurdularmı?

Yaxud başqa misal: məgər 1789-cu il Böyük Fransa inqilabı bütün xalq tərəfindən icra olunmurdumu?

Bu suallara dimat cavab verə bilmir. Elə diamat nöqteyi- nəzərindən milləti, xalqı birlikdə götürmək olmaz, bu «burjuaziya axmaqlığıdır». Xalq siniflərə bölünüb və hər bir sinfə ayrı- ayrılıqda baxılır. Və bu halda diamat deyəcək: «Proletariatın vətəni yoxdur». «Hər bir ixtira üsuluna öz ideya sistemi, öz etikası uyğundur»; «Bizim üçün əxlaq proletariatın mücadilə maraqlarına tabedir». Burada milli ideya, etika, ənənə və əxlaq nəyə lazımdır?

Və nəhayət, dialektika haqqında bir neçə söz. Məlum olduğu kimi, «hər şey axır, hər şey dəyişir» fikrini ilk dəfə yunan filosofu Heraklit söyləmişdir, sonra isə Hegel tərəfindən inkişaf etdirilmişdir. Bolşeviklərin fikrinə görə, dialektikanın əsas qanunlarından biri bir formanın digərinə keçməsidir, hərfi mənada: «Bir forma digərini , tamamilə özünə əks birini yaradır». Maraqlıdır,kommunizm tamamilə özünə əks , «sovet qılıncını cəzalandıran» hansı formanı yaradardı?

NƏTİCƏ

1. Elm sinfi, yəni proletar, burjuaziyalı və ya aristokratik, partiyalı-yəni kommunistik, faşist, sosial-demokratik və ya leyborist ola bilməz. Elmi kəşflər, qanunlar hamı üçün vacibdir və onlardan yalnız həyatla təsdiq edilmişlər qanunauyğundur.

2. Milyonlarla kütləyə yönəlmiş bütün nəzəriyyələr, ideologiyalar, xüsusi ilə də inqilabi nəzəriyyələr həyatla yoxlanılmış elmə və həqiqətə əsaslanmalıdır, çünki elm həyatı öyrənir və bizə sonrakı inkişaf yolunu göstərir.Bu zaman elm həyatın öyrənilməsinə sinfi və ya partiyalı nöqteyi nəzərdən yanaşmır, onu olduğu kimi götürür. Əks halda o elm olmazdı.

3. Kommunistlərin qabaqcadan dediklərinə zidd olaraq, orta siniflər yox olmayıblar, proletarlaşmaq əvəzinə orta təbəqələr fəhlələr və kəndlilərlə dolub. Onlar sənaye, nəqliyyat və

kənd təsərrüfatının bütün sahələrində istehsal prosesinə texniki və inzibati idarə etmə funksiyasını əllərinə alıblar. Fəhlələrin, sənaye müəssələrinin aksiyalarının sahibləri durmadan artır, deməli onların müəssənin gəlirli olmasına şəxsi maraqları da artır. Bu cür hadisə yalnız SSRİ-də, hamının proletar- qul olduğu «sosializmin» qələbə çaldığı ölkədə müşayət olunmur.

4. Kommunizm dünya proletar inqilabı haqqında mülahizədir. Dünya proletar inqilabı ideyasının dağılması kommunizmin tamamilə məhvidir, çünki kommunizm üçün əsas yalnız dünya proletar inqilabıdır. Lakin o demək olar ki, nəzəriyyənin yarandığı gündən bütün əsr boyu baş vermədi, xüsusilə də SSRİ mövcudluğunun axır on illiklərində dünyəvi proletar inqilabı üflənmişdir.

5. Kommunizm nəzəriyyəsi hələ Rusiyadakı inqilaba qədər həyat tərəfindən təkzib edilmişdir. Lenin hakimiyyəti alaraq onu yalnız NEP (Yeni İqtisadi siyasət-N.Y) yolu ilə əldə saxlaya bilmişdi, yəni tamamilə kommunizmdən imtina etmək yolu ilə etmişdi. Dünya proletar inqilabının partlaması baş tutmayanda (çünki avropa xalqlarının yüksək inkişaf etmiş milli hissləri buna yol vermədi, Türkiyədəki milli-azadlıq hərəkatı isə milli inqilabla sona çatdı), Lenin partiyadakı ideoloji ayrılığa son qoymaq və dünya qarşısında sovet hakimiyyətini mövcud olmasının qanuniliyini təsdiq etmək üçün «bir ölkədə sosializmin qurulmasının mümkünlüyü haqqında» nəzəriyyə irəli sürdü.Əlbəttə, NEP kimi bu nəzəriyyənin də kommunizmlə heç bir əlaqəsi yoxdur. Yenə də kommunizmdən uzaqlaşma bolşevikləri hakimiyyətdə saxladı. Nəhayət, 1941-1942-ci illərin müharibə dəhşətindən sonra, milyonlarla qurbanlardan və qan axınlarından sonra Stalin müvəqqəti marksizmin beynəlmiləlçi ideyasından imtina etdi, Kominterni ləğv etdi və ilk «panslavist», «alovlu rus vətənpərvəri», «pravoslav rus kilsəsinin sitayişkarı» oldu, çar rütbələri və vəzifələri tətbiq etdi. Beynəlmiləlçilikdən rus milliyətçiliyinə keçid bolşevik hakimiyyətini qaçılmaz məhvdən xilas etdi. Bütün bunlar kommu-

nizmin nəzəriyyə kimi ölü olduğunu göstərir. Kommunizm-yaradıcı nəzəriyyə yox, dağıdıcı tənqiddir. Kommunizm–həyat üzərində zorakılıqdır.

6. Beləliklə, kommunizmin ilk növbədə çoxsaylı proletariatı olan, yüksək inkişaf etmiş kapitalist sistemli ölkədə qələbə çalması doğru çıxmadı. Aydın oldu ki, kommunizm ölkənin yüksək inkişaf etmiş sənayesi və mədəniyyətinin olmasından və yaxud əksinə, aqrar, köhnə istehsal üsüllu olmasından asılı olmayaraq xalqın milli dəyərlərini itirdiyi bir ölkədə qələbə çala bilər. Kommunizmin məhz Rusiyada qələbə çalması bununla izah olunur. Çünki bolşeviklər rusların milli iftixarlarını zəiflədə və hakimiyyəti ələ ala bildilər. Digər bir tərəfdən isə, kommunizmin digər ölkələrdə məğlub olmasını elə bununla da izah etmək olar, yəni –dünyanın elə bir yeri yoxdur ki, orada xalqın tamamilə öz milli iftixarını itirdiyi ölkəyə rast gələsən. Deməli, «sosializmə» qələbə çalmış ölkələrin güclü silahlı müdaxiləsi olmadan heç bir ölkədə kommunist inqilabı gözləməyə dəyməz. Lenin özü də bunu yaxşı bilirdi və anlayırdı və o bildirmişdir ki, «vaxt gələcək biz o qədər möhkəmlənəcəyik ki, digər ölkələrin qardaş-proletariatlarına silahlı kömək göstərəcəyik».Və Stalin Leninin məzarına bu vəsiyyəti yerinə yetirəcəyinə, yəni rus hücumları, rus qanı, rus vasitələri ilə kommunizmi digər ölkələrdə həyata keçirəcəyinə and içmişdir.

7. Necə ki, «esperanto» beynəlmiləl dil ola bilməz, eləcə də kommunizm dünyanın dövlət sistemi ola bilməz. Lakin kommunizm insanlarda dəyişilməz, dağıdıcı və soyğunçu instinktlər yaradaraq, hər vaxt və hər yerdə sinfi mübarizəni və vətəndaş müharibəsini həyata keçirərək, bəşəriyyətə çoxlu əzablar, çoxlu acılar gətirib və gətirəcək.

«Azərbaycan» jurnalı, Münhen,
1952-ci il avqust, № 4

SSRİ-YƏ QARŞI PSİXOLOJİ MÜHARİBƏ
(Fraqmentlər)
SİYASƏTİN TƏYİNİ VƏ İDEYANIN QƏBULU

Məsələnin tədqiqi zamanı SSRİ-dəki müasir vəziyyət öyrənilmişdir, rusların və qeyri-rusların bir-birinə əks olan, həmçinin Qərb xadimlərinin ziddiyətli görüşləri göstərilmişdir. Bu SSRİ-yə qarşı psixoloji müharibənin istiqamətini və vəzifəsini təyin etmək üçün çox vacibdir. Yuxarıda deyilən hər bir şeyi nəzərə alaraq biz SSRİ-i xalqlarına olan siyasətimizi aydın şəkildə müəyyən etməliyik və bununla əlaqədar psixoloji müharibənin istiqamətini seçməliyik. Çox çətin və mürəkkəb məsələdir.

Əgər rusların mövqeyində dayansaq, onda qeyri-rus xalqlarının hissləri təhqir edilmiş olacaq və bu onları Qərbdən uzaqlaşdırar, yox əgər qeyri-rusların mövqeyində dursaq, onda gərək ruslara məhəl qoymayaq.

Əsas bacarıq həm rusların, həm də qeyri-rusların hamısını Siyasi bürodan ayırmaq və bizim tərəfə çəkməkdir.

Bu prinsipi qəbul edərək biz çətin və mürəkkəb yola addım atırıq, buna görə də bizim siyasət SSRİ- də olan millətçilərin tam bərabərliyini və onların kommunist totalitarizminə qarşı mübarizədəki maraqlarının ümumiliyini əks etdirməlidir.

Biz burada bilavasitə ideya məsələsinə yaxınlaşırıq. Ruhlandıran və yalnız rus və qeri-ruslar üçün yox, həmçinin azad ölkələr üçün məqbul olan ideyaya.

Biz yuxarıda **Vahid Azad Dünya** ideyasının kommunist internasionalizminin əsasını necə titrətdiyini gördük. Stalin bu ideyanın özündə gizlətdiyi Siyasi büronun öldürücü təhlükəsini qiymətləndirdi. Çünki, Stalin bilirdi ki, Vahid Azad Dünya ideyasına dünyəvi kommunist inqilabının donmuş və sınmış

ideyasını qarşı qoymaq çətindir. Beləliklə, Vahid Azad Dünya ideyası bizim dövrün hökmüdür.

Bu ideyanı Siyasi büro kosmopolitizm adlandırdı və ona müharibə elan etdi.

Sovet jurnalı «Voprosı istoriya»dan (№3, 1949) olan aşağıdakı sitatlar Siyasi büronun Vahid Azad Dünya ideyası qarşısındakı qorxusunu aydın göstərir:

«Burjuaziyalı kosmopolitizm dünyavi hökmranlığa iddia edən ingilis-amerikan imperializminin ideoloji silahıdır... Kosmopolitizm xalqın milli özünüdərkini sarsıdan vasitədir...Kosmopolitizm sovet xalqını sovet patriotizmi ruhunda tərbiyələndirmə işində maneçilik törədir.»

Beləliklə, biz Kremlin bünövrəsi olan sovet patriatizminin Vahid Azad Dünya ideyası qarşısında necə titrədiyini görürük.

Beləliklə, biz Vahid Azad Dünya ideyasını qəbul edirik. İndi isə biz bu Vahid Azad Dünyanı hansı prinsip üzərində qurmağa hazırlaşdığımıza baxacağıq.

Birinci Dünya müharibəsinin sonlarından biz aşağıdakı dünya əhəmiyyətli sənədlərə malikik: prezident Vilsonun 14 maddəsi, Atlantik Xartiyası və BMT-nin Xartiyası. Prinsipin müəyyən edilməsi və qəbulu üçün Atlantik Xartiyasında qısa dayanmaq kifayətdir.Burada deyilir:

«Onlar(ABŞ-ın prezidenti və baş nazir Çörçil) bütün xalqların yaşamaq istədikləri idarə formasını seçmək hüququnu qəbul edirlər; suveren hüquqlarını və özunüidarəni zorla itirmiş xalqlarda bunları bərpa etmək istəyirlər.»

Çörçilin layihəsindəki ikinci hissə bundan bəhs edirdi: «Onlar fikir və söz azadlığına kömək etməyi düşünürlər, bunların belə seçimi (idarə forması) aldadıcı olmalıdır». O vaxt Stalinin xeyrinə ikinci hissə qəbul olunmamışdı. Ona görə də, Atlantik Xartiyası xalqların müstəqillik hüququnu tanıyaraq, onları şəxsən totalitarizmdən qorumurdu.

Ona görə də, Vahid Azad Dünya sözsüz ki, prezident Abram Linkolnun prinsipi üzərində qurulmalıdır. Onun üzərində

ki,orada prezident Vilsonun 14 maddəsi, Atlantik Xartiyası və BMT-nin Xartiyası qurulub. Bu cür dunya uğrunda eyni məhəbbətlə bütün xalqlar mübarizə aparacaq. Abram Linkolnun bütün kiçik və böyük xalqların azadlığını, müstəqilliyini, namusunu təmin edən «The government of the people, by the people, for the people» prinsipindən ali, ədalətli, humanist heç nə ola bilməz.

Abram Linkolnun prinsipinin dərinliyi azad olmuş xalqların azad demokratik quruluşa malik olacaqlarından ibarətdir, yəni xalq hakimiyyətidir, hakimiyyət xalq üçündür və xalq tərəfindədir,diktatura tərəfində deyil. Bu prinsip eyni zamanda bütün xalqları öz mümkün olan diktatorlarından da qoruyur.

Əmin olmaq olar ki, prezident Abram Linkolnun prinsipi üzərində qurulmuş yalnız Vahid Azad Dünya ideyası həm rusları, həm də qeyri-rusları qane etmək və onları Sovetlərdən ayırmaq iqtidarındadır. Biz həm ruslara, həm də qeyri-ruslara dünyanın azad xalqları ailəsində bərabər hüquqlu və nüfuzlu yer söz verəcəyik, onlara sülh vəd edəcəyik (unutmaq lazım deyil ki, SSRİ-də hər bir kolxozçu və hər bir fəhlə psixoloji cəhətdən elə hazırlanıb ki, həmişə dünya miqyasında fikirləşir).

Ona görə də, Qərbə özünü ixtiralarla yormağa gərək yoxdur, bu yüksək ideyaya və bu müqəddəs prinsipə riayət etmək lazımdır.

Əgər bu ideya və prinsip bütün azad xalqları qane edirsə, onda nəyə görə onlar ruslar, ukraynalılar, azərbaycanlılar və.s üçün qəbul edilməzdir?

Axı aydındır ki, xalqların azad olması uğrunda mücadilə Vahid Azad Dünya uğrunda mübarizədən başqa bir şey deyil.

Ona görə də bu müharibəni vahid bölünməz və ya federativ Rusiya uğrunda mübarizə ilə birləşdirmək və eləcə də rus xalqına qarşı yönəltmək olmaz.Hər ikisi böyük səhv və Stalinə kömək olardı.

Beləliklə, bizim qanlı «MSSRİ» ideyasına qarşı Vahid Azad Dünya ideyası, millətin ayrılıb özünütəyinetmə məşhur bolşevik prinsipinə qarşı isə Abram Linkolnun «The government of the people, by the people, for the people» prinsipi varımızdır. Bu ideyalar ideologiya müharibəsində üstünlüyümüzü təmin edəcək və birdəfəlik qələbəyə gətirəcək.

TÜRKİYƏ HAQQINDA

Qafqaz məsələsi ilə əlaqədər istiəyirəm qısa olaraq Türkiyə üzərində dayanım.

Yuxarıda qeyd edildiyi kimi, Türkiyə milli inqilabın qələbəsi ilə birdəfəlik və möhkəm şəkildə milli dirçəliş yoluna addım atdı və tamamilə hər hansısa bir imperialist məqsədlərdən imtina edərək öz xalqının bütün fikrini yaradıcı işdə cəmləşdirdi. Ən kiçik yaşlarından hər bir türkdə Vətənə məhəbbət və qonşulara, bütün digər xalqlara hörmət yaradırlar.

Türkiyə həmişə qonşu və ondan aralaşmış ölkələrə dost münasibətində olub. Türkiyənin Yunanıstanla münasibəti diqqətəlayiqdir. Lakin Türkiyənin səmimiliyi nəticəsində yunanların bütün şübhələri və gümanları aradan qaldırıldı. Türkiyənin bütün fəlakətlərdə Yunanıstana dəstək olması bütün mümkün olan yardımın göstərilməsi bu ölkələr arasında möhkəm dostluq yaratdı.

Türkiyə İkinci Dünya müharibəsi zamanı Qərbin tərəfində olaraq demokratiyaya əvəzsiz xidmətlər göstərdi. Əgər Türkiyə Kremlin təklifini qəbul etsəydi və Stalin –Hitler ittifaqına daxil olsaydı,onda İkinci Dünya müharibəsinin ümumi gedişinin necə olacağını anlamaq üçün xəritəyə baxmaq kifayətdir. Bunun əhəmiyyəti ən çox Çörçil tərəfindən yüksək qiymətləndirilmişdir və icmalar palatasına Türkiyə ilə İngiltərə arasında ittifaq paktının bağlanılması haqqında sevinclə məruzə etmişdir. Sonralar İkinci Dünya müharibəsi qurtardıqdan sonra hamı tərəfindən tərk edilmiş Türkiyə SSRİ-nin təzyiqinə qarşı tək dayandı.

SSRİ hücum etdiyi halda axıra qədər tək vuruşacağını bildiyi halda, Türkiyə SSRİ-nin bütün alçaq tələblərindən imtina etdi, Çətin ki, hər hansı bir başqa ölkə bu təzyiqə tab gətirə bilərdi. Əgər o vaxt Türkiyə Kremlə güzəştə getsəydi, Azad Dünya Kremlin əlində necə oyuncaq olardı?

Türk xalqı həmişə qan tökməyə nifrət edib. Sultanlıqdan respublikaya, bir partiyalı sistemdən tam demokratiyaya keçid kimi böyük inqilabları o qan tökmədən həyata keçirdi. Lakin təəssüflər ki, Koreyada türk oğulları indi bəşəriyyət naminə öz qanlarını verirlər.

Türkiyə kommunizmə qarşı azad bəşəriyyətin ən zəif yerində əlçatmaz qaladır. Bundan sonra Türkiyənin hansısa bir ölkə üçün təhlükəli olduğunu demək avamlıq olardı.

Heç bir şübhə ola bilməz ki, Türkiyə azad bəşəriyyətin ilk cərgələrində bolşevizm tərəfindən zülmə məruz qalan xalqların, ilk növbədə isə Qafqaz xalqlarının: Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ermənistanın müstəqilliyini və azadlığını qarşılayacaq.

Hər bir demokratın borcu bu həqiqətləri qəbul etməkdir. Erməni və gürcü antibolşeviklərinin borcu bu həqiqətləri qəbul etmək, radio və digər vasitələrlə sistemli şəkildə öz xalqlarına çatdırmaqdır ki, Siyasi Büronun onlarda yaratdığı şübhə və nifrəti aradan qaldırsın.

Bu mütləq Qafqaz xalqları arasındakı dostluq marağında, onların arasındakı toqquşmalara son qoymaq marağında, erməni və gürcüləri tamamilə Siyasi Bürodan ayırmaq marağında vacibdir.

Bu həqiqətlər həmçinin rus demokratları, antibolşevikləri tərəfindən də qəbul olunmalıdır və rus xalqına çatdırılmalıdır. Rus demokratları Stalinin Türkiyəyə qarşı yönəlmiş işğalçı siyasətini rus xalqının maraqlarına cavab verməyən siyasət kimi ittiham etməlidir.

Axı vranqelçilər deyirdilər: «Biz ruslar həmişə türklərə qarşı vuruşurduq, Türkiyəyə düşəndə isə gördük ki, onlar ən yaxşı xalqdırlar». Həqiqətən, Türkiyədə ruslara qarşı nifrət oyatmırlar.

Təəssüflər olsun ki, bir çox rus təşkilatları qeyri-türk-müsəlman xalqlarını panislamizmlə, pantürkizmlə qorxudurlar. Bütün bunlar onları hazırladıqları Rusiya Federasiyasında saxlamaq niyyəti ilə edilir. Siyasi büro isə bu anlayışlardan türk-müsəlmanları ilə hesab aparmaq məqsədi ilə istifadə edir.

Məsələn, AKP(b)MK-nın katibi Bağırov Azərbaycan alimi Hüseynovun «XIX əsrdə Azərbaycanda sosial və fəlsəfi fikir tarixindən» kitabını pərən-pərən edərək deyirdi: «Hüseynovun kitabı marksist üsulu istifadə edilmədən yazılıb; o Azərbaycanın sosial inkişafını işıqlandırarkən böyük siyasi və nəzəri səhvlərə yol verib. Hüseynov öz kitabında müridizm haqqında yanlış fikirlər söyləyir. O müridizmi mütərəqqi- milli-azadlıq hərəkatı kimi xarakterizə edərək burjuaziyanın obyektiv alimlərində, panislamistlərdə, pantürkistlərdə və sovet xalqının digər düşmənlərində «qaçaqçı» fikirlər yaradır».

Sovetlərin insanları məhv etmə təcrübəsini bilərək, təssəvvür etmək çətin deyil ki, Kremlin nökəri olan Bağırovun çıxışından sonra nə qədər alim «panislamist», «pantürkist» möhürü altında əziyyətə məruz qalacaq.

Bizim çoxdan tarixə dönmüş bu anlayışlara mənfi münasibətimiz yuxarıda göstərilmiş proqram nitqimizdən görünür. Lakin mən əminliklə bir daha qeyd etməliyəm ki, panislamizmin utopik ideyası müsəlman aləmində işləmir. Müsəlman ölkələrində olaraq mən hələ bir dəfə də olsun panislamist ideya ilə məşğul olan müsəlman xadimi görmədim. Həmçinin sağlam düşüncəli elə bir türk tapmaq olmaz ki, panislamizm kimi qeyri real ideyanın tərəfdarı olsun. Panturanizmə gəldikdə isə, dünya əhalisinin 1/3-dən ibarət olan **turan dövləti** yaratmaq məqsədini qarşısına qoymuş **manyakı** belə təsəvvür etmək çətindir.

Çoxdan inkar edilmiş və köhnəlmiş bu ideyalardan bizim düşmənlərimiz, ilk növbə də Siyasi Büro türkləri yox etmək üçün istifadə edir.

Beləliklə, Qafqaz xalqlarına psixoloji təsir vahid Qafqaz ideyası altında edilməlidir. Bundən ötrü İkinci Dünya müharibəsi zamanı qafqazlıları öz tərəfimizə çəkmək və qafqaz dostluğunu möhkəmləndirmək üçün müdafiə etdiyimiz proqram nitqindəki nizamnamələrdən istifadə etməliyik.

Erməni və gürcü antibolşeviklərinin özəl işi Türkiyə haqqında həqiqətləri öz Vətənlərində həmyerlilərinə çatdırmaqdır. Mən qeyd edirəm, bu Qafqaz xalqlarının qələbəsində əsas və həlledicidir.

Azərbaycan və Şimali-Qafqaz antibolşeviklərinin özəl işi isə bizə yaxılan «ləkələri» ifşa etməkdir. Əsas işimiz səmimi və alovlu məqsədimizi Qafqaz xalqlarına çatdırmaq, vahid Qafqaz yaratmaq və Qafqazı bütün Türk Dünyası ilə dostluq əlaqəsi ilə birləşdirən körpü rolunu oynamaqdır.

Həmişə olduğu kimi indi də Azərbaycan Milli Birlik Məclisi bizim mücahidlər qarşısına aşağıdakı vəzifələri qoyur:

1. Bizim Vahid Qafqaz ideyasını xalqımıza çatdırmaq və bununla da Qafqaz xalqları arasında, ilk növbədə isə Azəri türklərlə ermənilər arasında mümkün olan ədavətə son qoymaq. Bununla onları silahlı mübarizə zamanı birgə, dostcasına Qərb tərəfə keçməyə hazırlamaq;

2. Ruslara çatdırmaq ki, biz köhnə narazılıqlar üzərində rus xalqı ilə münasibətimizi qurmağa hazırlaşmırıq.Mümkün olan qarşılıqlı ədavəti aradan qaldırmaq və onların müharibə zamanı birgə keçidini təmin etmək;

VAHİD AZAD DÜNYA UĞRUNDA

1. Biz qarşımıza rus və qeyri-rusları Kremldən almaq kimi çətin məsələ qoyaraq bilməliyik ki, beş rus təşkilatının Ştutqart qətnaməsi kimi vədlərlə rus xalqını Qərb tərəfə çəkmək olmaz, əksinə daha çox uzaqlaşdırar.Rus xalqını seçim qarşısında qoymaq lazımdır: ya bütün xalqlarla birgə Vahid Azad Dünya uğrunda, yəni insan həyatı, ya da bütün xalqlara qarşı, yəni şərəfsiz ölüm. Əgər rus demokratlarının buna ixtiyarı çatsa, rus xalqı bizi başa düşəcək.

2. SSRİ-yə müvəfəqqiyətli psixoloji hücum etmək üçün, bizim kommunizmə qarşı bütün müşahidələrimizin uğurla keçməsi üçün biz gərək Stalinin iki sistemin mövcud olması haqqındakı dağıdıcı tezisini ifşa və məhv etməliyik. Vahid Azad Dünya uğrunda hərəkatın fəaliyyəti nəticəsində azad ölkələr bilməlidirlər ki, öz xoşbəxtliyini bolşevizmi **lokallaşdırma** yolu ilə sovet ölkələrinin bədbəxtliyi üzərində qurmaq olmaz. SSRİ-nin daim hücum etmə qorxusu hər bir insanın sabahkı günə inamını itirərək həyatını zəhər etdi və edəcək, bundan dəhşətli isə heç nə yoxdur. Bəli, demokratiyanın qeyri qanuni şəkildə despotizmlə birgə mövcud olduğu vaxtda yaxşı həyatı heç gözləməyə dəyməz, çünki, bu birgə yaşayışdan qeyri-qanuni dünya doğulmuşdur ki, burada insanın istehsal etdiyinin 90% hər iki tərəfdən həyatı yox, «dünyanı saxlamaq» üçün istifadə olunur. Deməli, iki sistemin «asudə mövcud olması» bəşəriyyətə əzablar verir və verəcək.

İki dünyanın birgə mövcud olması iqtisadi cəhətdən mümkün deyil. Axı bütün dünya yer kürəsinin 1/6 hissəsinin dünyəvi icmadan çıxarıldığına görə iqtisadi böhranın məngənəsində boğulurdu, bəs indi ¼ hissənin Dəmir pərdə arxasında qaldığı bir vaxtda nə olacaq? İqtisadi qəzanın qaçılmazlığını bilmək üçün heç iqtisadçı olmaq lazım deyil!

Doğrudur, indi hələ böhran yoxdur və Amerika hələlik nəfəs alır; Avropanın vəziyyəti isə yaxşılaşıb.Lakin bu Marşalın planı ilə hazırlanmış müvəqqəti və süni firavanlıqdır.Amerika böhrandan yalnız ona görə azaddır ki, o Krem ilə silahlanmalı və Avropanı silahlandırmalıdır. Bəs sonra necə olacaq, əgər Avropanın indi öz sənaye mallarını satmaq üçün bazara ehtiyacı varsa? Bunların hamısını hara aparmaq olar ki, sənaye istehsalını davam etdirəsən və insanlara iş verəsən?

Qərbdə xeyli insan ümüd edir ki, əgər Kreml müharibəyə başlamassa, onda o xarici ticarət üçün qapı açacaq və iki dünyanın mövcudluğu iqtisadi cəhətdən mümkün olacaq. Lakin Siyasi büro yaxşı bilir ki, bütün geniş əlaqələr, xüsusilə də azad dünya ilə iqtisadi əlaqə sovet quruluşunun dağılmasına gətirib çıxardacaq və beləliklə də Siyasi büro ÜKP(b) ilə birgə məhv olacaq. Başa düşmək lazımdır ki, Siyasi büro heç vaxt intihar etməyəcək.

Əgər Kreml həqiqətən müvəqqəti fasiləyə qərar versə, o qapını yalnız Çin də daxil olmaqla SSRİ-nin hərbi gücünü artırmaq məqsədi ilə vəsaitlər gətirmək üçün açacaq.

Bu halda Qərb sevincdən özünü itirəcək və bunu böyük qələbə hesab edəcək.

Bütün Qərb ölkələri öz aralarında rəqabət apararaq SSRİ-yə daha çox fabrik-zavod təchizatlarını daşımağa tələsəcəklər. Çünki asan qazancın nə namusu, nə əxlaqı, nə vətəni, nə patriot və humanitar hissləri, nə də gələcək nəslin həyatına qayğısı olar, bir sözlə onun gəliri qamarlamaq hərisliyindən, Qərbin gözünü dumanlamaqdan başqa müqəddəs heç nəyi yoxdur. Lakin vaxt gəlib çatanda hətta azacıq açılmış qapılar bağlanacaq və Qərbin bütün kapitalı əvəzsiz orda qalacaq, bir az sonra isə azad dünyanı dağıtmağa başlayacaqlar.

Heç bir iqtisadi tədbirlər kömək edə bilməyəcək və azad dünya SSRİ-nin hücumu təhlükəsi qarşısında lərzəyə gələrək

işsizlik, iqtisadi böhran və bitməyən etirazlar məngənəsində boğulacaq ki, bu da qaçılmaz bədbəxtliyə aparacaq.

Əgər Adam Smiti və David Rikardonu diriltsən onlar deyəcəklər: dünyanı iqtisadi böhrandan qurtarmaq üçün , azad və sovet xalqlarının ümumi səyi ilə **Dəmir pərdəni** qaldırmaq lazımdır.

3. Biz bütün azad dünyanı inandırmaq istəyirik ki, neçə ki, o bizim xalqların taleyinə laqeyd yanaşacaq, SSRİ-nin daxildən dağılmasını gözləmək ümüdsizdir, çünki SSRİ-də heç bir partiya, gizli təşkilat yoxdur və ola bilməz, çünki orada iki insan, hətta iki qardaş fikir mübadiləsi apara bilməzlər. SSRİ-nin daxildən dağılmasının qeyri-mümkünlüyü 1941-1942-ci il hadisələri ilə təsdiq olunub, o vaxt Almaniyanın zərbələri hakimiyyətin yalan üzərində dayandığını ifşa etdi. Bolşevizmin gücü haqqındakı bütün yalanlar partladı; cəbhələr məhv edildi; hər şey və hamı dəhşətlə Şərqə doğru hərəkət edirdi. Hakimiyyət dairələrində çaşqınlıq yaranmışdı. Hətta belə vəziyyətdə sovetlərin arxasında heç bir çaxnaşma və ya kiçik bir coşğunluq yox idi. Bəs onda niyə indi hər hansısa bir coşğunluğu gözləyəsən? Bəzi mühacir dairələrin SSRİ-də güclü gizli təşkilatlarının olması və bir neçə yüz milyonlarla dollara onların bolşevizmi dağıda bilməsi haqqındakı hər cür danışıqlarına pul almağa çalışan ac mühacirlərin fırıldaqçılığı kimi baxmaq lazımdır. Lakin onlar Kremllə yanaşı azad dünyanı da arxayın etməklə zərər verirlər.

Stalinin ölümündən sonra inqilabın başlamasını və ya bolşevizmin dağılmasını düşünmək də ağılsızlıqdır. Lloyd Corc bolşevizmə həyat verərək onun tamamilə dəyişməsinə ümüd edirdi. Onda Lloyd Corcun bu cürə fikirləşməsinə əsas var idi, çünki bolşevizm zəif idi və Rusiyada bolşeviklərin sayı 200 000 adamdan çox deyildi, digər ölkələr isə kommunizm xəstəliyinə tutulmamışdı. İndi isə bolşevizmin 34 illik hökümranlığından

sonra SSRİ-nin Yer kürəsinin ¼ hissəsinə hökümranlıq etdiyi, Kremlin ilk çağırışından qanlarını tökməyə hazır olan həmvətənlilərin mövcudluğu və bütün ölkələrdə güclü Kommunist partiyanın olduğu bir vaxtda nəyə görə bolşevizm dağılmalı və ya tamamilə dəyişməlidir?

Leninin vəfatından sonra partiyanın daxilində müxalifət yarandı, çünki Leninin Stalindən xeyli yüksəkdə duran silahdaşları sağ idilər, indi isə bir insanın hökmranlığına öyrəşmiş Siyasi büro və MK mövcuddur. Stalinin vəfatından sonra hakimiyyət onun varisinə keçəcək və bu halda hətta kiçik müxalifəti gözləməyə dəyməz.

Stalini əvəz etmiş insan heç vaxt xalqın tərəddüd işində bu qədər Siyasi büroya xidmət göstərmiş kommunizmdən imtina etməyəcək. Axı Torezanı, Tolyattini düşmənin arxasında gizlənmiş kommunist partiyaları ilə saxlamaq. üç-dörd artıq sovet diviziyasını saxlamaqdan xeyli ucuzdur. Bolşevik rəhbərləri də yaxşı bilirlər ki, totalitarizmdən kiçik bir uzaqlaşma onların öz məğlubiyyəti ilə qurtaracaq.

Qətiyyətlə etiraf etmək lazımdır ki, sovet əsarətindəki xalqların rejimdən narazılığı sərhədsizdir. Bu narazılıq 30 ilə yaxındır davam edir və heç cür inqilaba çevrilmir.

Bu narazılıq yalnız sovet əsarətində olan xalqların Azad Dünyanın iki dünyanın birgə mövcudluğuna inanmadığını bildiyi halda inqilabi vəziyyətə çevrilər, deməli Azad Dünya sovet əsarətində olan xalqların qul vəziyyəti ilə barışmır. Buradan Azad Dünya ideyaya malikdir və onu həyata keçirmək üçün mücadilə aparır. Bu Vahid Azad Dünya ideyasıdır və bütün sovet əsarətindəki xalqlar bu ad altında olacaqlar.

Beləliklə, Vahid Azad Dünya uğrunda güclü hərəkatsız azad ölkələrdə kommunizmə qələbə çalmaq və SSRİ-nin daxilində inqilabi vəziyyət yaratmaq olmaz. Bütün azad ölkələrdə məqsədi eyni olan çoxsaylı, antikommunist təşkilatları nəzərə alsaq, Vahid Azad Dünya uğrunda bu hərəkatı asanlıqla yarat-

maq olar. Yalnız onların səylərini əlaqələndirmək lazımdır və onları ideyanı əks etdirən və Vahid Azad Dünya uğrunda hərəkatın proqramını müəyyən edən ümumi manifestlə birləşdirmək lazımdır.

Amerika Komitəsinin köməyi ilə bütün rus və qeyri-rus mühacirləri birləşdirən, sovet əsarətində olan mühacir xalqları azad edən Liqa yarandıqda, o da Vahid Azad Dünya Hərəkatına qoşulacaq.

Bu hərəkatın həqiqiliyi həm də onunla yüksəlir ki, onu hakimiyyət yaratmayıb, azad ölkələrin zəhmetkeşlərinin ictimai təşkilatları ilə yaranıb. (alimlər, publisistlər, fəhlələr, fermerlər, sənayeçilər və.s). Elə bu da SSRİ-yə qarşı əsl psixoloji müharibə olacaq.

SSRİ-yə qarşı psixoloji müharibələrin digər növləri iqtisadi tədbirlər, Marşalın planı, Trumenın doktrinası, qərb ölkələrinin birgə diplomatik fəaliyyəti, Atlantik pakt və s. idi. Yenə də SSRİ-i üçün məhvedici psixoloji müharibə Vahid Dünya uğrunda Müharibə olacaq və onun özəyi Amerika Komitəsi ilə əməkdaşlıq edən, Sovet əsarətində olan Xalqları Azad edən Liqadır.

«Azərbaycan» jurnalı, Münhen,
1952-ci il avqust, № 4

AZƏRBAYCAN XALQININ BÖYÜK OĞLU

23 noyabr 1948-ci ildə Azərbaycanın böyük bəstəkarı Üzeyir bəy Hacıbəyli vəfat etdi. Yalnız Azərbaycanda deyil, bütün müsəlman dünyası üçün opera sənətini yaradan Üzeyir Hacıbəyli Azərbaycan Milli İstiqlal Hərəkatını yaradanlar arasında da vardı. Azərbaycan qurtuluş hərəkatında Üzeyir bəy mühüm yer almışdır. Həm müəllimliyi, həm də kəlamıyla milli oyanışa böyük hiz-

mətlərdə bulunan Üzeyir Hacıbəyli 1885-ci ildə Azərbaycanın Şuşa şəhərində doğulmuşdur. İlk təhsilini Şuşada aldıqdan sonra Qori müəllimlər seminariyasında oxumuş və 1904-cü ildə buranı bitirmişdir. Tükənməz zəhmətsevərliyi, sarsılmaz iradəsi, geniş dünyagörüşü və cəsarətli fikirləri ilə tanınmış Üzeyir bəy əsl şöhrətini musiqi sahəsində qazanmış və bütün Türk-müsəlman tarixində şərəflərlə dolu bir yer tutmuşdur.

Onun klassik sənətində əsas amil Vətən sevgisi olmuşdur. Bütün yaradıcı həyatını millətimizə həsr edən Üzeyir bəy millətimizin böyük və tükənməz qüdrətini və tarixi fəal rolunu öz musiqisində göstərmişdir.

Azərbaycan xalq mahnılarını öyrənmək üçün böyük zəhmətlər sərf edən bəstəkarımız qardaşı, dəyərli bəstəkar Zülfüqar Hacıbəyli ilə birlikdə 300-ə qədər xalq mahnıları toplamışdır.

Musiqi sənəti ilə paralel olaraq ictimai və siyasi fəaliyyətində davam edən Üzeyir Hacıbəyli Versal Sülh Konfransı nümayəndəliyi üzvlüyünə təyin olunmuş qardaşı Ceyhun bəyin yerinə keçərək, 1919-cu ildə Müstəqil Azərbaycanın rəsmi qəzeti "Azərbaycan"ın redaktorluğunu da etmişdir. Daim klassik opera üzərində çalışan və musiqi-dram sənətində yeniliklər axtaran bəstəkar 1908-ci ildən 1920-ci ilə qədər yeni Azərbaycanın zorla sovetləşməsinə qədər, 10-a yaxın musiqi əsəri yazmışdı. Azərbaycanın ilk operası "Leyli və Məcnun" 1908-ci ildəBakıda səhnəyə qoyulmuşdur. Bu ilk operanı bəstəkar kiçik qardaşı Ceyhun Hacıbəyli ilə birlikdə yazmışdır. Lakin bu həqiqəti bolşeviklər xalqımızdan gizlədirlər.

Böyük müvəffəqiyyətlər qazanan bu opera ilə Azərbaycan opera sənətinin və dolayısı ilə səhnəsinin təməli qurulmuşdur.

Bir az sonra, bir-birini ardınca "Şah Abbas", "Əsli və Kərəm", "Şeyx Sənan", "Rüstəm və Söhrab" kimi operalar, "Ər və Arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi məşhur operettalar da yazmışdır.

Heyhat! Bu qaynar yaradıcı fəaliyyət birdən-birə kəsildi. **Sovet istilasından 1938-ci ilə qədər bəstəkarımız susmağa məcbur oldu. Sovet hökuməti öz "sosial sifarişləri" ilə Üzeyir bəyi ağır yaradıcılıq böhranına düçar etdi və musiqi fəaliyyətini davam etdirmək üçün bir açıq qapı belə qoymadı. Şübhəsiz ki, sovetlərin sifarişləri və əmrlərilə Hacıbəyli razılaşmazdı. Bu susma illərində Üzeyir bəy bütün qüvvəsini gənc musiqiçilər yetirməyə sərf edir, eyni zamanda Azərbaycan xalq musiqisini nota köçürür.** Azərbaycan Musiqi Məktəbinin müdirliyini, Azərbaycan Dövlət Konservatoriyasının professorluğunu, sonra isə rektorluğunu, Azərbaycan Bəstəkarlar İttifaqının rəisliyini etdiyi bu illərdə Üzeyir bəy yüzlərcə musiqiçilər yetişdirdi və mükəmməl bir xor heyəti yaratdı.

Üzeyir bəyin bu susma dövründə Azərbaycan musiqisi və xüsusilə opera sənəti olduqca gerilədi. Sovetlər zamanın Maarif Komissarı Mustafa Quliyevinı sözü ilə Üzeyir bəyin əsərlərini "Quba meydanı" deyə adlandıraraq səhnə üçün də qadağan etmişdi.

Azərbaycan sənətini çıxılmaz vəziyyətə salan Sovetlər başqa yollara baş vurdu. Bir çox bəstəkarlar dəvət etdilər. Bunların içərisindən bəstəkar Qlier sevimli bəstəkarımız Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasını çox fikirləşmədən və utanmadan "Şahsənəm" operasına "çevirdi".

Rus və başqa Avropa operalarından istifadə etmək istədilər. Bu səmərəsiz təcrübələrə çox vaxt və pul sərf etdikdən sonra sovetlər 18 il yaradıcılıqdan məhrum etdikləri Üzeyir Hacıbəyliyə həyasız üzlərini çevirməyə məcbur oldular.

Xalqımızın dərin və incə sevgisini qazanan Hacıbəyli ailəsinə sovetlər əl uzatmadılar. Bu xalq sevgisini istismar niyyəti ilə, sovetlər Üzeyir və Zülfüqar Hacıbəyliləri "sovetləşdirməyə", bu gün Milli İstiqlal Hərəkatımızı idarə edən Ceyhun Hacıbəylini isə xalqımıza büsbütün unutdurmağa qərar verdilər.

Bu "sovetləşdirmə" əməlini Kreml öz köləsi Bağırovun əli ilə etdi. Nəhayət, 18 susma illərindən sonra 1938-ci ildə Üzeyir Hacıbəylinin "Koroğlu" operası meydana gəldi. Bu opera Azərbaycan sənətini sovet dünyagörüşündən geniş bir yola sövq etdi və bütün Türk-Müsəlman musiqi sənətinə yeni bir istiqamət verdi. Bu operada başlıca qəhrəman millətimizdir.

Xalq hisslərini öldürməkdə mahir olan sovetlər, xalqımızın Hacıbəyli ailəsinə qarşı sevgisini və dərin hörmətli hisslərini öldürmək məqsədi ilə Üzeyir və Zülfüqar Hacıbəyliləri verdikləri bir çox ordenlərlə (medallarla), vəzifə və ünvanlarla "sovetləşdirmişdir". Böyük bəstəkarımızı "sovetləşdirdikdən" sonra onun həyatda olmasına Kreml dözə bilməzdi. Ani olaraq 25 noyabr 1948-ci ildə, Moskva radiosu bütün dünyaya bu bəyanatı yayınlamışdı: "Uzun sürən, ağır xəstəlik üzündən böyük bəstəkar Üzeyir Hacıbəyli vəfat etmişdir". Necə xəstəlik? Necə olur bu xəstəlik uzun sürür? Vəfatından bir an əvvəl Üzeyir bəy Moskvada bəstəkarlar toplantısında idi. Eyni məchul şərait içərisində də dəyərli bəstəkar Zülfüqar Hacıbəyli vəfat etmişdir. Bu haqda "Bakinskiy Raboçiy" qəzeti 1 dekabr 1950-ci ildə eyni şeyləri yazırdı: "30 sentyabrda uzun sürən ağır xəstəlikdən sonra Azərbaycanın qocaman bəstəkarı Zülfüqar Hacıbəyli vəfat etmişdir..."

Sovetlərin amansız darlığında, hürriyyətsizlik üzündən, böyük bəstəkarımız yaradıcılığının ən səmərəli dövründə qardaşı ilə birlikdə boğuldu.

Üzeyir bəyin əsərləri Sovetlər Birliyinə qatılmış bütün cümhuriyyətlərdə, xüsusilə Türk və Qafqaz ölkələrində dərin təsir buraxmaqdadır. Ruscaya olduğu kimi bir çox Avropa dillərinə tərcümə edilmişdir.

Üzeyir bəyin vəfatından sonra, sovetlər bayağı mənfəətləri üçün onun adına muzey açılması ilə bağlı anıt qərarını vermişlər.

Sovetlər nə qədər çapalıyırsa-çapalasın, sənəti ilə ruhlara məhəbbət və etimad təlqin edən, Şərq musiqisinin seyrini dəyişdirmiş olan Azərbaycanın bu böyük fədakar və səmimi oğlunu, yaradılış xariqəsi Üzeyir Hacıbəylini nə Azərbaycandan, nə də Türk-Müsəlman tarixindən heç bir qüdrət ayıra bilməz.

«Azərbaycan» jurnalı, Münhen,
1952-ci il oktyabr-noyabr, № 6/7

SOVET–FİN HƏRBİ

(Sovet–Fin hərbi bitməsinin 3-cü ildönümü)

İLK HƏFTƏ

Ən mühüm Vıborq istiqaməti sayılırdı. Bütün gözlər 7-ci orduya dikilmişdi. Mərkəzdən göndərilmiş yüzlərlə müfəttişlər, nə ordu kapitanı Yakovlevi, nə də qərargah rəisi Qordov ilə başqa qərargah zabitlərinə işləməyə imkan vermirdilər. Müharibə başlamamışdan bir həftə əvvəl Qızıl ordunun siyasi idarə müdiri Mexlis gəldi. Bütün qərargah zabitlərini, şöbə müdirlərini topladı və dedi:"Almaniya 33 milyon əhalisi olan Polşanı 18 gündə məğlub etdi. Biz kiçik, 3 milyon, 800 min əhalisi olan Finlandiyanı bir həftəyə məğlub etməliyik ki, bütün Avropa qarşımızda baş əysin."

Vıborqun iki həftəyə zəbt olunacağını proqnozlaşdıran qərargahın döyüş planına uzun müddət hamı güldü. Lakin finlərin gözqamaşdırıcı, qəhrəman müqaviməti rusların ildırımsürətli qələbə haqqında bütün xəyallarını puç etdi.

Müharibənin birinci həftəsinin sonunda ordu kapitanı Yakovlev, qərargah rəisi Qordov və operativ şöbənin müdiri Malinin Finlandiyanı istila etmək planını vaxtında yerinə yetirmədikləri üçün vəzifələrindən çıxarıldılar. 7-ci ordu komandirliyi Meretskov, qərargah rəisiliyinə İsserson, hərbi hissə komandanlığına Jdanov və başqaları təyin edildilər.

Finlər 7-ci ordunu ağır itkiyə uğradaraq plan üzrə olduqca yavaş-yavaş geri çəkilirdilər. Bəzən əks hücuma keçərək cəbhənin müxtəlif bölgələrində qızıl ordu hissələrini darmadağın edirdilər. Belə bir zərbə nəticəsində 70-ci Diviziya alayı böyük itki verərək 8 kilometrliyinə geri çəkilmək məcburiyyətində qaldı. Vəziyyətdən çıxmaq üçün 44-cü Diviziya sağ qanaddan alınaraq 70-ci Diviziyaya köməyə göndərildi.

Hətta "yüksək şəxslərin" də orduya rəhbərliyi ruslara yardım etmədi. Uzanan müharibədə gündə minlərlə insan həyatı məhv olurdu.

Ordunun yeni qərargah rəisi İsserson da öz vəzifəsində çox qala bilmədi. Fevral ayında onu vəzifəsindən ataraq Kalinin şəhərinə ehtiyat alaya komandir təyin etdilər.

Diqqəti cəlb edən budur ki, bu adam qərargah rəisiliyinə gəlməzdən əvvəl diviziya generalı idi, on gündən sonra isə ordu generalı rütbəsinə yüksəltdilər. Qərargah rəisliyindən çıxarıldıqdan sonra isə albay rütbəsinə endirildi. Petsamodan Vıborqa qədər uzanan bu cəbhənin Şimal bölgəsində işlər daha bərbad halda idi. Sovet İttifaqı qəhrəmanı Şternin komandanlığı altında olan 8-ci ordunun diviziyaları mühasirədə qırılırdı.

Voroşilovun əmrində Diviziya komandanı Vinoqradov əsgərlərin qarşısında güllələndi. Finlər Vinoqradovun donmuş cəsədinin tapıldığını xəbər verdilər. Bunun əksi olaraq Sovetlər Vinoqradovun sağ-salamat Diviziyain başında olduğunu elan etdilər. Göründüyü kimi finlərin xəbəri həqiqətə uyğun deyilmiş. Sovetlərin xəbərləri isə başdan-başa yalan idi. Nə komandanların dəyişdirilməsi, nə güllələnmə üsulu, nə də başqa zalımlıqlar Sovetlərə vəziyyəti öz xeyirlərinə dəyişməyə kömək etmirdi. Mannerheim xətti yarılmadan sarsılmaz qalırdı.

Cəbhəyə Sibirdən yeni diviziyalar gətirildi. Ümumiyyətlə, üç ay içində 7-ci ordunun hissələri üç dəfə qüvvələrlə doldu. Mərhəmətsiz və mənasız tələfatlar bütün cəbhələrdə verilirdi. Bu yerlərdə Qızıl əsgər qanı ilə boyanmamış bir kvadrat metr torpaq belə tapılmazdı. Belə qısa bir zamanda bu qədər insan tələfatı hələ görünməmişdi. Donma təsiri altında ölmək insana qorxu verən bir hal almışdı.

Əsgərləri xüsusən, minalar və "gu quşları" qorxudurdu. Bu minaların dəhşətindən əsgərlər torpağa addım basmağa çəkinirdilər. Torpağa etibar etmirdilər.Həqiqətən də bundan daha qorxunc heç nə ola bilməzdi. Hər hansı başqa bir silah bu qədər ruhsarsıdıcı qorxu verməzdi. Mina kəşfiyyatçılarının isə dəli olmasına tez-tez rast gəlinirdi.

Həm əsgərlər, həm də nəqliyyat yalnız açılmış izlər üzərindən hərəkət etməyə çalışırdı. Bu səbəbdən yollar hər cürə maneələrlə dolu idi. Hərəkət büsbütün pozulmuşdu. Leninqraddan başlayaraq cəbhəyə qədər bütün yollar əsgər və nəqliyyatla dolu idi.

"GU QUŞLARI" VƏ "MİNSK FİNLƏRİ"

Gu quşu? Onları məğrur qartal adlandırırdılar.
Bu adı onlar özləri qazanmışdılar.

Bu ağ geyimli, "Suomi" avtomatı ilə silahlanmış, 40 dərəcə soyuqda düşmən əsgərlərini ağacın başında oturub güllə ilə kəsən Fin oğulları idi. İrəliləyən Qızıl əsgərlər hara baxacaqlarını bilmirdilər. Minaların üzərinə addım qoymamaq üçün yerə, yoxsa düşmən gülləsinə tuş gəlməmək üçün yuxarı baxsınlar. Lakin bütün bunlar hamısı boşuna idi. Çünki nə minalar, nə də "guggug quşları" görünmürdülər.

"Guggug quşları" nəqliyyatın hərəkətinə əngəl törətmək üçün yol üzərində minalar quraşdırırdılar. Bu minaları təmizləmək üçün maşınlardan düşənlər ağaclardan avtomat güllələri ilə vurulurdular. "Guggug quşları" yollarda "müstetiller" qururdular, yəni dörd Fin əsgəri yolun üstündə, ağacların başında otururdu. Onların silahları yolun bu hissəsini tamamilə öz nəzarəti altında saxlayırdı. Onlar ancaq hərəkət edən dinc əhaliyə atəş açmırdılar. Amma əsgərləri, hərbçiləri bu "müstetile" buraxdıqdan sonra dörd tərəfdən onları atəşə tuturdular.

Qızıl ordunun əsgərləri arasında itkilər çox olurdu. Gözləmədikləri halda atəşə məruz qalmış insanlar yolun kənarlarına atıldıqları zaman tez-tez "müstetilin" ətrafında basdırılmış minalara dəyirdilər. Sovetlər Finlandiya əleyhinə Minsk "finləri" şiddetli siyasi hərbi də açmışdılar. Kuusineni kominternin bəzəkli sarayından çıxarıb əldəqayırma "Fin xalq hökumətinin" rəisi təyin etdilər. Bu marionet Fin hökuməti ilə müqavilə də imzalandı.

Bu müqavilə Helsinkidə təsdiq olunmalı idi. Kuusinenin Fin xalqına müraciətləri, kitabları, deklarasiyaları gündən-günə Sovet qəzetlərinin sütunlarını doldurur, radio ilə yayılırdı. Bu çıxışlarda Kuusinen Finlərə, silahları öz hökumətləri əleyhinə çevirməyə dəvət edirdi.

Buna cavab olaraq Finlər milli şərəf, heysiyyət və qürurlarını müdafiə edərək daha şiddətlə vuruşurdular. Kuusinen hökumətinin bir xalq hökuməti olduğunu isbat

etmək üçün Sovet qəzetləri tez-tez Kuusineni "Fin xalqı" ilə görüşdürür və bu görüşlər münasibəti ilə xalqın "çılğın sevinclərini" təsvir edirdilər. Bir dəfə "Leninqradskaya Pravda" qəzetində yazılmışdı ki, guya Terioki şəhərində 40 min adamın iştirakı ilə mitinq olmuş və bu mitinqdə bütün əhali Kuusinen "Xalq hökumətini alqışlamışdı".

Belə xəbərə heyrət etdik. Çünki bütün Finlər evlərini yandıraraq geri çəkilirdilər. Teriodakı şəhərdə yalnız bir qoca qadın və yaşlı kişi gördük. Onlar da Fin deyil, estoniyalı idi. Bu qocalara geri çəkilmədiklərinə görə əldə olunmuş qənimətlərdən hədiyyələr verildi. Sovet qəzetinin bu uydurmasına təəccüb edib dostumdan "Teriokidə hər hansı bir Fin gördünmü?" – deyə, soruşdum. O, dedi: "Mən də sənin kimi nə Teriokidə, nə də başqa yerlərdə bir Fin belə görmədim".

"Leninqradskaya Pravda" qəzeti daha böyük rəqəm göstərə bilirdi,məsələn, "təvazökarlıq" edərək 40 min göstərmişdi. Moskva tərəfindən bir "Finlandiya xalq ordusu" da təşkil olunmuşdu. Bu, ordunun əsgərlərinin az bir hissəsi Sovet Karelyasından toplanmışdı, əksəriyyəti isə ruslar, ukraynalılar və beloruslar idi. Bunlara 1939-cu ildə Polşadan oğurlanmış əsgər paltarları geyindirmişdilər. Onları döyüşə cəlb etmirdilər. Bu ordu hissələri "öz mərkəzləri" Helsinkiyə ilk səfərlərdə mahnılarla daxil olmaq üçün hazırlanırdılar.

Bu "Fin xalq ordusu" haqqında qızıl əsgərlər arasında ağızdan ağıza belə bir lətifə yayılmışdı: "bir qızıl əsgər zəif bir səslə dostundan, Fin minasına heç rast gəldinmi, deyə soruşur. İkinci cavabında, mənim rastıma çıxan Minsk Finlərinin qabağında Fin minaları heç nədir,- deyir". Belorusun paytaxtı Minsk şəhərindən toplanmış "Finlər" məlumdur ki, Finlandiyada Petsamodan Vıborqa qədər uzanmış bir cəbhə boyunu müdafiə etməyə məcbur idi.

Finlərin əsgərlərinin sayı, hərbi güclərinin, top, tank və təyyarələrinin miqdarı sovetlərinki ilə müqayisə edilməyəcək dərəcədə az idi. Kareliyə bölgəsində isə Sovet əsgərlərindən və hərbi texnikadan boş bir nöqtə belə tapıla bilməzdi. Buna görə də təyyarədən atılan hər bir bomba hədəfə çatacaqdı. Finlərin hərbi texnikası olmadığından sovetlər əsgəri hissələrini hücum xəttinə qədər asanlıqla çəkib gətirə bilirdilər.

Yalnız bu məsafədən Finlər tüfəng, avtomat və makinalı tüfəng atəşi ilə təsir edə bilirdilər. Amma mükəmməl təsir edirdilər. Az bir vaxtda ölülərdən təpələr yüksəlməyə başlamışdı.

ORDENSİZ (MEDALSIZ), AMMA TƏZƏ REZİN

Bolşeviklər özlərinə xas olan xain bir üsulla müxaliflərini sıradan çıxana qədər hər cürə vasitələrlə aradan götürmək və məhv etməyə çalışırlar. Onların vəhşi təcavüzlərinə qurban gedənlərin sayı sayılmaqla bitməz. Fəqət faydasızdır!.. Milli hərəkat bu kimi tədbirlərlə susdurula bilməz. İstiqlal və hürriyyət yolunun qəhrəmanları, hər cürə təhlükəni gözə alaraq, mücadilələrinə davam edəcək, özlərinə ilham qaynağı olan böyük ideal tam bir zəfərə çatmayınca müqəddəs savaşdan əsla yan keçməyəcəklər.

Qurtuluşu həyata keçiriləcək hürr və müstəqil vətəndə adları şan və şərəflə anılacaq qurbanlar arasında indi xatirəsini andığımız Mərhum da olacaqdır (1).

TANINMIŞ MÜHACİR SÜLEYMAN TƏKİNƏR:

"**Hamımıza** əziz və qiymətli mücahid Fətəlibəylinin əziz xatirəsini anmaq üçün buraya toplanmışıq. Bizləri dərin təəssüfə qərq etməkdən başqa, azad dünya adamlarını da kədərləndirən bu cinayət hər şeydən əvvəl qızıl imperializmin, istiqlal və hürriyyətlərinə susamış məhkum millətlərin mücadilə əzmi qarşısında lənətlənməsidir.

Bu cinayətə qurban gedən dəyərli mücahid Fətəlibəyli, 1908-ci ildə Naxçıvanın Düdəngə kəndində bir əsgər ailəsində doğulmuşdur. Uşaqlıqdan bəri əsgərliyə olan meyl və istedadı müəyyən yaşa çatdıqda bu məsləkə xidmətinə imkan vermişdir. Əsgərlik sahəsindəki qabiliyyəti ilə zəka və çalışqanlığı onu qısa bir zamanda yüzbaşılığa qədər yüksəlmiş və 1940 tarixində də qərargah mayoru rütbəsi ilə

Moskva Qızıl Hərb Akademiyasından məzun olmuşdur. O zamanlar Baltik boyu ölkələrini işğal etməkdə olan qızıl ordunun müharibə ərəfəsində işlərini icraya məmur edilən Fətəlibəyli ailəsi ilə birlikdə Litvada yerləşmişdi.

22/6/1941 tarixində başlayan Rus-Alman hərbi ilə Alman ordularının Baltik boyu ölkələrindəki ani qələbəsi üzərinə, ordu başçısı olması ilə, Alman əsirliyinə keçməsi mərhumun ulduzlu Rus rütbə və nişanlarına deyil, məmləkətinin qurtuluş ideyalarına bağlı bir vətənpərvər olduğunu göstərmişdir.

İkinci Cahan Hərbi bütün şiddəti ilə davam edir, hərb texnikasının ən üstün silahları ilə təchiz edilmiş Alman orduları zəfərlə cəbhələrdən-cəbhələrə keçirdilər. Xüsusən, Rus-kommunist köləlik rejiminin bütün faciələrini yaşamış olan qeyri-rus əsir millətlər bu ölçüsüz zəfərlərin bacarılmasında bütün imkanları ilə çalışırdılar. Bunun üçündür ki, Rus-kommunist imperializmi üzərində qazanılacaq zəfərin, qeyri-rus millətlərin yardımı ilə daha asan saxlanacağı Alman siyasi və əsgəri heyətincə təqdir edilmiş, qurtarılmış və ya əsir düşmüş qeyri-ruslardan əsgəri birliklərin (legionların) təşkili fikri yaranmışdı.

Fəqət, "üstün irqə həyat sahəsi" və "Avropaya yeni nizam" xülyaları ilə məşğul olub, digər millətlərə "həyat haqqı" tanımaq istəməyən Nasist Almaniyası siyasi və əsgəri gücü ilə hər şeydən əvvəl "həyat" və "hökmranlıq" haqları tələb edən məhkum millətlərin mühacirətdəki siyasi qüvvələri arasında gedən müzakirələrdə, Alman ordularına qoşularaq, onlarla birlikdə savaşmaq istəyənlərin mücadiləsinə milli bir istiqamət vermək və pərişan bir durumda olan əsirlərin qurtarılması işi ilə də imkan nisbətində məşğul olmaq zərurətini hiss etdi.

Bax mücahit Fətəlibəyli bu zaman meydana çıxmış, çox çətin və məsuliyyətli bir vəzifəni icra etmişdi.

Alman Silahlı Qüvvələri o zaman təşəkkül etmiş olan Azərbaycan legionuna daxil olan birliklərlə, Alman Komandanlığı arasında əlaqə təmin edəcək əsgəri-texnik mahiyyətdəki Azərbaycan "Rabitə Heyəti" nin təşkilini saxlamış və rəhbərliyə də mayor Fətəlibəylini gətirmişdi.

Almanların Azərbaycan "Rabitə Heyəti"nə verdiyi məhdud səlahiyyətlərə baxmayaraq, Fətəlibəylinin qeyrəti sayəsində qısa bir zamanda Azərbaycan legionunun orqanı olaraq nəşr edilən "Azərbaycan" qəzetinin yanında "Elmi şöbə", "Milli Birlik" məcmuəsi kimi Azəri könüllülərinin milli təlim və tərbiyə məsələləri ilə məşğul olan qurumlar da fəaliyyətə keçə bilmişdi.

Bütün bu fəaliyyətlər az bir zamanda müsbət nəticələr vermiş və yüksək bir mənəviyyata sahib olan Azəri birlikləri cəbhələrdə böyük cəsarətlər göstərmişdilər. 804 (Aslan), 807, 817, 819, 370 və s. taburların mühüm əsgəri qabiliyyətləri Alman yüksək komandanlığının təltifləri ilə mükafatlandırılmışlar.

Müharibənin sonuna doğru **Azəri könüllülərinin** Şərq cəbhəsindən daha təhlükəsiz bölgə olan İtaliyaya köçürülməsi və ya Krımın mühasirəsi günlərində Azərilərin xilasının ön plana alınması kimi məsələlərin həllində Fətəlibəylinin dəyərli xidmətləri unudulmayacaq qədər böyükdür.

Müharibə bitərkən Şimali İtaliyada ailəsi ilə birlikdə bir müddət **ingilis əsarətində olan Fətəlibəyli,** min bir əziyyətlə əsarətdən qurtulmuş, bir il yarım İtaliyada, iki il Misirdə qaldıqdan sonra Qərbi Almaniyaya dönmüşdür. Bir ara Türkiyəyə də uğrayan mərhum 7-8 ay sonra Münhenə dönmüş və ona sui-qəsd edilənə qədər bolşevizmlə mücadilə edən Amerikan Komitəsinin qurduğu "Qurtuluş" radiosunun «Azərbaycan» Şöbəsində vəzifə görmüşdür.

Hamımız üçün əziz və qiymətli Fətəlibəylinin amansız qətlindən acımız çox böyükdür. Fəqət, gərək onun müqəd-

dəs bir amal uğrunda şəhidlik mərtəbəsinə çatması və gərək müdafiə etdiyi davanın qəsb etməkdə olduğu beynəlmiləl əhəmiyyəti bu böyük acımızı danışdıracaq qədər də əhatəlidir. Bəlkə bu yolda daha bir çox Fətəbəylilər qurban veriləcəkdir, fəqət, uğrunda qurban verilən o müqəddəs istək gerçəkləşincə qurulacaq olan o Böyük Abidə Fətəlibəylilərlə yad ediləcək və nəsillərdən–nəsillərə keçmək surəti ilə **Fətəlibəylilərlə birlikdə əbədiləşəcəkdir"** (141).

MÜHACİR BƏŞİR GƏNCƏÇAY:

"**Əziz qardaşlar!** İnsanlıq aləminin ən qəddar düşməni olduğuna əsla şübhə edilməyən xain və mənfur kommunistlər bu gün Azəri Türklərinin dəyərli mücahidlərindən qəhrəman bir əsgər olan Fətəlibəylini öldürməklə siyasi cinayətləri seriyasına bir yenisini daha əlavə etmiş və vəhşət zəncirinə qızıl bir halqa daha əlavə etmişlərdir.

O, əziz vətəndaşımızdan çox uzaqlarda, yad bir ölkədə, qayəmiz və idealımız olan Azərbaycan istiqlalı uğrunda mücadilədən-mücadiləyə keçərkən xain düşmənin tələsinə düşmüş və əbədiyyən həyata gözlərini yummuşdur.

Bizlər Fətəlibəylinin şəxsində Azərbaycanın sevgili bir övladını itirmiş oluruq.

Hər nə qədər fani vücudu aramızdan ayrılmışsa da, bütün gerçək ideallarıyla O, qəlbimizə girmiş və yerini tapmışdır. Ona ən layiq məzar qəlblərimiz deyilmidir?

Qardaşlar, bu, çox faciəli hadisədən dolayı duymaqda olduğumuz acı həddən böyükdür. Bu da milli bir mücadilənin mövcudiyyətidir.

Fəqət, biz əsil o irqin və o nəcib millətin qanındanıq ki, bir mücahit itirməklə əsla zəif görünmərik. Acımız bizə qüvvət olur. Kinimizi alovlandırır. Hər Azəri vətəndaşı

başlı-başına bir mücahit olacaq, bu mənfur cinayətlərin hesabını onlardan çox əla soracaqdır.

Haqqın gecələri gündüzlərə gəbədir,
Gün doğmadan nələr doğar aləmdə?
Lənət sizə, nifrət sizə ey vəhşi kommunistlər!

Qardaşlar, dərin bir təəssüf və haqqa təvəkkül içində qiymətli qardaşımız üçün Tanrıdan rəhmət diləyəlim və yorulmadan mücadiləmizə davam eyləyəlim. **Haqq daima yaşayacaqdır!** (140).

600 SİLAH DOSTUNUN MƏKTUBU:

"**Almaniyanın** Münhen şəhərində Azəri mücahid Fətəlibəylinin şəhid edilməsi ilə nəticələnən siyasi cinayət bəzi qəzetlərdə yanlış təfsir edilmişdir. Biz, Azəri Türk gəncləri yaxından tanıdığımız mayor qəhrəman Ə.Fətəlibəyli və tabeliyindəki 10 minlərcə azərbaycanlı türk əsgərləri ilə birlikdə öz arzuları ilə Almaniya ordusuna birləşərək, Azərbaycan Qurtuluş ordusunu qurmuş və o, ayrıca Milli Birlik başqanlığına da seçilmişdi. Fətəlibəyli ilk öncə 162-ci Alman bölümünün 1-ci Türk taburunda rütbəsiz bir ər kimi savaşa qatılmış və alay komutanı albay Şarenberqin komutanlığı altında Qafqaz cəbhəsində göstərdiyi şücaət və cəsurluqdan sonra yüksək medalla təltif edilmiş və mayor rütbəsi ilə də 65 min kişilik azərbaycanlı əsgərlərin komutanlığına təyin edilmişdi.

Şəhid Fətəlibəylinin birbaşa başçılıq etdiyi "Aslan" taburuna mənsub olan bizlər, onu gərək cəbhədə və gərəksə cəbhə gerisində, yəni hərb sonunda bizləri qorumaq və ölümdən qurtarmaq üçün etdiyi fədakarlıqları burada tərif etmək üçün söz tapa bilmirik.

Hərb sonu Almaniyada, İtaliyada, Misirdə və s. ölkələrdə bizləri ölümlərdən və ruslara təslim edilməkdən qurtaran və hürriyyətə qovuşduran O misilsiz mücahid Fətəlibəylinin, rus-kommunist casusları tərəfindən faciəli bir şəkildə alçaqca öldürülməsinə bütün millətlər şiddətlə etiraz edir və **o, böyük şəhidin müqəddəs xatirəsini yad edərkən, Onun açdığı istiqlal mücadiləsi yolunda son nəfəsimizə qədər yürüyəcəyimizə and içirik"** (140).

TANINMIŞ MÜHACİR MƏHƏMMƏD SADIQ ARAN:

"**Şəhid Ə.Fətəlibəylinin** ən mühüm təşəbbüsü Azərbaycan istiqlal davasının almanlara qəbul etdirməsi keyfiyyətidir. Bu xüsusda israrlı tələb və müraciəti üzərinə, nəhayət, Almaniyanın o zamankı Şərq naziri Rozenberq Hitlerin icazəsi ilə Fətəlibəyliyə bu dəyərli sənədi göndərmişdi: "Azərbaycan istiqlalı və bu istiqlal üçün fəaliyyət göstərən Azərbaycan istiqlal komitəsi də digər millətlərin istiqlal komitələrinin sahib olduğu bütün siyasi və s. haqlara sahibdir. Mart. 1945" (Bu sənədin əsli əlimizdədir).

Hərb bitincə İngilis-Amerikan məqamları orayaburaya sığınan 65 min azərbaycanlı mücahitləri kor-koranə Qızıl rus cəlladlarının bıçağına təslim etməyə başlayırlar. Fətəlibəyli də İtaliyaya sığınmışdı, onu da axtarırlar. Bu duruma rəğmən o, təhlükələri gözə alaraq bu müdhiş faciənin önünə keçməyə çalışır. Amerikalılara çox şiddətli bir dillə yazılmış etiraz məktubu göndərir və belə deyir: "Siz məsum azərbaycanlıları Qızıl rus cəlladlarına təslim etməklə tarixi bir cinayət işlədirsiniz, tarix qarşısında məsulsunuz. Bunu bildirmək istəyirəm ki, bu günkü dostunuz Qızıl Rusiya çox keçmədən sizin ən qanlı düşməniniz olacadır".

Bundan başqa, Romadakı Papalığa–Vatikan məqamlarına baş vurur, bu faciəyə mane olmaları üçün işə qarışmalarını rica edir. Bu arada Amerikada olan Türkiyə səfarət və konsulluqları da edilən müraciətləri əsla nəzərə almayaraq ruslara təslim edilən azərbaycanlı türk əsirlərini himayə etmirlər. O, İsveçrəyə sığınan 70 kişilik qrupun ruslara verilməməsi üçün təşəbbüsə keçir, ordakılara təlimat verir, yol göstərir və onlar qurtulurlar. Misirə göndərilən mühüm bir qrupun Fələstin cəbhəsinə göndəriləcəyini xəbər alınca oraya gedir, işi dayandırır və onları pərişanlıqdan qurtarır. Bu sürətlə nə yazıq ki, bütün çırpınmalarına rəğmən, 65 minlik azərbaycanlı istiqlal mücahidlərindən 600 insanı rus cəlladlarının bıçağından zorla qurtara bilir.

Arada bir az sakitlik yarandıqdan sonra Ə.Fətəlibəyli Türkiyəyə gedir. Burada da Avropadakı faciələrə bənzər olayların cərəyan etmiş olduğunu, 160 azərbaycanlının qurbanlıq qoyun kimi ruslara təslim edilmiş olduğunu Böyük Millət Məclisi dartışmalarından öyrənir. Bu da bir başqa dram! Fətəlibəyli Türkiyədə 6 ay qaldıqdan sonra, oğlunu və həyat yoldaşını Ankarada qoyaraq Almaniyaya gedir. Orada Münhen şəhərində amerikalılarla anlaşaraq Azərbaycanın qurtuluşu və istiqlalı üçün çalışmağa başlayır. **Gündə 18 saat çalışan bu enerjili mücahit bir tərəfdən radioda çalışır, o biri yandan da "Azərbaycan" adlı rus və türk dillərində bir dərgi yayınlamağa davam edir və bu çalışmaları ilə mühitinin hörmətini qazanır" (140).**

AZƏRBAYCANLI MÜHACİR HƏSƏN ZEYNALLI:

"**İnsanlıq tarixinin** üz qarası olan kommunizmə qarşı savaşı fərz bilən, kommunist idarəsinin anarxik və qorxunc kabusları içərisində milli mədəniyyət və duyğusunu qorumaqda məharət göstərən, əsir vətəninin qurtuluşunu özünə məzhəb edən və bir ovuc azərbaycanlı içərisindən başqa millətlərə örnək olacaq bəxtiyarlığı tariximizin şanlı səhifələrinə yazdırmaq xüsusunda nümunə göstərməsini bilən qəhrəman Fətəlibəylinin qara xəbərini qədirşünas Türkiyə qəzetlərindən öyrənmiş oluram.

Acının vüsəti fikir qardaşlarımda olduğu kimi məndə də ən təsirli şok zərbəsini yaratmşdır.

Dövrümüzün nizam tanımayan amansız mücadilələrində gənc və ixtiyarımıza nümunə olan, misilsiz fədakarlıqlara qatılmasını özünə müqəddəs vəzifə edən Fətəlibəylinin əbədiyyən aramızdan ayrılması, hamımızın qəlblərimizdə açılan, sağalması imkansız bir dərin yara olduğuna zərrə qədər şübhəm yoxdur.

Maddətən içərimizdən ayrılan, fəqət, mənən Azərbaycan xalqının vəfakar qəlblərində ölmədən yaşayacaq qəhrəman bizlər üçün həm qədər, həm də iftixar mənbəyi mərtəbəsinə ucalmışdır, desəm, mübaliğə etməmiş oluram.

Onun şəhadəti qədər qaynağı olmuşdur, çünki: misilsiz bir qəhrəman və mücahit gəncliyimizin mücadilə simvolu əbədi olaraq sıralarımızdan ayrılmışdır.

İftixar mənbəyi olmuşdur çünki: "Azərbaycan gəncliyi soysuzlaşmışdır" iddiasında olanlara, Azəri gəncliyinin qırmızı və siyah qayalar içərisində hər türlü işgəncə və rüh börtanlarına səbəbiyyət verən acılara qarşı milli çarəsini qorumasını bilən, ehtiyac bildiyi və biləcəyi zamanlarda tə-

məlindən sarsıdacaq imanda olduqlarını şəxsində və fədakar qardaşları ilə bütün cahana isbat etmişlərdir.

Gözləri nəmli qardaşlarıma başsağlığı dilərkən, əziz mərhumun müqəddəs ideallarını qorumaq üçün, alçaq düşmənlərə qarşı olmaq üçün, fədakar mücahit arkadaşlarımlın, bütün Azəri Türk gənclərinin şərəfli bir mövqeyi tutacağına inanır və şəxsən söz verirəm.

Yaşasın Azərbaycan istiqlalı... Qəhr olsun Rusiya... **Minlərcə rəhmət əziz şəhitlərin ruhuna...**

Müqəddəs yol yolçularına hörmətlərimi bildirir, Cənabi Haqdan hamısına səbirlər arzulayıram" (140).

MÜHACİR İSMAYIL ƏKBƏRİN "AZADLIQ" RADİOSUNDA HAZIRLADIĞI VERİLİŞİN MƏTNİ

Hörmətli vətəndaşlar! "Azadlıq" radiosunun əməkdaşları mühacirətdəki azərbaycanlılarla birlikdə "Azadlıq" radiosunun «Azərbaycan» şöbəsinin sabiq baş mühərriri və Azərbaycan milli qurtuluş hərəkatının fəal və enerjili rəhbərlərindən Əbdürrəhman Fətəlibəylinin xaincəsinə öldürülməsinin onuncu ildönümünü qeyd edir.

Bu alovlu hürriyyət mücahidi, mərd əsgər, istedadlı natiq, yazıçı və anti-kommunist 1954-cü ilin 20 noyabrında, dəmir pərdə arxasından göndərilən xüsusi bir casus tərəfindən öldürülmüşdür.

Əbdürrəhman Fətəlibəyli 1908-cü ilin 12 iyununda Azərbaycanın Naxçıvan vilayətinin Düdəngə kəndində anadan olmuşdur. Orta təhsilini Bakıda alan Fətəlibəyli hərbi piyada məktəbini bitirdikdən sonra zabit olaraq o zamankı Azərbaycan diviziyasına daxil olmuş və alman-sovet müharibəsinə qədər Qızıl Orduda xidmət etmişdir. **Fətəlibəyli sovet Hərbi Akademiyasını bitirmiş, Sovet-Fin müharibəsində iştirak etmiş və sovet ordenləri ilə təltif edil-**

mişdir. O, sovet-alman müharibəsi ərəfəsində Leninqrad hərbi dairəsi qərargahında yüksək zabit rütbəsində çalışmışdır. Fəqət, Fətəlibəylinin bu hərəkətli və mücahidələr içində keçən fırtınalı həyatı, onun kommunizmin amansız bir düşməni olduğunu isbat etmişdir. O, öz xalqının əsarət altında qalmasına əsla dözməmişdir. Fətəlibəyli öz xalqının və sovet əsarətindəki bütün digər xalqların pərişan vəziyyətindən daim dərin iztirab duymuşdur.

Və nəhayət onun gözlədiyi gün gəlib çatmış, alman-sovet müharibəsi başlanmışdı. Fürsətdən istifadə edən Fətəlibəyli silahını kommunist diktaturasına qarşı çevirməkdə bir an belə tərəddüd etməmiş, əldə silah olaraq bir neçə il sovet istibdadına qarşı döyüşmüş və vətəndaşlarımızın kommunizmə qarşı mücadiləsinə başçılıq etmişdir.

Fətəlibəyli və onun həmyerlilərinin nə üçün belə böyük bir əzmlə mücadiləyə qoşulduqlarının səbəbini, 1943-cü ilin noyabrında Berlində keçirilmiş Azərbaycan qurultayında mərhumun söylədiyi nitqdə açıq görmək olar. Həmin qurultayda əsas məruzəçi sifətilə çıxış edən Fətəlibəyli eynən belə demişdi: "Biz çar valilərinə, bolşevik girovluğuna dözmədiyimiz kimi hər hansı bir millətin hakimiyyətinə də dözməyəcəyik. Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə onlar idarə edəcəkdir". O, bu sözləri 1943-cü ildə, həyatına risq edərək, Hitler Almaniyasının paytaxtında söyləmişdi.

İkinci Dünya Müharibəsi bitdikdən sonra Fətəlibəyli, digər vətəndaşlarımız kimi zorla Sovet İttifaqına göndərilməkdən yaxasını qurtara bilmək üçün İtaliyaya getmişdir. Daha sonra o, Misir və Türkiyədə olmuşdur. Fətəlibəyli hürr müsəlman dünyasında, hər kəsdən daha yaxşı tanıdığı sovet istibdad rejiminin həqiqi simasını ifşa etməyə çalışmışdır.

1951-ci ilin sonunda Qərbi Almaniyaya gələn Fətəlibəyli milli-azadlıq hərəkatımızın digər rəhbərləri ilə birlikdə Azərbaycan mühacirətinin sovet əleyhdarı mübarizəsinə başçılıq etmiş və nəşr etdirdiyi aylıq "Azərbaycan" məcmuəsində sovet gerçəkliyinin həqiqi simasını böyük bir enerji ilə ifşa etmişdir.

Fətəlibəyli həyatının son iki ilində "Azadlıq" radiosunun «Azərbaycan» şöbəsinə başçılıq etmiş və bu radionun ən enerjili rəhbərlərindən biri olmuşdur. Onun bu fəaliyyəti, həqiqətdən və açıq mücadilədən qorxan sovet rəhbərliyini daha çox narahat etmişdir. Bu da Fətəlibəylinin qurban getdiyi qətl hadisəsinə səbəb olmuşdur.

Sovet rəhbərləri bu çirkin hərəkətləri ilə Sovet İttifaqı xalqlarının azadlıq mücadiləsinə mane olmaq istəyirdilər. Fəqət, onlar çox yanılırlar. Kommunist hakimlər ayrı-ayrı şəxsləri öldürtdürə bilərlər, lakin insanların qəlbindəki azadlıq eşqini söndürə bilməzlər. **Əbdürrəhman Fətəlibəyli yalnız cismən öldürülmüşdür. O, mənən yaşayır və yaşayacaqdır.** Uğrunda həyatını vermiş olduğu azadlıq mücadiləsi isə daha böyük bir enerji ilə davam etməkdədir (30).

KEÇMİŞ LEGİONER MƏHƏMMƏD KƏNGƏRLİ:

"**Möhtərəm böyüklərim**, hörmətli qonaqlar və əziz qardaşlar! Mühacirətdəki milli istiqlal, milli hakimiyyət deyə qəlbləri çırpınan və hər şeyin üstündə o müqəddəs müstəqilliyi özlərinə parol edən bütün azəriləri mütəəssir buraxan çox acı bir xəbərin dekabr ayı başlanğıcında Münhendən bildirildiyi hamımıza məlumdur. Gənc və enerjili mücahidlərimizdən mayor Fətəlibəyli düşmənin xaincə tərtiblədiyi qorxunc bir sui-qəsddin, ana Vətənimin sərhədlərindən çox uzaqlarda, hər zaman lənətlə anacağımız

murdar bir əlin işlədiyi cinayətin qurbanı olmuşdur. Vətənimiz rus bolşevik imperializminin qanlı pəncəsinə cəbrən keçdiyi gündən bəri, milli mənliyini mühafizə etmək üçün 34 il ərzində Azəri türkünün girişdiyi qanlı mücadilələrdə yüz minlərcə azəri anaları qəhrəman övladlarını çəkinmədən qurban vermişdir. Bu dəfəsində də heç bir fədakarlıqdan yorulmayan Azərbaycan öz övladı cəsur mayor Fətəlibəylini eyni yöndə qurban vermişdir.

Fətəlibəyli rus-alman hərbi başladığı zaman qızıl orduda məcburi xidmət görən və qızıl cəhənnəmə dönməkdənsə istiqbalı məchul alman əsir düşərgələrinə sığınmağı daha faydalı sayan, məmləkətinin milli davasına bağlı olan on minlərcə Azəri türk mücahidlərindən biriydi.

Müharibə başlamış, Rusiya məhkumu qeyri-rus millətlərin gözlədikləri gün gəlmişdir. Alman orduları ildırım surəti ilə zəfərdən-zəfərə qoşulur, rus orduları isə məğlubiyyətdən-məğlubiyyətə doğru gedirdi. Aldığı ilk zərbədən sonra özünü toparlamayan sovetlər ordusu pərişan və səfil bir halda rəqiblərinə təslim olurdu. Hamınızın bildiyiniz kimi, almanlar digər Avropa millətlərinə nisbətən rusu və Sovetlər Birliyinin içüzünü daha yaxşı tədqiq edərək öyrənən bir millət olduqları üçün, girişdikləri bu təhlükəli müharibədə, özlərinə ən sadiq müttəfiq Rusiya məhkumu qeyri-rus millətlərin olduğuna qəti qənaət gətirmişdilər. Fəqət nə yazıq ki, bu millətlərin istiqlallarının qeydsiz-şərtsiz tanınması irəli sürüldüyündə alman məqamları tərəfindən laqeyd və sayğısız qarşılandığına görə anlaşmaya varılmamışdı. Çünki, bu mövzularda dar görüşə sahib olan nasional- sosialistlər "məmləkətinizdən bolşevikləri çıxaracağıq, kolxozları dağıdacağıq, torpaqları kəndlilərə paylayacağıq" formulundan irəli getmirdilər...

Bu gün anma mərasimini keçirdiyimiz mərhum Fətəlibəyli bu zamanda ortaya çıxmış, çətin və şərəfli bir vəzifəni

üzərinə götürmüşdür. Mərhumun ilk işi əsir düşərgələrində pərişan vəziyyətdə yardıma möhtac azəriləri düşərgədən çıxartdırmaq, onların təlim və tərbiyə işləri ilə yaxından ilgilənmək olmuşdur. İlk öncə alman birlikləri daxilində çalışdırılmaq üzrə yardımçı könüllülər sifəti ilə qruplar halında verilmiş olan azəri övladları cahil alman əsgərləri tərəfindən layiqli münasibət görməmiş və hürriyyət fədaisi olan bu qəhrəmanlar adi bir işçi kimi çalışdırılmışlar. Bunu qəbul edə bilməyənlərdən bir çoxu da yenidən əsir düşərgələrinin yolunu tutmaq məcburiyyətində qaldılar. Nəhayət, bu müşkülləri aradan qaldırmaq məqsədi ilə alman məqamları ilə ətraflı görüşmələrdən sonra başqa millətlərdə olduğu kimi, azərilərdən də legion təşkil edilməsi qərarı verilmişdir. Az keçmədən Azəri legionları təşkil edilmiş və bu legionlarla Alman Silahlı Qüvvələri arasında çalışmalara ritmik bir düzən vermək məqsədi ilə **almanlar tərəfindən Azərbaycan Rabitə Qərargahı təsis edilmiş və bu əsgəri mahiyyəti olan qurumun başına da mərhum Fətəlibəyli gətirilmişdir.** Bilindiyi kimi, bütün milli irtibat qərargahlarına verilən səlahiyyət və tanınan haqlar çox məhdud idi. O mənada ki, Azərbaycan Rabitə Qərargahı başına gətirilən mərhum mayor da bir alman zabitinin nəzarətində idi. bu haqsızlıqlara dözərək soyuqqanlılığını mühafizə etməyə hakim olan əzmkar vətən övladı parlaq enerjisi ilə legionun maddi, mənəvi və idari işlərindən bir an da geriyə çəkilməmişdi. O, Azərbaycan legionunun layiqli mövqeyini təmin etmək məqsədi ilə legionun cəbhəyə göndərilməsini alman məqamlarına tövsiyə etmiş və sonradan cəbhələrdə qızıllara qarşı mücadilədə göstərmiş olduqları üstün bacarıq və qəhrəmanlıqlara görə almanlar tərəfindən "Aslan" adı verilən 804 saylı tabur ilk dəfə olaraq 1942-ci ildə Qafqaz cəbhəsinə göndərilmişdi. Gecəni-gündüzə qataraq çalışmanın nəticəsində qısa bir zamandan sonra bütün hazırlıql-

arı tamamlanan beş Azəri taburu da 17-ci alman ordusuna bağlanaraq cənub cəbhəsindəki savaşlarda, xüsusən Krım cəbhəsində böyük bacarıqlar göstərmişdilər. Müttəfiqlərin qabiliyyəti, almanların isə məğlubiyyəti ilə nəticələnən ikinci cahan hərbinin son günlərində Ə.Fətəlibəyli azəri birlikləri ilə İtaliyaya gedir. Bir müddət əsir düşərgələrində qaldıqdan sonra Misirə gedir. 1950-ci ilin son baharında Almaniyanın Amerikan işğal bölgəsindəki Münhen şəhərinə dönür və qısa bir zamanda Türkiyəni də ziyarət edir. Sonra təkrar Almaniyaya dönərək insafsızcasına tərtiblənən sui-qəsdə məruz qalana qədər amerikalılar tərəfindən maliyyələşdirilən "Azadlıq" radiosunda vəzifədə olmuşdur.

Əziz və qiymətli dostlar, milli mücadilə yolunda gedən qurbanlarımızın şərəf siyahısına bir yenisi də əlavə olundu. Fətəlibəylinin xaincə qətl edilməsi hamımıza ən dərin acını hiss etdirdi:

Qoy onun ruhu nurlarla dolsun,
Qara torpağın da ac gözü doysun!
Allah rəhmət eləsin! (44)

ƏBDÜRRƏHMAN AVTORXANOV

(*Tanınmış Çeçen mühaciri, "Hakimiyyətin texnologiyası", "Partokratiya" kitablarının müəllifi*)

1943-cü ilin ortalarında Berlində Vermaxtın Ali Baş Komandanlığının qəbulunda mən qafqazlı görünüşündə olan, sovet hərbi əsiri forması geymiş və bütün xarici görünüşündən düşərgədən yenicə azad edilmiş insan təsiri bağışlayan bir zabitlə qarşılaşdım. Bu adam çox qaradinməz görünür və öz daxili qayğıları, fikir-

ləri ilə məşğul idi ki, görəsən onu tale indi nə ilə üzləşdirəcək. Qəbulda adamlar çox idi və uzun tərəddüddən sonra ona yaxınlaşıb soruşdum: - sən qafqazlı deyilsən? Gözlənilməyən sualdan həmin adam çaşdı və cavab əvəzinə mənə sual verdi: Bəs siz qafqazlısınızmı? Mən özümü təqdim etdim. O da özünü təqdim etdi: azərbaycanlı Abo Düdənginski, sovet ordusunun keçmiş mayoru. O vaxtdan bizim dostluğumuz başladı. İnanıram ki, ömründə bir dəfə Abo ilə qarşılaşan şəxs, bu qeyri-adi insanı heç zaman unuda bilməz. Onun müsbət şəxsi keyfiyyətləri, şahzadəliyi çətinliyə düşənə köməyə hazır olması hamını heyran edirdi. Bax onun bu keyfiyyətlərindən qatil Mikayıl İsmayılovu onu öldürməyə göndərmiş "NKVD" istifadə etdi.

Hərbi əsirlər düşərgəsindən azad edildikdən sonra OKV Abo Düdənginskiyə (mən ondan heç zaman həqiqi familiyasını soruşmurdum–Düdənginski, yoxsa Fətəlibəyli) Azərbaycan legionuna başçılıq etmək təklifini etdi (belə legionları almanlar şərq xalqlarının hərbi əsirlərindən təşkil edirdi: türküstan, azərbaycan, erməni, gürcü, şimali qafqazlılar legionu və başqaları). Danışıqların əvvəlindən Abo alman komandanlığı qarşısında iki şərt qoydu:

1. Siyasi-strateji doktrina olaraq müharibə Azərbaycanın 1918-ci ildəki müstəqilliyinin bərpası uğrunda Stalin Rusiyası ilə aparılmalıdır.

2. Alman köməkçi heyəti onun rəhbərlik funksiyasına qarışmamalıdır.

Mən onun bu mövzuda OKV-yə göndərdiyi memorandumu şəxsən oxumuşam. Təəssüflər ki, müharibənin siyasi strategiya baxımından aparılmasında Hitler Stalindən fərqli olaraq böyük bir idiot idi və Qafqazın müstəqilliyi haqqında eşitmək belə istəmirdi.Bilirəm ki, Berlin hökuməti hələ müharibənin əvvəlindən bütün Qafqazın idarəçiliyini poçt rəisinə qədər almanlardan təşkil etmək istəyirdi. Mü-

haribədən sonra biz Abo ilə ayrıldıq. O, əvvəlcə Misirə, sonra Türkiyəyə getdi, mən isə Almaniyada qaldım. Bizim mühacirlərin siyasi təşkilatları, həm ruslar, eləcə də başqa millətlər "Amerikanın bolşevizmlə Mübarizə Komitəsi"nin köməyi ilə "Qurtuluş" ("Azadlıq") radiosunu açanda Amerika Komitəsi Türkiyədən Abo Fətəlibəylini çağırdı və ona Azərbaycan redaksiyasının Baş redaktorluğu vəzifəsini təklif etdi. "Qurtuluş" radiosunun açılışı ("Azərbaycan" redaksiyasının–N.Y.) martın 5-nə- Stalinin ölüm gününə təsadüf etdi. Bax həmin vaxtdan faciəli ölümünə qədər Abo bu redaksiyaya rəhbərlik etdi. Eyni zamanda mənim zəmanətimlə, bizim "Amerika Ordusunun SSRİ-ni Öyrənmə İnstitutu" (onda o Reçensburqda idi) onu 1954-cü ildə Amerika zabitləri üçün Azərbaycanın mədəniyyəti və tarixi haqqında mühazirə oxumaqla bağlı dəvət etmişdi. Mühazirə çox böyük uğurla keçdi. Həmin vaxtdan biz Abo ilə demək olar ki, hər həftə Münhendə- Şvabinqdə qafqazlıların tez-tez toplaşdığı Fetliş-platsdakı kafe-restoranda görüşürdük. Abo həmin qatili də məhz buraya qonaq olaraq sonradan dəvət etmişdi.Elə bu azərbaycanlı qatilin, guya Azərbaycan legionunun keçmiş legionerinin Fətəlibəylini öldür-mək üçün "NKVD" tərəfindən Almaniyaya göndərilən casus olduğu bilindi.Məlum oldu ki, O, Şərqi Almaniyadan qaçqın-mühacir adı ilə göndərilibmiş. Ümumi qaydaya görə almanlar onu siyasi yoxlamadan keçirmək üçün Nürnberqdəki düşərgəyə göndəriblər.

Yeni mühacir, azərbaycanlı legioner tez bir zamanda keçmiş komandiri Abo Fətəlibəyli ilə əlaqə yaradır. Almaniyanın nüfuzlu dairələrində böyük əlaqələri olan Abo operativ olaraq Bavariya hökumətinə müraciət edir və onu düşərgədən azadlığa buraxdırır. O, hətta ona Şvabinqdə hansısa xüsusi mağaza açmaqda da kömək edir (görünür, həmin şəxsi məhz "NKVD" maliyyələşdirirmiş).

Öldürülən ili Abo məni azərbaycanlıların yerləşdiyi Nyu-Ulmdakı böyük bir təntənəli tədbirə dəvət etmişdi. Bu tədbirdə baş aşpaz məhz onun sonrakı qatili idi. Orada Abo məni onunla tanış etdi. Qeyd edim ki,taleyimiz də Abo ilə məni həm də faciəli şəkildə yaxınlaşdırırdı.Belə ki, SSRİ "NKVD"-si hələ Stalinin vaxtında hər ikimizi ölümə məhkum etmişdi.

Abonu 1954-cü ildə öldürdülər, elə həmin ili də məni öldürmək üçün göndərilən bir Şərqi almaniyalı Amerika kəşfiyyatına təslim oldu.

Mən Abo ilə Ulm qəbirstanlığında vidalaşdım. Abo öz vətəni Azərbaycanı dərindən sevirdi. O, Qafqazın əsil alovlu və inamlı patriotu idi. Qafqazda isə bu gün ağır matəm hadisələri baş verir. Əlbəttə, onlar kənardan qızışdırılır. Lakin inanıram ki,tezliklə bizim Ümumqafqaz evinə də qardaşlıq sülhü gələcək və bu Fətəlibəyliyə qoyulacaq ən yaxşı abidə olacaq (59).

Teymur Atəşli

BİZ YENƏ GƏLƏCƏYİK
(Fətəlibəylinin əziz ruhuna)

Azərbaycan, mənim şanım, şöhrətim,
Sənsən mənim bu dünyada cənnətim,
Varlığınla artacaqdır cürətim,
And içiriz sənin haqqı-sayına
Torpağına gələcəyiz biz yenə...

Gündüzləri zülmət gecəyə dönmüş,
Hər evinin tütən ocağı sönmüş,
Yazıq anam qaralara bürünmüş,
Göz yaşını siləcəyiz biz yenə,
Torpağına gələcəyiz biz yenə...

And içəriz üç rəhgli bayrağına,
Şəhid yatan müqəddəs torpağına,
And içəriz ömrün gənclik çağına,
Zəncirini qıracağız biz yenə,
Baba yurda gələcəyiz biz yenə...

And içəriz sənə müqəddəs ana,
And içəriz şəhid babam, ruhuna,
And içəriz haqsız tökülən qana,
Hər qısası alacağız biz yenə,
O yerlərə gələcəyiz biz yenə.

Leylam, sən həsrətsən can sirdaşına,
Ah nə fəalkətlər gəldi başına.
And içəriz sənin o göz yaşına.
Toy gününü görəcəyiz biz yenə,
Bu gün-yarın gələcəyiş biz yenə...

Yolumuzu min bir tufan kəssə də,
Zəhər saçan qorxunc rüzgar əssə də,
Aşacağız dağları bir nəfəsdə,
Çatmaq üçün böyük, müqəddəs günə,
O gündə ki, gələcəyiz biz yenə... (140)

ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. «Azərbaycan», jurnalı, Ankara, 1954, N9(33).
2. «Azərbaycan», jurnalıı, Münhen, 1952, N1.
3. «Azərbaycan», jurnalı, Münhen, 1952, N6-7.
4. «Azərbaycan», qəzet, Berlin, 1943, N32(60).
5. «Azərbaycan», qəzet, Berlin, 1943, N46(74).
6. «Azərbaycan», jurnal, Münhen, 1953, N10, s. 23-30.
7. «Azərbaycan», jurnal, Münhen, 1953, N11, s.27-29.
8. «Azərbaycan», jurnal, Münhen, 1953, N8, s. 3-10.
9. Azərbaycan Demokrat Birliyinin Azərbaycan legionerlərinə müraciəti. Münhen, 1946-cı il, Məhəmməd Kəngərlinin şəxsi arxivindən. Surəti müəllifdədir.
10. Alpaut Ə. Əbdürrəhman Fətəlibəyli. «Mücahid» jurnalı, İstanbul, 1961, N43-44.
11. Atamalıbəyov A. Çıxışının mətni. «Azərbaycan» qəzeti, Berlin, 1949, N46(47).
12. Bayramov X. Əbdürrəhman Düdənginski. «Meydan» qəzeti, Bakı, 1993, N24(41).
13. Bünyadov Z. Bərdəli Baharın açıq məktubuna cavab. «Oğuz eli» qəzeti, Bakı, 1992, N6.
14. Cahangir Kazımbəyin çıxışının mətni. «Azərbaycan» qəzeti, Berlin, 1943-cü il, N46(74), Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
15. Cəfərli M. Bolşevizm və faşizm arasında. «Azadlıq» qəzeti, 2000, N61(1570).
16. Cəfərli M. Bolşevizm və faşizm arasında. «Azadlıq» qəzeti, 2000, N65(1574).
17. Cəfərli M. Bolşevizm və faşizm arasında. «Azadlıq» qəzeti, 2000, N64(1573).

18. Cəfərli M. Legion ədəbiyyatı. Bakı, 2005-cü il
19. Əliyev Ə.Əlincə yaddaşı. Naxçıvan, 1914-1992. Bakı, 1997.
20. Əliyev C. Gizli müşavirə. «Ulduz» jurnalı, Bakı, 1988, №8 (257)bb, s. 70-87.
21. Əkbər İ.Amerikan Komitəsinin vitse-prezidenti Robert Kellə məktub. Azadlıq Radiosundakı verilişinin mətni. Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
22. Əflan M. Əbdürrəhman Fətəlibəyli. «Mücahid», İstanbul, 1961, N43-44, s. 13-14.
23. Fətəlibəyli Ə. Düdənginski. Ailəsinin və qohumlarının sürgünə göndərilməsi ilə bağlı sənədlər. Abid Qayıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
24. Fətəlibəyli Ə. Düdənginskinin İngiltərənin Baş Naziri K. Etliyə məktubu. Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
25. Fətəlibəyli Ə. Düdənginski. Azərbaycan xalqının böyük oğlu. «Azərbaycan» jurnalı, Münhen, 1952, N6-7, s. 6-7.
26. Fətəlibəyli Ə. Düdənginski. Kreml hürr dünyanın gözü önündə hürriyyət əleyhinə xalqlar konqresi çağırdı. «Azərbaycan» jurnalı, 1953, Münhen, N8, s. 26.
27. Fətəlibəyli Ə. Sovet-Fin hərbi. «Azərbaycan» jurnalı, Münhen, 1953, N10, s. 13.
28. Fətəlibəyli Ə. Düdənginski. Kommunizm utopiyadır. «Azərbaycan» jurnalı, Münhen, 1953, N11, s. 26.
29. Fətəlibəyli Ə. Düdənginski. General Biçeraxova açıq məktub. «Sabah» qəzeti, Bakı, 15. 30. 05, 1992.
30. Fətəlibəyli Ə. Milli Azərbaycan Qurultayındakı çıxışı. İ. Əkbərin «Azadlıq» Radiosundakı verilişində səsləndirilib. Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti

müəllifdədir.
31. Fətəlibəylinin qətli münasibəti ilə M. Ə. Rəsulzadənin nitqi. «Azərbaycan» jurnalı, Ankara, 1954, N9(33), s. 11-14.
32. Fətəlibəyli Ə. Düdənginskinin C. Hacıbəyliyə göndərdiyi 18.08.1954 tarixli məktub. Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
33. Fətəlibəylinin qətli münasibəti ilə «Azadlıq» Radiosunun matəm xəbəri. Ramiz Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
34. Fətəlibəylinin qətli münasibəti ilə M. Ə. Rəsulzadənin çıxışının mətni. A.Qayıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
35. Hafiz S. Əbo bəy kimdir? «Hikmət» qəzeti, Bakı, 1991, N10.
36. Hafiz S. Maarif Teymur. Əbdürrəhman bəy Düdənginski. «Mübarizə» qəzeti, Bakı, 1991, N 27(31).
37. İlkin Q. Nuru Paşa haqqında həqiqətlər. «Günay» qəzeti, Bakı, 1995, N51.
38. İbrahimli X. Məni danışdırın, ürəyimi sizə açaram. «Yeni Müsavat» qəzeti, Bakı, 1993, N27.
39. İbrahimli X. Azərbaycan Siyasi Mühacirəti (1920-1991). Bakı, Elm, 1996, s. 304.
40. İsgəndəroğlu. İkinci Dünya müharibəsində Qafqasya könüllüləri. «Qafqasya» jurnalı, Münhen, 1952, N6-8, s. 25-26.
41. İkinci Dünya müharibəsində alman bayrağı altında olan gürcülər. Tbilisi, 1994, s. 591 (Gürcü dilində).
42. «Kavkasya», jurnal, Münhen, 1952, N9.
43. «Kavkasya», jurnal, Münhen, 1952, N11-12.
44. Kəngərli M. Azərbaycan Kültür Dərnəyinin Ankarada 1954-cü ilin dekabrın 19-da, Ə. Fətəlibəylinin matəmi

münasibəti ilə keçirdiyi toplantıdakı nitqinin mətni. Ramiz Abutalıbovun şəxsi arxivi. Mətnin surəti müəllifdədir.

45. Qayıbov A. Xatirələrim. «Azərbaycan Ordusu» qəzeti, Bakı, 1993, N16.

46. Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, Qanun, 1998, s. 356.

47. Qurban T. Əsirlikdə görüş. «Dalğa» qəzeti, Bakı, 25. 12.1990.

48. Rana. Onlar türklərdir. Bakı, Azərnəşr, 1993, s.128.

49. «Sərhəd», qəzet, Bakı, xüsusi buraxılış, dekabr, 2000-ci il, N2-3.

50. Sultanlı V. Azərbaycan Mühacirət ədəbiyyatı, Bakı, Şirvannəşr, 1998.

51. Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, Ay-Ulduz, 1997, s. 327.

52. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə. Bakı, Gənclik, 1991, s. 308.

53. Yaqublu N. Ağrılı ömürlər. Bakı, Yazıçı, 1990, s. 272.

54. Yaqublu N. Hitler onu tanıyırdı. «Səhər» qəzeti, Bakı, 1992, N88(375).

55. Yaqublu N. Hitlerlə üz-üzə. «Aydınlıq» qəzeti, Bakı, 1991, N19(41).

56. Yaqublu N. Mayor Fətəlibəyli Düdənginski. «Azərbaycan» qəzeti, Bakı, 1992, N6(121).

57. Yaqublu N. Azərbaycan legionerləri. BDU, 2002, s.307.

Rus dilində:

58. Авторханов А.Старайся снискать себе чистое имя и уважение. Газета, «Бакинский рабочий», Баку, 1993, N42(22552).

59. Авторханов А. Мой друг Фаталибейли, каким его знал? Журнал «Восточный експресс», Москва, 1994,

N1(2), с. 2-4.

60. Атабек Шамил. Фаталибейли во время 2-й мировой войны. Журнал «Азербайджан», Мюнхен, 1952, N2, с. 61-62.

61. Абуталыбов Р. Свои среди чужих, чужие среди своих, Москва, 2007, 40 с.

62. «Азербайджан», журнал, Мюнхен, 1952, N4.

63. «Азербайджан», журнал, Мюнхен, 1952, N3.

64. «Азербайджан», журнал, Мюнхен, 1953, N10.

65. «Азербайджан», журнал, Мюнхен, 1951, N1.

66. Берлинская (Потсдамская) Конференция руководителей трех союзных держав - СССР, США и Велико Британии (17 июль-2 август 1945 г.). Москва, Политическая литература, 1984.

67. Борисов А. Незабываемые договоренности (к 40-летию Ялтинской и Потсдамской конференций), Москва, Знание, 1985, 64 с.

68. В диапазоне современности. Москва, Искусство, 1985, 332 с.

69. Галкин А.А.Германский фашизи. Москва, Наука, 1989, 370 с.

70. Гусейнбейли А. Эмигранты, Баку, 1994 г.

71. Государственный Архив Российской Федерации (ГАРФ). Фонд 5796 (Юго-восточное отделение Объединения русских воинских союзов, 1939-1945 гг). Опись 1, дело 21, фонд 5761 (Общеказачье Объеди-нения в Германской империи, 1939-1945 гг). Опись 1, дело 9, 10, 12, 13,14, 16, фонд 5853 (А. А. фонд Лампе, 1920-1945 гг). Опись 1, дело 70.

72. Дугас И.А., Черон Ф.Я.Вычеркнутые из памяти: советские военнопленные между Гитлером и Сталиным. Париж, Имма-Прес, 1994, 433 с.

73. Дробязко С.И. Вторая Мировая война 1939-1945.

Русская освободительная армия. Москва, АСТ, 1998, 45 с.

74. Дробязко С.И. Вторая Мировая война 1939-1945. Восточные легионы и казачьи части в Вермахте. Москва, АСТ, 1999, 46 с.

75. Исазаде Н. Адюдант его превосходительства. Газета «Зеркало», Баку, 1996, N25.

76. История СССР. Москва, Высшая Школа, 1985, с. 435.

77. «Известия», газета, Москва, 23. 2. 1941.

78. Кершоу Я. Гитлер. Ростов - на Дону. Феникс, 1997, 314 с.

79. Красная книга ВЧК. Т. 1, Москва, изд. Политическая литература, 1990, 415 с.

80. Красная книга ВЧК. Т. 1, Москва, изд. Политическая литература, 1990, 420 с.

81. Летопись Внешней Политики СССР 1917-1978 г. Москва, Политическая литература, 1978, 367 с.

82. Метлдисон Девид. Иностранные легионы на службе у третьего Рейха. США, 1987.

83. Международные акты и правах человека. Москва, Норма-Инфра, 1998.

84. Михайлов В., Неотвротимое возмездие. Москва, 1973, 349 с.

85. «Московские Новости», газета, Москва, 1990, N41.

86. Московская Конференция Министров Иностранных дел СССР, США и Велико Британии (19-30 октябр, 1943 гг). Т. 1, Москва, Политическая Литература, 1984.

87. Млечин Л. Власов и власовцы. Журнал «Новое время», Москва, 1990, N43, с. 36-40.

88. Народный подвиг в битве за Кавказ. Сборник статей, Москва, Наука, 1981, 408 с.

89. Николаев С. Что кроется за «формулой самооправдания». Газета «Голос Родины», Москва, 1970, N8.

90. Нюрнбергский процесс. Т.1. Москва, Юридическая Литература, 1987, 688 с.
91. Нюрнбергский процесс. Т.2. Москва, Юридическая Литература, 1988, 672 с.
92. Нюрнбергский процесс. Т.3. Москва, Юридическая Литература, 1987, 303 с.
93. Огин П. Командир передового дивизии. Газета, Правда, 1940, N237.
94. Оджагова Я. Ничто не забыто, никто не забыт. «Неделя», газета, Баку, 19.11.1999.
95. Переписка Председателья Совета Министров СССР с президентами США и Премер министрами Велико Британии во время Великой Отечественной войны 1941-1945 гг. Переписка с У. Черчиллем и К. Эттли. Т.1, Москва, Политическая Литература, 1989.
96. Рафиев Б. Девять казненных. «Зеркало», газета, Баку, 1996, N49.
97. Райх В. Психология масс и фашизма. Санкт-Петербург, 1997, 91 с.
98. Рафаил Н. Профессия предатель. «Бакинский рабочий», газета, Баку, 1981, N250(19278).
99. Расы и народы. Ежегодник, Москва, 1978, N8.
100. Руге В. Как Гитлер пришёл к власти. Москва, Мысль, 1985, 320 с.
101. Риббентроп И. Ф. Мемуары нацистского дипломата. Москва, Мысль, 1998, 448 с.
102. Российский центр хранения и изучения документов новейшей истории (РЦХИДНИ). Фонд 69 (Центральный штаб партизанского движения (ЦЕПД), 1942-1944 гг.). Опись 1, дело: 740, 742, 746-750, 826, 849, 850, 853, 862, 909, 910, 912-914, 925, 945, 946, 984, 986, 1026, 1029, 1031, 1045-1049, 1076.
103. Советский Энциклопедический Словарь. Москва, Советская Энциклопедия, 1980, 450 с.

104. Суворов В. Ледокол. Москва, 2000, 432 с.
105. Суворов В. День. Москва, АСТ, 2000, 426 с.
106. Солженицын А. Архипелаг ГУЛАГ. Т. 6, Москва, Мыком НВ, 1997, 574 с.
107. Солженицын А. Архипелаг ГУЛАГ. Т. 7, Москва, Мыком НВ, 1991, 525 с.
108. «Сигнал», газета, Берлин, 1944, N12.
109. Теплюков С. По ту сторону фронта. Московские Новости. Москва, 1990, N19.
110. Токарев К. Приговор. «Комсомольская Правда», газета, 03. 03. 1988.
111. Фаталибейли А. Дуденгински. Психологическая война против СССР. «Азербайджан», журнал, 1952, Мюнхен, N4, с. 22.
112. Фаталибейли А. Дуденгински. Провал Советской агрессии в Корее. «Азербайджан», журнал, 1952, Мюнхен, N3, с. 3.
113. Фаталибейли А. Дуденгински. Может ли коммунизм обеспечить жизнь народам? «Азербайджан», журнал, 1952, Мюнхен, N4, с. 24.
114. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 05.12.1947. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.
115. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 29. 10. 1950. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.
116. Фаталибейли А. Дуденгински. Текст передачи на Радио «Свобода» 1953 г. Номер передачи: Б-2931. Из личного архива Абида Гаибова. Копия документа у автора.
117. Фаталибейли А. Дуденгински. Последние новости, Радио «Свобода», ред. Азербайджан. 29 июн, бюллетен N109. Из личного архива Абида Гаибова. Копия документа у автора.

118. Фаталибейли А. Дуденгински. О единой антиболешвийскои фронте. «Азербайджан», журнал, Мюнхен, 1952, N2, с. 6.

119. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. 27. 03. 1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

120. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 19.04.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

121. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 17.05.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

122. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 11.05.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

123. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

124. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора.

125. Фаталибейли А. Дуденгински. Письмо премер министру К. Эттлу. Из личного архива Р. Абуталыбова. Копия письма у автора.

126. Хоффман Й. История власовской армии. Париж, Имка-Пресс, 1990, 382 с.

127. Черная Л. Коричневые диктаторы. Ростов на Дону. Феникс, 1999.

128. Центр хранения историко документальных коллекций (ЦИДК). Фонд 1303 (Военные и военно-строительные учреждения Германии, 1942-1944 гг.). Опись 3, дела: 51, 54, 58. Опись 4, дело 10.

128.a. Центральный архив Министерства Обороны Рос-

сийской Федерации (ЦАМО РФ). Фонд 32 (Главное политическое управление Красной Армии, 1941-1945 гг.). Опись 795436. Дело 1, опись 11306. Дела: 98, 230, 231. Опись 176495. Дело 378. Фонд 303 (Полевое управление 2-й гвардийской армии. Опись 4007, дело 21. Фонд 361 (Полевое управление 13-й армии, 1941-1945 гг.). Опись 6079. Дело 209. Фонд 388 (Полевое управление 33-й армии, 1941-1945 гг.). Опись 8712. Дело 1114. Опись 8714. Дело 134. Фонд 407 (Полевое управление 51-й армии, 1941-1945 гг.). Опись 9839. Дело 39. Фонд 422 (Полевое управление 65-й армии, 1941-1945 гг.). Опись 10510. Дело 118. Фонд 426 (Полевое управление 69-й армии, 1942-1945 гг.). Опись 10765, дело 13.

129. Штрик-Штрикфельдт. Против Сталина и Гитлера, (Ге-нерал Власов и Русское Освободительное Движение). Москва, Посев, 1993, 447 с.

Xarici ədəbiyyat

130. Ali Nussein. Wer hat den Mord bestellt? Abendzeitunq, Munhen, 1954, N282.

131. Adolf Nitler. Kavgani. Istanbul, Toker yayinlari, 1989, s. 727.

132. Burhan Oguz. Üuzyillar boyunca Alman Gercegi ve Turkler. Istanbul, 1983.

133. Cengiz Ozakinci. Irtica 1945-1999. Istanbul, 1999, s. 319.

134. Der Stern. Munhen, 1954, N51.

135. Noffmann L. Die Kaukasien 1942-1943: Das deutsche Neer and die Ostrolker der Sowyetunion. Freiburg: Rombach, 1991, 530 s.

136. Noffmann L. Die Ostlegionen 1941-1943: Turkotataren, Kaukasier und Wolgafinen im deutschen Neer. Freiburg: Rombach, 1976, 197 s.

137. Muhlen Patrik fon Zur. Camali Xac ile Qizil ulduz arasinda. Ankara, 1984, s. 264.
138. Nehmet S. Azerbaycanli Kurmay minbaşı. Turk yolu, Istanbul, 1955, N7.
139. OUICK. Munchen, 1954, N50.
140. «Türk Yolu», jurnal, İstanbul, 1955, N7.
141. Təkinər S. Ə. Fətəlibəylinin xatirəsinə həsr olunmuş çıxışı. R. Abutalıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.

ƏLAVƏLƏR:

FOTOLAR, SƏNƏDLƏR

NƏSİMAN YAQUBLU
(Nəsiman Qara Oğlu Yaqublu)

Əbdürrəhman Fətəlibəyli-Düdənginski

Dizayner və tərtibatçı:
Sənan Güləliyev

Korrektor:
İradə Quliyeva

Yığıcı:
Nəzakət Muradova

Sayı: 500 (təkrar nəşr)

Qeydlər